# Azərbaycan Millətşünaslığına Giriş

Orxan Vəliyev

***Ali məktəblər üçün dərs vəsaiti***

*Xəzər Universitetinin 29 fevral 2024-cü il tarixində keçirilən Elmi Şurasının 3/23-24 saylı iclasının qərarıyla dərs vəsaiti olaraq çap olunmuşdur.*

**BAKI 2024**

**© Orxan Vəliyev, 2024**

Bütün haqları qorunur

**Elmi redaktorlar:** **Prof. Bünyamin Bezci**
**Dr. Araz Aslanlı**

**Rəyçilər:** **beynəxalq münasibətlər üzrə fəlsəfə doktoru, Cavid Vəliyev,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru, Hüseynov Vasif**
**sosiologiya üzrə fəlsəfə doktoru, Dos. Handan Akyiğit**
**siyasi elmlər üzrə fəlsəfə doktoru, Ensar Kıvrak**

**Orxan Vəliyev - Azərbaycan millətşünaslığına giriş; Ali məktəblər üçün dərs vəsaiti; Xəzər Universiteti Nəşriyyatı; 139 səh., Bakı 2024.**

Dərs vəsaiti Azərbaycan millətşünaslığının başlanğıç mərhələsini əhatə edir. Belə ki, Çarlıq dövründən başlayaraq Cümhuriyyətə qədərki dövr konteksində millətşünaslıq təhlil edilmişdir. Əlavə olaraq Azərbaycanda millətşünaslıq tədqiqatının əsas anlayışları; Türkçülük, Azərbaycançılıq, və ilk dəfə olaraq Azərbaycan millətçiliyi də dərs vəsaitində yer almışdır.

Dərs vəsaiti universitet tələbələri və millətşünaslıq sahəsində tədqiqat aparanlar üçün nəzərdə tutulmuşdur.

**ISBN: 978-9952-20-184-0**

# İÇİNDƏKİLƏR


ÖN SÖZ ........................................................................ 7

BİRİNCİ FƏSİL Millətçilik ........................................................ 8

1.1. Millətçiliyin yaranması ..................................................... 8

1.2. Millətçilik nəzəriyyələri ................................................... 13

***1.2.1. Modernist nəzəriyyə*** ................................................... 14

***1.2.2. Etno-simvolist nəzəriyyə*** .............................................. 18

**1.3. Miroslav Hroxun "kiçik millət" modeli** ...................................... 19

***1.3.1. Kiçik millətlər*** ........................................................ 20

***1.3.2. Milli canlanma*** ......................................................... 22

***1.3.3. Milli hərəkatın dövrlərə ayrılması*** ..................................... 24

***1.3.4. Siyasi tələb və müstəqillik*** ............................................ 27

İKİNCİ FƏSİL ................................................................... 31

Millətquruculuğunun A Mərhələsi .................................................. 31

2.1. Kolonialist modernizasiya ................................................... 31

2.2. Millət quruculuğunun A mərhələsində modern tarixin formalaşması32

2.3. Millətquruculuğunun A mərhələsində Əlifba İslahatı ............................ 34

2.4. Axundzadənin maarifçi fikirlərinin millətləşməyə təsiri ....................... 41

ÜÇÜNCÜ FƏSİL ................................................................... 46

Millətquruculuğunun B Mərhələsi .................................................. 46

3.1.Milli oyanışda ziyalıların rolu ............................................... 46

***3.1.1. Milli burjuaziya və millətçi ziyalılar*** ................................ 48

3.2.Milli şüurun formalaşmasında mətbuatın rolu .................................. 53

3.3.Yenilikçi məktəblər və modern təhsil .......................................... 58

3.4.Vətən anlayışının formalaşması ........................................................ 61

3.5.Əli bəy Hüseynzadə və B mərhələsində romantik türkçülük .............. 70

***3.6.Hüseynzadədə Tarix Problemi*** ........................................................ 79

DÖRDÜNCÜ FƏSİL ........................................................................ 84

Millətquruculuğunun C Mərhələsi ................................................ 84

4.1. Millətçiliyin yaxud siyasi tələbin ortaya çıxması ................................ 84

4.2. Azərbaycançılıq və milli ideal ................................................................ 88

*4.3. C mərhələsində millət anlayışı* .................................................................. 90

*4.4. C mərhələsində tarix problemi* .................................................................. 94

*4.5. C mərhələsində milli dil problemi* ............................................................ 97

4.6. Milli hərəkatın siyasi hədəfinin formalaşması ....................................... 99

4.7. Zaqafqaziya Federasiyası: müstəqilliyə yaxud öz müqəddəratını təyin haqqına doğru ilk addım ........................................................ 103

4.8. Cümhuriyyət: milləti olmayan modern dövlət ................................... 111

BEŞİNCİ FƏSİL ............................................................................ 121

Azərbaycan millətşünaslığının əsas anlayışları ................................ 121

Türkçülük ............................................................................................ 121

Azərbaycançılıq ................................................................................... 123

Azərbaycan millətçiliyi ...................................................................... 124

İstifadə Olunan Ədəbiyyat ................................................................. 130

**Orxan Vəliyev (Dr.)** 22 aprel 1987-ci ildə dünyaya gəlib. 2005-ci ildə orta təhsilini tamamladıqdan sonra 2009-cu ildə Bakı Dövlət Universiteti Fəlsəfə kafedrasından bakalavr dərəcəsi alıb. 2012-2014-cü illərdə Dövlət İdarəçilik Akademiyası Politologiya kafedrasında magistr təhsili alıb. 2014-cü ildə doktorantura təhsili üçün Türkiyənin dövlət təqaüdünü qazanıb. 2015-ci ildə başladığı doktorantura təhsilini 20.07.2020-ci il tarixində Sakarya Universiteti Siyasi Elmlər Fakültəsi, Sosial Elmlər İnstitutu, siyasi elm və dövlət idarəçiliyi kafedrasında "Çarlıq Dövrü Azərbaycanının Millətləşmə Prosesi: 1850-1920" mövzusunda elmi işini yekdilliklə müdafiə edərək siyasi elmlər üzrə fəlsəfə doktorluğu dərəcəsini almağa haqq qazanıb. Pedagoji fəaliyyətə 2018-2019 tədris ilində Qərbi Kaspi Universiteti Politologiya və Beynəlxalq Münasibətlər kafedrasında başlayıb.

11.02.2021-11.05.2021 tarixlərində Türkiyə Respublikasının postdoktora təqaüdünü qazanaraq Trakya Universiteti İnsan və Toplum Bilimləri kafedrasında "Tarix və Bilig: Azərbaycan Millətçiliyinin Epistemik Təhlili" mövzusunda tədqiqat aparmışdır. 2021-2022 tədris ilində Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında yarım ştat müəllim; 2021-06.01.2023-cü il tarixlərində Qərbi Kaspi Universiteti Politologiya və Beynəlxalq Münasibətlər kafedrasında ştat müəllimi olaraq çalışmışdır. 09.01.2023-cü il tarixdən Xəzər Universiteti siyasi elmlər və fəlsəfə departamentində ştat müəllimi olaraq çalışmağa başlamışdır. 01.02.2023-cü il tarixdən Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri; 01.03.2023-cü il tarixdən isə Khazar Journal of Humanities and Social Sciences jurnalının redaktor müavini olaraq çalışmağa başlamışdır.

Türk və ingilis dillərini bilir.

# ÖN SÖZ

Millətlər və millətçilik son iki əsrdir ki, dünya siyasətinin gündəliyində aparıcı yer tutmağa nail olublər. Hətta modern dünyanın siyasi inşasının millətlər və millətçilik tərəfindən icra edildiyini ifadə etmək mümkündür. Ancaq millətlərin və millətçiliyin ortaya çıxması ölkə və reqion konteksindən asılı olaraq fərqlilik göstərmişdir. Millətçiliklə bağlı akademik tədqiqatların ortaya çıxması isə ötən əsrin ikinci yarısından sonraya təsadüf etmişdir. Yirminci əsrin sonlarından etibarən isə "millətşünaslıq" kimi ayrıca bir disiplin kimi qəbul edilməyə başlanmışdır. Bu gün artıq millətşünaslıqla bağlı tədqiqatlar fəlsəfə, siyasət elmi, sosiologiya və tarix kimi müxtəlif disiplinləri əhatə edir.

Azərbaycanda modern milli fikrin ortaya çıxması on doqquzuncu əsrin sonlarından etibarən Çarlığın müstəmləkə dövründə başlamış və başda mətbuat olmaqla müxtəlif məcralarda inkişaf etmişdir. Bununla bərabər Azərbaycanda millətşünaslıq tədqiqatları olduqca yenidir. Bu sahədə ali məkltəblərdə ayrıca tədrisin aparılması da hələlik mümkün görünmür.

Azərbaycan millətşünaslığına giriş dərs vəsaiti "Azərbaycan siyasi təlimlər tarixi" fənni üçün nəzərdə tutulmuşdur. Dərs vəsaitində modern Azərbaycan millət və dövlət inşasının əsasən cümhuriyyətə qədər olan hissəsi yazılmışdır. Bununla bərabər kitabın ilk fəslində millətçiliyin ortaya çıxması və millətçilik nəzəriyyələrinə yer verilmişdir. Son fəsildə isə türkçülük, Azərbaycançılıq kimi Azərbaycanda millətçiliyin əsas anlayışlarına qısa yer verilməklə yanaşı, ilk dəfə Azərbaycan millətçiliyi anlayışı da izah edilmişdir.

s.e.ü.f.d. Orxan Vəliyev
Xəzər Universiteti
Siyasi elmlər və fəlsəfə departamenti
Bakı, 2024

# BİRİNCİ FƏSİL
# Millətçilik

## 1.1. Millətçiliyin yaranması

Millətçilik uzun semantik çevrilmənin nəticəsində və təsadüfən ortaya çıxmışdır (Greenfeld, 2019: 13). Bu mənada millətlərin və ya milli kimliklərin formalaşmasının müəyyən mənada status uyğunsuzluğundan qaynaqlandığını demək mümkündür. Məsələn, Fransada millətçiliyin formalaşmasını tezləşdirən hadisə ənənəvi cəmiyyətdən gələn şikayətlərlə başlamışdır. Burada millətçilik mütləqiyyətə qarşı zadəganların istifadə etdiyi bir tərz olaraq qarşımıza çıxmaqdadır. Qısası, Fransız Burjua İnqilabı feodal reaksiyanın bir nəticəsi olaraq ortaya çıxmış və zadəganlığı yox etmişdir. Digər tərəfdən millət fikrinin modern anlamda ilk olaraq ingilislər tərəfindən istehsal edildiyi də deyilə bilər. Belə ki, parlament tərəfindən iqtidara məhdudiyyət gətirildiyindən millət sədaqətin mərkəzi, həm də hakimiyyətin daşıyıcısı olaraq kraldan daha təsirli olmuşdur. Rusiyada da milli kimlik aristokratiya içərisində status uyğunsuzluğu səbəbindən meydana çıxmışdır. Lakin fransız, ingilis, rus millətçiliyinin əksinə, alman millətçiliyinin formalaşmasında aristokratiyadan əlavə, orta sinfə mənsub intellektuallar müəyyənedici olmuşdur. Ancaq Fransa qarşısındakı məğlubiyyətə qədər millətçi təmayül hakim olmamış və ya ola bilməmişdir. Qısası, yayğın olan fikrin ək-sinə, millətçiliyin cəmiyyətdən cəmiyyətə fərqli olduğunu görə bilərik (Greenfeld, 2006: 71-76).

Liya Qrinfeld (1954-) "Millətçilik" (1992) kitabının türkcə nəşri üçün yazmış olduğu ön sözdə (2017) millətçiliyin modern siyasətin yol göstəricisi olduğunu ifadə etmiş və modern insana xas olan millətçiliyin nə zaman bitəcəyinin bilinmədiyini irəli sürmüşdür (Greenfeld, 2017: 13). Hanna Arendt (1906-1975) də "Millət" (1946) məqaləsində müasir dövrdə siyasi reallığın millət və millətçilik fenomenləri tərəfindən

müəyyən edildiyini bildirmişdir (Arendt, 2014: 299).[1] Beləliklə, millətçiliyin modern insanın problemi olduğunu və modernləşmənin siyasi nəticəsinin də millətçi/milli "siyasi gövdə" olduğunu demək mümkündür.

Millətçiliyin yaranmasını birbaşa düşüncədə (Alman romantizmində) axtaran Eli Keduri (1926-1992) millətçiliyin nə olduğunu "Avropada millətçilik" (1960) adlı əsərində belə ifadə etmişdir: *"Millətçilik coğrafi olaraq Avropada ortaya (XIX əsr) çıxmış modern doktrinadır. Millətçiliyin insanlığı millətlərlə bölünmüş olaraq təxəyyül etdiyinə görədir ki, dövlət və dövlətlər sistemini də millət prinsipinə görə təşkil etmək iddiasındadır. Xülasə, millətçiliyə görə modern sistemdə legitimliyin qaynağı sadəcə millətlərdir (Kedourie, 1971: 1)".*

Bu cəhətdən baxdıqda, millətçiliyin və millətin dəqiq ortaya çıxış tarixi məsələsində fərqli fikirlər olmaqla bərabər, millətçiliyin modern mədəniyyət olduğu deyilə bilər (Greenfeld, 2005: 326).

Millətçilik XVIII və XIX əsrlərdə ortaya çıxmaqla bərabər, millətçilik haqqındakı akademik fəaliyyətlər ümumilikdə XX əsrə təsadüf etməkdədir. Xüsusilə, İkinci Dünya müharibəsindən sonra millətçilik haqqındakı akademik araşdırmalarda artım görünməkdədir. Bu araşdırmalar ilkçilər, modernistlər və etnosimvolçular[2] olaraq təsnif edilməkdədir və araşdırmalar içərisində modernist baxış önə çıxmaqdadır (Özkırımlı, 2008: 9-81).

Aparılan araşdırmalara əsaslanaraq millətçilik təməl xüsusiyyətlərinin içərisində bir millət[3] fikrinin yatdığını demək olar (Greenfeld,

---

[1] Arendt bu yazıda milləti və millətçiliyi tənqidi perspektivdən araşdırmışdır. Ətraflı məlumat üçün baxın: Hannah Arendt, (2014). Formasyon, Sürgün, Totalitarizm. Tərc. İbrahim Yıldız. Ankara: Dipnot. 298-305.

[2] İlkçi (primordialist) nəzəriyyə: Umut Özkırımlı, (2015). Milliyetçilik Kuramları, Ankara: Doğu Batı. S. 79-102; Sadri Maksudi Arsal, (1975). Milliyet Duygusunun Sosyolojik Esasları. İstanbul: Ötüken Yayınevi. s. 129-140; Etnosembolçü kuram: Anthony Smith, (2002). Ulusların Etnik Kökeni, Ankara: Dost; (Edit). Athena S. Leossi and Steven Grosby, (2007). Edinburgh: Edinburgh University Press. Modernist kuram: Ernest Gellner, (1983). Nations and Nationalism, Ocford: Blackwell Publishers; Ernest Gellner, (2009). Milliyetçiliğe Bakmak, İstanbul: İletişim Yayınları; Benedict Anderson, (2015). Hayali Cemaatler, İstanbul: Metis Yayınları; E. J. Hobsbawm, (1992). Nations and Nationalism since 1870, Cambridge: Cambrid-ge University Press.

[3] Millət anlayışı doğulan bir şey" mənasındakı latınca "natio"ya dayanmaqdadır. Ətraflı məlumat üçün baxın: Liah Greenfield, (2017). Milliyetçilik. Tərc. Abdullah Yılmaz. İstanbul: Al-fa. s. 19-52.

2017: 20). Yəni modernistlərin ifadəsi ilə millətçiliyin keçmişin/tarixin indi tərəfindən istifadə olunması və ya tarixin indi tərəfindən istifadə edilməsinin və ya bu gündən keçmişə gedilmənin nəticəsi olduğu deyilə bilər (Özkırımlı, 2010: 34; Balibar, 2013: 108). Millətçilik araşdırmalarında təsirli olan modernist məktəbə görə millət və ya milli kimlik "konstruktiv, nəzarət edilən və koordinasiya edilən"dir (Kaufmann, 2016: 6).

Benedikt Anderson isə "Xəyali icmalar" adlı əsərində millət və millətçiliyin modern anlayış olduğunu belə ifadə etməkdədir: "Millətlər bir təxəyyülün (xəyalın) nəticəsi olaraq meydana çıxmışdır. Eyni zamanda millətlər suverenliyə sahib məfhumdurlar. Xəyal edilmiş millətin mənsubları bir-birilərini görmədən və ya görmə ehtiyacı hiss etmədən eyni toplumsallıq təxəyyülünü zehinlərində yaşada bilməkdədirlər" (Ander-son, 2017: 20).

Digər tərəfdən Qrinfeld "Millətçilik" (1992) adlı əsərində millətçiliyi və milləti modern anlayış olaraq qələmə verməklə bərabər, bu anlayışı daha detallı incələmişdir. Belə ki, millət anlayışının bir söz kimi mənaca dəyişməsinə (Greenfeld, 2017: 22) önəm vermişdir. Anderson bu çevrilməni antoloji transformasiya (Anderson, 2017: 51) olaraq qiymətləndirmişdir. Quido Zernatto isə "Millət: Bir sözün tarixi" (1944) adlı məqaləsində millət kəlməsi ilə əlaqəli sözlərin zaman və məkanla əlaqədar meydana çıxmış çevrilmələrinə əsaslanaraq fərqli/yeni mənalar ifadə edə biləcəyini irəli sürmüşdür (Zernatto, 2010 (1944): 13). Qısası, millət anlayışının modern mənası uzun transformasiyanın nəticəsində mümkün olmuşdur (Baxın: Şəkil: 1).

Bu mənada millətçiliyin intellektual fəaliyyətin, yəni düşünmənin məhsulu olmaqdan əlavə, inşanın (konstruksiyanın) (Arendt, 2011: 391) məhsulu olduğu deyilə bilər. Millət dəyişməyən fenomen olmaqdan əlavə, inşa edilən fenomen (Nietzche, 2015: 170) olaraq ortaya çıxmışdır. Buna görə də, Nitşe Avropada modern dövrdə formalaşan və adına millət deyilən şeyin "doğulan" (resnate) bir şeydən daha çox qurulan (resfacto) bir şey olduğunu irəli sürmüşdür (Nietzsche, 2015: 177). Bu iddiaların doğru olduğunu demək mümkündür. "Siyasi gövdə" tarixin boyunca fəlsəfədən başqa, tarixin özündən də bəslənmişdir. Belə ki, intellektual dərinliyin və ya fəaliyyətin bir nəticəsinin olmaması "təbii" hadisə olaraq dəyərləndirilə bilər. Çünki Afinada "siyasi gövdə" afinalı ola bilənləri maraqlandıran məsələ olduğu halda, modern dövlətlərdə

isə milləti və ya vətəndaşları maraqlandıran məsələ olaraq meydana çıxmışdır. Bu halda, millətçiliyin fəlsəfi mahiyyətə sahib olub-olmadığı davamlı müzakirə olmaqdadır. Çünki millətçiliyin kosmopolit diskursu mənimsəyib-mənimsəmədiyi və ya niyə mənimsəmədiyi maraq mərkəzində olmuşdur. Bu çərçivədə Ros Pul millətçilik və fəlsəfə arasında əlaqənin olmadığına diqqət çəkmiş və modern filosofların millətçiliyə maraq duymadıqlarını "Əxlaq və modernlik" (1991) adlı əsərində belə ifadə etmişdir: *"Modern fəlsəfənin yerliliklə əlaqəsi olmamışdır. Çünki fəlsəfə təbiəti etibarı ilə kosmopolitizmə daha yaxın olmuşdur. Bu səbəblə fəlsəfə ilə bir əlaqəsi olmayan millətçilik asanlıqla şüurdan kənar şey kimi qəbul edildi və ya hesab edildi" (*Poole*, 1993: 129).*

Bununla bərabər, millətçiliyin fəlsəfə ilə əlaqəsinin olmadığını əsaslandıran Pul millətçiliyi liberalizmlə də müqayisə edərək millətçiliyin daha dayanıqlı olduğunu da irəli sürmüş və səbəblərini belə açıqlamışdır: *"Fəlsəfi axın olan liberal düşüncə dəyərlərdən təmizlənmiş və ya məhrum cəmiyyət xəyal etmiş və dəyərlərin yaradılmasını isə fərdin öhdəsinə buraxmışdır. Bu halda liberalizmin fərdə qarşı söykənə biləcəyi dəyərlər sisteminin olmadığı ortaya çıxmaqdadır. Digər tərəfdən, millətçiliyin təklif etdiyi toplumsallıq anlayışı isə fərdin səndələdiyi zaman söykənə biləcəyi dəyərlərdən formalaşmaqdadır. Bu toplumsallıq və ya ictimai dünya icması olaraq tərif edilə bilər. İcmaya aidiyyat isə fərdin özünü camaatla əlaqəli xəyal etməsidir" (*Poole*, 1993: 129).*

Fəlsəfə fərdlə əlaqəli hadisə olduğu halda siyasət (bizim əsərimizdə millətçilik) cəmiyyətlə əlaqəli olduğundan ictimai sistem ortaqlıq qurmaq məqsədi daşıyır. Bu kontekstdə millətçiliyin fəlsəfədən başqa, tarix və ya tarix dizaynı ilə əlaqəli olduğunu ifadə etmək mümkündür. Bir sözlə, modernliyin nəticəsi olan millətçilik və millət fərdlərin cəmiyyətindən yola çıxıb formalaşmaqla bərabər, fərd və insandan daha dəyərli mahiyyət ifadə etdiyini (Özkırımlı, 2008: 12), millətçiliyin özündə isə bir millət düşüncəsinin yatdığını görmək olar. Modern dövrdə iyerarxiyaya əsaslanan qədim cəmiyyətin yerini artıq millətçilik prinsipinə əsaslanan bərabərlikçi cəmiyyətin aldığını demək mümkündür. "Modern siyasi sistemin təməl çərçivəsi (millətlərlə bölünmüş dünya) millətçi təxəyyülün reallaşmasından başqa bir şey deyildir; bu dünyanı yaradan millətçilikdir" (Greenfeld, 2017: 21, 729, 731).




***Şəkil 1: Millət anlayışının semantik təkamülü***

*Mənbə: Liah* Greenfeld, *(2017). Milliyetçilik.*
*Tərc. Abdullah Yılmaz. İstanbul: Alfa. s. 28.*

*Beləcə, sxolastik qərb dünyasında aşağı təbəqəni yada salan "natio" anlayışının Qrinfeldin müəyyən etdiyi forması ilə "hakimiyyətin daşıyıcısı, sədaqətin mərkəzi əsası və kollektiv həmrəylik olaraq görülən" xalq olaraq qəbulu birbaşa məna çevrilməsinin nəticəsində reallaşmışdır. Bu kontekstdə Qrinfeld beş millətçilik növünü araşdırdığı əsərində millətçiliyin "status axtarışı" olduğunu bildirmişdir. Bununla bərabər, statusun əldə edilməsi, yaranması hər cəmiyyətin öz dinamiklərinə görə reallaşmışdır. Bu səbəblə "ingilis aristokratiyası statusu haqlı çıxarmaq, fransız və rus zadəganları qorumaq, alman intellektualları onu yaratmaq istəyirdi" (Greenfeld, 2017: 19, 730).* Beləliklə, modern "siyasi gövdə"nin legitimliyi millətlərə əsaslanaraq olmuşdur.

Millətçilik modern siyasi kimliyin (millətin) formalaşmasında da həlledicidir. Çünki millətçilik yeni ifadə olmaqla bərabər, millət (Baxın: Şəkil: 1) qədim sözdür (Kalhaun, 2009: 13). Beləcə, millətçilik insanın "modernlik" tərəfindən siyasi olaraq tərif edilməsidir. Qısası, millətçiliyin/millətin yaranma tarixi müəyyən, amma sonlanma tarixi hələ ki proqnoz edilməyən (çünki hələ də millətçi dünyada yaşamaqdayıq) fenomen olduğu deyilə bilər.

## 1.2. Millətçilik nəzəriyyələri

"Millətlər" insanlığın son "inkişaf" mərhələsi olduğu fikri (Ülken, 2016a: 161; Renan, 1882, Tərcümə 2016: 34) eyni zamanda tarixin anlamını və əhəmiyyətini də önə çıxarmaqdadır. Yəni millətlərin var olmasında tarix – hər nə qədər Renan millətlərin özlərini inşa etməsində tarixə önəm verməsə də – əsas lövhədə öz yerini almışdır. Millətçilər millətin formalaşmasında, əsasən, təməl elementlərdən gördükləri dili tarix düzəltmək üçün istifadə etmişlər. Tarix dövlətin ehtiyac duyduğu millətin inşa edilməsində dominant bir element olaraq yerini almışdır. Tarix – modern ta-rix – fəlsəfi dəyərləndirmədən uzaq qalan tarixçilər tərəfindən yanlış anlaşılmış və anladılmışdır. Belə ki, modern insanın həyatında fəlsəfə ilə bərabər bilgiyə qaynaqlıq edən tarix fəlsəfədən fərqli olaraq dəqiq bilgi istehsal etmir. Çünki tarix millətlərin, yəni sənin tarixin olaraq yaranmışdır. Buna görə də, modern tarixi bilgi "əsaslandırılmış", yəni digəri üçün dəqiqlik dəyəri daşımayan fenomendir (Mehdiyev, 2016). Bu səbəblə fəl-səfənin millətçilikdə birbaşa əlaqəsi (siyasət və əxlaq fəlsəfəsindəki müzakirələr, dəyişikliklər, anlayışlar modern "siyasi gövdə"nin formalaşmasını müəyyən edən millətçiliyə də təsirlər də daxil) olmadığı halda, tarix bərabərdir millət deyə bilərik. Bir sözlə, millətçilik nəzəriyyələri tarixə/keçmişə bağlı anlaşılmazlıqlar/mübahisələr olaraq dəyərləndirilə bilər.

*Millətçiliyin İlkçi (Primordialist) dəyərləndirməsi*

Millətçiliyin institusional olaraq XVIII və ya XIX əsrdə ortaya çıxmasına baxmayaraq, onun akademik olaraq tədqiqi XX əsrdə başlamışdır. Millətçiliyin nəzəri olaraq ilk məşğul olunduğu, millətçiliyin və ya millətin əbədi varlıq olaraq görüldüyü yanaşma "primordialist"dir (ilkçi).[4] İlkçi yanaşma akademik araşdırmalarda özünə diqqətəlayiq yer ta-

[4] "İlkçi yanaşma üçün ingilis dilində "primordialism" sözü istifadə edilir. Bu kəlmə ingilis dilində iki mənaya gəlir. Bunlardan birinci "başlanğıcdan bəri var olan", digəri isə "ilk yaradılan, ya da inkişaf etdirilən" (Özkırımlı, 2008: 82). Primordializmlə əlaqəli araşdırmalar üçün baxın: Geertz, C. (1996). Primordial Ties. In J. Hutchinson, & A. D. Smith, Ethnicity (s. 40-45). Oxford: Oxford University Press; Coughlan, R., & Eller, J. (1996). The Poverty of Primordialism. In Hutchinson, & A. D. Smith, Ethnicity (s. 45-51). Oxford: Oxford University Press; Grosby, s. (2005). The primordial, kinship and nationality. In A. Ichijo, & G. Uzelac, *When is the nation?* (s.56-79). London: Routledge Hobsbawm, E. (2005). Comment on Steven Grosby: the primordial, kinship and

pa bilməmişdir. İlkçi yanaşma nəzəriyyə olmaqdan başqa, "baxış tərzi" olaraq da dəyərləndirilməkdədir (Özkırımlı, 2008: 81). Primordialistlər milləti iqtisadi və s. faktorların təsir etmədiyi və ya yox edə bilmədiyi etnik mənsubiyyətə əsaslandırmaqdadırlar. İlkçilər millətləri "təbii strukturlar" olaraq şərh etməkdədirlər. Yəni ilkçilərə görə tarix/keçmiş/etnik mənsubiyyət hər dövrdə eyni ölçüdə müəyyənedici olmuşdur. Bu mənada millətlər təbii strukturlar olaraq keçmişdən gələn varlığını qorumaqdadır (Aktürk, 2006: 24, 25; Aktürk, 2013: 138; Özkırımlı, 2008: 82; Özkırımlı, 2010: 34). Smit millətçiliyin primordial dəyərləndirməsini tarixçilərdən əlavə, sosioloqlara və təbii millətçilərə xas yanaşma olaraq dəyərləndirmişdir (Smith, 2010: 55). İlkçi yanaşma öz içində fərqli yanaşmaları ehtiva etməkdədir. Buna görə "təbiilikçi", "bioloji" və "mədəni" təsnifi edilə bilər.[5] Təbiilikçi yanaşma bir etnik qrup içində doğulma üzərində təməlləndirilmişdir. Bioloji yanaşma etnik mənsubiyyət içindəki bağlılıqları genetik xüsusiyyətlərdə axtarmaqdadır. Son təsnif mədəni kontekstdə meydana çıxmışdır. Mədəni yanaşma izah edilməyən, ibtidai əlaqələr olaraq ifadə edilmişdir (Özkırımlı, 2008: 84, 85, 89, 91, 92). Xülasə, ilkçilər millətlərin zamanın fövqündə duran nəsnə olduğu tezisini meyar olaraq qəbul etmişdir (Smith, 1994: 40). Millətçiliyin, bir sözlə, millətlərin modern "siyasi gövdə"ni meydana çıxardığı düşünüldüyündə, ilkçi yanaşmanın reallıqdan uzaq olduğu daha aydın formada ortaya çıxmaqdadır.

### *1.2.1. Modernist nəzəriyyə*

Modernliyin özəlliyinin "indiki zaman" və ya "gündəlik həyat"dan ilhamlanmış olduğunu ifadə etmək hər halda bizim yanlış dəyərləndirməyimizə səbəb olmaz. Belə ki, zamana əsasən meydana çıxan çevrilmə yeni azadlıq anlayışını yaratmışdır. Beləliklə, tarix heç görülməmiş tərzdə ekzistensial əhəmiyyət qazanmışdır (Dupre, 1993: 145). Bu məntiqlə millətçilik nəzəriyyələri arasında ən mübahisəli olan modernist nəzəriyyənin də keçmişi/tarixi indidən yola başlayaraq ələ aldı-

---

nationality. In A. Ichijo, & G. Uzelac, *When is the Nation?* (s.79-85). London: Routledge
Smith, A. D. (2005). The genealogy of nations: an ethno-symbolic approach. In A. Ichijo, & G. Uzelac, *When is the Nation?* (s.94-113). London: Routledge.

[5] Bu təsnif haqqında ətraflı məlumat üçün baxın: Antony D. Smith, (1994). *The Problem of national identity: ancient, medieval and modern?.* Ethnic and Racial Studies, Sayı 17, no 3. S.375-399; Virginia Tilley, (1997). *The Terms of the Debate: Untangling Language about Ethnicity and Ethnic Movements*. Ethnic and Racial Studies. Say 20, no 3. S.497-522.

ğını ifadə etmək mümkündür (Özkırımlı, 2010: 34). Bu mənada millətlərin modern hadisə olduğu iddiasına qarşı çıxmaq modernlik fenomeninin özünə qarşı çıxmaq kimi də dəyərləndirilə bilər.

Millətçiliyin, millətlərin modern olmasını qəbul etmək başlanğıc tarixi bəlli olan bu fenomenlərin bitəcəkləri mənasına da gəlməkdədir. Bu səbəblə millətlərin "siyasi gövdə"ni təşkil edən təməl mədəniyyət olaraq modern hadisə olduğu iddiasını tutarlı, açıqlana bilən, şərh edilə bilən olduğunu ifadə etmək mümkündür (Greenfeld, 2017: Giriş). Millətlərin modernliyi modern insanın qavradığı, anladığı tərzdə siyasi birliyin tarixi proses ərzində daha öncə olmadığı anlamına gəlməkdədir (Renan, 2016: 34, 35). Bir sözlə, "modern millətlərin" təxəyyül edilməsində etnik mənsubiyyətin dəyişməz rolu yoxdur (Aktürk, 2006: 27).

Modernist nəzəriyyə, əsasən, İkinci Dünya müharibəsindən sonrakı əsərlərlə ortaya çıxmışdır. Bu mənada modernist nəzəriyyənin ilk əsərləri olaraq Karl Doyçun "Millətçilik və sosial əlaqə" (1953) və Eli Kedurinin "Millətçilik" (1960) adlı əsərləri örnək verilə bilər. Millətçiliyi modern perspektivdən açıqlayan nəzəriyyələr onu müəyyən tarixlə məhdudlaşdırmaqdadırlar. Modernistlərə görə, millətçiliyin ortaya çıxa bilməsi üçün kapitalizm, sənayeləşmə, mərkəzi dövlətlər, şəhərləşmə və s. səbəblərin ortaya çıxması lazım gəlmişdir (Özkırımlı, 2008: 105). İfadə edilən modenist əsaslandırmalar, eyni zamanda modernliyin yaranmasını da gərəkli edən səbəblər olmuşdurlar. Millətçiliyin meydana çıxması üçün dövlət strukturunun müəyyən dəyişikliyə uğramasının gərəkli olduğunu ifadə etmək mümkündür. Modernistlər öz aralarında millətçiliyi "iqtisadi", "siyasi" və "ictimai-mədəni" kimi fərqli kontekstlərdən müzakirə ediblər. Millətçiliyi iqtisadi şərtlərlə açıqlayan Tom Nernə görə, kapitalizmin insanlığı sürətli formada təsiri altına almasının bədəli millətçilik olmuşdur (Özkırımlı, 2008: 106, 113).

Millətçiliyi siyasi transformasiya ilə açıqlayan yanaşmanın əsas nəzəriyyəçilərindən olan Con Bruli "Millətçilik və dövlət" (1982) adlı əsərində bu fenomenin başa düşülməsi üçün ilk olaraq siyasətlə olan əlaqəsini qələmə almışdır. Çünki millətçilik hər şeydən əvvəl bir siyasət formasıdır. Digər tərəfdən, Bruli siyasi forma olan millətçiliyin modern fenomen olmasını əmək bölgüsüylə əlaqələndirmişdir. Bruli əmək bölgüsündəki transformasiyanın millətçiliklə əlaqəsini modern dövlətlə əsaslandırmışdır. Bu kontekstdə millətçiliyi iqtidarı ələ keçirməyi hədəf-

ləyən siyasi doktrina olaraq açıqlayan Bruli iddiasını 3 təməl fikirdə əsaslandırmışdır:

a) Xüsusi xarakterli bir millət mövcuddur;
b) Bu millətin mənfəət və dəyərləri hər şeydən öncə gəlir;
c) Millət ən azı siyasi hakimiyyətə sahiblik dərəcəsində bacardığı qədər müstəqil olmalıdır (Özkırımlı, 2008: 135, 136; Bruli, 1993: 2).

Millətçiliyin ortaya çıxışını siyasətlə əlaqələndirən digər bir araşdırmaçı Erik C. Hobsbaumdur. Hobsbaum fikirlərini "Millətlər və millətçilik" (1983) və "Ənənənin kəşfi" (1990) adlı əsərlərində ortaya qoymuşdur. Hobsbaum milli şüurun "kəşf edildiyini" irəli sürmüşdür. Bu kontekstdə millət siyasətin ehtiyac hiss etməsinə görə ortaya çıxmışdır. Hobsbauma görə, millətçilik sayəsində xalq sistemlə uzlaşdırılmışdır. Bir sözlə, millətlər yaxın keçmişdə ortaya çıxan "torpağa bağlı dövlət" anlayışından sonra ortaya çıxmışdır (Özkırımlı, 2008: 148, 149).

Modern nəzəriyyə kontekstində son olaraq millətçiliyi ictimai-mədəni əsaslarla açıqlayan nəzəriyyəçilər gəlir. Bu kontekstdə millətçilik ədəbiyyatında nəzəri anlamda ciddi töhfələri olan Ernest Gelner (1925-1995) və Benedikt Anderson (1936-2015) önə çıxır. Digər tərəfdən oxuduğunuz bu əsərin formalaşmasında modelindən/nəzəriyyəsindən istifadə edilən Miroslav Hrox (1932) da millətçiliyi bu üsulla dəyərləndir-mişdir.

Millətçiliyin modern nəzəriyyəçiləri arasında yer alan Gelner millətçiliyi mədəniyyət üzərindən açıqlamışdır. Gelner tarixi 3 mərhələyə ayırmış və ancaq son mərhələ olan modern sənayeləşmiş cəmiyyətlərdə "mədəniyyət", "ictimai struktur" və "siyasət" arasındakı əlaqənin dəyişməsi ilə ortaya çıxdığını irəli sürmüşdür.[6] Millətçilik və mədəniyyət (ali mədəniyyət; ing. *High Culture*, tr. *Yüksek Kültür*)) arasında əlaqə millətin ortaya çıxmasına zəmin hazırlamışdır (Özkırımlı, 2008: 164-165). Millətçilik dövründə cəmiyyəti bir arada tutan şey məhz "yüksək mədəniyyət" olmuşdur. Bu kontektsdə Gelner millətçiliyin millətləri yaratdığını irəli sürmüşdür (Gellner, 1983: 55, 57).

[6] Ətraflı məlumat üçün baxın: Ernest Gellner, (1969). Thought and Change. London: Weidenfeld and Nicolson. s. 147-2018.

Modernist nəzəriyyənin üzvlərindən olan Anderson milləti "xəyal edil-miş siyasi icma"[7] (Anderson, 2017: 20) olaraq açıqlamışdır. Kiçik insan icmaları xaricində bütün icmaların xəyal edildiyini iddia edən Anderson millətin yaranmasını din və sülalaləri incələyərək açıqlamışdır. Anderson coğrafi kəşflər və "müqəddəs dil"in aşınması ilə klassik icmaların varlığının təməli olan dinin öz təsirini itirdiyini iddia etmişdir. Bu mənada zaman anlayışında da inqilabi dəyişiklik yaşanmış və "homogen, içi boş zaman" (homogeneous empty time) anlayışı ortaya çıxmışdır. Bu kontekstdə roman və qəzetin yeni zaman anlayışında millətlərin xəyal edilməsində (dizayn edilməsində) müəyyənedici olduğunu düşünmüşdür. Ancaq Anderson millətçiliyin inkişafı üçün kapitalist mətbəəçiliyin gözardı edilməməsi gərəkdiyini bildirmişdir. Çünki kapitalizm naşirləri xalq dillərinə doğru yönəltmişdir (Özkırımlı, 2008: 182-183, 184, 186; Anderson, 2017). Bir sözlə, Anderson millətləri modern insanın xəyalı olaraq qəbul etmişdir.

Hrox millətləşmə prosesini "ictimai-mədəni" kontekstdə yaşanan çevrilmələr çərçivəsində anlamışdır (Özkırımlı, 197). Ancaq Hrox millətquruculuq fenomenini dövlətli və dövlətsiz kontekstdən yola çıxaraq fərqli çərçivədən açıqlamış və kiçik millətlər olaraq tərif etdiyi dövlətsiz millətlər üçün öz nəzəriyyəsini inkişaf etdirmişdir (Hroch, 2013: 7).

Bu əsərdə Hroxun nəzəriyyəsinin seçilməsindəki əsas səbəb qeyri-dominant etnik qrup mövqeyindəki azərbaycanlıların/müsəlmanların millətləşmə prosesinin böyük millətlərdən və "ara nümunə" olaraq adı çəkilə biləcək alman millətçiliyi kimi modellərdən daha fərqli olduğuna görədir (Baxın: Şəkil 2). Müstəmləkə altındakı millətçilik hekayələri üçün imperializm/müstəmləkəçilik kontekstində müxtəlif nəzəriyyələr yaradılmışdır. Bunlar arasında Hind yarımqitəsi üçün model yaradan Parsa Çatercinin (1947-) "Millətçi düşüncə və müstəmləkə" adlı araşdırması iddialı bir əsərdir.

Çaterci prosesin fərqliliyini ortaya qoyaraq model yaratmaqla bərabər, müstəmləkələrdə gerçəkləşən istismarı millətçilik nəzəriyyəsi prizmasından ortaya qoymuşdur. Bizim araşdırmamızın məqsədi Azərbaycan kontekstində çar istismarının xırdalıqlarını ortaya qoyacaq tarix

---

[7] Anderson "xəyal" anlayışını dəstəkləmək üçün Seton-Vatson, Ernest Gelner və Ernest Renana istinad etmişdir. Ətraflı məlumat üçün baxın: Benedict Anderson, (2017). Hayali Cemaatler. İsgender Savaşır. İstanbul: Metis. s. 19-22.

araşdırması etməkdən əlavə, siyasi elmin sərhədləri daxilində müasir Azərbaycanın millətləşmə prosesini, ilk milli dövlətini və millətqurucu-luq prosesini ələ almaq olmuşdur. Bu kontekstdə Hroxun modelinin araşdırma üçün ən uyğun model/nəzəriyyə olduğuna qərar verilmişdir.




***Şəkil 2: Hroxun tipologiyası***

*Mənbə: Hroch, M. (1990). How mush does Nation Formation Depend on Nationalism? East European Politics and Societies, 4(1), 101-115; Valiyev, O. (2020). Milletini ve Devletini Arayan Bir Etnik Grup: Azerbaycan Örneği (1850-1920). Uluslararası Politik Araştırmalar Dergisi, 6(1), s. 6.*

Bir sözlə, Hrox qeyri-dominant etnik qruplar üçün fərqli mo-del/nəzəriyyə irəli sürməklə bərabər, millətin modern hadisə olduğu məsələsində modernist nəzəriyyəçilərlə eyni fikirdədir. Belə ki, moder-nist nəzəriyyəçilər maarifçilərin tərəqqi məsələsində razılaşdıqları kimi millətin modernliyində də eyni fikirdə olublar (Smith, 1994: 77).

### 1.2.2. *Etno-simvolist nəzəriyyə*

Etno-simvolist[8] (ethno-symbolist) nəzəriyyə modernist nəzəriyyə-yə reaksiya olaraq ortaya çıxmış və etnik keçmişə üstünlük vermişdir (Özkırımlı, 2008: 209). İçərisində Con Armstronq, Con Hatçinson kimi nəzəriyyəçilərin də olmasına baxmayaraq, etno-simvolist nəzəriyyənin inkişafında həlledici rolu Entoni Smit oynamışdır. Primordialistlərdən (ilkçilərdən) ayrılan etno-simvolistlər millətlərin formalaşmasında etnik mənsubiyyətin önəminə diqqət çəkirlər (Özkırımlı, 2010: 34).

Smit modern olduğunu qəbul etdiyi millətçiliyin "etnik icmalar"ı incələmədən anlaşılmayacağını müdafiə etmişdir (Özkırımlı, 2008: 218).

[8] Etnosimvolist nəzəriyyə ilə bağlı ətraflı araşdırma üçün baxın: Anthony D. Smith, (1988). *The Myth of 'modern nation' and myth of nations*, Ethnic and Racial Studies, Say 11, no 1, s. 1-26.

Bu mənada Smitin millət tərifi də etnik mənsubiyyətə vurğunu özündə ehtiva etmişdir.[9] Smit millətlərin kimliyini etnik təməldə axtarmışdır. Millətlərin ortaya çıxmasını üfüqi və şaquli olaraq ikiyə ayırmış və üfüqi millətləşmənin suveren millətləri, şaquli millətləşmənin isə müstəmləkə altında olmalarına görə əzilən millətləri əhatə etdiyini irəli sürmüşdür[10] (Özkırımlı, 2008: 219, 224). Qısası, etnosimvolist yanaşma millətlərdə kök axtarışına önəm vermişdir və bu axtarış etnik mənsubiyyətin tarixi proses içərisində özünü mühafizə etdiyini və modern millətlərin formalaşmasında həlledici olduğunu iddia etməkdədir. Smit millətlərin kökünə dair sorğulamanı açıqlamağı 3 sual kontekstində ələ almışdır: öncəliklə, millətin kim olduğunu sorğulamış, millətin meydana çıxma formasını incələmiş və nəhayət, yaranmanın zaman və məkanını sorğulamışdır. Belə ki, millətlər modern dövrün millətləri olaraq millətçilər tərəfindən oyandırılmışdır. Bir sözlə, Smit modernist nəzəriyyə ilə müəyyən qədər razılaşmaqla bərabər, **reduksiyaçı** – hərbi mükəlləfiyyətin sadəcə modern millətlər üçün keçərli olması kimi – olduğundan qarşı çıxmış və tənqid etmişdir (Smith, 1994: 39, 40, 77).

## 1.3. Miroslav Hroxun "kiçik millət" modeli

Miroslav Hroxun millətçiliyə yanaşması modernist nəzəriyyə çərçivəsində dəyərləndirilmişdir (Özkırımlı, 2008: 197-208). Millətçilik və millət anlayışlarını modern çərçivədə dəyərləndirməklə (Hroch, 2011, Hroch, 1995) bərabər, milləti millətçiliyin beşiyi/başlanğıcı olaraq qəbul etmişdir (Hroch, 2020). Bu da Gelnerin tənqidinə səbəb olmuşdur (Gellner, 1998: 230-250).

Hrox millətin modern reallıq olduğunu qəbul etməkdədir. Ancaq kiçik və ya əzilən millət olaraq tərif etdiyi qeyri-dominant etnik qrupların millətləşmə proseslərinin fərqli olduğunu düşünməkdədir. Bu kontekstdə millətquruculuq proseslərindəki fərqliliyi ortaya qoymaq üçün 3 model: "böyük millət", "kiçik millət", "ara nümunə" yaratmışdır. Millətquruculuq prosesləri müstəmləkə rejimi altında başlayan etnik qruplar üçün kiçik millət modelini təklif etmişdir (Hroch, 1990: 5-21). Buna

[9] Baxın: Anthony D. Smith, (1991). *National Identity*. London: Penguin. s. 14.

[10] Ətraflı məlumat üçün baxın: Umut Özkırımlı, (2008). *Milliyetçilik Kuramları*. Ankara: Doğu Batı. s. 222-224.

görə də suveren millətlərdən fərqli olaraq mövcud siyasi quruluşu (dövlət) olmadığı üçün kapitalizmin kiçik millətlərin millətquruculuğunda yetərli olmadığını ifadə etmişdir (Hroch, 2011: 29-33). Kiçik millətlərin millətləşmə prosesində mənfəət toqquşması (bu araşdırmada erməni-müsəlman toqquşması) olması lazım gəlmişdir.

Hrox milli hərəkatları A, B, C mərhələlərinə ayırmışdır. Milli hərəkat müddətində milli oyanış "B mərhələsi"ndə reallaşmış və siyasi tələb isə, əsasən, "C mərhələsi"ndə ortaya çıxa bilmişdir.

### *1.3.1. Kiçik millətlər*

Millətçilik və millətlər modern anlayışlar olaraq ortaya çıxmış və modern Avropanın ayrılmaz bir parçası olmuşdur (Hroch, 1996:78). Ancaq modern millət forması, əsasən, suveren dövlətlərin öz daxili transformasiyası nəticəsində meydana çıxmışdır. Lakin millətçiliyin ortaya çıxdığı dövrdə müstəmləkə altındakı qeyri-dominant etnik qrup vəziyyətində olan əzilən millətlərin millətləşmə prosesi fərqli şəkildə gerçəkləşmişdir. Bu kontekstdə Hans Kon millətçiliyi "qərbli istəyə bağlı" və şərqli "təbii millətçilik" (Özkırımlı, 2008: 60) formasında təsnif etmişdir.

"Böyük millətlərlə" əzilən millətlərin özlərini tanıma prosesləri və millətə transformasiyası bir-birindən fərqləndirilib. Miroslav Hrox "Avropada Milli Oyanış" (1985) adlı əsərində böyük millətlərlə kiçik millətlərin millətləşmə prosesi arasındakı fərqi belə izah etmişdir: *"Millətləşmənin bu növündə (böyük millətlər) millətin mənsublarının öz içində fərqli mənfəətlərlə də olsa, ictimai strukturda seçim olaraq tək şüura (milliyyət şüuru) sahib olduqları deyilə bilər. Digər tərəfdən, kiçik millətlərin üzvləri, əsasən, iki ideoloji seçim qarşısında qalmışdırlar". (Hroch, 2011: 35)*

Bu kontekstdə A. Holli Şisler "İki imperiya arasında" (2003) adlı əsərində Çarlıq dövrü Azərbaycanında intellektualların gerçək mənada etnik mənsubiyyətə və ya milliyyətə əsaslanan kimlikləri olmadığını yazmışdır. Bir sözlə, kiçik millətlər nümunəsində intellektuallar həm öz etnik qruplarından yola çıxaraq milli kimlik formalaşdırma, həm də böyük millətin milli kimliyinin seçimi qarşısında qalmışlar (Shissler, 2005: 14).

Modern hadisə olan millət suveren dövlətlərin daxilində yeni bir "zümrənin" formalaşması və özünü birbaşa millətin təmsilçisi elan etməsi formasında ortaya çıxmışdır. Millətləşmənin bu növü suveren mil-

lətlərin yaşadığı təcrübə olmuş və "uzun formalaşma prosesinin nəticəsi" (Hroch, 1995: 283) olaraq meydana çıxmışdır. Hrox suveren millətlərin millətləşmə proseslərini "Tarixi baxımdan milli öz müqəddəratını təyinetmə" (1995) adlı məqaləsində "müstəqil dövlətçilik, etnik olaraq homogen hakim təbəqələr və milli dilə əsaslanan milli mədəniyyətin inkişafı" (Hroch, 1995: 283) formasında açıqlamışdır. Bunun əksinə, qeyri-dominant etnik qruplarda millətləşmə (milli hərəkat) "milli dil, milli dövlət və öz elit təbəqələr"indən (Hroch, 1995: 283, 284) məhrum olaraq başlamışdır (Baxın: Şəkil 3).

| **Qərbi Avropa-Şimali Avropa** | **Orta-Şərqi Avropa** | | |
|---|---|---|---|
| Dövləti olan millətlər | Monoetnik Dövlət | Fransa, Hollandiya Portuqaliya | |
| | Çoxmillətli İmperiyalar | Böyük Britaniya ingiliscəsi-İspaniyada kastiliya dili | Habsburq torpaqlarında danimarkalılar, isveçlilər, ruslar və almanlar |
| Dövlətsiz Milli Mədəniyyət | | Italyanlar | almanlar |
| | Qədim dövlətlər | Şotlandlar | polyaklar, yunanlar, norveçlilər, çexlər, xorvatlar |
| Təsiri olmayan qruplar | Dövlətçilik ənənələri kəsilənlər | irlandlar, uelslilər, bretonlar, basklar, flamanlar | serblər, yunanlar, bulqarlar, ukraynlar, romanlar |
| | Dövlətçilik ənənələri olmayanlar | İspaniyada frizilər, korsikalılar, qalisiyalılar | slovaklar, finlər, sloveniyalılar, estonlar, beloruslar, sorblar |

***Şəkil 3: Avropada millət quruculuğunun ilk çağı (1800-1815)***

*Mənbə: Miroslav Hroch, National Self-Determination from a Historical Perspective, Canadian Slavonic Papers, Vol. 37, No. ¾ (September-December 1995), s. 284.*

Xülasə, millətləşmənin bu metodu qitə (Avropa) və xaricində inkişaf edən millətləşmə proseslərinin tamamını açıqlamaqda yetərsiz qalmışdır. Bu kontekstdə qitə modelinin xaricində inkişaf edən millətləşmə

prosesləri "milləti yaratma" formasında gerçəkləşmişdir (Hroch, 2011: 29).

Hrox millətçilik haqqında klassik nəzəriyyələr (Gelner, Hobsbaum, Anderson və s.) ortaya çıxmadan əvvəl müstəmləkə altındakı millətləri fərqli tərif etmiş (kiçik millət) və prosesi milli hərəkat anlayışı ilə ələ almışdır. Bu cəhətdən kiçik millət modernlik öncəsi dövrdə suveren millətlərin müstəmləkəsi altına girmiş və bu müstəmləkənin uzun müddət davam etməsinə görə "tabe olma forması" (subjection) hər iki mənada struktural xarakter qazanmışdır. Bu səbəblə də millət olmaq üçün gərəkli olan ictimai quruluş çatışmamışdır (Hroch, 2011: 30, 31).

1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə Çar Rusiyası hakimiyyətinə keçən Quzey Azərbaycan (hal-hazırkı Azərbaycan Respublikası, Ermənistan və Gürcüstanın şərqi (Borçalı)) bənzər prosesi yaşamışdır. Ancaq müstəmləkə öncəsi siyasi keçmişə dair yaddaşın qoruna bilməsinə görə kiçik millətləri "tarixsiz millətlər" (Hroch, 2011: 30) sinfinə daxil etmək doğru nəticə verməz.

### *1.3.2. Milli canlanma*

Millətçilik Qərbdə ortaya çıxdığı zamandan etibarən siyasi hadisə olmuşdur. Bunun əksinə, Mərkəzi və Şərqi Avropada millətçilik başlanğıcda ictimai dəstəyi olmayıb, ziyalıların və şairlərin arzu və ümidlərindən ibarət olmuşdur (Kohn, 1994: 163, 164). Bu kontekstdə milli oyanışlar başlanğıc ərəfəsində cəmiyyətdə müəyyən təsiri olmayan bir qrup intellektualların öz millətlərinin dilini, mədəniyyətini və tarixini incələməsi ilə başlamışdır. Başlanğıcda təşkilati alt quruluşdan yoxsul olan milli oyanış son mərhələyə gəldikdə kütləvilik qazanmışdır. Milli oyanışın uğurunda həm iqtisadi və sosioloji dəyişikliklər, həm də milli şüuru olan vətənpərvərlər[11] təsirli olmuşdur (Hroch, 2011: 36, 50). Hrox "Avropada Milli Oyanış" adlı əsərində milli oyanışın əzilən millətlər arasında ortaya çıxmasını aşağıdakı kimi açıqlamışdır: "*Qeyri-dominant etnik qruplar elitlərinin olmaması, mərkəzi dövlətlərinin olmaması, dillərinin ədəbi, mədəni baxımdan inkişaf etməməsi və ya inkişafın kəsintiyə uğraması və s. sə-*

[11] ""Vətənpərvərlər" kəlməsini fəaliyyətlərini uzunmüddətli olaraq şüurlu və istəkli formada milli hərəkatı dəstəkləməyə həsr etmiş, xüsusilə vətənpərvərliyin yayılmasını istəyənləri adlandırmaq üçün istifadə edəcəyik" (Hroch, 2011: 37, 38).

*səbəblərə görə milli dövlətlərdən fərqlənir. Qeyri-dominant etnik qruplarda millətləşmə, milli oyanış modern təhsil almış intellektualların öz etnik qruplarının millət olma potensialını dərk etmələri ilə başlayır. Ancaq bu millət milli şüura çatmamış, oyanması, canlandırılması lazım olan millətdir" (Hroch, 2011: 11).*

Digər tərəfdən Hrox qeyri-dominant etnik qrupun ziyalılarının milli oyanışa başlama səbəblərini belə açıqlamışdır: *"Qeyri-dominant etnik qruplar arasında milli oyanışın başlamasına (bütün milli hərəkatlarda) suveren millətlə olan əlaqələrinin müəyyən ölçüdə təsirinin itirildiyi, rejimin legitimlik problemi yaşadığı şərtlərdə qərar verilmişdir" (Hroch, 2011: 12).*

Beləliklə, 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə Quzey Azərbaycanı müstəmləkə altına alan Rusiya əvvəlki hakimiyyət sistemində ürəyi istəyən dəyişikliklər etmiş və dəyişikliklər narahatlıqlara səbəb olmuşdur. Bu siyasətin əsas məqsədi Azərbaycanı ruslaşdırmaq olmuşdur. Ancaq artan narahatlıqlardan sonra Çar Rusiyası Qafqaz canişinliyi yaratmış və bir sıra inzibati islahatlar aparmışdır. Beləcə, ilk dəfə aydınlanma prinsiplərinə uyğun təhsil almış "imtiyazlı" azərbaycanlı bürokrat sinfi formalaşmışdır (Swietochowski, 1988: 30, 32). Axundzadə də Qafqaz canişini Mixail Semyonoviç Vorontsovun (1782-1856) himayəsində işləmişdir. Ancaq Vorontsovdan sonra Çar Rusiyası Qafqaza yönəlik mərkəziyyətçi siyasət yürütmüş və hətta Qafqaz canişinliyini ləğv etmişdir (Swietochowski, 1988: 34, 35). Bundan sonra edilən inzibati islahatlar yerli xalqın strukturuna uyğun gəlməmiş (Nəsibli, 2019: 211) və "daxili birliyi stimullaşdır"mışdır (Swietochowski, 1988: 35).

Hrox milli oyanışın kütlə tərəfindən qəbul edilməsi üçün onun reallığa uyğunlaşmasının və xalqın gündəlik həyatından daha aparıcı dəyərə sahib olmasının lazımlılığını qeyd etmişdir. Digər tərəfdən kütləvi olaraq homogen dilə ehtiyac duyulduğu coğrafiyanı da dilə gətirmişdir (Hroch, 2011: 14, Hroch, 2004: 95).

Modern mənada bir millətin formalaşmasında milli şüurun cəmiyyətin heç olmasa, müəyyən hissələri tərəfindən mənimsənilməsi lazımdır. Beləcə, "kiçik millətlər" üçün milli oyanış milli şüurun formalaşmasına yardım etmişdir və xüsusilə "B mərhələsi"ndə təsirli olmuşdur. Hroxa (2011: 35) görə, "milli şüurun artırılması istiqamətində fəaliyyəti olan milli oyanış milli hərəkatın bir parçası idi".

## 1.3.3. *Milli hərəkatın dövrlərə ayrılması*

Hrox əzilən millətlərin millətquruculuq proseslərini (milli hərəkat) 3 mərhələyə ayırmışdır: A, B və C mərhələləri. "A mərhələsini akademik maraq dövrü, B mərhələsini vətənpərvərlik, milli duyğunun inkişaf dövrü, C mərhələsini isə milli hərəkatın kütləviləşməsi" (Hroch, 2011: 51) formasında müəyyən etmişdir. Bu mənada bütün milli hərəkatların əsas məqsədi "tam mütəşəkkil millət olmaq idi" (Hroch, 1995: 284). Lakin bu məqsəd milli hərəkatın başlanğıcında müəyyən edilməmişdir. Digər tərəfdən əzilən millətlərin qeyri-dominant etnik qrupdan tam mütəşəkkil millət olmağa keçid prosesləri də öz içində fərqlilik göstərmişdir (Baxın: Şəkil 4). Milli hərəkatların A mərhələsindəki ziyalılar, əsasən, milli məsələlərə tərəfsiz mövqe içərisində olmuşlar (Hroch, 2004: 96). Bu kontekstdə yerli xalq dilində əsərlər yazmasına, aydınlanma dövrü prinsipləri (tərəqqi, ağır və s.) çərçivəsində müsəlmanları maarifləndirməyə çalışma-sına baxmayaraq, Mirzə Fətəli Axundzadənin (1812-1878) də tərəfsiz qaldığını və ya qalmağa məcbur olduğunu demək mümkündür. Qısası, A mərhələsindəki ziyalıların siyasi/millətçi fikirlər irəli sürməsi və ya sürə bilməsi üçün lazımi şərtlər formalaşmamışdır.

Hrox "Avropada milli oyanış" adlı əsərində A mərhələsinin xüsusiyyətini və milli hərəkatlara töhfəsini belə açıqlamışdır: *"Milli hərəkatların A mərhələləri hər millətdə eyni formada irəliləməmişdir. A mərhələsi bəzi kiçik millətlərdə (Estoniya və Litva) qısa sürdüyü halda, bəzi millətlər isə (Bolqarıstan və Latviya) A mərhələsini daha uzun müddət yaşamışdır" (Hroch, 2011: 273).*

Millətləşmə prosesində A mərhələsi, əsasən, toqquşmanın "feodalizmə" və "mütləqiyyətə" qarşı cəmləşdiyi başlanğıc mərhələsində[12] gerçəkləşmişdir (Hroch, 2011: 54). "Ancaq milli hərəkatların əsas məqsədlərinin B mərhələsi və C mərhələsinin kəsişməsində formalaşdığı deyilə bilər" (Hroch, 1995: 286). Bu kontekstdə Axundzadənin milli möv-

---

[12] Hrox birinci mərhələni kapitalizmin meydana çıxdığı dövr olaraq, ikinci mərhələni isə kapitalist cəmiyyət anlayışının "yerlilik" qazandığı dövr olaraq müəyyən etmişdir (Hroch 2011: 53, 54).

[45] Hrox milli hərəkatları iki cür qruplaşdırmışdır. Birinci Dünya Müharibəsindən öncə yaranıb müstəqillik tələbi olmayanları "klassik" milli hərəkatlar adlandırır.

qeyə sahib millətçi olmaqdan başqa, müsəlmanları heyran olduğu aydınlanmanın inkişaf səviyyəsinə çatdırmaq niyyətində olan bir maarifçi olduğunu ifadə etmək daha doğru olar.

B mərhələsinin başlaması üçün əvvəlki rejimin "kimlik böhranı"na səbəb olan "dəyərlərini", "legitimliyini" sorğulayacaq "dəyişikliklər" və "islahatlar" gərəkli olmuşdur. Bu səbəblə prosesdə meydana çıxmış sosial dəyişikliklərin formalaşdırdığı motivasiyaya əsaslandığı deyilə bilər (Hroch, 2004: 95). Çar Rusiyası dövrü Azərbaycanının millətləşmə prosesində milli hədəfin müəyyən edilməsi daxili transformasiyadan əlavə, 1905-ci il inqilabının nisbətən azad mühitindən qaynaqlanaraq inkişaf etmişdir.

Çar Rusiyası dövrü Azərbaycanında milli hərəkatın, milli oyanışın A mərhələsinin Axundzadə kontekstində feodalizmə və mütləqiyyətə qarşı maariflənmə və elm tərəfdarı bir anlayış çərçivəsində mübarizə əsnasında ortaya çıxdığını demək mümkündür. Yəni kiçik millətlərin örnəyində təsirli olan milli burjuaziya A mərhələsində ortaya çıxa bilməmişdir. Millətləşmə prosesində "inkişaf etmiş sənaye cəmiyyəti"nin formalaşmadığı diqqətə alındığında B və C mərhələsinin ikinci mərhələdə, "kapitalist cəmiyyətin "yerlilik" qazandığı şərtlərdə" inkişaf etdiyi deyilə bilər. Birinci mərhələdən ikinci mərhələyə keçid isə Avropada meydana çıxmış və inqilablarla ("üçlü burjua inqilabı, sənaye inqilabı, təşkilati və şüurlu fəhlə sinfi hərəkatı") gerçəkləşmişdir (Hroch, 2011: 54, 56). Bu kontekstdə 1872-ci ildə xarici kapitalın (Nobel qardaşları) gəlişi ilə neftin maşınlarla istehsalına başlanılması (Baykara, 1975: 41) Çar Rusiyası Azərbaycanının millətləşmə prosesində müəyyənedici olan iqtisadi inqilabları başlatmışdır.

Bu iqtisadi inqilab/inkişaf milli hərəkatın B mərhələsində öz təsirini göstərmiş və burjuaziya millətin xəyal edilməsində əsas rol oynayan mətbuatın, məktəblərin və s. formalaşmasına əsas olmuşdur. Bir sözlə, iqtisadi inkişaf ancaq B mərhələsindən sonra təsirini göstərmişdir. Milli hərəkatların B və C mərhələsində formalaşan məqsədlər ilk olaraq 3 tələbdən formalaşmışdır:

1. Yerli dilə əsaslanan milli mədəniyyətin inkişaf etdirilməsi və təhsildə, hakimiyyətdə və iqtisadi həyatda xalq dilinin istifadə olunması;

2. Öz elitləri və qolçomaqları üçün sosial imtiyazların ləğv edilməsi və s. sosial tələblər;

3. Bərabər haqlar və müəyyən ölçüdə muxtariyyət haqlarını da özündə ehtiva edən siyasi tələblər (Hroch, 1995: 286).

1800 1850 1900 1920 1990

| | |
|---|---|
| Polyaklar | SQ MO SP KH M |
| Norveçlilər | SQ MO SP MS KH M |
| İrlandlar | MO SP SQ KH M |
| Yunanlar | SQ MO SP M |
| Serblər | MO KH SP MS M SQ |
| Macarlar | SQ MO SP KH MS M |
| Çexlər | MO SP KH SQ M |
| Slovaklar | MO (KH) SP KH MS M |
| Finlər | MO KH SQ SP M |
| Xorvatlar | MO SP KH SQ MS M |
| Slovenlər | MO SP KH SQ MS M |
| Ukrayna (Şərq) | SP MS M |
| Ukrayna (Qərb) | MO SP KH M |
| Estoniyalılar | MO KH SP (M) SQ M |
| Latviyalılar | MO KH SP (M) SQ M |
| Litvalılar | MO KH SP (M) SQ M |
| Belaruslar | MO MS M |
| Bolqarlar | MO SP KH-M SQ |
| Makedoniyalılar | MO SP MS M |
| Flamanlər | MO SQ SP KH MS |
| Uelslilər | MO SP |
| Şotlandlar | MO SP |
| Katalanlar | MO SQ SP (KH) MS |
| Basklar | MO SP (KH) MS |
| Qalisiyalılar | MO SP |
| Bretonlar | MO (SP) |
| Sorblar | MO |
| Azərbaycanlılar* | MO KH SP MS (M) SQ M |

**MO:** Milli oyanış **KH:** Kütləvi hərəkatın başlanması **SP:** Siyasi proqramın formalaşması
**M:** Müstəqilik **MS:** Muxtariyyət statusu **SQ:** Sosial quruluşu tamamlamaq
*Azərbaycan orijinal mənbədə yoxdur, tədqiqat prosesi zamanı əlavə edilib.

*Şəkil 4: Təsiri olmayan qrupdan tam mütəşəkkil millətə: Avropa Milli Hərəkatları*

*Mənbə: Miroslav Hroch, National Self-Determination from a Historical Perspective, Canadian Slavonic Papers, Vol. 37, No. 3/4 (September-December 1995), s. 285.*

Digər tərəfdən Hrox milli hərəkatın siyasi müstəqillik qazanmasına baxmayaraq, millətləşmənin tamamlanmayacağını bildirərək, belə davam etmişdir: *"Milli hərəkatların nəticəsində millət olmanın tamamlanması üçün müəyyən edilə biləcək ölçü millətin sinif quruluşunun inkişaf etmiş olmasıdır. Qeyri-dominant etnik qrupların (kiçik millət) sinfi quruluşları tam formada yaranmamışdır. Bu səbəblə də milli hərəkatların tam mütəşəkkil millət ola bilməsi sinfi strukturun yaranması və milli hərəkatların toplumsal mahiyyət qazanmasına bağlıdır. Bu kontekstdə müstəqillik öz-özlüyündə millət yaranmasının tamamlanması demək deyildir" (Hroch, 2011: 55).*

Çar dövrü Azərbaycanında millətləşmə prosesinin siyasi müstəqillik mənasında uğurlu olmasına baxmayaraq, millətin tam formalaşa bilmədiyi deyilə bilər (bu mövzu son fəslin son alt başlığında açıqlanacaqdır). Bu səbəblə klassik milli hərəkatlar[45] siyasi müstəqillik qazansalar da, millətquruculuq proseslərini tamamlayacaq imkana sahib ola bilmədiklərini deyə bilərik.

### *1.3.4. Siyasi tələb və müstəqillik*

Milli hərəkatların proqramlarındakı tələblər içərisində əsas olan siyasi tələblər olmuşdur. Siyasi tələblər milli hərəkatların sonrakı mərhələsində öz müqəddəratını təyin etmə tələbi ilə paralel olaraq ortaya çıxmışdır (Hroch, 1995: 286). 1905-ci il inqilabı ilə müvəqqəti liberal/azadlıqçı siyasət Rusiyanın müsəlman ziyalılarını siyasi formalaşmaya (yerli və Dumada təmsil olunma tələbi kimi) aparsa da, öz müqəddəratını təyin etmə tələbi Çar Rusiyasında ancaq 1905-1917 (B mərhələsinin sonu və C mərhələsi) kimi uzun müddət ərzində formalaşmışdır (Özdağan, 1993: 72). B mərhələsində, əsasən, dil və mədəni tələblərin yer aldığı Çar Rusiyası Azərbaycanının millətləşmə prosesində siyasi tələblər Oktyabr inqilabının yaratdığı xalqların "öz müqəddəratını təyin etmə" prinsipi kon-tekstində yaranmışdır.

Hrox siyasi tələblərin formalaşmasındakı əsas təsirin nə ümumi siyasi və sosial şərtlər, nə də suveren millət tərəfindən məruz qoyulan siyasi təzyiqin olduğunu demişdir. Bunun yerinə siyasi tələbin təzyiqə məruz qalan xalqın bu təzyiqi milli və siyasi terminlərlə qavradığı zaman ortaya çıxdığını ifadə etmişdir (Hroch, 1995: 293, 294). Ancaq Çar Rusiyası Azərbaycanındakı millətləşmə prosesində milli anlayışın, şüurun ortaya çıxması prosesinə baxdığımız zaman 1905-ci il inqilabının yaratdığı (müvəqqəti) legitimliyin siyasi şərtləri görülməkdədir. Bu mənada xalqın təzyiqi milli və siyasi terminlərlə qavraması konyuktura bağlı olmuşdur. Hrox milli hərəkatların proqramlarını və bu proqramlarda siyasi tələblərin formalaşması prosesini belə ələ almışdır: "B mərhələsində sosial quruluşu tamamlanmamış milli hərəkatların tələblərini, əsasən, linqivistik, mədəni və sosial tələblər təşkil etmişdir. Siyasi tələblərə isə C mərhələsində gəlmək mümkün olmuşdur. Bu müqayisə bizə qeyri-dominant etnik qrupların sosial strukturunun milli proqramların strukturuna yönəlik müəyyənedici təsiri olduğunu göstərmişdir. Bu nəticə C mərhələsinə yönəlmiş empirik tapıntılarla da dəstəklənir. Qısası, milli hərəkatlar öz burjuaziyası və yüksək bürokratiyası ortaya çıxana, yəni sosial strukturunu tamamlayana qədər separatçı tələbi siyasi proqramına almamışdır" (Hroch, 1995: 294).

Digər tərəfdən siyasi tələblərin formalaşa bilməsi üçün qeyri-dominant etnik qrupun keçmişlə bağlı yaddaşını qoruması lazım idi. Həmçinin milli hərəkatın siyasi tələbi homogen təbiətə sahib ola bilməmişdir. Çünki suveren millətin elitlərinin müxalifəti ilə qarşılaşmış və milli hərəkatların siyasi tələbləri sırası ilə "yerdəyişdirmə" (substitution), "təmsil" (participation) və "öz müqəddəratını təyin etmə" (selfdetermination) şəklində formalaşmışdır. Siyasi tələbin ilk mərhələsində (yerdəyişdirmə) açıq formada siyasi fəaliyyətə icazə verilməmişdir. Ancaq bu mərhələdə "vətən" anlayışı formalaşmış, dil və mədəni siyasi tələblərin mahiyyətini yaratmışdır. Vətənpərvərlər isə "şanlı" keçmişə bağlı şüur formalaşdır-mağa çalışmışlar (Hroch, 1995: 288). Bu kontekstdə siyasi tələbin ilk mərhələsinin Çar Rusiyası Azərbaycanının millətləşmə prosesində, ümumilikdə milli hərəkatların B mərhələsində ortaya çıxdığı deyilə bilər. Azər-baycanda bu proses 1800-cü illərin sonundan 1905-ci il inqilabına qədər olan prosesi əhatə etmişdir.

Siyasi tələbin ikinci mərhələsi "təmsil" problemi olmuşdur. Təmsil probleminin ortaya çıxması isə konstitusiyalarla gerçəkləşmişdir. Bu

Avstriyada 1860-cı ildə olduğu halda, Rusiyada ancaq 1905-ci il inqilabından sonra mümkün olmuşdur. Ancaq mərkəzi parlamentdə müəyyən ölçüdə təmsil olunma haqqı verilən qeyri-dominant etnik qrup nümayəndələrinin təsir imkanı aşağı səviyyədə olmuşdur. Bununla bərabər, tələblər təmsil olunma ilə bitməmiş, dil (məktəblər, mətbuat və s.), mədəni və sosial sahəyə də yayılmışdır. Ancaq təmsil olunma haqqı əldə edilməsinə baxmayaraq, əzilən millət qeyri-dominant etnik qrup mövqeyində qalmışdır. Bu səbəblə bu vəziyyətdən qurtulmaq üçün muxtariyyət uğrunda mübarizə aparmışdır (Hroch, 1995: 197, 288-289).

Çarlıq dövrü Azərbaycanında təmsil olunma problemi və ya imkanı 1905-ci il inqilabının yaratmış olduğu nisbətən bərabərlik, azadlıq şəraitində mümkün olmuşdur. Hüseyn Baykara (1904-1984) "Azərbaycan istiqlal mübarizəsi tarixi" (1975) adlı əsərində 1905-ci il inqilabının təsirlərini Qafqaz müsəlmanlarının Çardan istəkləri şəklində ələ almışdır (Baykara, 1975: 124).[13] Yeri gəlmişkən, 1905-ci ildə bir qrup müəllim Qafqaz canişininə məktubla müraciət edərək ana dili tələblərini irəli sürmüşlər (Seyidzadə, 1998: 35).[14] Bu tələblər içərisində əyalətdə və mərkəzdə ədalətli, bərabər təmsil olunma haqqının tanınması problemi də gündəmə gətirilmişdir. Bu kontekstdə Rusiya müsəlmanları təmsil olunma və s. problemlərini həll etmək üçün Rusiya müsəlmanlarının qurultaylarını təşkil etmişlər. Bu qurultaylar sayəsində ilk dəfə Çar Rusiyasının müsəlman türkləri bir məqsəd uğrunda toplana bilmişlər (Nəsibli, 2019: 294).[15]

Digər tərəfdən nəzəri olaraq təmsil olunma haqqı muxtariyyət və buna bənzər tələbləri meydana çıxarmış kimi görünsə də, praktikada fərqli təşəkkül tapmışdır. Əlavə olaraq proses içərisində tarixi torpaqlara əsaslanaraq irəli sürülən muxtariyyət tələbi Birinci Dünya müharibəsinə qədər milli hərəkatların proqramlarında öz müqəddəratını təyinet-

---

[13] 1905-ci il inqilabının təsirləri və Qafqaz müsəlmanlarının tələbləri üçün baxın: Hüseyn Baykra, (1975). Azerbaycan İstiklal Mücadelesi Tarihi. İstanbul: Azerbaycan Halk Yayınları. s. 120-126.

[14] Ətraflı məlumat üçün baxın: Dilarə Seyidzadə, (1998). Azərbaycan XX əsrin əvvələrində: müstəqilliyə aparan yollar. Bakı: Azərbaycan Respublikası Kitab Cəmiyyəti. s. 33-45.

[15] Kemal Karpat Rusiya müsəlmanlarının İslama və ya müsəlman qurultaylarına sarılmalarını onları bir yerdə tutacaq başqa ortaq dəyərin olmaması ilə əsaslandırmışdır (Karpat, 2009: 564). Ətraflı məlumat üçün baxın: Kemal Karpat, (2009). İslam'ın Siyasallaşması (Tərc. Şiar Yalçın). İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları. s. 561-569.

mə probleminin əsas məsələsi olmuşdur (Rusiya və Avstriyada) (Hroch, 1995: 290). Ancaq Çar Rusiyası Azərbaycanında muxtariyyət tələbi Birinci Dünya müharibəsi boyunca (1917) müzakirə mövzusu olmuş və muxtariyyət Rusiya müsəlmanları üçün tələb edilmişdir. Bir sözlə, milli hərəkatın liderləri milli şüura sahib olmalarına baxmayaraq, "milli" mahiyyətli bir şey tələb etməmişdir və ya edə bilməmişdir. Çarlıq dövrü Azərbaycanın millətləşməsinin B mərhələsində siyasi şüur formalaşmasına qarşı konyunkturuna görə tələblər dil, mədəniyyət, təmsil olunma və s. səviyyədə olmuşdur. Çünki B mərhələsində əvvəlki rejim (çarlıq) siyasi varlığını, legitimliyini qorumuşdur.

Bir sözlə, Mərkəzi və Şərqi Avropadakı milli hərəkatlar başlanğıcda siyasi tipli tələblərinin formalaşmamasına/formalaşa bilməməsinə baxmayaraq, Birinci Dünya müharibəsi və Oktyabr inqilabının təsiri ilə müstəqillik tələblərini irəli sürmüşdürlər. Hətta müharibənin əvvəlində çox az milli hərəkat lideri müstəqillik tələbi ilə önə çıxmışdır. Bu kontekstdə imperiyaların süqutu əzilən millətlər üçün dövlətçiliyin qapısını açmış və müstəqillik birbaşa öz müqəddəratını təyin prinsipindən doğmuşdur (Hroch, 1995: 292, 293).

Digər tərəfdən, öz müqəddəratını təyinetmə tələbi, yəni siyasi tələb nə siyasi təzyiq, nə də dil və mədəni tələblərlə bağlı olmuşdur. Öz müqəddəratını təyin etmə tələbinin formalaşa bilməsi üçün qeyri-dominant etnik qrupun sosial strukturunu tamamlamış və keçmişə dair ənənələri və s. istifadə edə bilməsi lazım olmuşdur. Birinci Dünya müharibəsi zamanı imperiyaların süqut etməsi nəticəsində öz müqəddəratını təyinetmə prinsipi gündəmə gəlmiş və milli liderlər fərdi və qrup haqlarını qorumaq üçün radikal separatçı mövqe nümayiş etdirmişlər. Bu kontekstdə öz müqəddəratını təyin etmə prinsipinin Avropanın milli inkişafının nəticəsi olduğu deyilə bilər (Hroch, 1995: 295). Bir sözlə, Çar Rusiyası Azərbaycanının millətləşmə prosesi də Hroxun kiçik millət modeli çərçivəsində dəyərləndirilə bilər.

# İKİNCİ FƏSİL

## Millətquruculuğunun A Mərhələsi

## 2.1. Kolonialist modernizasiya

Qrinfeld rus milli kimliyinin I Pyotr və II Yekaterina tərəfindən aşılandığını irəli sürmüş və milli kimliyin formalaşmasının başlanğıc səhifəsi olan Pyotr dövründə rus xalqının düşünmə tərzinin dəyişməsinin mədəni çərçivədə olduğunu bildirmişdir (Greenfeld, 2017: 292-293). Qərb heyranlığının rus millətçiliyinin belə formalaşması üçün başlanğıc mahiyyəti daşıdığı deyilə bilər. Həmçinin Çar dövrü Azərbaycanının milli hərəkatı tərkibində olduğu Çar Rusiyası modernləşmə strategiyasının təsirində (və ya cavab olaraq) formalaşdığını/başladığını demək mümkündür.

Azərbaycanın Çar dövründəki milli hərəkatın A mərhələsində dəyərləndiriləcək Mirzə Fətəli Axundzadə də müsəlmanların düşünmə, inanma formasını dəyişdirməyi və ya modernləşdirməyi qarşısına məqsəd qoymuşdur. Axundzadənin düşünmə forması və xalq dilində yazması XX əsrin əvvəlindəki millətçi intellektuallar üçün də qaynaq təşkil etmişdir. Ancaq Axundzadənin milli hərəkatın A mərhələsində açıq siyasi çıxış (millətçilik) yaratmadığını və ya yarada bilmədiyini demək mümkündür. Yeri gəlmişkən, müxtəlif əsərlərində, məktub və məqalələrində istifadə etdiyi millət, İran milləti, müsəlman milləti kimi ifadələri millət anlayışından xəbərdar olduğunu göstərməklə bərabər, bir millət adına siyasi qayğı, hədəf içərisində olmamışdır.[16]

Axundzadənin təmsil etdiyi A mərhələsi, ümumilikdə, Rusiya müsəlmanlarının ilk sarsıntını yaşadığı və ya ənənəvi dəyərlər qarşısında şübhə duyduqları dövrdür. Bu mənada ilk ziyalılar yaşadıqları sarsıntı ilə bir kimlik böhranı yaşasalar da, bu arayış siyasi şüura çevrilməmiş və ya çevrilə bilməmişdir. Axundzadənin sorğulaması və ya tənqidi çara qarşı siyasi mövqedən savayı, öz müsəlman cəmiyyətinə qarşı maa-

[16] Axundzadənin sözügedən terminlərdən istifadə etdiyi yazıları üçün baxın: Mirzə Fətəli Axundzadə, (2014). Seçilmiş əsərləri. Bakı: Kitab Klubu. S. 177, 185, 193

rifçi mahiyyətdə olmuşdur. Bununla birlikdə A mərhələsi ziyalıları milli şüurun formalaşması prosesinin ilk addımını atmış oldular (Asker, 2015b: 536). Bir sözlə, milli hərəkatın A mərhələsi və Axundzadə modernləşdirmə kontekstində dəyərləndirildiyi təqdirdə millətləşmə prosesinə töhfəsi başa düşülə bilər. Bu kitabda Çarlıq dövrü Azərbaycanının millətləşmə prosesi kontekstində A mərhələsində dəyərləndiriləcək Axundzadə də eyni taleyi qeyri-dominant etnik qrupun nümayəndəsi olaraq XIX əsrdə yaşamışdır. Yəni Axundzadənin dövründə və ya A mərhələsində millətçi ideologiyasını genişlənməsini gərəkli edən toplumun formalaşması üçün lazımi inqilablar (1905, 1917) baş verməmişdir.

## 2.2. Millət quruculuğunun A mərhələsində modern tarixin formalaşması

Maariflənmə düşüncəsi fəlsəfədə ortaya çıxan rasionalizmin zirvə nöqtəsi olaraq dəyərləndirilə bilər. Tarixin və gələcəyin tərəqqi çərçivəsində dəyərləndirilməsi aydınlanma dövrü filosoflarının ortaq nöqtəsi və ayırdedici xüsusiyyətlərindən biri olmuşdur (Çiğdem, 2007: 42). Maariflənmə düşüncəsi əks qütb olaraq dini müəyyən etmişdir. Buna görədir ki, maariflənmənin təsirləri dini sahədə daha bilinən formada hiss edilmişdir. Beləliklə, Qərb mədəniyyət, əxlaq, siyasi və s. sistemlərində dinin və ya kilsənin müəyyənediciliyi ortadan qalxmışdır (Dupre, 2004: 229, 230). Xülasə, maariflənmə ilə bərabər, humanist anlayış daha əhatəli şəkildə ortaya çıxmış və tərəqqi idealına əsaslanan "İncildə göstərilənin" əksi yönündə tarix anlayışı meydana çıxmışdır (Özlem, 2016: 52). Bu kontekstdə Doğan Özlem (1944) "Tarix fəlsəfəsi" (2012) adlı əsərində maariflənmənin irəliləmə çərçivəsində tarixə baxışından, hətta millətləşmə ilə əlaqəsindən belə bəhs etmişdir:

*XVI və XVII əsrlərdə təbiət elmlərində ortaya çıxan yeniliklərin, xüsusilə XVIII əsrdə cəmiyyətə təsiri irəliləmə instinktini ortaya çıxarmışdır. Eyni tarixlərdə Avropa cəmiyyətləri millətləşmə prosesi içərisində idilər. Orta əsrlərin sxolastik dövlət anlayışı içərisində assimilyasiya etməyi hədəflədiyi milli müxtəlifliklər humanizm və maariflənmə düşüncəsi sayəsində təkrar ortaya çıxmışdır. Qərb cəmiyyətləri özlərini dil, mədəniyyət, ölkə və tarix kontekstində fərqli millətlər formasında qavramağa başladılar. Bu kontekstdə millət anlayışının yeni məna qazandığı başa düşülməkdədir. Bir sözlə, tərəqqi ideyası bütün millət-*

*lər tərəfindən (Avropada) qəbul edilməklə bərabər, millətlərə tarixlərini irəliləmə sayəsində "milli şüur"la təkrar alma imkanı yaratmışdır (Özlem, 2016: 63).*

Beləliklə, maariflənmə ilə bərabər klassik "*theoria historia*" əleyhdarlığı aşılmış və tərəqqi idealından yola çıxan tarixin fəlsəfi dəyərləndirməsi ortaya çıxmışdır. Volter isə tarixin fəlsəfi olaraq dəyərləndirilməsinin lazımlılığını yazan ilk filosof olmuş və tarixin yazılarkən kilsədən ağıl tarixçiliyinə keçmənin lazım olduğunu müdafiə etmişdir (Özlem, 2016: 66, 67). Beləliklə, maariflənmə düşüncəsi insanı və inkişafını anlamaq üçün tarixə önəm vermiş və tarixə pozitivist çərçivədən yanaşmışdır. Bu kontekstdə maarifçi filosof olan Kondorket (1743-1794) "İnsan zehninin inkişafı" (1795) adlı əsərində insanlığın formalaşmasından bəhs etmiş və mərhələlərə bölmüşdür.

Qısaca, maariflənmə dövrü "*theoria-historia*" kontekstində ortaya çıxan fəlsəfə-tarix ziddiyyətini həll etmiş və tarix fəlsəfəsini ortaya çıxarmışdır (Özlem, 2016: 64).

Axundzadənin də tarix yanaşmasının formalaşmasında maariflənmənin təsiri olmuşdur. Bunun üçün "Kəmalüddövlə məktubları" əsərində pozitivist tarix yazısına girişərək müsəlman tarix yazısını "əxlaqçılıq" və "nəsihətçilik"dən (Özlem, 2016: 52) qurtarmaq istəmişdir. Axundzadə tarixə rasionalizm çərçivəsindən yanaşaraq "maariflənmənin xidmətində bir tarix" (Özlem, 2016: 62) formalaşdırmaq istəmişdir.

Belə ki, Axundzadə "Kəmalüddövlə məktubları" adlı əsərində pozitivist tarix anlayışını ortaya qoymuş və İslamla bərabər ortaya çıxan teoloji tarix anlayışını xor görmüşdür. Bu mənada İslamdan öncəki "şövkət" və "səadət" dövrü olaraq tərəqqi etmişdir (Axundzadə, 2014: 35). Beləliklə, Axundzadənin tarix anlayışı islami keçmişi "barbar" keçmiş olaraq qəbul etmişdir. Digər tərəfdən, pozitivist tarix anlayışını ortaya çıxarmaq üçün də İslam öncəsi dövrə istinad etmişdir. Axundzadənin tarixə baxışında "qərbçi" mövqenin hakim olduğunu ifadə etmək mümkündür. Yeri gəlmişkən, Aleksandra Koyre (1882-1964) "XIX əsrin əvvəllərində Rusiyada qərbçilik, millətçilik və fəlsəfə" (1994) adlı əsərində rus düşüncəsində qərbçilərin tarixə baxışını belə ifadə etmişdir: *"Rusiyanın qurtuluşunu Avropanın dəyərlərini mənimsəməkdə görən qərbçilər keçmişi tamamilə silməkdən yana idilər. Ancaq qərbçilərin anladıqları Qərb real deyildi. Rus xalqının ancaq bu metodla özünü var edə biləcəyini düşünməkdə idilər" (Koyre, 1994: 12).*

Bir sözlə, Axundzadə də rus qərbçiləri kimi düşünmüş və İslamdan öncəki keçmişi istinad olaraq tarix anlayışı formalaşdırmaq istəmişdir. Çünki Axundzadəyə görə, İslam dövründəki tarix (keçmiş) pisliklərlə, ədalətsizliklərlə doludur. Buna qarşılıq isə İslamdan öncəki İran tarixi insana hörmət edən, ədalətli tarix olmuşdur. Ancaq İslam dövrü din adamlarının fanatizmindən və dünyanın tərəqqisindən xəbərsiz despot padşahlara görə müsəlman sivilizasiyadan xəbərsiz qalmışlar. Bu səbəblə də, İslamdan öncəki İran tarixi haqqında dəqiq bilgi əldə etmək üçün İslam tarixindən başqa, yunan tarixçiliyinə müraciət etmənin daha doğru olacağını demişdir (Axundzadə, 2014: 35-37, 40). Nəzəri mənada filosof olmamaqla bərabər, Axundzadə tarix yaratmaq üçün İslam dövrünün gözardı edilməsi gərəkdiyinə inanmışdır. Axundzadə bir İslam düşməni olmaqdan əlavə, dini hakimiyyətin müsəlmanların inkişafına əngəl təşkil edəcəyini düşündüyündən islami dövrlə əlaqəli bilgi əldə etmək üçün islami mənbələrə belə etibar etməmişdir.

## 2.3. Millətquruculuğunun A mərhələsində Əlifba İslahatı

Axundzadə "Kəmalüddövlə məktubları" əsərinin ikinci məktubunu belə başlayıb: "İranlılar, əsasən, cahildirlər. İstifadə etdikləri əlifba barbarlıq dövründən qalmışdır. Bu səbəblə iranlılar arasında, bəlkə də, min nəfərdən biri oxumağı bacarar. Elə bir çara tap ki, iranlılar oxumağı bacarsınlar. Yəni insanlar əziyyət çəkmədən ana dillərində oxuyub, yaza bilsinlər"(Axundzadə, 2014: 66).

Xalq dilinə əsaslanan modern dillərin ortaya çıxması Avropada kilsə dilinin "süniliy"inin[17] tənqidi ilə başlamış və "saf, köklü" dillər arayışında olan millətçi ideologiyaya qədər davam etmişdir. "Qüsursuz dil" yaratmaq istəyən Dante Aligyerinin (1265-1321) 1303-1305-ci illərdə yazdığı "Xalq dilinin bəlağəti haqqında" əsəri xalq dilinə vurğu edən ilk əsər olaraq qəbul edilə bilər (Eco, 200: 31). Axundzadənin din dilinə yönəlmiş tənqidinin milli mövqeyinin formalaşdığı B və C mərhələlərinə təsir etdiyi deyilə bilər. Əlifba islahatının məqsədi *danışıq, ifadə etmə və*

[17] Ətraflı məlumat üçün baxın: Umberto Eco, (2009). Avrupa Medeniyyetinde Kusursuz Dil Arayışı. İstanbul: Literatür Yayınları. 31-47; 63-99.

*anlama* problemlərini ortadan qaldıraraq elmlərin və incəsənətin inkişafına müvəffəq olmaqdır. Yəni Axundzadə bir maarifçi olaraq dili məbəddən çıxardaraq dilə və müsəlmanlara modern kimlik qazandırmağı hədəfləmişdir.

1857-ci ildə yazdığı Əlifba risaləsinin üç mərhələdən keçdiyi deyilə bilər. Birinci və ikinci mərhələdə oxuma-yazma probleminin aradan qaldırılması üçün sadələşdirilmə istəmişdir. Ancaq, xüsusilə əlifba layihəsinin həm Tehranda, həm də İstanbulda rədd edilməsindən sonra əlifbanın dəyişdirilməli olduğunu irəli sürmüşdür. Qısaca, Axundzadənin dildəki islahat cəhdi Çarlıq dövrü Azərbaycanının müsəlman ziyalıları arasında "yeni fikirlərin" (Rəsulzadə, 2014d: 20) formalaşmasına yardım etmişdir.

Bu əsərin başlıca iddiası millətləşmə prosesinin "kiçik millət" modeli çərçivəsində araşdırılacağı təqdirdə başa düşülə biləcəyi yönündədir. Çünki modern millətlərin ilkin formalaşma mərkəzləri ilə Azərbaycanın əlaqəsi əvvəl Peterburq, sonra isə İstanbul vasitəsiylə olmuşdur. Bu mənada Axundzadənin xalq dilində yazmağa başlamasının müəyyən "icazə" və ya kolonial modernləşdirmə əsasında başladığını ifadə etmək mümkündür. Yeri gəlmişkən, Rəsulzadə bu mövzunu belə ifadə etmişdir: *"Çarlıq Şərqi Qafqazda hakimiyyətini qurduqdan sonra nəzarəti ələ keçirmək üçün İran hegemoniyasına qarşı durmasının yerli dildə yazmağı yayğınlaşdırmaq olacağı qərar vermişdir. Bu məntiqlə modern Azərbaycan ədəbiyyatının qurucusu olaraq qəbul edilən Mirzə Fətəli Axundzadə komediyalarını Vorontsovun icazəsi və təşviqi ilə xalq dilində yazmışdır. İlk dəfə, türkcə komediya canişinin mətbəəsində çap edilmiş və Tiflisdə teatr səhnəsinə qoyulmuşdur" (Rəsulzadə, 1993: 29).*

Mehradad Kiaya (1995) görə isə: "Axundzadənin əlifba islahatının arxasındakı əsas prinsip oxuma-yazmanın artırılması olmuş, əlifba islahatını müdafiə edən müsəlman cəmiyyətlərin inkişaf etməsində əsas əngəl olaraq gördüyü İslama da dolayı yolla hücum etmişdir". (Kia, 1995: 429)

Axundzadə əlifba islahatı üzərində durmasının səbəbini: "Bütün dünya xalqlarının elmdə, sənayedə irəliləməsini, hətta köhnə yazılarını buraxıb mədəniyyət dairəsinə daxil olan yaponları gördüyüm zaman sadəcə təlim və tərbiyə funsksiyası olan əlifbanın çətinliyinə görə müsəlmanların geri qalmasına dözə bilmirəm" (Axundzadə, 2005c: 173), –

şəklində dəyərləndirmişdir. Bir sözlə, əlifba islahatının millətçi hədəfinin olmadığını ifadə etmək mümkündür.

Ancaq çarlıq dövrü Azərbaycanı haqqında aparılan araşdırmalar zamanı Axundzadənin əsərlərində millətçilik və millət anlayışlarını axtarmaq səhvdir. Çünki maarifçi olan Axundzadənin hədəfi İslam dininin protestantlığın başlatdığı islahat hərəkatına bənzər transformasiya keçirməsi və müsəlman iranlıların xurafatdan qurtularaq inkişaf mərhələsinə keçə bilmələri idi. Bu nöqtədə Axundzadənin əsərlərində, xüsusilə əlifba islahatının altında "millət düşüncəsi axtarmaq mümkündürmü?" sualı ağıla gəlməkdədir. Bu kontekstdə Axundzadənin təhsil və tədrisin modern prinsiplər çərçivəsində formalaşdırılmasını tələb edərkən xalqa "ənənələrini tanıdıb, sevdirən təhsil" (Kedourie, 1971, 75) verən millətçi düşüncədən hərəkət etmədiyi deyilə bilər. Xülasə, "əzilən millət" olan Çarlıq dövrü Azərbaycanında milli hərəkatın ilk mərhələsində millət kontekstində bir düşüncənin formalaşdığını iddia etmənin məcburi yanaşma olacağı başa düşülməkdədir.

Əlifba dəyişikliyi dilçilik və fəlsəfi baxımdan dəyərləndirilə bilər. Dilçilik baxımından baxdıqda əlifba islahatının 4 səbəbi vardır. Axundzadə əlifba islahatının səbəbini və gətirəcəyi asanlığı belə ifadə etmişdir:

- **Birincisi:** Müsəlman əlifbasında hərflərin bir-birinə bənzədiyindən ayırd edilməsi çətinləşir. Hərflər arasındakı fərqlilik sadəcə nöqtələrlə müəyyən edilmişdir. Ancaq bəzən nöqtələr qoyulmadığı zaman yeni oxumağa başlayanlar üçün çətinlik yaradır.

- **İkincisi:** Digər tərəfdən nəhçivlərin istilahında hərəkə (i'râb)[18] olaraq adlandırılan saitlərin sözlərin tərkibində yazılmaması da yeni oxumağa başlayanlar üçün çətinlik yaratmaqdadır.

- **Üçüncüsü:** Günlük danışıqda istifadə edilən və əlifbada olmayan hərflər. Bu vəziyyət oxucuda öyrənmənin ilk mərhələlərində səhvlər edilməsinə səbəb olmaqdadır.

- **Dördüncüsü:** Xülasə, biz müsəlmanlar oxumağı hərflər sayəsində oxumaqdan başqa, vərdişin və kəlmələrin görünüşü əsasında oxuyuruq" (Axundzadə, 2005c: 16).[19]

---

[18] Bu ifadə Nailə Rüstəmlinin "M.F. Ahundzade'nin Arap Alfabesinin Islahıyla İlgili Yeni Alfabe Layihası. *Din Bilimleri Akademik Araştırma Dergisi*, Cilt 16, Sayı 3, 2016, s. 161-187" adlı məqaləsindən götürülmüşdür. s. 168.

Axundzadə əlifba islahatına inanmış, əhəmiyyət vermiş və islah edilmiş əlifba sayəsində müsəlmanların öz dillərində oxuyub-yazma imkanı əldə edəcəyini iddia etmişdir. Əlifba islahatının uğura çatması üçün bir müsəlman dövlət tərəfindən iqtisadi və siyasi olaraq dəstəklənməsi gərəkdiyini bilmiş, Osmanlı[20] və İrana (Qacarlar) müraciət etmişdir. Bu cəhətdən Axundzadə Azərbaycan nümunəsində milli şüur hədəfi güdməmişdir. Özü də bu prosesi yenilənmə olaraq adlandırmışdır. Lakin əlifbada islahat Axundzadə üçün önəmli problem olmuşdur. Çünki əlifba məsələsinin həll edilməsi müsəlmanların elm və incəsənət baxımından inkişaf etməsini asanlaşdıracaqdır. Bunun üçün, xalqın modern elmi əldə edə bilməsi üçün əlifba tərtib edilməli, əlifba tərtib edilərkən öyrənmənin asanlaşması üçün sadələşdirmə üzərində xüsusilə durulmalıdır (Axundzadə, 2005c: 170-172). Buradan başa düşüləcəyi kimi Axundzadənin ana dilində yazmağı təşviq etməsinin səbəbi müsəlman xalqının Avropa elm və incəsənətini öyrənməsini asanlaşdırmaq olmuşdur. Əlifba islahatının baş tutması ilə müsəlmanların inkişaf etməsinin asanlaşacağı düşüncəsi ilə hərəkət etmişdir. Axundzadə din adamlarının islahata əngəl olmamaları üçün onları razı salmağın gərəkdiyini də hiss etmiş və "xalqın oxuduğunu anlama bacarığının artacağından dolayı dini həqiqətləri də anlayacağını, beləcə, ruhanilərin xalqın cahilliyinin ortadan qaldırılmasına əngəl olmayacağına inandığını" (Axundzadə, 2005b: 18) bildirmişdir.

Axundzadəyə görə, insanın nəticə çıxarması, təfəkkür etməsi varlığını davam etdirə bilməsi baxımından əhəmiyyət daşımaqdadır: "Oxumuşların sayının yetəri qədər olduğu ölkələrdə təfəkkür edənlərin sayı da kifayət qədər olmaqdadır. Təfəkkür edənlərin olduğu ölkədə isə həyatın bütün sahələrində xalq tərəqqi edə bilər, qısaca, hər şeyin təməli elmdir və bilginin əldə edilməsi isə əlifbanın asan olub-olmayacağından asılıdır" (Axundzadə, 2005 b: 249).

[19] Ətraflı məlumat üçün baxın: Mirzə Fətəli Axundzadə (2005 c). Əsərləri. Bakı: Şərq-Qərb. S. 15-20, digər tərəfdən Axundzadənin əlifba problemi haqqında türkcə mənbə üçün baxın: Naile Rüstemli, *M. F. Ahundzade'nin Arap Alfabesinin Islahıyla İlgili Yeni Alfabe Layıhası*. Dini bilimler Akademik Araştırmak Dergisi, Cilt 16, Say 3, 2016. s.161-187.

[20] Kamal Karpat modernləşmə prosesində Osmanlı və Rusiya müsəlmanları arasında fərqlər olduğunu irəli sürmüşdür. Ətraflı məlumat üçün baxın: Kemal Karpat, (2009). İslam'ın Siyasallaşması. (Tərc. Şiar Yalçın). İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları. s. 534-544.

Axundzadənin Azərbaycanda dil üzərindən modernləşdirməni gerçəkləşdirməyə çalışdığı deyilə bilər. Maariflənmənin pozitivist anlayışına inanmış Axundzadə üçün dinin, dolayı yolla ərəb əlifbasının xalq üçün legitimliyi qalmamışdır. Cəhalətin səbəbi olaraq qəbul etdiyi ərəb əlifbası ilə, əslində, artıq sübut edilmə ehtimalı olmayan dini gerçəkliyin İran xalqının həyatına yön verməməsi gərəkdiyi iddiasını müdafiə etmişdir. "Ərəblər bizim (İran) minillik səltənətimizi yıxdılar, bu günə qədər abad etmək mümkün olmamışdır. Digər tərəfdən, boynumuza elə bir yazı da bağladılar ki, onun sayəsində ümumən cəhalətdən qurtulması mümkünsüz hala gəlmişdir" (Axundzadə, 2014: 161). Modernlik öncəsi dövrdə Avropada latınca "müqəddəs homogenlik" və buna uyğun kainat təsəvvürü formalaşdırmışdı. Ancaq maariflənmənin "ictimai filosofları" üçün kilsə və latınca "geridəqalmışlıq" mənasına gəlməkdə idi. Bu mənada Axundzadənin də bənzər qayğı və düşüncədə olduğunu ifadə etmək mümkündür.

Beləliklə, Axundzadənin məqsədinin nə sistematik materialist fəlsəfə ortaya qoymaq, nə də milli şüur (siyasi hədəf) güdmək olmadığı başa düşülməkdədir. Çünki B və C mərhələsində formalaşan milli/siyasi şüur/hədəfdən başa düşüldüyü kimi iqtisadi və siyasi şərtlər yaranmadan, milli şüurun yaranması barədə əsərlər (qəzet məqalələri, kitablar, şeirlər və s.) ortaya çıxa bilməz. Bu cəhətdən Axundzadə də bir reformist olaraq dəyərləndirilə bilər. Milli dil anlayışı birbaşa milli şüur (siyasi hədəf) çağırışını etməməkdədir. Halbuki Axundzadə müsəlmanların inkişafına yardım edəcək Avropa elmlərini öyrənmək üçün süni ərəb əlifbasının əngəl təşkil etdiyini və islahat keçirilməsini və ya xalq dillərinin istifadə edilməsi gərəkdiyini iddia etməkdədir. Axundzadəyə görə, ərəb əlifbasının təlim və tərbiyədən başqa xüsusiyyəti yoxdur və elmin, incəsənətin inkişafına əngəl olmaqdadır.

Çarlıq dövrü Azərbaycanında dilə modern anlayışları daxil edərək modernləşmə prosesini başladan Axundzadə mənimsədiyi düşüncəni belə ifadə etmişdir: *"Əsərin müəllifi ("Kəmalüddövlə məktubları") modern Avropa filosofları ilə eyni düşüncəni paylaşmaqdadır. Buna görə də liberal və pozitivist peşə sahiblərindəndir. Elm və incəsənət aid olduğu millətin bütün sinifləri arasında tərəqqi etməyi məqsədləmişdir. Bu səbəblə əlifba dəyişikliyi layihəsi hazırlamışdır. Müəllif millətinin qurtulmasını istəməkdədir. Lakin inkişafın önündəki əsas əngəl olan dini etiqad məhv edilmədikcə bu məqsəd reallaşmaz"* (Axundzadə, 2014: 160).

Axundzadə müəyyən mənada ənənəvi dinlərin insanları andla özünə bağlı qıldığını və din dilinin (ərəb əlifbasının) də (təlim-tərbiyə) icra edilərək müsəlmanlara əngəl təşkil etdiyi düşüncəsindən hərəkət etmişdir. Bu səbəbdən icbarilik prinsipinə əsaslanan İslam dininin xristianlıq bənzəri islahata məruz qalaraq (Axundzadə, 2005 c: 220) yeni kimlik qazanması gərəkdiyi fikrini müdafiə etmişdir. Dildəki islahat və dəyişiklik isə ənənəvi icmadan modern icmaya (millət) ilk addım olaraq dəyərləndirilə bilər. Yəni islahata məruz qalmış dilin Axundzadə üçün homosentrik, rasional bilginin qaynağı olmaqla varlığın, dəyərin, siyasətin müəyyənedicisi olan teosentrik bilgi qaynağından qurtulmaq mənasına gəldiyi deyilə bilər.

Əlifba islahatı müsəlman aləmində bir ilk olaraq qəbul edilə bilər və əsas xüsusiyyəti maarifçi müəllifin dindaşlarını cəhalətdən qurtarma cəhdidir. Axundzadənin əsərləri millətləşmənin, milli şüurun özü olmaqdan əlavə, millətləşməyə giriş mahiyyəti daşımaqdadır. Yəni kolonial modernləşdirmənin təsirində qurtuluş arayan Axundzadənin əsas qayğısı irəliləmə üçün dini toplumsallığın tənqidi olmuşdur. Əlifba islahatı da bu kontekstdə dəyərləndirilə bilər. Bir sözlə, əlifba islahatının Çarlıq dövrü Azərbaycanında dilə yönəlmiş "filoloji" yanaşma olduğu deyilə bilər. Ancaq millətləşmə prosesinin A mərhələsini formalaşdıran Axundzadədə "milli nəşr dili" probleminin olduğu görülməməkdədir. Beləliklə, müqəddəs dil ilk dəfə "bərabər səviyyəli marağa və incəlməyə" (Anderson, 2017: 83, 87) məruz tutulmaqdadır.

Axundzadə haqqında məhz millətləşmə prosesinə töhfə yönündən aparılan araşdırmalarda millətləşməyə təsirinin, əsasən, əskik dəyərləndirildiyi deyilə bilər. Axundzadənin əsərlərində millətçi düşüncənin izlərinin olduğunu irəli sürmək və iddia etməklə millətləşmə prosesinin anlaşılmasına zərər verəcəyini ifadə etmək mümkündür. Bu kontekstdə Axundzadənin Həsən bəy Zərdabiyə (1842-1907) yazdığı "Əzizimiz Həsən bəy" adlı məktubunda məsələyə yanaşmasını belə ifadə etmişdir:

"Həsən bəy, sən müsəlmanların elmin fəzilətlərindən yararlanmalarını istəyirsən. Bu minvalda məktəblər və s. bina etməkdən bəhs edirsən. Ancaq bunlar indilik xəyal məhsuludur. Çünki maddi qaynaq olmadığı kimi İslam ölkələrinin əsas paytaxtları olan İstanbul və Təbrizdə belə yetəri qədər oxuma-yazma bacaran tapılmamaqdadır. Halbuki elmin inkişafı və sənin muradına çatmağın üçün bizim çobanlarımızın be-

lə prussiyalı çobanlar kimi oxuma-yazma bacarmaları gərəkməkdədir". (Axundzadə, 2005c: 204-206)

Dolayısıyla, Axundzadənin B və C mərhələsindəki ziyalılar kimi milli (siyasi) şüura, hədəfə sahib olması mümkün olmamış, ola bilməmişdir. Çünki modern millətin inkişaf proseslərindən bildiyimiz kimi iqtisadi, siyasi inqilabların yaşanması, mətbəənin və s. şərtlərinin təmin edilməsi lazım olmuşdur. Ancaq Axundzadənin həm fiziki olaraq Bakıdan ayrı olması, həm də iqtisadi (neft) inqilabın hələ yaşanmaması (1870-ci illər), son olaraq isə, ilk siyasi inqilabın meydana çıxmamasından dolayı millətçi şüura sahib ola bilmədiyini demək mümkündür. Digər tərəfdən, Axundzadə Həsən bəy ilə sonrakı yazışmalarında "türki" dildə məktəb açmaq üçün tövsiyə etmişsə də (Axundzadə, 2005c: 212), bu millətçi şüura dönüşməmişdir (Milli hərəkat prosesində dilin inkişafı üçün Şəkil 5-ə baxın). Ancaq xüsusilə əlifbanın xalq tərəfindən başa düşülməməsindən dolayı ərəb əlifbasının və dini dəyərlərin müsəlmanların inkişafına əngəl təşkil etdiyi tənqidini gətirməsi, xalq dilinin kəşfinə yardım etmişdir. B mərhələsində milli şüurun formalaşmasına xidmət etmişdir. A mərhələsində tanınma siyasi problem halına gələ bilməmişdir. Beləliklə, Axundzadə əsərlərində müsəlmanları qurtarmaq istəmişdir.




*Şəkil 5. Ana dilinin inkişafı*

## 2.4. Axundzadənin maarifçi fikirlərinin millətləşməyə təsiri

Axundzadənin millətləşmə prosesinə yönəlmiş təsirinin doğru formada müəyyən edilməsi məcburiyyət olaraq qarşımızda durmaqdadır. Bu mənada Axundzadənin töhfəsinin millətquruculuq etmək olmadığını başa düşmək üçün öncəliklə millətin nə demək olduğuna qayıtmaq lazımdır. Millət müəyyən və dəqiq vətən anlayışına, siyasiləşmiş coğrafiya, tarix şüuruna, ictimai şüur, istiqlaliyyət və müstəqillik kimi anlayışlara sahib olması lazım olan birlik olaraq ifadə edilə bilər. Buna görə Axundzadəni millət qurmağı hədəfləyən elementlərə sahib ziyalı olaraq dəyərləndirməmək lazımdır. Bu səbəbdən "Axundzadənin millətləşmə prosesinə təsiri, töhfəsi nədir?" sualı ortaya çıxmaqdadır. Öncəliklə, Axundzadənin doktrinasının millətçi mahiyyət daşımaqdan daha çox modernləşdirmə cəhdləri ilə B və C mərhələlərinin şərtlərini hazırladığını ifadə etmək mümkündür.

Axundzadə "Ali İranın "Millət" qəzetinin münşisinə" (1862) başlıqlı məktubunda özünü İran milləti ilə dini və məzhəb baxımından yaxın olan Qafqaz vətəndaşı olaraq tərif edir. Digər tərəfdən, Osmanlı, İran və Qafqazdakı milləti yəhudi, xristian və müsəlmanlardan ibarət olduğunu tərif etmişdir (Axundzadə, 2014: 193, 219). Qısaca, Axundzadənin bu əsərdə iddia edildiyi kimi modern anlayışlardan xəbərdar olduğunu, ancaq özünü türk və ya azərbaycanlı türk olaraq tərif etmədiyini və ya edə bilmədiyini görməkdəyik.

Çarlıq dövrü Azərbaycanında millətləşmə prosesi üç mərhələli olaraq reallaşmışdır. Hroxun modeli çərçivəsində dəyərləndirdiyimizdə Axundzadə millətləşmənin A mərhələsində dəyərləndirilə bilər. Bu o deməkdir ki, Axundzadədə millətçi, milli bir kimlik, siyasi hədəf formalaşmamışdır. Ancaq bu vəziyyətə etiraz edən əsərlər də yox deyildir. Yeri gəlmişkən, Axundzadədə milli şüurun olmadığını iddia etmənin yanlış olduğunu irəli sürən (Süleymanlı, 2006: 60-63) əsərlər mövcuddur. Bu sualın aradan qaldırılması adına əsərin hər mərhələsi üçün seçilən və milli hərəkat prosesində önə çıxmış adlar olan Mirzə Fətəli Axundzadə, Əli bəy Hüseynzadə və Məhəmməd Əmin Rəsulzadənin milli hərəkat prosesində müəyyənedici olan əsərlərindən çıxarış edərək müqayisəli açıqlama edilə bilər. Axundzadə "Kəmalüddövlə məktubla-

rı"nı tanıtdığı "Kəmalüddövlə məktublarının surətini təqdim edən şəxsin İslam xalqlarının şəriət alimlərindən birinə göndərdiyi məktubun surəti" başlıqlı məktub belə başlayır: *"Ağıl sahibi insanlar tarixin heç bir dövründə dünyanın dinlərdən və zındıqlardan arı olmadığını bilirlər. Ancaq hal-hazırda Avropada dinə qarşı yazanlara əngəl olmaq yerinə, hər cürə azadlıq verilmişdir. Avropada fərdlərə hər cür fikirlərini bəyan etmək və yaymaq azadlığı verilmişdir"*. (Axundzadə, 2005 b: 14)

Əli bəy Hüseynzadənin B mərhələsində kimliyi (türkçülüyü) problem olaraq müzakirə etdiyi "Türklər kimdir, kimlərdən ibarətdir?" (1905) başlıqlı məqaləsi isə belə başlamaqdadır: *"Türklüklə qürur duyduqları halda, türkün kim və kimlərdən mütəşəkkil olduğunu bilməyən yetəri qədər ziyalı, yazıçı vardır! Çünki öz qövmümüzə başqalarının nəzəri ilə baxırıq. Keçmişimizi və millətimizi bilmək üçün özümüzü tanımağımız gərəkməkdədir. Yəni türklərin kim olduqlarını, haradan nəşət etdiklərini, neçə şöbədən ibarət olduqlarını, hal-hazırda harada yaşadıqlarını və s. bilməyimiz gərəkməkdədir. İçimizdə hələ özbəklərin, qırğızların türk olduqlarını bilməyənlər vardır"* (Hüseynzadə, 2007: 42, 43).

Rəsulzadənin milli hərəkatın C mərhələsində siyasi hədəfin müəyyən edilməsində əsas əsər olan "Milli dirilik" (1914) başlıqlı seriya məqaləsi də belə başlamaqdadır: *"Mədəniyyət deyilən şey millətlərdən mütəşəkkil bir şeydir. Hər millət iqtidar və istiqlalı sayəsində mədəniyyətə xidmət etmiş olur. Əgər fransız, alman, italyan, rus millətləri istiqlallarını itirmiş olsalardı, o millətlər namına bilinən dühaları bilməmiz mümkün ola bilməzdi"*. (Rəsulzadə, 2014b: 463, 464)

Yazılanlardan da bilinəcəyi kimi Axundzadənin milli (siyasi) hədəf güddüyünü iddia etmək, millətləşmə prosesini və Axundzadənin xidmətini, töhfəsini başa düşməyə, mənalandırmağa əngəl təşkil edəcəkdir. Axundzadənin düşüncəsində "bizdən" (millət) əlavə, "mən"in (bəşəri) hakim olduğunu demək mümkündür. Yeri gəlmişkən, Axundzadənin təsirləndiyi Qafqaza sürgün edilmiş Dekabrist zabitlər və Tiflisin intellektual strukturu millətçilikdən savayı, kosmopolit, liberal quruluşa sahib olmuşdur.

Rəsulzadə Axundzadənin milli hərəkata töhfəsini xalq dilində yazaraq müsəlmanları və ya türkləri yeni fikirlərlə tanış etməsi şəklində dəyərləndirmişdir. Digər tərəfdən, Axundzadə, əsasən, siyasətdən uzaq durmuş və daha mücərrəd mahiyyətli yazılar qələmə almışdır. Axund-

zadə modern Qərbin kosmopolit, liberal dəyərlərini mənimsəmiş və sxolastik düşüncə formasını dəyişdirməyi hədəfləmişdir (Rəsulzadə, 1998: 13-14, 24-26).

Milli hərəkatın A mərhələsində maariflənmə təsiri özünü göstərmişdir. Beləliklə, Axundzadə klassik icma olan müsəlmanlara qarşı tarixi tənqidini, həcvini maariflənmənin metodundan yararlanaraq etmişdir. A mərhələsində isə nə millət anlayışı, nə də siyasi hədəf formalaşmamışdır. Axundzadə Çarlıq dövrü Azərbaycanında modernləşməni başladan fiqur olaraq qəbul edilə bilər. Lakin Azərbaycanda 1905-ci il inqilabına qədər millətçi cərəyan ortaya çıxa bilməmişdir. Bir sözlə, Axundzadə müsəlmanları Qərb dəyərləri ilə bütünləşdirmək (Benniqsen, Lemercier-Quelquejay, 1981: 15, 16) və qaranlıqdan qurtarmaq istəmişdir. Millətləşmənin A mərhələsində siyasi hədəflərin ortaya çıxması üçün lazım olan şərtlər formalaşa bilməmişdir.

Axundzadə haqqında aparılmış araşdırmalarda istifadə edilən filosof, millətçi və s. ifadələr millətləşmə prosesinin və Axundzadənin prosesə töhfəsinin doğru başa düşülməsini əngəlləməkdədir. Halbuki Axundzadə nə institusional anlamda filosof[21] (təsirlənmiş olduğu maariflənmə fikir adamları da Qərb düşüncəsində filosof olaraq qeyd edilmir), nə də siyasi hədəfləri olan millətçi olaraq qəbul edilə bilər.

Çünki Axundzadə millətçiliyin Çar Rusiyasında ortaya çıxdığı ərəfədə həm mədəniyyətini (millət), həm də dövlətini modern dövr öncəsində itirmiş qeyri-dominant etnik qrupun təmsilçisi mövqeyində idi. Bu mənada Axundzadənin əsərlərində milli şüur inşa etmə iddiası və hədəfindən əlavə, modern Qərb dəyərlərinə qarşı heyranlıq olduğu görülməkdədir. Yeri gəlmişkən, Koyre Qərb heyranlığınının modern rus düşüncəsində də özünü göstərdiyini və qərbçilərin bir növ Qərbə bənzəyib, Rusiyanın qurtuluşunu Qərbi olduğu kimi mənimsəməkdə gördüklərini ifadə etmişdir (Koyre, 1994: 12). Axundzadənin də qərbçi olduğunu demək mümkündür. Çünki qurtuluşu insanı "azadlaşdıran" Avropanın və Yeni Dünyanın elmi dəyərlərində və yaxud bilgisini əldə etməkdə görməkdə idi.

---

[21] Halbuki Axundzadə özü türk, ərəb və fars dilləri filoloqu olduğunu ifadə etmişdir. Ətraflı məlumat üçün baxın: Mirzə Fətəli Axundzadə, (2005b). Əsərləri II. (A. Mirəhmədov). Bakı: Şərq-Qərb. S. 271-276.

Axundzadə ilə bərabər, Çarlıq dövrü Azərbaycanı özü modernləşməsini yaşamış və vətən, patriotizm, millət kimi milli şüurun formalaşmasına təməl təşkil edəcək modern anlayışları Azərbaycan dilinə qazandırmışdır. Ancaq Axundzadənin düşüncəsində türkçü, millətçi bir iz tapmaq o qədər də asan deyildir. Yəni təkrara düşmək bahasına ifadə etmək lazımdır ki, milli hərəkatın A mərhələsində ziyalılarda siyasi və ya milli şüurun, hədəfin formalaşması mümkün olmamışdır. Beləliklə, milli hərəkatlar[22] siyasi, milli kimliyi ancaq B və C mərhələlərində qazanıblar.

Bu çərçivədə, Axundzadənin millətləşmə yönündə töhfəsinin daha doğru anlaşılması üçün Osmanlı modernləşmə prosesinin mütəfəkkirlərindən Namiq Kamalın (1840-1888) "Vətən yaxud Silistrə" (1872) əsərində modern mənada vətən anlayışını "siyasi gövdə" kimi nəzərdə tutduğu əsərindən bir hissə verilə bilər: *"Ey vətənin həyatını qorumaq yolunda canlarını verən mücahidlər! Qüdrətsizliyimi göstərən bu əsərim – alaylarda silahdan istifadə etmək şərəfinə çatdığınız – Osmanlı əsgərinin gurultusu dünyanı tutan qəhrəmanlıqlarından biridir. Sizin şansınızı hər kəsə bildirməyə çalışdım, onun üçün bu dəyərsiz əsərimi – dəyərsizliyini etiraf etməklə bərabər sizin adınıza ithaf edirəm".*

Vətənin nə demək olduğunu bilən qələm sahiblərinin vətənin qorunması üçün edə biləcəyi şey hərbi xidmətdə, Allah göstərməsin, fəlakət baş verərsə, bərabər ölmək, zəfər görərsə, millətin alqışlı dilinə tərcüməçi olmaqdır (Kemal, 1988: 21). Bu mənada Namiq Kamalın müəyyən mədəni şüura (Osmanlı milləti) və dövlət anlayışına sahib olduğu və dövləti qoruma instinkti ilə əsər yazdığı görülməkdədir. Modern Qərbdən təsirlənmiş Namiq Kamal vətən, yurd və s. anlayışların şüuruna çatmaqda və öz xalqını və ya Osmanlı millətini qurtarmağın yolunun cəmiyyətə təhsil verərək vətənə həsr edilməni təlqin etməkdə olduğunu deyərdi. Bunun əksinə, Axundzadədə həm mədəni (milli) şüur, həm də *xilas ediləsi* dövlət olmadığındandır ki, fikri siyasiləşə bilməmişdir. Xülasə, Axundzadənin azərbaycanlıları "birləşdirməyi" məqsədləyən siyasi/millətçi hədəfi olmadığı görülməkdədir.

[22] Bir çox araşdırmaçı Oktyabr inqilabına qədər Azərbaycan ziyalıları arasında siyasi fikrin açıq formada ifadə edilmədiyi mövzusunda həmfikir idilər. Milli hərəkatın ən önəmli təşkilatı olan Müsavatın (1911) ilk proqramı belə İslami mahiyyətdədir. Ətraflı məlumat üçün baxın: Mirza Bala Mehmetzade, (1991). *Milli Azerbaycan Harekâtı*. Haz. Ahmet Karaca. Ankara: Azerbaycan Mədəniyyət Derneği Yayınları. s. 1.

Beləliklə, Axundzadənin əsas xidmətinin və ya maariflənmə anlayışının təməlində təhsilin yatdığını demək mümkündür. Bu təhsil anlayışı müsəlmanların oxuma-yazma problemini həll etməyi hədəfləmişdir (Cornell, 2011: 13). Bir sözlə, milli hərəkatın A mərhələsində dilə aid maraq və dünyəviləşmə və ya modernləşmə cəhdlərinin olduğu deyilə bilər.

# ÜÇÜNCÜ FƏSİL

## Millətquruculuğunun B Mərhələsi

## 3.1. Milli oyanışda ziyalıların rolu

Andersonun tezisi klassik icmaların din (müqəddəs dil) və sülalələrin hakimiyyətlərini itirməsi nəticəsində formalaşan boşluğu modern millətlərin (icmaların) ən yaxşı doldura biləcəyi iddiasına əsaslanmaqdadır (Anderson, 2017). Bu mənada modern millətlərin/icmaların klassik icmaların yerini aldığı başa düşülməkdədir. Qısaca, bu transformasiyanı klassik epistemik icmadan modern epistemik icmalara keçid olaraq da ifadə etmək mümkündür. Çarlıq dövründə müsəlmanların modern epistemik icmaya təkamülü prosesində Çarlığın kolonialist modernləşdirmə siyasəti çərçivəsində meydana çıxan "epistemik azlıq" olaraq da ifadə edilə biləcək ziyalılar həlledici və təsirli olmuşdular. Millətçi ziyalıların ortaya çıxması klassik epistemik icmadan (dini doktrinanın hakim olduğu) modern epistemik icmaya (elmi bilginin hakim olduğu) keçidlə mümkün olmuşdur.

Bilindiyi kimi millətçilik modern "siyasi gövdə"nin formalaşmasında əsas güc olmuşdur. Millətlər modern dövlətlərin legitimlik qaynağı olmuş və tanınma tarixdə ilk dəfə siyasi problem olaraq ortaya çıxmışdır (Taylor, 2014a: 46-910). Ancaq tanınma və ya millətquruculuq prosesləri homogen formada şəkillənməmişdir. Hroxun kiçik millətlər olaraq tərif etdiyi "qeyri-dominant etnik qruplar"ın millətləşmə prosesində ziyalılar həlledici rol oynamışdır. Siyasətdən və ya dövlət ənənəsindən məhrum qalmış Çarlıq müsəlmanları "status" mübarizəsi olan millətləşmə proseslərini ziyalıların əli ilə aparmışlar.

B mərhələsində ortaya çıxan millətçi (A mərhələsindəki ziyalılar milli hədəf güdmədiklərindən ötrü millətçi olaraq tərif etmək çətinləşir) ziyalı təbəqəsi "status qeyri-müəyyənliyi"nin problem olduğunu idrak etmişdir. Belə ki, XX əsrin əvvəllərində nisbətən liberallaşan Çarlıq mü-

səlmanlar üçün lazımi təmsilçilik və s. haqları tanımışdır. Bu səbəblə də, ziyalılarda milli duyğular baş qaldırmağa başlamışdır. Xülasə, B mərhələsində millətçiliyin ortaya çıxması intellektuallar arasında millətin düşünülməli bir məsələ olaraq qəbul edilməsini sürətləndirmişdir. Digər tərəfdən, millətçiliyin millətlər üçün status mənasına gəldiyini düşündükdə B mərhələsində ortaya çıxan millətçi ziyalılar qrupunun milli statusun qazanılmasında həlledici olduqlarını demək mümkündür.

Çar Rusiyasının tabeliyindəki müsəlmanlar Çarlığın öz içərisindəki dəyişikliyə səbəb olacaq kapitalizmin gəlişinə qədər siyasi varlıq göstərə bilmədiklərinə görə içlərinə qapanaraq mədəniyyətlərini və dinlərini qoruya bilmişdilər. Ancaq XIX əsrdə Rusiyanın kapitalizmlə tanış olması Çarlığı gücləndirməklə bərabər, müsəlman cəmiyyətində də hakim olan din anlayışını və ya din əsaslı ictimai strukturu sarsıdaraq kimlik böhranına səbəb olmuşdur. Bununla da kiçik millətlərin ortaya çıxması üçün lazımi şərtlər yaranmağa başlamışdır (Karpat, 2009: 522). Ancaq bu dəyişikliyin milli hərəkatın hansı mərhələsində dəyərləndiriləcəyi önəmli məsələ olaraq qarşımıza çıxmaqdadır. Belə ki, A mərhələsində modern milli hərəkatın kütləviləşməsindən başqa, ilk qarşıdurma və ya müsəlmanları qurtarma cəhdinin daha müəyyən olduğunu ifadə etmək mümkündür. Nəsibli millətləşmə prosesinin A mərhələsində (Hroxun modelindən istifadə etməmişdir. Vurğu mənə (tərc. Orxan Vəliyev) aiddir) yer almış ziyalılara aid belə bir dəyərləndirmə etmişdir: *XIX əsrin sonlarına qədər Azərbaycan türklərinin (millətinin) tarixinə dair ciddi anlayış hasil olmadı, vətən anlayışı mənasını qazanmadı. Digər tərəfdən, millətin dil və millətin adı məsələsində dəqiqlik ortaya çıxmadı. Çünki bu dövrə qədər ortaya çıxan ziyalılar, əsasən, rus hakimiyyətinin nizamından, mədəniyyətindən, ədəbiyyatından təriflə bəhs etdilər (Nəsibli, 2019: 229).*

Nəsiblinin dəyərləndirməsi müəyyən qədər doğru olmaqla bərabər, millətləşmə prosesini dəyərləndirərkən böyük millət (dövlətin transformasiyası) və kiçik millət (dövlət və millət yaratmaq) fərqini görməzlikdən gəldiyinə görə, ziyalıların rolu düzgün başa düşülməmişdir. Bu yanaşma müəyyən qədər doğruluq payı daşımaqla bərabər, A mərhələsi ziyalılarının Çarlığa qarşı nisbətən sədaqət və bağlılıqlarının səbəbini sorğulamadığı üçün əskik dəyərləndirmə olduğunu ifadə etmək lazımdır. Buna görə də ideoloji şərh olaraq tərif etmək mümkündür.

Milli hərəkatın B mərhələsində millətçi düşüncənin inkişafı üçün şərtlər formalaşmış və modern təhsil almış insanlar arasından ortaya çıxan ziyalılar milli oyanışa səbəb olmuşdur.[23] Çünki Çarlıq müstəmləkəsi modernləşmə adına müsbət nəticələr də meydana çıxarmış və bilavasitə neft sənayesinin inkişafı Cənubi Qafqazda milli oyanışın iqtisadi təməllərini də hazırlamışdır (Mehmetov, 2009: 493). Yəni modern ictimai təxəyyülün komponentlərindən birinin də iqtisadi inkişaf (Teylor bazar iqtisadiyyatı, ictimai sahə və suveren xalq fərqləndirməsini etmişdir) olduğunu düşündüyümüzdə, iqtisadi inkişafın milli hərəkat prosesindəki təsiri başa düşülür. Bu mənada həm ənənəvi ictimai anlayışa (modern millət anlayışının formalaşdırılması), həm də Çarlıq müstəmləkəsinə qarşı (müstəqillik və ya dövlət) milli oyanışın kütləviləşməsi başlamışdır.

Milli hərəkatın B mərhələsində 1905-1907-ci illər inqilabının yaratdığı nisbətən azad ortam nəticəsində ziyalılar qrupu azərbaycanlıların modern millətə çevrilmə prosesində müəyyənedici olublar (Rüstəmov, 2014: 33). Milli hərəkat prosesində ilk dəfə milli mənfəəti önə çıxaran ziyalılar *indigenista* (yerli haqlarını müdafiə edən) olaraq tərif edilə bilər (Hobsbawm, 2010: 88). Digər tərəfdən, milli hərəkatın uğrunda müəyyənedici olan intellektualların dini təhsildən keçmiş intellektualları, elitaları kənarlaşdıraraq dünyəvi anlayışı əsas götürdüklərini demək mümkündür (Cornell, 2011: 12). Bir sözlə, B mərhələsindən etibarən ziyalıların milli mövqeyi mənimsəməyə başladıqları deyilə bilər.

### *3.1.1. Milli burjuaziya və millətçi ziyalılar*

Millətçilik və ya milli dövlətlər kapitalizm daxilində inkişaf edən istehsal iqtisadiyyatının da təsiri/ehtiyacı ilə formalaşmış və modern "siyasi gövdə"nin, suverenliyin müəyyənedici mədəniyyəti halına gəlmişdir. Bu mənada iqtisadiyyatın, eyni zamanda köhnə aristokratiyanı mövqeyindən edən burjuaziyanın millətçiliklə əlaqəsi sorğulanmaq haqqını qazanmışdır. Belə ki, millətçiliyin kapitalizmin ruhunun qaynağı olduğu ifadə edilə bilər (Greenfeld, 2001: 21).

[23] Milli oyanışın əhəmiyyətinə dair ətraflı məlumat üçün baxın: Miroslav Hroch, (2011). Avrupa'da Milli Uyanış. Tərc. Ayşe Özdemir. İstanbul: İletişim Yayınları. s. 33-37.

Kapitalizm[24] şəbəkəsinin formalaşdırdığı əlaqələr Orta Əsrlərin məhəlli şəhər, həmvətən anlayışlarını transformasiya etmişdir. Kapitalizmin Orta Əsrlərə görə fərqliləşən istehsal anlayışının formalaşdırdığı ictimai sahədə həmvətənlik mədəniyyətinin (milli şüur) formalaşmasında orta sinif intellektualizmi müəyyənedici olmuşdur (Öğün, 2000: 102). Bu sahədə millətləşmə burjuaziya və ziyalıların bir-birinə uyğun hərəkət etdiyini demək mümkündür. Yeri gəlmişkən, ziyalıların millətçi düşüncələrinin ictimailəşə bilməsi üçün (mətbuat, məktəb, teatr) öz etnik köklərindən olan burjuaziyanın dəstəyinə ehtiyac duyulmuşdur. Modern ziyalı[25] və burjuaziya anlayışı homogen milli dövlətləri meydana çıxaran kapitalizmin nəzarətində ortaya çıxmış siniflər olmuş və ziyalılar "iyerarxik" cəmiyyətlərdəki "imtiyazlı siniflər"in yerini almışdır. Burjuaziyanın[26] milli şüurla hərəkət etməsi nəticəsində ziyalılar xalqın maariflənməsi üçün öz "alın yazısı"nı yerinə yetirmişdir. Bu kontekstdə millətləşmə prosesində milli oyanışın formalaşmasında təsirli olan ziyalıların "kapitalizmə keçidlə" (Hroch, 2011: 39) ortaya çıxdığını ifadə etmək mümkündür.

Çarlığın Osmanlı dövləti ilə başlatdığı Krım müharibəsindəki (1853-1856) məğlubiyyəti liberallaşmağa və ya bir sıra islahatlara səbəb olmuşdur. Günün sonunda insanlar ilk dəfə azadlığın dadına baxdılar. İslahatın təsiri müsəlmanlar (Azərbaycan) üçün əsrin (XIX) sonuna doğru özünü göstərməyə başlamışdır (Asker, 2015a: 521). Xülasə, kapitalizmin Rusiyada yayılması müsəlmanlar: Kazan və Azərbaycan müsəlmanları/türkləri arasından dəyişiklik fikrinə uyğun olan öz orta siniflə-

---

[24] Kapitalizm və millətçilik əlaqəsinə dair ətraflı araşdırma üçün baxın: Liah Greenfield, (2001).The Spirit of Capitalism. Cambridge: Harvard University Press.

[25] Süleyman Seyfi Öğün modern ziyalıları və ya intellektualları modernliyin kimliklərini yaradan *cəmiyyət mühəndisləri* olaraq tərif etmişdir. Ətraflı məlumat üçün baxın: Süleyman Sey-fi Öğün, (2000). *Türk Politik Mədəniyyəti*. İstanbul: Alfa. s. 91-109.

[26] Yürgen Habermas (1929) "Xalqın struktur dəyişikliyi" ("Kamusallığın Yapısal Dönüşümü", 1962) adlı əsərində burjuaziyanın varlığını Hobbsdan təsirlənərək azad olma olaraq ələ almışdır. "Hobbs *vicdan* ilə *qənaəti* müəyyənləşdirməklə bunlardan birindən əsirgədiyi şeyi – həqiqət iddiasını digərinə aid etməkdən də qaçmış olur, lakin digər tərəfdən, dinin və mülkiyyətin özəlləşdirilməsi və burjuaziya xüsusi şəxslərin kilsəyə və zümrə dövlətindəki ara iqtidarlara olan yarı-ictimai bağlılıqlardan azadlaşması ilə birlikdə, bu şəxslərin xüsusi düşüncələrinə önəm və gerçəklik qazandıran bir dəyişikliyin mənəvi-tarixi şərhini də edən odur. Hobbsun dini inancı dəyərdən salması əslində şəxsi qənaətin dəyər qazanması nəticəsini yaratmışdır" (Habermas, 2014: 182). Ətraflı məlumat üçün baxın: Jürgen Habermas, (2014). *Kamusallığın Yapısal Dönüşümü*. Tərc. Tanıl Bora vd. İstanbul: İletişim. s.179-199.

rini ortaya çıxarmışdır (Karpat, 2009: 523). Kapitalizmin modern şəhərlərdə insanlar arasında homogenlik çərçivəsində kimlik formalaşdırdığı düşünüldüyündə Çarlıq dövrü Azərbaycanında kapitalizmin millətləşmə prosesinə təsiri daha yaxşı başa düşülə bilər.

Burjuaziyanın yeni sinif olaraq ortaya çıxması nəticəsində əvvəlki sistem (feodal) dağılmışdır (bu transformasiya ümmətdən feodal-yerli-milli, ümmət-millət, bəşərilikdən milli kimi də tərif edilə bilər). Beləliklə, şəhərlər ortaya çıxmış və yetişən ziyalılar təbəqəsi millətin şüurunu tərbiyə edən sinif halına gəlmişdir (Rəsulzadə, 1978: 18). Bu mənada iqtisadi dəyişikliklərin, inzibati islahatların millətləşmə prosesi üçün həlledici olacaq ziyalılar sinfinin yetişməsini təmin etdiyini demək mümkündür.

Ana dilində məktəb, mətbuat və s. formalaşa bilməsi üçün milli bujuaziyanın[27] formalaşmasına da ehtiyac olmuşdur. Milli burjuaziya milli hərəkatların uğura nail olmasında həlledici olmuşdur. Baykara Çarlıq dövrü Azərbaycanındakı millətləşməni dəyərləndirərkən millətləşmə üçün milli burjuaziyanın əhəmiyyətinə diqqət çəkmiş və milli burjuaziyanın millətçi düşüncəyə zəmin (məktəb, qəzet, teatr və s.) hazırlamadığı təqdirdə, xaricdən millətçi fikirlərlə gəlmiş ziyalıların təsirinin ola bilməyəcəyini ifadə etmişdir (Özer, 1975: 11, Baykara, 1975: 82). Bu cəhətdən neft sənayesinin inkişafı və Çarlığın 1870-ci illərdə etmiş olduğu inzibati islahatlar[28] milli burjuaziyanın və dolayı yolla ziyalılar sinfinin ortaya çıxmasında təsirli olmuşdur. Burjuaziyanın ortaya çıxması milli hərəkatın uğurundakı iqtisadi şərtləri təmin etmişdir. Yəni burjuaziya milli şüurun formalaşması, kütləviləşməsindən ötrü gərəkli olan mətbuat, məktəb və s. üçün həlledici olmuşdur.

Ancaq Qafqazda sənayeləşmənin mərkəzi halına gələn Bakının demoqrafik strukturunun müsəlmanların əleyhinə olması Azərbaycan burjuaziyasının, millətçi ziyalıların ortaya çıxmasındakı çətinliyi də ortaya qoymaqdadır (Bax: Şəkil 8).

[27] Rusiya türkləri arasında milli burjuaziya ilkin olaraq Volqa tatarları arasında inkişaf etmişdir. İlkin olaraq, müsəlmanlığa aid kitabların nəşri üçün büdcə ayrılmış və məktəblər tikdirilmişdir (Zenkovsky, 1983: 40). Ətraflı məlumat üçün baxın: Serge A. Zenkovsky, (1983). *Rusya'da Pan-Türkizm ve Müslümanlık*. Tərc. İzzet Kantemir. İstanbul: Üçdal Neşriyat. s. 18-36.

[28] İslahatlarla əlaqəli ətraflı məlumat üçün baxın: İsmail Mehmetov, (2009). *Türk Kafkası'nda Siyasi ve Etnik Yapı* (Tərc. Ekber N. Necef ve Şamil Necefov). İstanbul: Ötüken. s. 498-507.

| % | Neft bizneslәri | Ümumi bizneslәr |
|---|---|---|
| **türklәr (müsәlmanlar)** | 29,3 (49) | 18 |
| **Ruslar** | 12,8 (21) | 27 |
| **ermәnilәr** | 32,9 (55) | 29 |
| **yәhudilәr** | 10,2 (17) | |
| **gürcülәr** | 3,6 (6) | |
| **digәrlәri** | 11,3 (19) | 13 |

***Şәkil 8: Bakıda müsәlman vә qeyri-müsәlman burjuaziyanın iqtisadi imkanları***

*Mәnbә: Nәsib Nәsibli, (2019). Azerbaycan Tarihi. Ankara: Altınordu Yayınları. s. 299.*

Qısaca, milli hәrәkat prosesindә milli şüurun formalaşmasında әsas faktorlardan biri olan burjuaziyanın ortaya çıxması demoqrafik strukturun müsәlmanların әleyhinә olmasına görә proses çәtin olmuşdur.

Bununla birgә milli burjuaziyanın formalaşması qaçılmaz reallıq olmuş vә milli hәrәkatın bilavasitә B mәrhәlәsindә tәsirli olmuşdur. Bu çәrçivәdә, Rәsulzadә "Millәt olmaq әzmi" (1952) adlı mәqalәsindә millәt ola bilmәk üçün burjuaziya vә ziyalıların ortaq rolunu ifadә etmişdir: *"Feodal sisteminin iyerarxik strukturu burjuaziyanın ortaya çıxması nәticәsindә tarixә qarışdı. Qısası, mәrkәzlәr şәhәrlәrә keçmiş oldu. Yәni mәkanlarda (şәhәrlәrdә) intellektuallar millәt şüurunu formalaşdırmış vә eyni zamanda millәt iradәsinin tәmsilçisi olmuşdular. Yeni sinif olan ziyalılar mәtbuatla millәtin tәmәli olan kollektiv sistemi işlәmişdilәr. Ziyalılar öz içindәn millәt istәyini güclәndirәn mütәfәkkirlәr, sәnәtkarlar yetişdirmişdilәr. Bu kontekstdә milliyyәt millәtә çevrilmişdir"* (Rәsulzadә, 1978: 18).

Modern ziyalıların әsas problemi xalqın doqmatik dini doktrinadan "xilası" olmuş vә bu amalda burjuaziya ilә tәrәfdaşlıq edilmişdir. Çünki sxolastik tәhsil milli şüurun formalaşmasına sәbәb olan kitab nәşriyyatına maneә idi. Çarlıq dövrü Azәrbaycanında bilavasitә Bakıda formalaşan burjuaziya ziyalılarla ortaq hәrәkәt etmiş vә millәtlәşmә prosesinә yardım etmişdir. Mirzә Bala Mәmmәdzadә (1898-1959) "Milli Azәrbaycan hәrәkatı" (1938) adlı әsәrindә burjuaziyanın ziyalılara vә ya millәtlәşmәyә yardımını aşağıdakı kimi ifadә etmişdir: *"Milli hәrәkatın әvvәlindә Axundzadә vә Zәrdabinin başlatdıqları oyanış dövrü milli burjuaziya zümrәsinin ortaya çıxmamasına görә uğursuz olmuşdu. Ancaq milli burjuaziyanın ortaya çıxması ilә yeni intellektual zümrә ortaya çıxmış vә modern әsas-*

*lara görə milli inkişafa nail olmuşdur. 1905-ci il rus inqilabının yaratdığı müsbət havadan sonra intellektuallar burjuaziyanın dəstəyi ilə milli şüuru məktəb, təhsil, mətbuat, ədəbiyyat, teatr və s. vasitələrlə inkişaf etdirmişdilər"* (Mehmetzade, 1991: 12-13).

Qısaca, millətləşmədə təsirli olmuş burjuaziya ancaq B mərhələsində ortaya çıxmaqdadır. Çünki Çar Rusiyasında qeyri-dominant etnik qruplara öz dillərində qəzet, məktəb və s. "icazəsi" ancaq XIX əsrin sonlarında verilmiş və 1905-ci il inqilabından sonra isə daha da yumşaldılmışdır. Bu mənada siyasi şüurun və tələbin formalaşması üçün ana dilində mətbuatın yayılması həlledici olmuşdur. Ana dilində qəzetlərin ortaya çıxması, eyni zamanda konstitusion "islahat" prosesində ziyalıların dumada təmsil tələbi xalqda müəyyən qədər dəstək də tapmışdır. Beləliklə, Andersonun "eynizamanlılıq" fikri özünü sübut etmişdir.

Millətləşmə prosesində həlledici olan ziyalılar aldıqları modern təhsildən ötrü insana aid ənənəvi yanaşmanı qəbul etməmişdilər. Bu səbəblə insanın kimliyinin tərif edilməsində "ümmət" anlayışını qəzetlərdə tənqidə məruz qoymuşdular. Bununla da ziyalılar xalqa "çatmaq" üçün "sadə dillə" (Swietochowski, 1988: 47) yazılar yaymaqda və xalqda milli şüurun formalaşmasına çalışmaqda idilər. Ziyalılar sinfi xalqda həmvətən, vətən sevgisini və şüurunu formalaşdırma/oyandırma funksiyasını yerinə yetirirdilər. Bu mənada Çarlıq dövrü Azərbaycanında milli hərəkatın kütləviləşməsində ziyalıların həlledici olduğu deyilə bilər.

Hüseyn Baykara (1904-1984) bu prosesi araşdırdığı "Azərbaycan istiqlal mübarizəsi tarixi" (1975) adlı əsərində həm prosesdən, həm də ziyalıların rolundan bəhs etmişdir: *"Müasir Azərbaycan tarixində milli fikrin yeni intellektual zümrə nəzdində yaranması və xalqa yayılması, milli hərəkatın siyasi mahiyyət ərz edərək müstəqillik, istiqlal mübarizəsini mənimsəməsi üçün uzun müddət lazım olmuşdur. Milli hərəkatın Renessans dövründə millətin içərisindən yetişmiş şəxslər (ziyalılar) öz millətlərinin keçmişinə maraq duymuş və araşdırmışdılar. Ardınca, millətin niyə geriqalmışlığı məsələsində dayanılmış və millətə öz kimliyi tanıdılmışdır. Bu yolla müstəmləkə halında olan millət bir keçmişə (dövlətçilik ənənəsi) sahib olduğunu öyrənir. Millət ancaq bu səhifədən sonra istiqlal mübarizəsinə başlama əzmi göstərir"* (Baykara, 1975: 62).

Bir sözlə, milli hərəkatın A və B mərhələsindəki ziyalıları müqayisə etdikdə B mərhələsində yer alan ziyalıların, əsasən, dövlətlə birbaşa

əlaqələrinin olmadığı (məsələn, Hüseynzadə, Hadi və s.) görülməkdədir. Buna görə də B mərhələsindəki ziyalılar kapitalist inkişaf istiqamətində formalaşan burjuaziyanın da dəstəyi ilə dövlət dairəsindən (Axundzadə Çarlığın məmuru olmuş, hətta hərbi rütbə belə verilmişdir) xalqa doğru (mətbuat, məktəb, teatr və s.) təkamül etdiyi görülməkdədir. Çünki A mərhələsindəki ziyalılar məmur və s. mövqeyində olduqlarından Çarlığa qarşı nisbətən "bağlılıqları" olmuşdur.




*Şəkil 9: A və B mərhələsində ziyalıların qarşılaşdırılması*

## 3.2. Milli şüurun formalaşmasında mətbuatın rolu

Kapitalizmin homogenləşdirici təsiri ilə formalaşan modernlik yaratdığı yeni ictimai sahədə ortaya çıxan quruluşlarla (nəşriyyatlar, qəzetlər və s.) legitimliyin qaynağı olacaq millətlərin şüurunu formalaşdırmışdır. Bu mənada mətbuat yaranmasının millətlərin *xəyal* edilməsində "kilometr daşı" olaraq dəyərləndirilə bilər.

Axundzadənin milli hərəkatın A mərhələsində yazmış olduğu əsərlər müəyyən qədər canlanmaya səbəb olmuş və ana dilində ilk qəzet olan "Əkinçi" (1875-1877) və "Kəşkül" (1888-1891) kimi milli kimliyə ilk vurğu edən qəzetlər çıxmışdır. Rəsulzadə "Əkinçi" qəzetinin Axundzadədə olmayan siyasi (milli) yanaşmanı mənimsədiyini demişdi (Rəsulzadə, 2014d: 20). Lakin bu qəzetlər də milli kimliyin kütləviləşməsinə müvəffəq ola bilməmişdir və "Kəşkül" 1904-cü ildə "çarın qadağası" (Rəsulzadə, 2014d: 21) nəticəsində bağlanmışdır. Ancaq 1905-ci il inqila-

bından sonra milli mətbuat və B mərhələsi başlamışdır. Nəsib Nəsibli (1956) "Azərbaycan Tarixi" (2019) adlı əsərində 1905-ci il inqilabından sonra yayın həyatına başlayan qəzetlərin milli hərəkat prosesində (milli hərəkat vurğusu mənə (tərc. müəllifə aid)) ilk dəfə "biz kimik?" sualına cavab axtarmağa başladığını irəli sürmüşdür (Nesibli, 2019: 279).[29]

Modern millətlər modern öncəsi dövrün dini dəyərlər üzərinə inşa edilmiş siyasi/ictimai nizamının ortadan qalxması nəticəsində formalaşan boşluğu doldurmaq üçün dizayn edilmişdir. Milli hərəkat prosesində təmsil, kimlik və s. tələblərinin meydana çıxması və milli oyanışın başlamasının 1905-ci il inqilabı ərəfəsinə təsadüf etməsi bilavasitə Çarlığın təsis və təmin etdiyi nizamın ilk ciddi sarsıntını yaşamasından qaynaqlanmışdır. Hətta inqilab ərəfəsində meydana çıxan nisbətən liberal mühit belə qeyri-rusların Çarlığa təkrar bağlılıqlarını təmin və təsis etməyi hədəfləmişdir. Yəni dövlət (Çarlıq) nəzarətində elan edilən konstitusiya öz müqəddəratını təyinetmə prosesinə imkan yaratmışdır.

Anderson millət və millətçilik haqqında edilmiş klassik tədqiqatlardan biri olaraq qəbul edilən "Xəyali icmalar"da millətin formalaşmasında əsas faktorlardan biri olaraq mətbuatın rolunu belə dəyərləndirmişdir: *"Qəzetlər yaradılmış fenomen olaraq ortaya çıxmış və bazar ilə əlaqə içərisində var olmuşdur. Bu mənada qəzetlər fövqəladə kütləvi ayini mümkün edir: bir xəyal məhsulu olaraq qəzetin demək olar ki, eyni zamanda istehlak edilməsi ("təxəyyül edilməsi"). Varlıqlarından əmin olunmaqla birlikdə, kimlikləri haqqında ən kiçik fikrə sahib ola bilməyən minlərlə (və ya milyonlarla) şəxsin eyni ayini eyni zamanda yerinə yetirdiyinə hər kəsin də duyduğu güvən tamdır. Bundan əlavə, bu ayinlər bitməz-tükənməz şəkildə günlük, ya da yarım günlük fasilələrlə təqvim boyunca təkrarlanır. Xəyal edilmiş icmanın dünyəvi, tarixi saata bağlanmış forması üçün daha yaxşı nümunə necə tapıla bilər?"* (Anderson, 2017: 47-50).

Bu səbəbdən qəzetlərin millətlərin xəyal edilməsindəki əsas fenomenlərdən biri olaraq ortaya çıxdığı deyilə bilər. Qəzet[30] xalqa çatmaq

---

[29] Çarlıq dövrü Azərbaycan mətbuatının inkişafı barədə məlumat üçün baxın: Aşırlı, A. (2009). *Azərbaycan Mətbuat Tarixi (1875-1920).* Bakı: Elm və Təhsil

[30] Əli bəy Hüseynzadə millətləşmə prosesinin B mərhələsində qəzetlərin xalq tərəfindən mənimsənməsi, oxunması, alınması üçün ziyalıların qapı-qapı dolaşaraq insanları razı salmağa çalışdıqlarını demişdir (Hüseynzadə, 2007: 186). Bunun əksinə olaraq, xalqın başa düşəcəyi yerli dildə yazmaq yerinə, osmanlıca yazmaqda təkid etmiş və ziyalılar tərəfindən ciddi tənqidlərə məruz qalmışdır.

baxımından daha asan yol olmuş və qısa müddətdə təsirini göstərmiş və "millətin dili"nin (Rəsulzadə, 2012a: 41) formalaşmasına xidmət etmişdir. Mətbuat cəmiyyətdə "ümumi qənaətin" (Habermas, 2014: 185) formalaşmasında əsas vasitə olmuş və "milli güclərdən" (Rəsulzadə, 2014b: 73) birinə çevrilmişdir. Millətləri var edən əsas faktorlardan biri ortaq ictimai qənaətin (qənaət tarix deməkdir[31]) formalaşmasına bağlı olmuşdur. Bu mənada yerli dildə nəşr olunan qəzetlər bu xidməti icra etmişdir.

Anderson milləti "homogen" zaman anlayışı olaraq konsepsiyalaşdırılmış və bu homogenliyin formalaşmasında qəzetin rolunu belə ifadə etmişdir: *"Modern millətlər Avropada baş vermiş transformasiya sayəsində xəyal edilmiş bir icmadır. Millətlərin ortaya çıxmasında transformasiyalar həlledici olmuş və roman və qəzet vasitəsiylə görülə bilər. Roman və qəzet modern millətlərin xəyal edilməsinin texniki qaynağı olmuşdur"* (Anderson, 2017: 39).

Rəsulzadə qəzetin ortaya çıxmasını insanlar arasında "dolayı" rabitə ilə əlaqələndirmiş və qəzetlərin "ümumi" xidmət üçün ortaya çıxdığını bildirmiş, qəzetin dolayı əlaqə təmin etdiyini bildirmişdir. Ancaq bu əlaqə zamanı insanlar fiziki təmas içində olmazlar (Rəsulzadə, 2014b: 72). Bu səbəblə Rəsulzadə 1911-ci ildə "İran-i Nov" qəzetində qələmə aldığı "Mətbuat azadlığı" məqaləsində Andersonun "eyni zamanlı" fikrini qarşılayacaq anlayışdan istifadə etmişdir. Bir sözlə, qəzetin milli şüur və qənaətin formalaşmasında rolunun təsirli olduğu başa dü-şülməkdə-dir.

Qəzetlər modern insan formunun yaradılması üçün Andersonun da ifadə etdiyi kimi texniki xidmət etmişdir. Bu mənada qəzeti "cəhalət"lə mübarizənin vasitəsi olaraq da ifadə etmək mümkündür. Bəhs etdiyimiz mövzu olan cəhalət milli şüurun formalaşmasının önündə əngəl olan maneələr olaraq ifadə edilə bilər. Yeri gəlmişkən, Hüseynzadə "Vədanamə"[32] (1906) adlı məqaləsində qəzetlərin cəhalət və zülmətlə mübarizə qaynağı olduğunu bildirmiş və Çarlıq dövrü Azərbaycanda mətbuat haqqında şüur yetərsizliyini belə ifadə etmişdir: *""Həyat" qəzeti müvəqqəti olaraq tətilə məcbur olmuşdur. Bu qəzeti ayaqda tutan camaatın qə-*

[31] Nəbi Mehdiyevin fəlsəfə və tarixi bilmə metodları olaraq ələ aldığı məqaləsinə baxmaq olar. Ətraflı məlumat üçün baxın: Nebi Mehdiyev, (2019). *Bir Bilme Teorisi*. İstanbul: Dergah Yayınları. s. 15-28.

[32] Bu məqalə "Həyat" qəzetinin bağlanmasına görə yazılmışdır.

*zetə maddi olaraq dəstəyidir. Bəs nə qədər Hacı Zeynalabdin və İsa bəy qəzetin maddi yükünü təkbaşına çəkəcəkdir? Bu vəziyyəti camaatımız idrak etməlidir. Ən əvvəldən camaatımıza tövsiyə edirik ki, "Həyat"ın tətili davam etdiyi müddətcə tək qəzet olan "İrşad" qəzetinə dəstək olsunlar. Əks təqdirdə, rəbbim göstərməsin, o qəzetdən də məhrum qalaraq inqilabdan öncəki vəziyyətə geri dönəcəkləri şübhəsizdir"* (Hüseynzadə, 2007: 149).

Hüseynzadə millətləşmə prosesində qəzetin rolunu bildiyindən ana dilində mətbuat olmadığı təqdirdə, 1905-ci il inqilabından öncəki dövrə geri dönüləcəyinin narahatlığını yaşamışdır. Ancaq milli hərəkatın B mərhələsində inqilabın nisbətən liberal olmasına görə yayılan ana dilində mətbuat azadlığı ləğv edilsə də, "Əkinçi"nin təcrübəsini yaşamayacaqdı.

Çarlıq dövrü Azərbaycanında yerli xalq dilində qəzet Rusiyada təhsil almış və Peterburqdakı "xalqçı" düşüncədən təsirlənən Həsən bəy Zərdabi (1842-1907) tərəfindən çıxarılmışdır. Qısaca, "Əkinçi" qəzeti (1875-1877) xalq dilində ilk qəzet olmuş və xalqa xitab etməyi qarşısına məqsəd qoymuşdur. "Əkinçi" qəzeti millətləşmə prosesində A mərhələsində dəyərləndirilə bilər. "Əkinçi" səhifələrində "cəhalətlə" mübarizə aparılmış və bu istiqamətdə, xalqın başa düşəcəyi dildə yazılar qələmə alınmışdır. Digər tərəfdən, Hüseynzadəyə görə A mərhələsində (ifadə müəllifə aiddir) yer alan və xalqın maariflənməsinə, əxlaqın islahına çalışan Zərdabi və Axundzadənin uğursuz olması qaçınılmaz olmuşdur. Çünki ilk mərhələdə ziyalılar camaatın dəstəyindən məhrum qalmış və "uğursuz" olmuşdular (Hüseynzadə, 2007: 191). Hüseynzadənin bu fikri A mərhələsində təmsilçilik, kimlik və s. tələblərin və ya milli oyanışın niyə meydana çıxa bilmədiyini aydınlaşdırmaq baxımından əhəmiyyətli dəyərləndirmə olaraq qəbul edilə bilər.

Qəzetlər xalqı "eyni zamanlılıq" anlayışı çərçivəsində birləşdirmiş və xalqın fərqində olmadan eyni problemlər ətrafında "bir" olmasını təmin etmişdir. Bu mənada Ziya Göyalp (1876-1928) da millət ola bilmək üçün qəzetin rolunu belə ifadə etmişdir: *"Millətlərin formalaşmasında qəzetlər eyni dili danışan insanlara ortaq vicdan verməsi ilə ortaya çıxmışdır. Qəzetlər bazar ilə əməkdaşlıq içində inkişaf etdiyindən xalqın vətənpərvərlik duyğularını oxşayacaq yazılar yazmağa məcbur olmuşdur. Yəni qəzetlər millətin inşasında təsirli olmuşdur"* (Göyalp, 1996: 11, 12).

Ana dilində mətbuatın təsisi Çarlıq dövrü Azərbaycanın milli hərəkatında milli şüuru formalaşdırmış, vətənpərvər qrupun ortaya çıx-

masına xidmət etmişdir. Mirzə Bala Məmmədzadə (1898-1959) "Milli Azərbaycan hərəkatı" (1938) adlı əsərində mətbuatın milli fikrin formalaşmasındakı təsirini belə ifadə etmişdir: *"Milli mətbuatın ortaya çıxması Qafqazda milli şüurun təşəkkülündə həlledici olmuşdur. İctimaiyyətdə vücud tapmış və millət üçün mühüm olan problemlər müzakirə edilmişdir. Belə ki, qəzetlərin bugünkü millətlərin ortaya çıxmasındakı rolu bəllidir və qəzetlər bu rolu Rusiya türkləri üçün də oynamışdır. Qəzet sütunlarında milli duyğuları oyandıran məsələlər müzakirə edilird"i*[33] (Mehmetzade, 1991: 19).

Ana dilində qəzet, teatr, məktəb və s. qadağalarının yumşadıldığı 1905-ci il[34] inqilabına qədər bir çox qəzet nəşr edilmişdir. Lakin bu müddətdə milli şüura işləyən ən əsas qəzet "Kəşkül" (1884-1891) olmuşdur. Qəzetin 60-cı nömrəsində (1889) dil məsələsindən bəhs edilmişdir: *"Millətin davamlı var olmasını istəyənlər öz dillərini mühafizə etməyə çalışmalıdırlar və dili öz övladlarına öyrətməlidirlər"* (Süleymanlı, 2006, 77). Buna uyğun olaraq siyasi, milli mövqe çərçivəsində tələblərin B mərhələsinə qədər formalaşa bilmədiyini ifadə etmək mümkündür. 1905-ci il inqilabından sonra mətbuat həyatına başlayan qəzetlərdəki yazılar ziyalıların milli/siyasi şüurunu əks etdirməkdədir. Buna görə də B mərhələsində qəzet sütunlarında milli mövqeyin ən alovlu müdafiəçilərinin romantik ziyalılardan mütəşəkkil olduğunu ifadə etmək lazımdır. Romantik şairlər yazılarında, şeirlərində Axundzadənin A mərhələsində dilə daxil etdiyi "hürriyət", "vətən" və s. anlayışları milli çərçivədə işləmişlər. Məsələn, Məhəmməd Hadi (1879-1920) "El fəryadı və hürriyyət" və "Qarışıq xəyallar" şeirlərində hürriyyət və vətən anlayışlarını, millətin aqibətini, vəziyyətini ələ almışdır. Bu mənada Nəsibli "Füyuzat" çevrəsində formalaşan füyuzatçı (romantik) şairlərin, yazıçıların əsas mövzusunun "*vətən*" və "*millət*" olduğunu irəli sürmüşdür. Digər tərəfdən, Nəsibli 1905-1918-ci il tarixlərində ortaya çıxan mətbuat sayəsində milli mədə-

---

[33] Məmmədzadə məsələni daha da aydınlatmaq üçün mətbuatın işlədiyi mövzuları aşağıdakı kimi təhlil etmişdir:
"1. Üsulu-cədid məsələsi. Məktəblərdə türkcənin yeni üsullarla tədris və dərs proqramına salınması;
2. Milli məktəblərin yaradılması. Əvvəlcə mövcud məhəllə, kənd və məscid məktəblərindəki fars dili yerinə türkcə oxutmaq və farsi üsullarla yeni məktəblər açmaq;
3. Hökumət məktəblərində türkcənin tədrisini tələb etmək;
4. Dini idarələrin, müsəlman vəqflərinin müsəlmanların seçdiyi alimlər və məmurlar tərəfindən idarə edilməsi (Mehmetzade, 1991: 20).

[34] "1913-cü ildə Rusiyada türk dilində nəşr edilən 16 dövri yayın orqanı var idi və bunlardan beşi günlük nəşr edilən qəzetlər idi" (Pipes, 1964: 14).

niyyətin (dil, ədəbiyyat, tarix) inkişaf etdiyini də ifadə etmişdir (Nəsibli, 2019: 279, 291). Bir sözlə, B mərhələsinin həlledici mahiyyət qazanmasında ana dilində mətbuatın meydana çıxmasının təsiri olmuşdur.

## 3.3. Yenilikçi məktəblər və modern təhsil

Modern dövrlə birlikdə bilginin qaynağı Tanrı yerinə insan olaraq qəbul edilir. Modern fəlsəfə özünü *teosentrik* anlayışından "qurtararaq" *homosentrik* sistemi mənimsəmişdir. Xülasə, insan ağıl sahibi varlıq olaraq müəyyənedicilik qazanmışdır. Bununla birgə, insanı gözləyən təcili problemlər var: *"Bilgini özündə və ya zehnində əsasını qoymaq, varlığı elmin və özünün tələblərinə görə yenidən anlayıb inşa etmək, modern iqtisadi şərtlərə uyğun olaraq özünün təbii, ya da ruhi qatları ilə uyğun yeni dəyər sistemi yaratmaq və siyasi gövdəni, milli dövlətini quracaq şəkildə, yenə özünün etdiyi müqaviləyə əsaslandırmaq və s"* (Cevizci, 2001: 3).

Bir sözlə, bilginin qaynağı və bilgi əldə etmə yolları dəyişmiş və dünyəvi təhsil dövrü başlamışdır. Təhsilin modernləşdirilməsi (dünyəvi), əsasən, XVIII əsr ziyalıları tərəfindən mənimsənmiş və ağlın prinsipləri çərçivəsində təhsil sistemi dizayn etmişdir. XVIII əsrə aid edilən bu elmi bilgi çərçivəsində modern icma inşası klassik icmadan qopma olaraq da ifadə edilə bilər. Bu mənada Denis Diderot (1713-1784) ağıla uyğun təhsili "cəhalət dövründən"[35] (Diderot, 2010c: 986) xilas olmaq kimi təsvir etmişdir.

Elmi təhsil verən modern məktəblər isə klassik "epistemik icma"dan (bu araşdırmaya görə, ümmətdən) modern "epistemik icma"ya gedən prosesi hazırlamışlar. Ana dilində məktəblərin açılması ənənəvi cəmiyyətin nizamının dəyişməsini sürətləndirmişdir. Həmçinin milli hərəkatın birbaşa B mərhələsində yayılmış məktəbləri cədidçiliklə əlaqələndirmək də mümkündür. Çar Rusiyasının müsəlman ziyalıları arasında inkişaf edən cədidçi hərəkat klassik anlayışdan modern anlayışa təkamül edərək XX əsrin əvvəllərində millətçi təmayüllərin yayılmasına xidmət etmişdir (Çağla, 2002: 27). Cədidçilik Çar Rusiyası müsəlman ziyalılarının və ya "epistemik azlıqlar"ın Peterburq üzərindən əldə etdikləri modern bilgi istiqamətində öz modern icmalarını qurma təşəbbüs-

[35] XVIII əsrdə ağılın zəfərinə aid ətraflı araşdırma üçün baxın: Jacqueline Russ (haz.). (2016). *Aklın Zaferi*. Tərc. İsmail Yerguz. İstanbul İletişim.

ləri olaraq da ifadə edilə bilər (Baxın: Şəkil 13). Beləliklə, cədidçi hərəkatın Rusiya müsəlmanları üçün modernləşdirmə təşəbbüsü olduğu deyilə bilər (Lazzerini, 1975).[36]

Çar Rusiyasında müsəlmanlar dövlətin modernləşdirmə prosesi içərisində hakim ənənəvi təhsil sisteminə qarşı cədidçi anlayışı mənimsəmişdilər. Ədib *Xalid* (1964-) "*Cədidçilik nə idi və nə deyildi: terminin tarixi macərası*" (2006) başlıqlı məqaləsində bunu belə açıqlamışdır: "*Cədidçilik bir çox fərqli mənanı ehtiva edə bilər. Ancaq cədidçiliyin əsas strukturu iki məsələni önə çıxarmaqdır: 1) dini reformla təhsil və mədəni islahatla formalaşacaq milli müstəqillik hərəkatınının xəbərçisi olacaq, bir-birini təqib edən və müxtəlif dövrlərdən yaranan xronologiya, 2) içində olduğu hərəkatın və cəmiyyətin (millətin) təməl birliyinin iddiası. Bu mənada cədidçilər onlar kimi modern intellektuallar olan və Çarlığa qarşı müsbət mövqe nümayiş etdirən maarifçilərdən kəskin olaraq fərqli idilər. Bir sözlə, cədidçilik Krım və Volqa tatarları tərəfindən cəmiyyətlərinin dörd bir tərəfinə daşınan islahat, oyandırma mesajı idi*" (Adeeb, 2006: 3, 4).

Çarlıq dövrü Azərbaycanında yenilikçi/cədidçi (cədid ərəbcədə yeni mənasına gəlməkdədir) məktəblər A mərhələsinin sonu B mərhələsinin əvvəlində ortaya çıxmışdır. Ancaq məktəblərin yayılmağa başlaması B mərhələsində (1905-1907 inqilabı) mümkün olmuşdur. Çünki A mərhələsindəki ziyalılar, əsasən, Çarlığa qarşı müsbət mövqedə olmuşlar. Ancaq XIX əsrin sonuna doğru yetişən ziyalı qrupu öz cəmiyyətlərini modernləşdirmək üçün məktəblərə ehtiyac duymuşdu. Bu məktəblərin əsas funksiyası öyrənmə ilə əlaqəli yeni metodu mənimsəmiş olmaları idi. Bu mənada klassik icmanın formalaşmasını təmin edən mədrəsələrdə oxudulan dərslərin əksinə, modern dərslər oxudulmuşdur (Karpat, 2009: 536, Cornell, 2011: 13). Qısaca, yenilikçi cədid[37] məktəblərinin milli kimliyin formalaşmasında həlledici mərhələ olduğunu demək mümkündür.

Çarlıq müsəlmanları/türkləri arasında ilk yenilikçi məktəb 1884-cü ildə Qaspıralı tərəfindən təsis edilmişdir (Nadir, 1998: 44). Bu yenilikçi

---

[36] E.T.Lazzerini (1975). Gadidism at the Turn of the Twentieth Century: A View from Within. *Cahiers du Monde russe et soviétique*. *16*(2), 245-277.

[37] Aktürk cədidçiliyin türk milli kimliyi üzərindəki təsirini qəbul etməklə, qeyri-etnik, qeyri-irqi türk milləti təsəvvür etdiyini iddia etmişdir. Türkiyə barədə ətraflı məlumat üçün baxın: Şener Aktürk, *Incompatible Visions of Supra-Nationalism: National Identity in Turkey and the European Union*. European Journal of Sociology, Sayı 48, No 02, 2007. s. 347- 372.

məktəblər əzbərə əsaslanan və qız-oğlan ayrımı edən ənənəvi məktəblərə qarşı olmuş və təhsil sistemi ilə əlaqəli tələblər irəli sürmüşdür.[38] Yenilikçi məktəblər Rusiya müsəlmanlarından/türklərindən xüsusən iqtisadi olaraq inkişaf etmiş tatarlar arasında yayılmışdır və 1912-ci ildə 25.000-ə çatan məktəblər tatarların oxuyub-yazmaq probleminin, əsasən, həll edilməsinə xidmət etmişdir (Zenkovskiy, 1983: 55).

Yeni məktəblərdə coğrafiya, tarix, riyaziyyat kimi yeni dərslər də tədris proqramına salınmağa başlamışdı. Bununla bərabər, bu məktəblər xalq dilində təhsil verirdi. Qısaca, məktəblərin klassik "epistemik icmadan" modern "epistemik icmaya" təkamül etmənin həlledici eşiyi olduğu deyilə bilər.

Modern təhsilin əsasında elm, tarix və ana dilində təhsil dayanmaqdadır. Elm və tarix birbaşa "sarsıdıcı" gücə sahib olmuşdur. Çünki elm ənənəvi toplumsallığın təməlini təşkil edən dini təhsili sarsıtmışdır. Tarix şüurunun formalaşmağı modern millətlərin təxəyyül edilməyində müəyyənedici rol oynamışdır. Bu səbəbdən qeyri-dominant etnik qrup mövqeyində olan Azərbaycan türkləri üçün ana dillə yanaşı, elm və tarixin tədris edilməyi yeni icmanın xəyal edilməsinə yardım etmiş və ya milli oyanışı sürətləndirmişdir.

Beləliklə, Çarlıq dövrü Azərbaycanında yaşanan məktəbləşmə bir canlanma, yenilənmə mahiyyəti daşımaqdadır. Nadir Dövlət Rusiya müsəlmanları arasındakı yeniləşmə (cədidçilik) problemini "Rusiya türkləri" əsərində belə ifadə etmişdir: "*Rusiya türkləri müstəqil olmadıqlarına görə cədidçilik hərəkatı eyni zaman və şərtlər altında başlamadı. Bəzi türklər Orta Əsrlər ənənələri ilə yaşayarkən digər türk ellərində yenilənmə hərəkatı ortaya çıxmışdı. Ancaq 1905-ci il inqilabı yenilikçi hərəkatın türklər arasında yayılmasında təsirli oldu. Yenilik ilk olaraq milli şüurun oyanmasında təsirli olan təhsil, mətbuat və ədəbiyyatda ortaya çıxdı. İnzibati olaraq müstəqil olmayan türklər bilavasitə mədəni sahədə inkişaf etmə, yenilənmə yolunu seçdilər*" (Devlet, 1998: 10).

Bu dövrdə Azərbaycanda açılan yeni məktəblər ilk əvvəllərdə "Quran təhsilinə toxunmadan, dərs proqramına elm, coğrafiya, türk dili və s. əlavə edərək" (Sventoxovskiy, 1988: 50) davam etmişdir. Bu çərçi-

[38] Ətraflı məlumat üçün baxın: Nadir Devlet, (1998). *Rusya Türklerinin Milli Mücadele Tarihi (1905-1917)*. Ankara: Türk Tarih Kurumu. S. 43-55.

vədə millətləşmə prosesinin B mərhələsində ortaya çıxan cədidçiliyin "millətçi prinsiplərlə" (Swietochowski, 1988: 50) tanış olduğunu demək mümkündür. Yəni millətləşmə prosesində həlledici olan ziyalılar modern təhsillə tanış olan gənclər arasından çıxmaqdadır. Bir sözlə, B mərhələsində Dövlətin ifadə etdiyi kimi inzibati azadlıq qazanılmasa da, mədəni sahədə inkişaf əldə edilmişdir.

## 3.4. Vətən anlayışının formalaşması

Tarixi bir nəzər bizə torpağın siyasiləşməsinin "siyasi gövdə"nin formalaşması üçün həlledici rol oynadığını bizə göstərəcək. Afina siyasi bir varlıq olaraq afinalıların məsələsi olduğu halda, orta əsrlər imperiyaları dövründə sülalələr həlledici olmuşdurlar. Ancaq modern dövrdən etibarən coğrafiya bilavasitə xalq və ya millət üçün siyasi dəyər qazanmışdır. Çünki legitimliyin qaynağı millət olmağa başlamışdır. Ona görə də vətən probleminin ələ alınması millətin mahiyyətinin qavranılması nöqteyi-nəzərindən əhəmiyyətlidir (Ülken, 2016a: 197). Milli hərəkat prosesində coğrafiyanın ziyalılar tərəfindən siyasi olaraq əhəmiyyət kəsb etməsi B mərhələsində gerçəkləşmişdir.

Milli hərəkatın A mərhələsində ziyalılar modernliyin və ya aydınlanmanın anlayışları ilə (patriotizm, parlament, millət və s.) ilkin təmas və yerli dildə yazı akademik maraq çərçivəsində məhdud inkişaf etmişdir. Çünki A mərhələsində həlledici ziyalılar olan istər Mirzə Fətəli Axundzadə, istərsə də Həsən bəy Zərdabi (1837-1907) öz maariflənmələrini tətbiq edəcəkləri icmanı tapa bilmədiklərindən akademik maraqdan, maarifdən o tərəfə gedə bilməmişdilər (Hüseynzadə, 2007: 191). Yəni A mərhələsində yurd, vətən və s. anlayış olaraq formalaşdığı halda, qurtarılması lazım olan torpaq parçası (coğrafiyanın siyasiləşməsi) halına gəlməmiş və ya gələ bilməmişdir.[39] Ancaq B mərhələsində həm 1905-ci il[40] rus inqilabının başlaması və nisbətən azad mühitin formalaş-

---

[39] Qeyri-dominant etnik qruplarda "fatherland" (ata yurd – tərc.) anlayışının inkişafı və siyasi mahiyyət qazanması barədə ətraflı məlumat üçün baxın: Miroslav Hroch, From ethnic group toward the modern nation: the Chech case. Nations and Nationalism Sayı 10 (1/2), 2004 s. 95-107.

[40] Hadi rus inqilabı barədə "Nağme-i Ahrarane" adlı şeir qələmə almışdır. Ətraflı məlumat üçün baxın: Hadi, M. (2005). Seçilmiş əsərləri. (A. Hüseynov, A. Mirəhmədov, & A. Hüseyni , Dü) Bakı: Şərq-Qərb. s. 19-20; digər tərəfdən, alman ziyalılar Napoleon məğlubiyyətindən millətçi nitq mənimsəmişdirlər. Məsələn, Fixtenin "Dövrümüzün

ması, həm də erməni-müsəlman toqquşmasının meydana çıxması ilə müsəlmanlar/türklər kimlik arayışına girməklə bərabər, özlərini müdafiə ehtiyacı hiss etmişlər. Yeri gəlmişkən, Napoleon məğlubiyyətindən sonra alman filosofların sarsıldığını düşünən Safranskiyə (1945) görə, məğlubiyyət ziyalıları hal-hazırki Almaniyada kimlik olaraq qəbul edilən şeyin arayışına məcbur etmişdir (Safranski, 2013: 190).[41] Erməni-müsəlman toqquşmasının bənzər nəticəyə səbəb olduğunu demək müm-kündür.

Müsəlmanlar toqquşmada zəif, özünü gücləndirməli olan tərəf olmuşdur. Bir növ ermənilər qarşısında hazırlıqsız yaxalanması[42] müsəlmanları öz vətənlərini müdafiəyə məcbur etmişdir. Belə olduqda xalqın təşkilatlanması üçün din həlledici institut olmuşdur. Yeri gəlmişkən, 1813-cü ildə Napoleona qarşı döyüşdə Fixte cəbhə keşişi olmaq üçün müraciət edir, döyüş isə Şleyermaxerin ayini ilə başlayır. Digər tərəfdən, erməni-müsəlman[43] toqquşmasında xalqı (əsasən, Gəncə və Qarabağda) təşkilatlandırmaq üçün şəriət qaydaları xatırladılmışdır (Safranski, 2013: 196; Nesibli, 2019: 308). Hər iki nümunədə də xilas üçün nəzəri olaraq var olan və xalqda təsirini davam etdirən dinə müraciət edilmişdir.

B mərhələsində vətən anlayışının meydana çıxmasında təsirli olan romantik düşüncə vətəni siyasi olaraq konsepsiyalaşdırmaqdan əlavə, azadlığı arzu olunan mücərrəd anlayış olaraq idealizə etmişdir. Romantiklər vətəni incəsənət, ədəbi çərçivələrdən dəyərləndirmişdilər. Buna

mahiyyətləri" (1805) və "Alman millətinə müraciətlər" (1807-1808) başlıqlı iki əsəri bir-birindən olduqca fərqlidir. Ətraflı məlumat üçün baxın: Rüdiger Safranski, (2013). Romantik. Tərc. Ali Nalbant. İstanbul: Kabalcı Yayıncılık. s. 181-204; Ayrıca bkz., Fichte. (2006). Alman Ulusuna Söylevler (1807-8). E. A. Kılıçaslan , & G. Ateşoğlu (Dü) içinde, Alman İdealizmi I Fichte (s. 321-329). Ankara: Doğu Batı; Fichte. (2006). Çağımızın Temel Karasteristikleri. E. A. Kılıçaslan , & G. Ateşoğlu (Dü) içinde, Alman İdealizmi I Fichte (G. Ateşoğlu, Tərc., s. 310-320). Ankara: Doğu Batı.

[41] Məsələn, Safranski məğlubiyyətə baxmayaraq millətçi düşüncənin həmin andaca yerləşmədiyini 1806-cı il məğlubiyyətinin təqdimi və insanların (almanların) 1813-cü il müharibəsinə dəvətini qarşılaşdıraraq göstərmişdir. Ətraflı məlumat üçün baxın: Rüdiger Safranski, (2013). Romantik. Tərc. Ali Nalbant. İstanbul: Kabalcı Yayıncılık. s. 194-195.

[42] Ətraflı məlumat üçün baxın: Nesib Nesibli, (2019). Azerbaycan Tarihi. Ankara: Altınordu Yayınları. s. 275-310.

[43] Etnik kontekstdə meydana çıxan erməni-müsəlman toqquşmasının ziyalılar arasında və cəmiyyətdə milli duyğunun inkişaf etməsini sürətləndirməsindəki roluna dair ətraflı məlumat üçün baxın: A. Holly Shissler, (2005). İki İmparatorluk Arasında Ahmet Ağaoğlu ve Yeni Türkiye. Tərc. Taciser Ulaş Belge. İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları. s. 191-203.

görə də, romantiklərin vətən düşüncəsində konkretlik (siyasi hədəf) gözə çarpmamış və əsasən, romantiklər milləti dövlətlə paralel zamanlı olaraq düşünə bilməmişlər. Romantiklər vətən anlayışını müzakirə edərkən sərhədləri müəyyən olan torpaq parçasını qeyd etməkdən başqa, inqilabların bütün insanlıq üçün azadlıq gətirməsindən yana olmuşlar (Gəncəli, 2011: 19). Yəni romantiklər hansısa formada maariflənmənin qazanclarından yararlanmağı davam etdiriblər. Romantiklər, əsasən, üsyankar ruh halına sahib, mövcud vəziyyətdən razı olmayan şəxslər olaraq qarşımıza çıxmaqdadırlar (Cəfərov, 1963: 85).[44] Buna görə də, vətən anlayışına yüklədikləri məna da mücərrəd və üsyankar mahiyyətdə qalmışdır. Ancaq 1905-ci il inqilabı və ardınca erməni-müsəlman toqquşması romantikləri maariflənmənin bəşəri "Mən"indən "Biz"ə dönmələrini təmin etmişdir.[45] Bir sözlə, erməni-müsəlman toqquşması və romantizm təsiri B mərhələsində müsəlman ziyalıların vətən anlayışını milli hərəkatın əsas məsələsi olaraq ələ almaqlarında həlledici səbəblər olaraq qarşımıza çıxmaqdadır.

Bu mənada milli hərəkat prosesində ziyalılar arasında kin duyğusunun da formalaşdığını demək mümkündür. Yeri gəlmişkən, Ağaoğlu toqquşma zamanı ermənilərin hücumlarına qarşı reaksiya göstərməkdə yetərsiz qalan müsəlmanları təşkilatlandırmağa çalışmış, ziyalı olaraq qarşımıza çıxmış və baş verənlər qarşı silahlanmaya da səbəb olmuşdur (Nəsibli, 2019: 306, 307, 308). Xülasə, vətən anlayışı B mərhələsində erməni-müsəlman toqquşması və romantik düşüncə fonunda, şairanə formada yaranmışdır.

Nəsibli toqquşma başlayan zaman müsəlmanların hazır olmadığını bildirmişdir. O həmçinin müsəlman anlayışı yerinə türk ifadəsindən istifadə etmişdir. Ancaq prosesi idarə edən Ağaoğlu kimi ziyalılar türk anlayışına aşina olmaqla bərabər, müstəmləkə altındakı Azərbaycanda müsəlmanlığın təşkilatlanma üçün daha hazır olduğunun bilirdilər. Ona görə də, erməni-müsəlman tərifi daha yerində işlədilən ifadədir. Digər tərəfdən, türkçülüyün Çarlıq dövrü Azərbaycanında ziyalılar arasında milli oyanışın qaynağı olmasında Osmanlı inqilabının təsiri ol-

---

[44]Məsələn, Hadi "Nəyimiz var?" şeirində şikayət və üsyanını dilə gətirməkdədir. Ətraflı məlumat üçün baxın: Hadi, M. (2005). Seçilmiş əsərləri. (A. Hüseynov, A. Mirəhmədov, & A. Hüseyni , Dü) Bakı: Şərq-Qərb.

[45] Alman nümunəsi üçün baxın: Rüdiger Safranski, (2013). Romantik. Tərc. Ali Nalbant. İstanbul: Kabalcı Yayıncılık. s. 181-204.

muşdur. Çünki Osmanlıdakı ziyalılar Tənzimatdan bəri mövcud dövləti qorumaq üçün[46] bir sıra modern, dünyəvi, millətçi cərəyanlar (Osmanlıçılıq, İslamçılıq, Türkçülük) istehsal etmişdilər. İslam dünyasında, bilavasitə Çarlıq müsəlmanlarında yaxınlıq duyduqları Osmanlı dövləti türkçülüyü mənimsədiyi və ya Rusiyadan köçən millətçi ziyalıların da təsiri ilə mənimsəməyə məcbur olduğu vaxta qədər türkçülüyün rəsmi[47] funksiyasının olmadığını[48] demək mümkündür. Ancaq erməni-müsəlman toqquşmasının meydana çıxması müsəlmanlar arasında milli hərəkat prosesində ilk dəfə özünü başqası üzərindən var etmə ehtiyacını meydana çıxarmışdır. Bu mənada ilk dəfə özləri üçün çarə axtarmağa (təşkilatlanmağa) başlayan müsəlmanlar (Nesibli, 2019: 305, 306, 307) modern vətən anlayışı ilə tanış oldular. Nəsibli ermənilərin Qafqazdakı varlığını bölgənin digər etnik qruplarından təmizlənmiş, ermənilərin üstünlüyündə bölgə halına gətirilməsinin istənməsi ilə açıqlamışdır (Nesibli, 2019: 303).[49] Qısaca, toqquşmanın müsəlmanları öz aralarında ziyalılar tərəfindən həmrəylik yaratmağa məcbur etdiyi deyilə bilər (Swietochowski, 1988: 68).

B mərhələsində romantik şairlərin düşüncələrinin yayılmasında Əli bəy Hüseynzadənin[50] Bakıda nəşr etdirdiyi "Həyat" qəzeti və bilavasitə Azərbaycan romantik düşüncəsinin formalaşmasında təsiri olan "Füyuzat"[51] jurnalının həlledici rolu olmuşdur. Hüseynzadənin rəhbərliyində ortaya çıxan qəzet və jurnallar romantik ziyalılar mühitinin formalaşmasını təmin etmişdir. B mərhələsindəki romantiklər siyasi fəaliyyətlə məşğul olmaqdan başqa, intellektual təşəbbüs içində olmuş və

---

[46] Buna görə də, Ayşə Kadıoğlu türk millətçiliyini millətini axtaran dövlət olaraq tərif etmişdir. Baxın: Ayşe Kadıoğlu, Milletini Arayan Devlet: Türk Milliyetçiliğinin Açmazları. Türkiye Günlüğü, Sayı 75, 2003. s. 137-153.

[47] Millətçiliyin rəsmiləşdirmə ilə əlaqəsi üçün baxın: Süleyman Seyfi Öğün, (2000). Türk Politik Mədəniyyətü. İstanbul: Alfa. s. 91-109.

[48] Osmanlıda modern hərəkatlar, millətçilik, kimliklə əlaqəli məlumat üçün baxın: Kemal H. Karpat, (2011). Osmanlı'dan Günümüze Kimlik ve İdeoloji. İstanbul: Timaş.

[49] Erməni-müsəlman toqquşması üçün dövrün yazıçılarından Məmməd Səid Ordubadi tərəfindən qələmə alınmış "Qanlı illər" romanı önəmli mənbə təşkil edir: Məmməd Səid Ordubadi, (2007). Qanlı İllər. Bakı: Qafqaz Strateji Tədqiqat İnstitutu.

[50] Əli bəy Hüseynzadənin Azərbaycanda romantik düşüncəsinin formalaşmasında rolu haqqında baxın: Vəli Osmanlı, (2010). Azərbaycan Romantizmi. Bakı: Təhsil Nəşriyyatı. s. 1160.

[51] Rəsulzadə "Füyuzat" jurnalının ədəbi mühiti osmanlıca və ya Osmanlı imitasiyasına sövq etdiyini irəli sürmüşdür (Rəsulzadə, 1990: 18).

milli ruhu formalaşdıra bilmək üçün vətən anlayışını simvollaşdıraraq önə çıxarmışdılar. Bu mənada milli ruhun formalaşmasında bilavasitə şairlərin[52] təsirli olduğunu demək mümkündür. Yeri gəlmişkən, romantik şairlərin simvol adlarından olan Məhəmməd Hadi "Vətən nidası" (1907) adlı şeirində *oğul* metaforası üzərindən vətən sahibi olmanın əhəmiyyətini belə ifadə etmişdir:

Yetər artıq, qalx oğul, qalx daha uyuma!
Namusu, həyanı, uykuya satma!
Ey sevgili övlad, Allahı sevərsən qalx,
Gün doğdu, hər kəslər qalxdı, uyuyan tək sənsən
Yoldaşlarına, sil gözünü, iyi bax, oğlum
Onlar yetdi istəklərinə, sən uzaq, oğlum (Hadi, 2005: 48)

Hadidə, ümumiyyətlə, B mərhələsində vətən (kimlik) anlayışının formalaşmasında romantizm təsiri açıq şəkildə görülməkdədir. Belə ki, alman romantizminin və ya millətçiliyinin formalaşmasında orijinallıq ifadəsi ilə təsirli şəxslərdən olan Herder 1798-ci ildə alman millətini oyandırmaq üçün qonşulardan və s. nümunə verərək oyanması gərəkdiyinin vacibliyini göstərməyə çalışmışdır[53] (Kadıoğlu, 1993: 100). Ancaq bu yanaşmada siyasi hədəfə doğru yönəlməkdən başqa (alman milli şüurunu romantiklər oyandırmış, ancaq milli dövlətini romantik olmayan Otto Bismark qurmuşdur), oyandırma təlaşı olduğu görülməkdədir. İntelektuallar (qismən siyasiləşmiş) tərəfindən yaradılan milli mədəniyyətin ədəbiyyatla xalqa çatdırılmasına çalışılır (Aksakal, 2015: 91). Buna görə də B mərhələsində vətən anlayışının bilavasitə ədəbi əsərlər, şeir vasitəsilə formalaşdığını demək mümkündür.

B mərhələsində romantik düşüncənin formalaşmasında Hüseynzadənin təsirli olduğunu bildirmişdik. Romantiklərin vətən anlayışının

---

[52] Həsən Aksakala görə, şotlandlar üçün milli ruhu Skot, alman üçün Höte, türklər üçün isə vətən şairi Namiq Kamal üfürmüşdür. Ətraflı məlumat üçün baxın: Hasan Aksakal, (2015). Türk Politik Medeniyyetinde Romantizm. İstanbul: İletişim. s. 90-97.

[53] Almaniya nümunəsində romantiklərin cəmiyyətin, əsasən, alt təbəqəsindən (Höte istisnadır) gəldikləri və cəmiyyət içərisində status qazanmaq üçün xeyli çalışdıqları görülməkdədir. Alman romantizmi üçün baxın: Liah Greenfield, (2017). Milliyetçilik. Tərc. Abdullah Yılmaz. İstanbul: Alfa. s 481-517. Bu kontekstdə Hadi kimi romantiklər də alt təbəqədən/əyalətdən gəliblər və ilk əvvəllərdə Axundzadə kimi ziyalılar tərəfindən başlayan maariflənmənin prinsiplərindən təsirlənmələrinə baxmayaraq, həlli romantizmdə tapmışdılar.

mahiyyəti azadlıq/hürriyyət anlayışına əsaslanmışdır. Məlum olduğu kimi, azadlıq anlayışı modernliyin əsas anlayışlarından biri olaraq filosofların tərif etmək üçün cəhd göstərdikləri hadisədir. Beləliklə, modernlik içərisində doğulan romantiklər üçün də (maariflənmədən fərqli şərh etməklə bərabər) azadlıq əldə edilməsi vacib olan arzu, hədəf olmuşdur. Hürriyyət anlayışı Hüseynzadənin düşüncəsində həlledici yer almış və hürriyyətin bəşərin bütün ruh və mənəviyyatına təsir etdiyini və arzu edilən, çatılmaq istənən uca mərtəbə olduğunu bildirmişdir (Hüseynzadə, 2007: 83, 84).[54] Çünki romantiklərin inqilabların təsiri ilə əldə etdiyi ən önəmli qayə hürriyyət olmuşdur. Bu mənada Hadinin "Analara vəsiyyət" şeiri nümunə göstərilə bilər:

Canparəyi-hürriyyətə hürriyyəti qandır,
Hürriyyət ilə tərbiyə et, ruhunu oyandır.
(Osmanlı, 2010: 128)

Siyasi məqsədə malik B mərhələsində ortaya çıxan vətən anlayışı romantik düşüncənin təsirini bilinən formada ehtiva etmişdir. Bu kontekstdə B mərhələsində, əsasən, şeirlərdə özünü göstərən vətən anlayışının dövləti hədəfləyəcək anlam ifadə edə bilmədiyini demək mümkündür. Romantiklərin vətən anlayışına yüklədikləri bədbin yanaşmanın məqsədi və anlamı vətənsizliyə (status uyğunsuzluğu) vurğu etmək olmuşdur. Yeri gəlmişən, Hadi romantik "yox millətimin imzası imzalar içərisində" misrası ilə siyasi bir hədəf güdməkdan daha çox millət ola bilməməyin əksikliyini xatırlatmışdır.[55] Şeirlərində siyasi qeyri-müəyyənlik olan Hadi millət anlayışını Azərbaycan kontekstində düşünə bilməmişdir.[56] Buna əsasən, B mərhələsinin romantik düşüncəsində Azərbaycan dövləti düşüncəsinin formalaşmadığını ifadə etmək mümkündür. Alman romantik düşüncəsində də son hədəf olaraq dövlət qeyd edilmədiyi halda, almanların unikallığına edilən vurğu alman millətçiliyinin formalaşmasına səbəb olmuşdur. Bununla bərabər, 1905-1907-ci illər rus inqilabı nəticəsində formalaşan romantik düşüncə C mərhələsin-

---

[54] Ətraflı məlumat üçün baxın: Əli Bəy Hüseynzadə, (2007). Seçilmiş əsərləri. Haz. Ofelya Bayramlı ve Azər Turan. Bakı: Şərq-Qərb. s. 83-85.

[55] Məsələn, Osmanlı ziyalıları arasında vətən anlayışını tədavülə buraxan Namiq Kamal üçün də Osmanlı vətəninin sərhədi müəyyən olmamışdır. Ətraflı məlumat üçün baxın: Kemal H. Karpat, (2011). Osmanlı'dan Günümüze Kimlik ve İdeoloji. Tərc. ve Haz. Güneş Ayas. İstanbul: Timaş. s. 22-27.

[56] Yeri gəlmişkən, C mərhələsində Rəsulzadənin siyasi hədəfini müəyyən edən "Milli dirilik" başlıqlı məqalələri açıq formada nəyi hədəflədiyini(istiqlal) irəli sürmüşdür.

də milli hərəkatın Azərbaycan millətçiliyi kontekstində milli hədəfi müəyyən etməyində təsirli olmuşdur.

Qısaca, romantiklərin əsas xidməti azərbaycanlıların, Azərbaycan vətəninin hürriyyətdən (status əskikliyi olaraq da şərh etmək mümkündür, çünki romantiklər ictimai hürriyyətdən ilhamlanmışlar) nə qədər məhrum qaldıqlarından bəhs edərək, əslində diaqnoz funksiyası yerinə yetirmiş olmalarındadır. Beləliklə, buna bənzər təsirin alman millətçiliyinə bilavasitə erkən dövr romantikləri tərəfindən edildiyini demək mümkündür. Romantik şairlərdə isə C mərhələsində bilavasitə Rəsulzadənin məqalələrində özünü göstərəcək istiqlal vurğusu, yəni milli şüur özünü göstərmişdir. Yeri gəlmişkən, Hadi "Amali-tərəqqi" adlı şeirində belə demişdir:

> Həqiqi arizumuz intizami-hali-millətdir,
> Məsaimiz bütün məsrufi-istikmali-millətdir,
> Əsasi-fikrimiz təmini-istiqbali-millətdir,
> Ürəkdə bəslənən amalımız iqbali-millətdir,
> Yeganə nöqteyi-mətlub istiqlali-millətdir.
> (Hadi, 2005: 29)

Görüldüyü kimi Hadi və ümumilikdə B mərhələsinin romantik şairləri, ziyalıları Axundzadə kimi modern millətçiliyə çağırış edəcək anlayışlara aşina olmaqla bərabər, bu anlayışı kimlik, millət, vətən üçün qeyd ediblər. Ancaq bu fikir romantik, mücərrəd, poetik arzudan o tərəfə getməmişdir. Yəni A mərhələsində Axundzadə vətənpərvərlik anlayışından bəhs edərkən, müsəlman xalqın maariflənməsini, modernləşməsini qeyd edirdisə, B mərhələsində romantik ziyalılar vətəni milli (türklük) çərçivədə düşünməyə başlamışdılar. Qısası, millətləşmə prosesində romantik düşüncənin millət olma yolunda ümid olduqlarını demək mümkündür. Buna görədir ki, Hadi "Amalı-İstiqlal" adlı şeirində millətin varlığının ümidin itirilməməsinə bağlı olduğunu ifadə etmişdir (Hadi, 2005: 31, 32).

Məhəmməd Hadi şeirlərində bir arzunu ortaya qoymuşdur. Bu arzu fərdi azadlıqdan savayı, ictimai, milli hürriyyət əskikliyindən qaynaqlanmışdır. Yeri gəlmişkən, "Yeni həyat" qəzetində vətənə həsr etdiyi şeirində "vətənin kimsəsiz" (Osmanlı, 2010: 141) olmasından şikayətlənmişdir. Digər tərəfdən, romantiklər vətənin xilası, hürriyyətini qazanması üçün sahib çıxılması gərəkdiyini irəli sürmüş və məsələni vicdan

kontekstində ələ almışdılar. Bu kontekstdə Abbas Səhhət (1874-1918) "Vətəni sevməyən insan olmaz! Olsa da, o insanda vicdan olmaz!" (Osmanlı, 2010: 143) yazaraq vətənə sahib çıxmağın lazım olduğunu yazmışdır. Təkrara düşmək bahasına olsa belə, ifadə etmək lazımdır ki, romantiklərin vətən anlayışları şeiriyyatdan o tərəfə gedə bilməmişdir. Çünki 1905-ci il inqilabı Çarlığın nəzarətindəki qeyri-millətlərin bağlılıqlarını, sədaqətlərini bərpa etmək üçün elan edilmiş konstitusiyadan yola çıxaraq yaranmışdır.

Hadi "El fəryadı" adlı şeirində vətənə yönəlmiş hürriyyət arzusunu belə ifadə etmişdir:

Hürriyyət ilə millət edər kəsbi-məali,
Hürriyyət ilə mülkün olur qiyməti ali,
Avropalı hürriyyət ilə tapdı kəmali,
Əlbəttə, əsarətlə olur məhv əhali,
Hürriyyətü sərbəstlik imrani-vətəndir.
(Hadi, 2005: 39)

Ancaq romantiklər xoşbəxtlik barədə tamamən ümidsiz də olmamışdılar. Yeri gəlmişkən, Əli bəy Hüseynzadə 1905-1906-cı illər tarixində "Həyat" qəzetindəki seriya məqalələrinin birini bu şeirlə bitirmişdir:[57]

Millətə, milliyyətə, hürriyyətə
Aşiq olan uğrasa da, möhnətə,
Yarü vətən düşsə də, gər qürbətə
Qəm yemə, səbr et, bu da yahu keçər.
(Hüseynzadə, 2017:740)

Xülasə, Çarlıq dövrü Azərbaycanı millətləşmə prosesində vətən anlayışı B mərhələsində erməni-müsəlman toqquşmasının da təsiri ilə romantik şairlərin şeirlərində var olmaq (ancaq bu var olmanın milli çərçivədə Rəsulzadə olduğu kimi açıq, səhih hədəfi olduğunu demək mümkün deyildir) üçün xilası labüd olan mücərrəd nəsnə olaraq ortaya çıxmışdır. Ancaq romantik düşüncədə olduğu kimi, B mərhələsində müəyyən torpaq parçasını qeyd edən və vətəndaşı o torpaq parçasındakı dövlətə bərabər və azad çərçivədə bağlı, məsuliyyətli qılacaq anlayış

[57]Məqalə köhnə əlifbada yazılmış və hal-hazırki Azərbaycan dilinə dəyişdirilmədən olduğu kimi latın əlifbasına çevrilmiş və başa düşülməməkdədir. Məqalənin adı belədir:"Əbdi-Qılaf və məhfəzə".

ortaya çıxa bilməmişdir. Bunun əksinə, romantiklər hürriyətini əldə etmiş vətənlərə həsrətlə baxaraq milləti vətən hürriyyəti üçün oyandırmağa çalışmış və uğurlu da olmuşlar. Rəsulzadə əsrin əvvəlində inqilabın yaratdığı nisbi azadlıq mühitində millətin nə istədiyini bilmədiyini "Milli dirilik" (1914) adlı məqaləsində 1905-ci ili belə dəyərləndirmişdir: *"1905-1906-cı illər Rusiyada tarixi imkan yarandı. O zaman hər millət öz daxilində bəsləmiş olduğu milli məfkurəsini ortaya qoydu. Millət olaraq istədiklərini dilə gətirdilər. Yalnız biz nə istəyəcəyimizi bilə bilmədik. Aramızda nə istədiyimizi bilən fərdlər olmasına baxmayaraq, milli amal/məfkurə təsis, təmin edə bilmədilər"* (Rəsulzadə, 2014b: 473).

Bir sözlə, hürriyəti qeyd edən vətən anlayışı milli hərəkatın B mərhələsində Hüseynzadənin formalaşdırdığı "Füyuzat" çevrəsində erməni-müsəlman toqquşmasının təsirində inkişaf etdirmişdir. Hürriyyəti hədəfləyən romantik vətən anlayışı C mərhələsinin ilk toxumlarını da əkmişdir. Ancaq B mərhələsindəki romantik vətən anlayışı sərhədləri müəyyən bir torpağı (siyasi hədəf) qeyd edə bilməmişdir.[58] Əksinə romantik vətən anlayışı özünü böyük türkün parçası olaraq hiss etdiyi üçün vətən anlayışına ehtiyac duymuş və gücünü oradan almışdır. Bununla bərabər, B mərhələsində formalaşan poetik, romantik vətən anlayışının insanla (kütlə, xalq) əlaqə qurmağı bacardığı, milli oyanışı başlatdığı deyilə bilər. Bu səbəbdəndir ki, milli hərəkatın ümumi vəziyyətini dəyərləndirdikdə həm millətini,[59] həm dövlətini[60] axtaran etnik qrupdan[61] bəhs etmək daha doğru və yerində olar. Bu kontekstdə B mərhələsində vətən anlayışı fonunda intellektual mənada millət anlayışının formalaşdığını ifadə etmək olar.

---

[58] Məsələn, Kamal Karpat osmanlıçılıqdan etibarən dövlətin təbəələri dövlətə, qısaca, sərhədləri müəyyən olan vətənə bağlı etməyə çalışdığını irəli sürmüşdür. Osmanlıda vətən anlayışını Osmanlı vətənini müdafiə etmək üçün ortaya atan Namiq Kamal sədaqət, bağlılıq və fədakarlıq istəməyi nəzərdən qaçırmamışdır (Karpat, 2011: 22, 23, 24). Ətraflı məlumat üçün baxın: Kemal H. Karpat, (2011). Osmanlı'dan Günümüze Kimlik ve İdeoloji . Tərc. ve Haz. Güneş Ayas. İstanbul: Alfa. s. 17-34.

[59] Millətini axtaran dövlət üçün baxın: Ayşe Kadıoğlu, Milletini Arayan Devlet: Türk Milliyetçiliğinin Açmazları. Türkiye Günlüğü, Sayı 75, 2003. s. 137-153.

[60] Dövlətini axtaran millət üçün baxın: Ayşe Kadıoğlu, Devletini Arayan Millet: Almanya Örneği. Toplum ve Bilim. Sayı 62, 1993. s. 95-112.

[61] Bu mövzu ilə bağlı məlumat üçün baxın: Miroslav Hroch, From ethnic group toward the modern nation: the Chech case. Nations and Nationalism Sayı 10 (1/2), 2004 s. 95-107; Miroslav Hroch, National Self-Determination from a Historical Perspective Canadian Slavonic Papers Sayı 37, No ¾, 1995 s. 283-299.

# 3.5. Əli bəy Hüseynzadə və B mərhələsində romantik türkçülük

Millətləşmə proseslərində ziyalıların Andersonun "eyni zamanlılıq" deyə tərif etdiyi qayədə birləşmələrində mətbuatın, ədəbiyyatın, ana dilində məktəblərin və s. təsiri olmuşdur. Buna görə də Hü-seynzadənin milli hərəkatın ziyalılarının öz aralarında əlaqə qura bildikləri (Svetaxovski, 1988: 46) bir dövrdə (B mərhələsi) yaşadığını demək mümkündür. B mərhələsində ziyalılar arasındakı əlaqə mətbuat sayəsində olmuş və milli oyanış meydana çıxmışdır. Hüseynzadə B mərhələsinin aktiv ziyalılarından biri olmuşdur. Ancaq bu ziyalılar "akademiya"dan (Hroch, 2011: 227) olmayan və ya status əldə edə bilməyən (A mərhələsində dəyərləndirilə biləcək Axundzadə, Abbasqulu ağa Bakıxanov və s. zadəgan kimlərsə bilavasitə Çarlığın məmurları olmuşlar) ziyalılardan formalaşmışdır. Bu mənada B mərhələsində milli şüurun "intellektual mayalanma" (Greenfeld, 2017: 146) mərhələsini yaşadığı deyilə bilər.

"İntelektual mayalanma"nın əsas iştirakçısı olan Hüseynzadənin Azərbaycanda milli şüurun inkişafına dair yanaşması bədbin[62] olmuşdur. Misirdə nəşr olunan türk qəzetində çıxan "Yurd sevgisi"[63] (1904)

---

[62] 1906-cı ildə Füyuzat jurnalında yazdığı "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" adlı məqaləsində bu bədbinliyi dilə gətirmişdir:

"Biz gördük ki, qonşularımızın irəli getməsinin səbəbi qəzetlər, mətbəələr, kitablar, məktəblər, mədrəsələr, incəsənətlər, cəmiyyətlər, şirkətlər, təşkilatlar, teatrlar imiş!...Biz də tələm-tələsik bunları yarım-yamalaq düzəltməyə başladıq. Bilmiyoruz ki, qonşularımız qırx, əlli ildən bəridir işləyirlər" (Hüseynzadə, 2007: 187).

[63] "Nə qoydular uyuya,
Nə qoydular oyana.
Durur bila-hərəkət,
Rəvamı bir diriyə?
Nə getmədə iləri,
Nə dönmədə geriyə.
Ədu qırır qapıyı,
Biz evde bixəbəriz.
Nə başqa başqalarız,
Nə ittihad edəriz.
Ayıltmadı qələmim.
Şu türk ilə əcəmi.
Nə qoydular yazayım,
Nə qırdılar qələmi",

adlı şeiri də Hüseynzadənin bəzən ümidsizliyə düşdüyünü göstərməkdədir. Digər tərəfdən, Hüseynzadənin intellektual fəaliyyəti istiqamətində formalaşan B mərhələsində onun dolayı yolla romantiklərin kollektivist-etnik[64] əsaslı milli kimlik anlayışını mənimsədiklərini demək mümkündür. Bu mənada Hüseynzadənin düşüncəsində həm romantizm, həm də bənzər formada inkişaf edən rus millətçiliyinin təsirini axtarmaq mümkündür. Qısaca, milli hərəkatın B mərhələsinin Hüseynzadənin milliləşdirici romantizminin[65] təsirində inkişaf etdiyini deyə bilərik. Milli hərəkatın B mərhələsində Hüseynzadənin düşüncə və əsərlərində türklük və islamçılıq bir-birinə zidd/düşmən anlayışlar olaraq görülməməkdədir.[66] Çünki həm Osmanlıda, həm də Çarlıq müsəlmanlarında modernləşmə proseslərində ortaya çıxan axınlar (osmançılıq, islamçılıq, türkçülük, azərbaycançılıq) dünyəvi anlayışlar olaraq yaranmışdır (Karpat, 2011: 22). Ancaq milli dövləti formalaşdıran ideoloji (azərbaycançılıq) kimliyini (millət) tərif edərkən, dinin həlledici rolunu[67] (ümmət) qəbul etməmişdir. Buna görə də, B mərhələsində milli dövləti qeyd edən kimlik, millət anlayışının yaranmadığını deyə bilərik. Qısaca, Axundzadədən fərqli olaraq (Axundzadə Çar Rusiyasındakı intellektual çevrədə yetişdiyişini, Hüseynzadənin isə dünyagörüşünü başlanğıcda islam və türk birliyini vurğulayan "İttihad və tərəqqi" çevrəsində formalaşdırdığını ifadə etmək lazımdır) Hüseynzadə B mərhələsində dinlə dünyəvi/romantik əlaqə qurmağa çalışmışdır.

[64] Bu fərqləndirmə üçün baxın: Liah Greenfield, (2019). Nationalism. Washington: Brooking Institution Press. s.81-83.

[65] Həsən Aksakal bu ifadəni modern türk siyasi mədəniyyətində romantizmi araşdırdığı əsərində istifadə etmişdir. Ətraflı məlumat üçün baxın: Hasan Aksakal, (2015). Türk Politik Mədəniyyətünde Romantizm. İstanbul: İletişim. s. 34-37.

[66] Süleyman Seyfi Öğün "Bir Türkçü-İslamcı Eklemlenme Figürü Olarak Ağaoğlu Ahmed" məqaləsində bu problemi araşdırmışdır. Ətraflı məlumat üçün baxın: Süleyman Seyfi Öğün, (2000). Türk Politik Medeniyyeti. İstanbul: Alfa. s. 293-301. Digər tərəfdən, Yacob Landau panislamçılıq və pantürkçülüyü xristianlaşdırmağa və ruslaşdırmağa qarşı reaksiya olaraq ələ almaqla bərabər, islamçılığın ənənəvi cəmiyyətin reaksiyası olduğu halda, pantürkçülüyün isə daha çox təhsilli təbəqəyə xitab etdiyini bildirmişdir (Landau, 1995: 8). Ətraflı məlumat üçün baxın: Jacob M. Landau, (1995). Pan-Turkism. London: Hurst&Company. s. 7-29. Hüseynzadənin islamçılıqla əlaqəli fikirləri üçün baxın: Əli Bəy Hüseynzadə, (2007). Seçilmiş əsərləri. Haz. Ofelya Bayramlı ve Azər Turan. Bakı: Şərq Qərb. s. 110-115.

[67] Bu fərqləndirmə üçün baxın: Məhəmməd Əmin Rəsulzadə, (2014b). Seçilmiş əsərləri. Haz. Şirməmməd Hüseynov. Bakı: Şərq Qərb. s. 466-467.

Milli hərəkat prosesində ziyalılar tərəfindən milli dil əsaslı kimlik/millət tərifi XIX əsrin son rübündə "Kəşkül" qəzetində vurğulanmışdır. Ancaq kimlik (türklük) şüurunun kütləvilik qazanması və ya milli oyanışın başlaması baxımından millət problem olaraq 1905-ci il[68] inqilabından sonra ortaya çıxan mətbuat sayəsində mümkün olmuşdur.

Milli hərəkatın B mərhələsində kimliyin problem olaraq ortaya çıxmasında türklərin birləşməsini[69] xəyal edən Hüseynzadə təsirli olmuşdur. Hüseynzadənin[70] düşüncəsində türklüyün problem olaraq ortaya çıxmasında əsrin əvvəllərində Osmanlı dövlətinin qurtuluşu olaraq türkçülüyə müraciət etməsi ilə mümkün olmuşdur. Həmçinin, Yusif Akçuranın "Üç tərzi-siyasət"i (1904) nəşr etdirməsi türkçülüyün siyasi reallıq olaraq ortaya çıxması kimi dəyərləndirilmişdir (Yıldız, 2001: 10). Akçuranın əsərinin Osmanlıda millətçiliyin və ya türkçülüyün başlanğıcı olduğu deyilə bilər (Haşlak, 2000: 57).

Hüseynzadə millətin inşasında dilin rolunun məntiqini anlamış və türkçülüyü Osmanlı türkçəsi ilə dizayn etməyə çalışaraq dil kontekstində mədəni bütünlük formalaşdırmağa çalışmışdır. Bu səbəblə Çarlıq dövrü Azərbaycanı milli hərəkatının B mərhələsində Hüseynzadə bilavasitə "Füyuzat" jurnalının sütunlarında Osmanlı türkcəsinin türklərin ortaq ədəbi dilinə çevrilməsi üçün intellektual təşəbbüs göstərmişdir (Bayat, 1998: 303-304). Bu mənada milli dilin dizayn edilməsi Çarlığın müsəlman ziyalıları arasında etnik millətçiliyin məşhurlamasına da səbəb olmuşdur (Karpat, 2009: 546).

---

[68] İbrahim Yüksəl "Azərbaycanda fikir həyatı və mətbuat" adlı əsərində mətbuatın millətləşmə prosesindəki təsirini 1905-dən öncəki və sonrası kontekstində dəyərləndirmişdir. Ətraflı məlumat üçün baxın: İbrahim Yüksel, (1988). Azerbaycan'da Fikir hayatı ve Basın. İstanbul: Acar Yayınları. s. 92-125.

[69] Yusif Akçura "Üç tərz-i siyasət" (1904) adlı əsərində türk ziyalıları arasında türk birliyi idealının ortaya çıxmasını Osmanlının almanlarla münasibətinin artmasına bağlamışdır. Ətraflı məlumat üçün baxın: Yusuf Akçura, (2015). Üç Tarz-ı Siyaset. Haz. Erol Kılınç. İstanbul: Ötüken. s. 80.

[70] Kamal Karpat Hüseynzadənin türklüyə baxışını Osmanlı öndərliyində linqvistik və mədəni bütünlük şəklində açıqlamışdır. Digər tərəfdən, Şener Aktürk Çar Rusiyasından Osmanlıya köç etmiş millətçi ziyalıların millətçiliyi linqvistik və mədəni səviyyədə şərh etdiklərini irəli sürmüşdür. Ətraflı məlumat üçün baxın: Kemal Karpat, (2009). İslam'ın Siyasallaşması. (Şiar Yalçın). İstanbul: İstanbul Bilgi Üniversitesi. s. 693-695; Şener Aktürk, Incompatible Visions of Supra-Nationalism: National Identity in Turkey and the European Union. European Journal of Sociology, Sayı: 48, No 02, 2007. s. 347-372.

Hüseynzadə "dar bir millət" (Azərbaycançılıq və ya Azərbaycan millətçiliyi) anlayışına qarşı çıxmışdır. Çünki romantik baxışın təsiri altında düşünən Hüseynzadəyə görə, istiqbal və istiqlal bütün türklərin Osmanlı türkcəsi və ya Osmanlı mərkəzə qoyularaq birləşməsindən keçməliydi. Çünki *"Milliyyət və insaniyyət"* (1906) adlı məqaləsində milliyyətçiliklə bağlı fikirlərini belə izah etmişdir: *"Yüksəlin! Dar bir milliyyət, millətçilik dairəsindən kənara çıxın. Millətinizi zillətə düçar etməyin. Yüksəlmədikcə, milliyyət xəyalını beyninizdən çıxarmadıqca, insanlığa İsalar, Məhəmmədlər, Buddalar kimi bir nəzərlə baxmadıqca yüksələ bilməzsiniz. Deyirik ki, zəmanəmiz kapitalizm və milliyyətçiliyin əksinədir. Bu durumu başa düşməyən insanların içindən çıxılmaz bir girdaba düşəcəkləri açıq-aydındır".*

Hüseynzadə romantizm xülyasına qapılmış (bu şərh Hüseynzadənin millətləşmə prosesindəki təsirini gözardı etməməlidir) və Rəsulzadənin etdiyi kimi torpağın/coğrafiyanın – Azərbaycanın siyasiləşməsinə, sərhədlərin müəyyənləşməsinə[71] və s. yönəlmək əvəzinə "humanist"[72] (Çağla, 2002: 53) romantik/fəlsəfi qayğılarla yaxşının, doğrunun nə olduğunu izah etməyin dərdini çəkmişdir. Bu səbəblə Hüseynzadənin tam bir millətçi – Rəsulzadə kimi olmadığını demək mümkündür. Bu səbəblə Hüseynzadənin türkçülüyü Osmanlı türkcəsi üzərindən formalaşmışdır və milli hərəkata töhfəsi Rəsulzadə ilə eyni olmamışdır. Rəsulzadə C mərhələsində *"Azərbaycan davası"*[73]ndan hərəkət etsə də, Hüseynzadə türklərin birliyini müdafiə etmişdir. Digər tərəfdən "Türk dilinin mədəni vəzifəsi" (1907) adlı məqaləsində müsəlmanlar arasında ancaq türk dilinin (Osmanlı türkcəsi) mədəniyyət dili olduğunu vurğulamışdır. Türkləri mədəniyyətə çatdıracaq dil türk dilidir. (Bayramlı, 2006: 140). Beləliklə, Hüseynzadənin fikirlərində romantik düşüncənin təsirinin olduğu deyilə bilər.

---

[71] Milli hərəkat prosesində sərhədlərin təyin edilməsi Azərbaycanı türklüyün passiv bir üzvü olaraq düşünmək yerinə, siyasi olaraq istiqlalını əldə etmiş, öz müqəddaratını təyin edə bilmiş bir ölkə olaraq ifadə edilə bilər. Bu mövzuda daha ətraflı baxın: Valiyev, O. (2020). Milletini ve Devletini Arayan Bir Etnik Grup: Azerbaycan Örneği (1850-1920). Uluslararası Politik Araştırmalar Dergisi. Cilt 6, Sayı 1. s. 1-15.

[72] Çağla Hüseynzadənin humanist bir yanaşma ortaya qoyduğunu ifadə edərək, əslində, dövlətlə, siyasətlə birbaşa əlaqəli olmayan romantik xəyalına işarə edir.

[73] Məhəmməd Əmin Rəsulzadə Azərbaycan Dərgisində "Azərbaycan davası" (1954) adlı məqalə yazmışdır. Ətraflı baxının: Məhəmməd Əmin Rəsulzadə, (2014c). Əsərləri IV. Haz. Şirməmməd Hüseynov. Bakı: Təhsil. s. 22-27

Alman millətçiliyini, milli kimliyini dil üzərindən anlayan Fixte ve Herder də alman dili haqqında bənzər fikirlər səsləndiriblər. Herderin "Dilin mənbəyinə aid risalə" (1772), Fixtenin "Alman millətinə nitqlər" və s. əsərlərdə millət üçün dilin zərurətinə və alman dilinin saflığına diqqət çəkmişdilər. (Kedourie, 1971: 55-84). Hüseynzadənin təbii kimlik anlayışı içərisində olduğu görünür. Çünki Osmanlı türkcəsini ən faydalı dil olaraq qəbul etməkdir. Əks halda, Çar Rusiyası tərkibindəki türklərin/müsəlmanların inkişafıyla bağlı imkan görməmişdir.

Bu kontekstdə Hüseynzadənin dil üzərindən təbii bir türklük dizayn etməyə çalışdığını demək olar. Yəni Hüseynzadənin türklük və ya millət ifadəsinin etnik millət ifadəsinə uyğun gəldiyini deyə bilərik. Çünki Hüseynzadə azərbaycanlılara seçə biləcəkləri bir şey təklif etmək yerinə, təbii olaraq bir hissəsi olduqlarını düşündüyü türklüyü tanıdırdı. Müasir millətlərin meydana gəlməsində həlledici təsiri olan dil problemi Avropada xristian ontologiyasının sorğulanmağa başladığı İntibah dövründən etibarən özünü göstərmiş və Dante, Monten və Luterin əsərləri "qüsursuz" dil axtarışının başlanğıcı olaraq ortaya çıxmışdır. Umberto Eko "Avropa mədəniyyətində qüsursuz dil axtarışı" (1993) adlı əsərində müasir dövrdə dil probleminə diqqət çəkmək üçün "ivritcə artıq müharibəni uduzub" (Eco, 2009: 86) demişdi. Çünki Orta əsrlərin sxolastik dövründəki "müqəddəs və səssiz dillər" (Anderson, 2017: 28) artıq hakimiyyətini[74] itirmişdi. Bu mənada dilin müasir dövrdə ortaya çıxan "siyasi gövdə"nin formalaşmasındakı əsas faktorlardan biri olduğunu ifadə etməliyik.

Bu səbəbdən müasir millətlərin ortaya çıxması Avropa monarxiyalarının müasirliyin astanasında xalq dillərini inzibati dillər (və ya Müqəddəsliyin Kilsədən Krallara keçməsiylə) olaraq istifadə edilməyə başlamasıyla öz formasını tapmışdır. Misal üçün, millətçilik əsrində almanların dövləti olmamasına baxmayaraq, bir almanlıq şüuru olduğundan alman millətçiliyi dil üzərindən formalaşmış və bütün almanların birləşdirilməsi kimi düşüncə meydana gəlmişdir. Bu kontekstdə Hüseynzadə türk ləhcələri arasında düşüncə, incəsənət, fəlsəfə və s. üçün ən uyğun olan Osmanlı türkcəsini ortaq ədəbi dil olaraq xəyal etmişdir. Bu səbəblə də türklərin tarix şüuruna, dil elminə yiyələnməli olduğunu yazmış-

[74] "1500-cü ildən əvvəl nəşr edilən kitabların 77%-i hələ də latın dilində idi. 1501-ci ildəki 88 nəşrdən 8-i xaric olmaqla, hamısı latınca olsa da, 1575-ci ildən sonra nəşr edilənlərin çoxu fransızca oldu" (Anderson, 2017: 32).

dır. (Hüseynzadə, 2007: 44). Bu şüur isə Osmanlı türkcəsi üzərindən əldə edilə bilər. Həyat qəzetində yazdığı "Qəzetimizin dili haqqında bir neçə söz" (1905) adlı məqaləsində dil haqqında fikrinə gələn tənqidlərlə bağlı belə bir fikir səsləndirmişdir: *"Bizmi qəzetimizin dili sadələşdirək, yoxsa camaatamı öz ana dili olan türkcəni (Osmanlı türkcəsi) öyrətmək lazımdır. Bütün məsələ budur! Rəyimizə görə, yazımızdan daha sadə, Qafqazda danışılan şivələrə daha uyğun bir surətdə yazmaq mümkün deyildir. Lakin unudulmamalıdır ki, yazarlarımız Qafqazın və Rusiyanın müxtəlif şivələrinin danışıldığı bölgələrindən gəlmişlər. Birimiz Qarabağdan, birimiz Gəncədən və ya Şirvandan gəlmişik. Birimizin vətəni lap Rusiyanın ortasındadır. Digərimizin vətəni isə ya Osmanlı, ya da İran sərhədindədir. Beləkiklə, cümləsini (türkləri) tövhidə çalışmalıyıq"* (Hüseynzadə, 2007: 38).

Mətndən də başa düşüldüyü kimi Hüseynzadə qəzetində sadəcə azərbaycanlı deyil, Rusiyanın müxtəlif bölgələrindən olan türklərə də yer verib. Çünki Hüseynzadə bütün türkləri tövhid halında görmək istəyən romantik fikrin təmsilçisi olmuşdu. Bu səbəbdən Hüseynzadənin düşüncəsində bir milli dövlət anlayışı olmamışdır. Bu mənada Hüseynzadənin Osmanlı türkcəsini ortaq ədəbi dil halına gətirmə düşüncəsinin İstanbuldakı türkçü çevrədə bir qarşılığının olduğunu demək mümkündür.

Masami Aray (1953-) "Jön türk dönəmi türk millətçiliyi" (1992) adlı əsərində "Türk Dərnəyi"nin[75] (1908) bəyannaməsinə əsaslanaraq Osmanlı türkcəsinin digər türklər arasında əsas dil halına gətirilmə səyini belə izah etmişdir: *"Dərnəyin məqsədi türkcənin xarici məmləkətlərdə (Türk icmaların yaşadığı ərazilər) yayılmağını təmin etməkdir. Bu kontekstdə Afrika, Avstriya, Balkan, Çin, İran, Orta Asiya və Rusiyadakı türklərin Osmanlı türkcəsinə öyrəşdirilməsi Osmanlının iqtisadi, sənaye inkişafına da faydalı olar. Dərnək, əslində, türklükdən istifadə edərək müxtəlif türk qruplarını Osmanlı türkcəsinə yaxınlaşdıracaqdır. Bu səbəblə ilk olaraq bu məmləkətlərə göndəriləcək kitablar faydalı olacaqdır"* (Arai, 2003: 43).

"Həyat" və "Füyuzat" da İstanbuldakı yeniliklərlə bağlı məqalələrə yer vermiş; bəzən İstanbuldan olan yazıçıların məqalələrini də dərc etmişdir. Xüsusilə də "Füyuzat" dərgisinin yazıçıları arasında həm Os-

[75] Türk Dərnəyinin bəyannaməsi mətnin tam halı üçün baxın, Arai, M. (2003). Jön Türk Dönemi Türk Milliyetçiliği. Tərc. Tamsel Demirel. İstnabul: İletişim Yayınları. S. 41-48

manlıdan, həm də Rusiyadan olan türklər var idi.[76] Bu səbəbdən Hüseynzadənin milli dildən daha çox, ortaq bir dil təxəyyül etdiyini demək mümkündür. Hüseynzadə Azərbaycan ziyalıları tərəfindən müəyyən bir hörmət qazansa da, dil haqqındakı yanaşmasından ötrü tənqid edilmişdir. Tarixçi Balayev dilin (Osmanlı türkcəsi) rolunu lazımından çox şişirtdiyi üçün[77] (Balayev, 2014: 83) tənqid etmişdir. Balayev tənqidinə davam etmiş və Hüseynzadənin Osmanlı türkcəsindəki israrının "osmanlılaşdırma" səyi olduğunu belə izah etmişdir: *"Hüseynzadənin türklük anlayışı bütün türklərin bir olmasından ibarət olmuşdur. Bu birlik ortaq bir dilin inşa edilməsinə bağlı idi. Bu kontekstdə osmanlıca türk ləhcələri arasında ən inkişaf etmişi olduğu üçün Hüseynzadə osmanlıcanın ortaq türk dili olaraq qəbul edilməsini təklif etmişdir"* (Balayev, 2014: 82).

Hüseynzadənin Osmanlı türkcəsinə bu qədər önəm verməsinin təməlində romantik[78] düşüncə var idi. Ancaq Balayev və oxşar tədqiqatçılar Axundzadədə olduğu kimi ziyalıların hansı düşüncədən təsirləndiklərinə baxmamışdılar. Bu səbəblə Osmanlı türkcəsindəki qətiyyətinin səbəbi layiq olduğu şəkildə təhlil edilməmişdir. Hüseynzadənin romantizmdən təsirlənməsi qaçılmaz olmuşdur. Digər tərəfdən dolayı yolla bir hissəsi olduğu "İttihad və tərəqqi" cəmiyyəti də alman düşüncəsindən təsirlənmişdir. Bu mənada Herder ve Fixtenin alman olmaq üçün dilə yükləmiş olduqları əhəmiyyətə diqqət yetirmək Hüseynzadənin baxışının başa düşülməsini də asanlaşdıra bilər. Çünki türk ləhcələri içərisində ən inkişaf etmiş İstanbul türkcəsi və Osmanlı türkcəsini istifadə edərək bir türklük qurmaq istəmişdir. Bu səbəbdən Balayevin burada Hüseynzadənin millətçiliyini millətçilik və ya millət quruculuq proseslərində istifadə olunan modellər: *fərdiyyətçi/sivil* (Anqlosakson), *kollekti-*

---

[76] Ətraflı məlumat üçün baxın: Vilayət Quliyev, (2017). Füyuzatın İki Yazarı. Bakı: Elm və Təhsil; Füyuzat (1906-1907). Haz. Ofeliya Bayramlı. Bakı: Çaşıoğlu.

[77] Aydın Balayev Hüseynzadənin dil haqqındakı yanaşmasını başqa bir araşdırmasında da davam etdirmişdir.Ətraflı baxın: Balayev, A. (2012). Məhəmməd Əmin Rəsulzadə (1884-1955). Bakı: Çıraq. s. 28-32.

[78] Hüseynzadə alman romantik düşüncəsindən təsirlənmişdir. Alman romantik düşüncəsi ilə bağlı baxın: Hans Kohn, Romanticism and the Rise of German Nationalism. The Review of Politics. Vol. 12, № 4 (1950), s. 443-472; Banu Alan Sümer, Erken Alman Romantiklerinin Aydınlanma'ya İlişkin Tutumları Üzerine. Ankara Üniversitesi Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi. Vol. 52, № 1 (2012), s. 133-145; Hans Kohn, The Eve of German Nationalism (1789-1812). Journal of the History of İdeas, Vol. 12, № 2 (1951), s. 256-284; Liah Greenfeld, (2017). Milliyetçilik. Tərc. Abdullah Yılmaz. İstanbul: Alfa. s. 481-529

*vist/ etnik* (Alman modeli) və *kollektivist/sivil* (Fransız modeli) çərçivəsində təhlil etmədiyi görünür. Bununla birgə Hüseynzadəyə dil məsələsində tənqidlər davam etmişdir.

"Həyat" qəzetindəki "Yenə dil müşkülatı" (1905) başlıqlı məqaləsində dil mövzusunda özünə yönəldilən tənqidlərə cavab verməyə davam etmişdir. Bu kontekstdə dilin xalqın anlayacağı tərzdə olma zərurətinə və bu mənada da fars, ərəb sözlərinin istifadə edilməməsiylə bağlı olan tənqidlərə belə cavab vermişdir: "*Günümüzdə türkcə, ərəbcə, farsca və ya hind dili yoxdur! Digər tərəfdən türk müsəlmanca, ərəb müsəlmanca, fars müsəlmanca, hind və ya urdu müsəlmanca dilləri istifadə edilmişdir. Bu dillərin hər biri bir qövmün, bir milləti-İslamiyənin kavaidi-asliyeyi-kadimiyesini bəzi istisnalarla qorusa da, lakin lüğət baxımından yenə digərlərindən kəlmələr istiarə edər. Yəni türkcə də belədir: Bu dil lüğət baxımından Türkiyi-kadim, Farsi və Arabidən ibarətdir*" (Hüseynzadə, 2007: 94).

Tənqidlərə verdiyi cavabdan hərəkətlə B mərhələsində müsəlmanlığında kimlik tərifində təsirini qorumuşdur. Bu səbəblə Hüseynzadənin türkçülüyü Osmanlı türkcəsinin bütün türklər arasında ədəbi dil olmasına bağlı olaraq inkişaf etmişdir. Yəni alman romantik düşüncəsinin dil üzərində almanlıq qurma səyi kimi Hüseynzadə də bir türklük formalaşdırmağa çalışmışdır. Balayev Hüseynzadənin millətləşmə prosesinə təsirinə turançılıq kontekstində yanaşmış və Hüseynzadənin ümmətçilik yerinə, millət anlayışını əvəzləməyə çalışdığını yazmışdır. (Balayev, 2014: 77, 78). Ancaq Hüseynzadə Azərbaycan kontekstində millət anlayışına sahib olmamışdır. Bu çərçivədə Hüseynzadə ilə bağlı edilən tədqiqatlar Romantik düşüncəni (xüsusilə də alman romantik düşüncəsi) terminoloji olaraq əhatə etmədiyi üçün Hüseynzadə başa düşülməmişdir. Halbuki Hüseynzadənin Rəsulzadədə olduğu kimi dövlət (istiqlal) təsəvvürü olmamışdır. Yəni bir milli dövlət ideoloqu olmamışdır. Türklərin kim olduqlarını unutduqlarını müəyyən etmək və xatırlatmaq ("Türklər kimdir kimlərdən ibarətdir?" (1905)) əsas məqsədi olmuşdur. Misal üçün, milli hərəkat prosesi boyunca müasir mənada millət anlayışının mahiyyəti siyasi olaraq ancaq C mərhələsində Rəsulzadənin məqalələrində[79] öz yerini tapmış və müasir millət, Azərbaycan millətçiliyi mövqeyi qəbul edilə bilmişdir. Bu səbəbdən milli hərəkatın B mərhələ-

[79] Rəsulzadənin millətlə bağlı fikirləri üçün baxın: Məhəmməd Əmin Rəsulzadə, (2014b) Əsərləri II. Haz. Şirməmməd Hüseynov. Bakı: Təhsil. s. 460-487

sində həlledici ziyalı kimi ortaya çıxan Hüseynzadənin kimliyi türk millətinin bir hissəsi olaraq qəbul etdiyini demək olar (Çağla, 2002: 54).

Hüseynzadənin dil problemi haqqında yazdığı yazıların əsas məqsədi bütün türklərin bir-birlərini anlaya biləcəyi bir dil qrammatikasına sahib olmaq zərurəti fikrinə əsaslanmışdır. Bu mənada ortaq bir "ədəbi dil" (Ülken, 2013: 393, 394) yaratmağa səy göstərmişdir. Ancaq dil birliyi tezisindən hərəkət etməsi, "dilin önəmini böyütməsi" (Balayev, 2014: 83) və Azərbaycan dilini osmanlıcalaşdırmasına[80] görə tənqid edilmişdir. Bu səbəbdən Hüseynzadənin Osmanlı türkcəsi mərkəzli dil dizayn etdiyi və Osmanlı türkcəsi danışa bilən intellektualların sayının bu dili danışan xalqdan daha çox olduğu deyilə bilər. Ancaq millətləşmə intellektualların başlatdığı bir hərəkat olduğundan milli şüurun kütlələrə yayılmasına səbəb olmuşdur. Misal üçün, Hüseynzadənin ərəb əlifbasını və Osmanlı türkcəsini müdafiə etməsinin arxasında xalqı düşünməkdən daha çox, türklərin imperial keçmişini qoruma instinkti olduğunu demək mümkündür. [81]

---

[80] Misal üçün Firudin bəy Köçərli "Ana Dili" (1913) adlı məqaləsində Hüseynzadəni belə tənqid etmişdir: "Bizim Azərbaycan türklərinin özlərinə xas dili var. Allah Əli bəy Hüseynzadəyə insaf versin. Kaş o alicənab İstanbulda rahat oturaraq bizim bəxtsiz Qafqaza gəlməsəydi. O alicənabın elm və kəlamına sözümüz yoxdur. Sözümüz ondadır ki, elm və kamalından bizə bir bəhrə vermədi, ancaq dilimizi pozdu, təzə dil gətirdi" (Nəsibli 2019: 283). Digər tərəfdən, Hüseynzadəyə və dil birliyini müdafiə edən türkçülərə edilən tənqidlər üçün Mirzə Cəlil Məmmədquluzadənin "Azərbaycan" və "Anamın kitabı" əsərlərinə baxmaq olar. Ətraflı məlumat üçün baxın: Cəlil Məmmədquluzadə, (1985). Əsərləri IV cild, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. s. 222; Cəlil Məmmədquluzadə (1984). Əsərləri II cild, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. s. 62-100

[81] Hüseynzadənin ortaq ədəbi dil layihəsinə tənqidlər də olmuşdur. Misal üçün, Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında yazdığı "Azərbaycan" (1917) məqaləsində ortaq ədəbi dil olaraq Osmanlı dilini müdafiə edənləri belə tənqid etmişdir:

Bəzən özümdən soruşuram:

– Anam kimdir?

Cavab verirəm: "Anam rəhmətlik Zöhrəbanu bacı idi".

– Dilim nədir?

– Azərbaycan dilidir.

– Yəni, vətənim haradır?

– Azərbaycan vilayətidir.

– Demək ki, dilimin adı Türk-Azərbaycan dilidir. Məlum olur ki, vətənim də Azərbaycan vilayətidir.

Azərbaycan haradır? (Məmmədquluzadə, 2004c: 4).

Ətraflı məlumat üçün baxın: Cəlil Məmmədquluzadə, (2004c). Əsərləri. Bakı: Öndər Nəşriyyatı. s. 4-5; Digər tərəfdən, Hüseynzadənin dil layihəsinə ikinci bir tənqid Azərbaycan ziyalıları arasında nüfuzu olan Firudin bəy Köçərlidən gəlmişdi. Köçərli "Ana Dili" (1913)

## 3.6. Hüseynzadədə Tarix Problemi

Aydınlanma dövrünün mütəfəkkirləri Kondorsenin "İnsan zehninin inkişafı" (1793) əsərində etdiyi kimi tarixi təhlil edərkən birxətli irəliləmə formasında dizayn etmişdilər. Digər tərəfdən, romantik tarixçiliyin xəbərçisi Herder isə "Tarix fəlsəfəsinə aid fikirlər"də hər mədəniyyətin və ya millətin fərqli bir tarixə sahib ola biləcəyi fikrindən hərəkət etmişdir. Bu mənada romantizmin funksionallığının bir oyanışa səbəb olduğu deyilə bilər. Ancaq romantizm əsaslı tarix yanaşmasının milli tarixə çevrilə bilmədiyini də deməliyik. (Ülken, 2016a: 200).

Fixte "Alman millətinə müraciətlər"ində alman ruhunu for-malaşdırmaq üçün tarixin dərinliklərinə müraciət etməli olduğunu düşünmüşdür. Bu səbəblə tarixi dərinliyə (mədəniyyətə) ehtiyac duyan alman ruhunun formalaşması və ictimailəşməsi romantizmlə mümkün olmuşdur. (Aksakal, 2015: 98). Tarixdə dərinlik axtarışı Avropanın, hətta Şimali Afrikanın belə alman milli ruhunun hissəsi olduğu kimi iddialı yanaşmalara səbəb olmuşdur. (Geary, 2012: 38). Bu səbəblə təbii bir tarix anlayışını ortaya çıxdığı görünür. Bu kontekstdə Hüseynzadənin, xüsusilə də "Türklər kimdir, kimlərdən ibarətdir" adlı məqalələr toplusunda (Hüseynzadənin türklüklə bağlı ən əsas mətnlərindən birisi olduğu üçün bu mətn üzərində daha çox dayanılıb) tarixi oxşar bir metodla ələ aldığını, hətta yetərsiz[82] məlumatlarla bir tarixi xəyal ortaya qoymağa çalışdığını demək mümkündür. Hüseynzadə də İstanbulda doğulmuş romantik, bütövlükçü, təbii tarix anlayışını mənimsəmiş və bütün türkləri oyatmağı hədəfləmişdir. Aleksandr Koyre alman romantizminin təsiriylə slavçıların da keçmişə fokuslandıqlarını və ümidlərini tarixə bağladıqlarını bildirmişdir.

Digər tərəfdən romantiklərin millətə yanaşması metafizika çərçivəsində olmuşdur. (Koyre, 1994: 11, 87). Bu kontekstdə həm romantizmdən, həm də panslavizmə qarşı formalaşan qərəz hissi Hüseynzadəni də

adlı məqaləsində belə yazmışdı: "Bizim Azərbaycan türklərinin belə özlərinə xas dili var". Məqalənin davamında Hüseynzadəni hədəfə alan Köçərli Osmanlıca kəlmələrin çoxluğundan qəzetlərin başa düşülmədiyini irəli sürmüşdür. s. 124. Ətraflı məlumat üçün baxın: Cəlal Bəydili (edit), (2007). Azərbaycan Publisistikası Ontologiyası. Bakı: Şərq-Qərb. s. 123-128.

[82] Hüseynzadənin müvafiq məqaləni yazdığı tarixlərdə türk tarixinə aid göstəricilər yeni və yetərsiz olmaqla yanaşı, türklər tərəfindən hələ tədqiqat aparılmamışdır.

ümidi və qurtuluşu unudulmuş tarixin dərinliklərində axtarmağa sövq etmişdir.

On doqquzuncu əsr həm millətçilik, həm də tarix əsri olaraq bilinməkdədir. Ancaq milli hərəkatın A mərhələsində Axundzadə millətçi bir tarix anlayışı ortaya qoymaqdansa, Aydınlanmanın irəliləmə prinsipi çərivəsində bir tarix inşa etməyə çalışmışdır. Belə ki, milli hərəkatın A mərhələsində – tarix əsrində milli bir tarix yazıçılığının formalaşmadığını demək mümkündür. Bu səbəblə Nəsibli Azərbaycan tarixində ilk əsər olaraq qəbul etdiyi Abbasqulu Ağa Bakıxanovun (1794-1847) "Gülüstani-İrəm"[83] (1841) əsərində belə tarixi "biz (türklər) kimik?" sualı çərçivəsində düşünmədiyini bildirmişdir. (Nəsibli, 2019: 11-12). Nəsibli erkən dövr ziyalılarında milli bir mövqe olmamasını tənqid etmişdir. Halbuki tarixi kontekst içərisində dəyərləndirdiyimizdə A mərhələsində milli mövqe formalaşmasının o dövr üçün mümkün olmayacağı görünür.

Millətləşmə prosesində türklük kontekstində tarix yazıçılığı ancaq B mərhələsində ortaya çıxır. Çünki 1905-1907-ci il Rus inqilabıyla birlikdə yumşaldılan qanunlar, mətbəə, ana dilində mətbuat, məktəblər artmışdır. Bu çərçivədə milli (romantik) tarix anlayışı B mərhələsində Hüseynzadənin mətnləriylə meydana gəlmişdir. Hüseynzadə "Türklər kimdir, kimlərdən ibarətdir" (1905) adlı məqaləsində türk anlayışı ilə bərabər, dil və din problemlərinə də diqqət yetirmişdir.

---

[83] "Azərbaycan tarixçiliyi rəsmi olaraq 19-cu əsrin birinci yarısında Abbasqulu ağa Bakıxanovun "Gülüstan-i İrəm" əsəri ilə formalaşmağa başlamışdır. Bu əsər Orta əsrlər dövrünün hekayə tərzində olan yazılarından fərqli, müasir tipli ilk araştırmadır. Ancaq əsərdə Azərbaycan İranın bir hissəsi, əyaləti kimi təqdim edilir. Bakıxanov əvvəla farsları təsvir edir, sonra ərəblərə keçir. Türklərə Şimali Azərbaycanın üçüncü etnosu olaraq yer verilir. Ya-zıçının türklərə, xüsusilə də Atilla və digər türk qəhrəmanlarına olan yanaşması olduqca al-çaldıcıdır. Bu kitab nəinki "biz kimik?" sualına cavab vermir, əksinə onu daha qarışıq bir vəziyyətə salır" (Nəsibli 2019: 11-12). Axundzadə və Bakıxanovda milli bir tarix şüurunun formalaşmamasını normal qarşılamaq lazımdır. Çünki rus müstəmləkəsi altında yetişən ziyalılar arasında müasir düşüncə ilə ilk təmas edən aydınlar olmuşdular. Digər tərəfdən, Çarlığın Azərbaycan işğalının təzə olduğu bir ərəfədə milli bir tarix şüurunun formalaşması, inkişaf etməsi çox da mümkün olmazdı. Hüseynzadədə belə milli (türkçü) tarix anlayışının yaranması daxili (1905-1907-ci il Rus inqilabı) və xarici (Osmanlı dövlətində türkçülüyün önə çıxması) şərtlərə bağlı olmuşdur.

Hüseynzadənin çıxış nöqtəsi türklərin özlərini, keçmişlərini bilməməsindən başlamışdır.[84] Misal üçün, "Türk dilinin vəzifeyi-mədəniyyəsi" (1907) adlı məqaləsində türklərin tarixdə əhəmiyyətli xidmətləri olsa da, türklərin keçmişlərindən xəbərsiz olmalarından heyifsilənmişdir. Öz keçmişlərini ərəbin, farsın, rusun, fransızın, çinlinin gözüylə öyrəndiyini bildirmişdir. (Bayramlı, 2006: 140).

Hüseynzadənin tarixlə bağlı əsas hədəfi türk tarixini türklərin özlərinin anlamalarına, araşdırmalarına çalışmaq olmuşdur. "Türklər kimdir, kimlərdən ibarətdir?" məqaləsində türklərin[85] öz tarixlərini bilmələri zərurətini belə izah etmişdir: "*Tariximiz və keçmişdəki kimliyimiz/milliyyətimiz haqqında həqiqəti ortaya çıxarmaq üçün əvvəla özümüzü tanımalıyıq. Yəni türklərin kim olduqlarını və kimlərdən təşkil olunduqlarını, harada doğulduğunu, neçə şöbəyə ayrıldıqlarını, bu gün harada yerləşdiklərini və hansı adla yaşadıqlarını göstərməliyik*" (Hüseynzadə, 2007: 42).

Bu səbəbdən B mərhələsində inkişaf edən milli (türkçü və ya turançı) tarix anlayışı "biz kimik?" sualı çərçivəsində formalaşmışdır. Hüseynzadə məqalədə türklərin edəcəyi ilk işin xəbərsiz qaldıqları tarixlərini, tarixi-milliyyətlərini, yəni kim olduqlarını, kimlərdən ibarət olduqlarını bilmələrini istəmişdir (Hüseyinzade, 2007: 42). Bu kontekstdə Hüseynzadənin tarix anlayışının, əslində, türk anlayışı ətrafında for-malaşdığını demək mümkündür. Hüseynzadə "Həyat" və "Füyuzat"dakı yazılarında "tarix şüurunun yoxluğundan"[86] (Nəsibli, 2019: 12) şikayət etmişdir. 1905-1907-ci il rus inqilabı nəticəsində ana dilində mətbuata olan qanunların yumşaldılması Hüseynzadənin türk tarixinə aid düşüncələ-

---

[84] Hüseynzadə türklər, türklüklə fəxr edənlər arasında belə türkün kim və kimlərdən ibarət olduğunu bilməyən yazıçıların olmasından gileylənmişdir. Ətraflı məlumat üçün baxın: Əli Bəy Hüseynzadə, (2007). Seçilmiş əsərləri. Haz. Ofelya Bayramlı ve Azər Turan. Bakı: Şərq Qərb. s. 41-70.

[85] Türkləri coğrafi olaraq üç qrupa ayırmışdır: 1) Sibir türkləri; 2) Rusiya və Avropa türkləri və 3) Qafqazda yaşayan türklər (Hüseynzadə, 2007: 49).

[86] "Tariximiz və keçmişdəki kimliyimiz/millətimiz haqqında həqiqəti ortaya çıxarmaq üçün əvvəla özümüzü tanımalıyıq. Yəni türklərin kim olduqlarını və kimlərdən təşkil olunduqlarını, harada doğulduğunu, neçə şöbəyə ayrıldıqlarını, bu gün harada yerləşdiklərini, hansı adla yaşadıqlarını və hansı addakı taxtın altında yaşadığını göstərməliyik. İçimizdə özbəklərin, qırğızların, başqırdların türk olduqlarını bilməyənlər var. Türklüklə fəxr etsələr də, türkün kim və kimlərdən ibarət olduğunu bilməyən nə qədər yazıçımız var. Dilimizi, qövmiyyəmizi, tariximizi, tariximizə zinət verən böyüklərimizi, qəhrəmanlarımızı, dinimizi sevməyən rəqiblərimizə məlumatsızlığımızdan inanırıq. Bunların hansı niyyət və məqsədlə yazılmış olduğunu bilmirik" (Hüseynzadə, 2007: 43).

rini ictimaiyyətlə bölüşməsində təyinedici olmuşdur.[87] Bu səbəblə "*Türklər kimdir, kimlərdən ibarəttir?*" məqaləsinin türk millətinə olan nitq konteksti daşıdığı deyilə bilər.

Hüseynzadə türklərin özlərini unutduğunu düşündüyündən termin qarışıqlığını aradan qaldırmaq üçün ilk əvvəl monqol, tatar və türk anlayışlarını təhlil etmişdir. Bu anlayışlar üzərində dayanaraq əsl türklərin kim olduqlarını müəyyənləşdirməyə çalışmış və əsasında oğuzların türklər arasındakı ən qədim qruplardan olduğunu irəli sürmüşdür (Hüseynzadə, 2007: 67). Hüseynzadə özü arxeoloq deyildi; türk tarixinə aid tapıntılardan türklərin kim olduğunu izah etməyə çalışmışdır. Bu səbəbdən Hüseynzadənin türkün tarixinə olan marağı sistemli bir araşdırmadan daha çox, bir növ şövqün (Özlem, 2016: 142) ifadəsi olmuşdu.

Hüseynzadə məqalədə türklərin inanc sistemini təhlil etmiş və türklərin ancaq İslam dini sayəsində milliyyətlərini qoruya bildiklərini irəli sürmüşdür. Ancaq türklər öz strukturlarına görə türklüklərini qoruya bilmişdilər. Digər tərəfdən türklərin dilinin ərəblərin dilindən fərqli olması da türklərin kimlikləri mövzusunda təsirli olmuşdur (Hüseynzadə, 2007: 56, 57).[88] Hüseynzadə türk anlayışını, din və inanc problemlərinə yer verdikdən sonra türklərin "əhvali-tərbiyəsini" təhlil etmişdir.[89] Türk qrupları və boylar arasında oğuzlar, uyğurlar və qırğızların ən qədim boylar olduğunu irəli sürmüşdür. (Hüseynzadə, 2007: 67)

Bu baxımdan Hüseynzadənin alman romantikləri kimi türklüyün "əsas olmağını" (Ökten, 2006: 418) ortaya qoymağa təşəbbüs etdiyi deyilə bilər. Çünki Azərbaycan türkləri arasında milli oyanışı yarada bilmək üçün tarixə müraciət etmək lazım idi. Çar müstəmləkəsi altında olan bir milləti ancaq keçmişdə sahib olduqları şanlı bir tarix canlandıraraq oyada bilərdi. Bu səbəblə milli tarix şüurunun B mərhələsinin baş verdiyini demək mümkündür.

---

[87] 1905-ci il inqilabı ərəfəsində nəşriyyat fəaliyyətinə başlayan qəzet və jurnallar bunlardır: "Hümmət" (1904-1905), "Həyat" (1905-1906), "İrşad" (1905-1908), "Molla Nəsrəddin" (1906-1931), "Füyuzat" (1906- 1907), "Təkamül" (1906-1907).

[88] Ətraflı məlumat üçün baxın: Əli Bəy Hüseynzadə, (2007). Seçilmiş əsərləri. Haz. Ofelya Bayramlı ve Azər Turan. Bakı: Şərq Qərb. s. 53-58.

[89] Ətraflı məlumat üçün baxın: Əli Bəy Hüseynzadə, (2007). Seçilmiş əsərləri. Haz. Ofeyla Bayramlı ve Azər Turan. Bakı: Şərq Qərb. s. 58-70.

Çarlıq dövrü Azərbaycanında millətləşmə prosesi daxilində milli şüurun formalaşması kontekstində “özlüyün və öz şüurunun nə olduğu” (Koyre, 1994: 9) sualına cavab axtaranın, əslində, Hüseynzadə olduğunu deyə bilərik. Hüseynzadənin mətnləri təhlil ediləndə mütəfəkkirin “tarixi istinad alaraq milli duyğu” (Koyre, 1994: 22) qurmağa çalışdığı anlaşılmaqdadır. Bu mərhələdə artıq ziyalılarda milli şüur for-malaşmağa başlamış və milli hərəkat prosesində ilk dəfə “öz köklərinin axtarışına səbəb olan vətən (*fatherland*) anlayışı formalaşmışdır” (Hroch, 1995: 288). Bununla yanaşı, Hüseynzadənin millətləşməyə olan təsiri bütün romantiklərdəki kimi siyasi keyfiyyət qazana bilməmişdir.

Aydın Balayev (1956) türkçülüyün Hüseynzadə tərəfindən 1905-1907-ci il inqilabları əsnasında nəşr etdirdiyi “Həyat” qəzeti (1905-1906) və “Füyuzat” (1906-1907) jurnalındakı yazılarıyla yaradıldığını iddia etmişdir (Balayev, 2014: 79). Balayevin bu fikrinin texniki olaraq düzgün olduğunu deyə bilərik. Lakin türkçülüyün yaradılması milli oyanışın başlaması mənasına gəlir. Digər tərəfdən Hüseynzadənin mətnlərində “millət əsaslı” (Ökten, 2006: 427) bir yanaşma olmadığı deyilə bilər. Bu səbəbdən Hüseynzadənin əsas məqsədinin türklərə (xüsusilə də, Azərbaycan türklərinə) türklüklərini xatırladaraq vətənpərvərlik duyğusunu aşıqlamaq olduğunu deməl lazımdır.

Bu səbəbdən Hüseynzadə tarixi maarifçilər kimi “davamlı irəliləyən bir proses” olaraq təhlil etmək yerinə, Herder kimi tarix filosofunun tarixə öz dövrünün ağıl və ruhu çərçivəsində yanaşmaq tezisindən hərəkət etdiyini demək mümkündür (Özlem, 2001: 73). Hüseynzadənin tarixə yanaşması “ümumtürklərin” bir-birlərini tanımalarına səbəb olacaq ümumi bir türk tarixi ərsəyə gətirmək olmuşdur. Bu kontekstdə türklükdən Azərbaycan kontekstində bəhs etmişdir. Hüseynzadə milli hərəkat prosesi boyunca ilk dəfə türk tarixini bütöv şəkildə təhlil etmişdir. Bu mənada Hüseynzadənin “keçmişi analiz edərək” (Özkırımlı, 2008: 43) Azərbaycan ziyalılarını türk tarixiylə tanış etmiş və ya türk tarixinin bir hissəsi etmişdir. Hüseynzadə Axundzadənin əksinə türklərin tarixinə istinad etmiş və sivilizasiyaya mühüm xidmətləri olmuş keçmişin öyrənildiyi təqdirdə türklərin də müasir əsrə çata biləcəyi fikrindən hərəkət etmişdir.

# DÖRDÜNCÜ FƏSİL

## Millətquruculuğunun C Mərhələsi

## 4.1. Millətçiliyin yaxud siyasi tələbin ortaya çıxıması

Yirminci əsrin əvvəlində dünya siyasi xəritəsində dəyişikliyə səbəb olacaq tarixi hadisələr baş vermişdir. Əvvəlcə Rusiyanın Yaponiya qarşısındakı tarixi məğlubiyyəti Çarlığın daxili siyasətində müstəmləkə altındakı xalqların da istifadə edəcəyi liberallaşma siyasətinə sövq etmişdir. Ardınca Balkan müharibəsi və 1917-ci il inqilabı Rusiyanın müstəmləkə altındakı xalqları üçün öz müqəddəratını təyin etmək imkanını və uğurda mübarizə iradəsini doğurmuşdur. Azərbaycan milli hərəkatının liderləri tədricən "gizli millətçilik"lərini açıq-aşkar ortaya qoyub siyasi tələblərini dilə gətirməyə başlamışlar.

Hər şeydən əvvəl Balkan müharibəsi və Birinci Dünya müharibəsinin yaratdığı siyasi vəziyyətdə C mərhələsində milli hərəkatın liderlərindən Rəsulzadə milli hərəkatı intellektual saflıq mərhələsindən siyasi hədəfləri güdən mərhələyə aparmışdır. Balkan müharibəsi Osmanlıda da dövlətin və cəmiyyətin təkrar konfiqurasiyası üçün fransız universallığından milli ideala yönəlməyə səbəb olmuşdur (Turnaoğlu, 2017: 147). Belə ki, 1914-cü il[90] tarixinin milli hərəkat üçün təyinedici olduğunu demək mümkündür. Buna görə də C mərhələsində millət fikri özlüyündə öz müqəddəratını təyin və ya müstəqilliyə işarə etməyə doğru təkamül etmişdir.

Əzilən millətlərdə milli şüurun artması Erik Hobsbaumun "millətçiliyin çevrilməsi" olaraq ifadə etdiyi 1870-1914-cü illərdə reallaşmışdır. Hobsbaum "Millətlər və millətçilik" (1992) adlı əsərində bu dövrün xüsusiyyətlərini belə ifadə etmişdir: "*Bu perioddakı millətçilik anlayışı üç mərhələdə açıqlana bilər. Birincisi, artıq millətçilik liberal bağlardan qopmuş və özünü millət olaraq qəbul edən hər xalq suveren olmalı olduğu torpaq üzərində öz müqəddəratını təyin etmək istəmişdir. İkincisi, etnos və dil millət olmağın*

---

[90] Bu tarixdə Rəsulzadə milli hərəkatın siyasi hədəflərini göstərən "*Milli dirilik*" adlı millətçi yazılarını qələmə almışdır.

*əsas ölçüsü halına gəlmişdir. Üçüncüsü, millət anlayışı və bayrağın siyasətin sağına tərəf sürüşməsi"* (Hobsbawm, 2010: 126).

Bu mənada 1870-ci ildən sonra meydana gələn milli hərəkatların "dövlət xarici milli hərəkatlar" olduğunu deyə bilərik. Bu səbəbdən milli hərəkatın A mərhələsində millətçilik kontekstində siyasi bir həsrət və hədəfin olmadığını demək mümkündür (Hobsbawm, 2010: 127, 128). İyirminci əsrin əvvəlində belə müsəlman aidiyyəti "təyinedici" (çünki müsəlman ziyalılar və ya milli hərəkatın liderləri milli mövqelərini açıq şəkildə elan edə bilməmişdilər) olsa da, 1905-1907-ci il inqilabı, erməni-müsəlman probleminin alovlanması və Avropada millətçilik istiqamətindəki tərəqqi Azərbaycan milli hərəkatının klassik epistemik camaatdan modern epistemik camaata keçid (əslində, Axundzadə ilə birlikdə klassik epistemik camaat intellektual, maarifçi bir tənqidə məruz qalmışdır) mərhələsində təsirli olmuşdur (Balayev, 2015: 137). Bu irəliləyiş isə milli hərəkatın C mərhələsində inkişaf etmişdir. Bu mənada milli ideologiyanın C mərhələsində Rəsulzadə tərəfindən formalaşdırıldığını demək mümkündür. Rəsulzadənin qısa zaman kəsiyində yazdığı "tələşlı" mətnlər (1903-1920-ci il tarixlərində Bakı, Tehran və İstanbulda bir xeyli məqalə qələmə almışdır) milli hərəkat liderləri arasında milli şüurun yaranmasında təyinedici olmuşdur. Çünkü Rəsulzadənin xüusilə Balkan müharibəsindən sonra idrak etdiyi siyasi xəritədə dəyişiklik an məsələsi idi. Dövr milliyyət dövrü olduğundan du dəyişiklikdən sağlam milliyyət şüuruna sahib xalqlar qazanclı çıxa biləcəkdilər.

"Əzilən milliyyət"lərin millətləşmə prosesi suveren millətlərin daxilindəki azlıq, ağırlığı olmayan etnik qrup kimi başlamışdır. 1917-ci ildən əvvəlki dövr olaraq hesab edilən ikinci mərhələdə Rusiyadan ayrılmaq kimi siyasi bir tələb olmamış və Rusiya daxilində demokratikləşmə və islahat tələbləri meydana gəlmişdir. Yəni hər hansı bir ayrılma tələbi görülməmiş (Pipes, 1964: 20) və millətləşmə prosesinin A mərhələsi köhnə rejimin (Çar Rusiyası) hakimiyyəti altında başlamış və bitmişdir. B mərhələsi əvvəlki rejimə qarşı "vətənpərvər"lərin önə çıxdığı vaxtda əvvəlki rejim altında meydana gəlmişdir (Hroch, 1995: 291). Digər tərəfdən, C mərhələsi köhnə rejim altında başlamaqla bərabər, müstəqillik prosesinə qədər davam etmişdir. Millətləşmənin son mərhələsi artıq siyasi məfkurənin mənimsənmiş olduğu mənasına gəlir.

Millətləşmənin sonuncu mərhələsində Rəsulzadənin mətnlərində təsanüd (həmrəylik) ifadəsi müəyyən sərhədləri əhatə etmək şərtiylə istifadə edilmiş və həmrəylikçi bir tarix anlayışı meydana gəlmişdir. A mərhələsində aydınlanmanın təsiriylə "nəyə inanmalıyam?" sualı ilə başlayıb B mərhələsində "mən kiməm?" sualına cavab axtaran milli hərəkat son mərhələdə "vətən haradır?" sualına cavab verməkdədir. Bu səbəbdən millətləşmənin sonuncu mərhələsi kəsintiyə məruz qalmış dövlət ənənəsinin qazanılması olaraq şərh edilə bilər. Millətləşmə prosesinin sonuncu mərhələsində həm ziyalı, həm də siyasət müəyyənləşdirən kimi ortaya çıxan Rəsulzadə milli hərəkatının ümmətçi düşüncədən milli bir düşüncəyə necə təkamül etdiyini belə izah edib: *"İslamçılıq 1905-1907-ci il inqilabından Birinci Dünya müharibəsinə qədər Qafqazlı və bütün Rusiya türkləri arasında əsas düşüncə forması olmuşdur. Bu mənada inqilabla birlikdə Rusiya türklərinin hüquqlarını müdafiə etmək üçün təsis edilən birliyə Rusiya Müsəlmanlar İttifaqı adı verilmişdir"* (Rəsulzadə, 1993: 39). Bu prosesi bir növ "gizli millətçilik" dövrü olaraq da adalandırmaq mümkündür. Belə ki, Müsavat partiyasının strategiyasında açıq siyasi, milli prinsiplər ancaq 1914-cü ildən sonra tədricən yer tutmağa başlamışdır. Burada da Türkiyədən dönən və dəyişiklikləri görən Rəsulzadənin ciddi rolu olmuşdur.

Bu səbəbdən milli hərəkatın C mərhələsində ziyalıların bir "milliyyət əsri"ndə yaşadıqlarını və ən mühüm zövqün "milli zövq" olduğu qənaətləri görünməkdədir. Əgər milli hərəkatın ilk iki mərhələsində Axundzadə və Hüseynzadə nəzərə alınırsa, son mərhələ Rəsulzadə kontekstində dəyərləndirilmişdir. Rəsulzadənin milli hərəkatın müvəffəqiyyətə çatmasındakı rolu milli kimliyin simvolik elementlər – millət, tarix, dindən əlavə, modern dövlət (milli dövlət) anlayışının millətlə əlaqəsi də araşdırılmaqdadır. Digər tərəfdən, Zaqafqaziya Federasiyasından yola çıxaraq müstəqilliyin elanına qədərki proses Azərbaycan dövlətinin formalaşması kimi dərinləşdirilir.

Bu baxımdan milli hərəkatın uğurlu olmasında "orijinallıq"dan daha çox Osmanlı dəstəyinin mədəniyyət, mətbuat, hərbi, siyasi – müxtəlif səviyyələrdə təyinedici olduğu qeyd edilir. Milli hərəkatın mərhələləri nəzərə alındıqda hər mərhələdə ziyalıların anlayışları, ideologiyaları çərçivəsində müsəlmanları (Axundzadə), türkləri (Hüseynzadə) xilasetmə cəhdi olduğu görünür. Ancaq ümumi millət qurma və bir vətən yaratmaq (coğrafiyanın siyasiləşməsi) düşüncəsi C mərhələsində Rəsul-

zadənin mətnlərində özünü göstərir. Bu mənada Rəsulzadənin İstanbuldan qayıtmasından sonra "Qurtuluş" jurnalında "Qurtuluş" (1915) başlığı ilə yazdığı məqalə nümunə olaraq verilə bilər: *"Zəmanəmiz milliyyət əsridir. Milli bir ruh və işə sahib olan gənc cəhalət və diqqətsizlikdə yaşayan millətimizin xilasedici qurdudur. Yeni təsis edilən "Qurtuluş" (jurnal) doğma türkcəsi ilə sevdiyi türk dilinə və türk elinə xidmət niyyəti ilə müasir bir qurd xidməti edəcək, bununla az da olsa, xidmət edə bilirsə, əlbəttə, fəxr edə bilər"* (Rəsulzadə, 2012a: 170).

Digər tərəfdən, Rəsulzadənin Cümhuriyyətin işğalından dərhal sonra yazmış olduğu "Əsrimizin Siyavuşu" (1920) adlı əsərində Türkiyənin rolunu açıq şəkildə göstərmişdir: *"Azərbaycan gəncliyi saf və səmimi bir niyyətlə türk öyrətmənlərinin tələbəsi oldu. Çox keçmədi ki, Namiq Kamal Məhəmməd Hadini, Əbdülhaq Hamid Hüseyn Cavidi, Məhəmməd Əmin də Əhməd Cavadı oğulluğa qəbul etdilər. Azərbaycan məfkurəsi türk millətpərvərliyinin məfkurəsi ilə izdivac etdi. Yeni Azərbaycan özünü "ismətli Südabə"nin ehtiraslı qucağından "iffətli Firəngiz"in vüsal hərəminə ataraq dadlı-dadlı yaşadı"* (Rəsulzadə, 1991: 35).

Milli hərəkatın müvəffəq olmasında, yəni milli "öz" şüurunun formalaşmasında türkçülüyün İstanbulda iqtisadi, siyasi olaraq əsas gücə çevrilməsi (Türk Ocağı, Türk Yurdu və s.) təyinedici rol oynamışdır. Qısası, milli hərəkatın başlanğıcında dövlət ənənəsi kəsintiyə məruz qalmış millət ola bilməyən Azərbaycan ziyalılarının xaricdən əldə ettikləri (Osmanlı) ideoloji dəstək və təsirlənmələri milli hədəfə nail olmalarında həlledici olmuşdur. Bu mənada millətləşmə prosesində Azərbaycan etnik qrupdan müasir bir millətə çevrilmiş və C mərhələsində milli Azərbaycan məfkurəsini mənimsəmiş ziyalıların türk ailəsindən olmağı qəbul edərək (iqtisadi, siyasi mərkəz kimi Osmanlı) müvəffəq olmuşdur.

Digər tərəfdən C mərhələsini fərqləndirən xüsusiyyətlərdən biri də başlanğıcdan etibarən mərhələ-mərhələ siyasi hədəf istiqamətində irəliləməsi olmuşdur.[91] Çünki Rəsulzadənin 1911-ci ildən başlayaraq

[91] Svante E. Kornel "Müstəqillikdən sonra Azərbaycan" (*"Azerbaijan Since Independence")* (2011) adlı əsərində 1905 və 1917-ci il İnqilabları arasında Azərbaycan intellektuallarının siyasiləşdiyini irəli sürmüşdür. Ancaq əsər Çar dövrü Azərbaycan haqqında olmadığı üçün detallı bir dəyərləndirmə aparmamışdır. Halbuki 1905-ci il İnqilabı Azərbaycan milli hərəkatının siyasətlə (milli şüur kimi də adlandırıla bilər. Belə ki, milləti yaradan millətçilik siyasətə bağlı bir fenomendir) tanış olmasını (milli oyanış) təmin etmişdir. Ancaq siyasi şüurun (milli) fəaliyyətə çevrilməsi (kütlələrə yayılması) mümkün

yazdığı məqalələr milli hərəkatın siyasi hədəf istiqamətində irəlilədiyini göstərir. Ancaq Rəsulzadə B mərhələsində Hüseynzadə kimi nəzəri düşüncə ilə kifayətlənməmiş, həqiqi fəaliyyətə də önəm vermişdir. Çünki mətnləri fəlsəfi/romantik mücərrədlikdən daha çox fəaliyyətinə yardımçı olacaq praqmatik şərhlərdən ibarət olmuşdur. Bununla bərabər, Rəsulzadənin C mərhələsində izləmiş olduğu Azərbaycan millətçiliyinin ədəbiyyatda millətçiliyin fransız modeli kimi də bilinən kolektivist/vətəndaş millətçi modelini izlədiyini demək mümkündür. Beləliklə, Azərbaycan Cümhuriyyəti milli problemini kollektivist/vətəndaş millətçilikləri istiqamətində formalaşdırmışdır. Bu səbəbdən milli hərəkatın C mərhələsində milli kimliyi quracaq simvolik mənbələr intellektuallar tərəfindən formalaşdırılmış və milli çərçivə

## 4.2. Azərbaycançılıq və milli ideal

Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" (1990) adlı kitabında da Azərbaycan terminini belə izah edir: *"Azərbaycanlılar milliyyət etibarilə türk, din etibarilə islam, mədəniyyəti-əsasiyyə etibarilə şərqlidirlər. Kəndi ləhceyi-məxsüsəsilə Anadolu türkcəsinə yaxın bir şivə ilə qonuşan Azərbaycan türkü müxtəlif şivələrə malik və olduğu yerlərə nisbətlə müxtəlif isimlər daşıyan böyük türk ağacının bir dalıdır"* (Rəsulzadə, 1990: 7).

"Azərbaycanın təşəkkülündə müsavat" (1920) adlı nitqində isə Rəsulzadə Azərbaycan Cümhuriyyətini Çarlığın çöküşü üzərinə inşa edilmiş siyasi struktur kimi elan etmişdir. Rəsulzadə "Azərbaycançılığın" və ya "Azərbaycan millətçiliyinin" tarix və mədəniyyətə yanaşmasında türkçülüyün bir parçası olduğunu, ancaq siyasi mənada Azərbaycanın muxtariyyət və müstəqilliyindən hərəkət etdiyini bildirmişdir. Bu səbəbdən milli hərəkatın nəticəsində "Azərbaycançılıq" idealının qalib gəldiyini demək mümkündür (Rəsulzadə, 2014c: 11, 21, 23).

Rəsulzadənin ideoloji görüşləri vaxt və məkana bağlı olaraq dəyişmişdir. Azərbaycançılıq kontekstində milli ideologiyanın formalaşmasında, xüsusilə İstanbuldakı türkçü çevrənin təsiri olmuşdur. Rəsulzadənin "Milli dirilik" (1914) başlıqlı məqalələr seriyası azərbaycançılığın

---

olmamışdır. Ətraflı məlumat üçün baxın: Svante E. Kornell, (2011). Azerbaijan Since Independence. London: M. E. Sharpe. s. 3-31

nəzəri əsası olaraq qəbul edilir (Balayev, 2014: 86). Belə ki, Rəsulzadə mövzu ilə bağlı məqalələrdə millətin varlığının bir idealının (məfkurə) olmasına bağlı olacağını belə açıqlamışdır: "*Sadəcə hər millətin deyil, hər bir fərdin də özünə görə idealı vardır. Hərəkət fəaliyyətə, fəaliyyət də tərəqqiyə səbəb olmaqdadır. Fərdlər necə hərəkətsiz yaşaya bilmirsə, millətlər də hərəkətsiz yaşaya bilməz. Ancaq fərdi fəaliyyətlər böyük ola bilməz. Bir fərd öz qövmü və ya milləti üçün fəaliyyət (ideal) bəsləyərsə, buna böyük hərəkət demək olar. Belə insanlara məfkurəçi adı verilir" (Rəsulzadə, 2014b: 469).*

Bu səbəbdən Rəsulzadə millətçiliyi azərbaycançılıq kontekstində nəzərə almış və millətləşmə üçün vacib olan məfkurənin də ancaq ziyalılar vasitəsilə reallaşa biləcəyini irəli sürmüşdür (Rəsulzadə, 1978: 18). Rəsulzadənin azərbaycançılıq məfkurəsiylə millət formalaşdırmağa və ziyalılar daxil olmaqla, bütün cəmiyyətin bu millətə bağlı saxlamağa çalışdığı deyilə bilər. Həmçinin Rəsulzadə 1920-ci ildə "Müsavat" firqəsi haqqında söyləmiş olduğu nitqə bu cümlələrlə başlamışdır: "*Məndən əvvəlki arkadaşımız sizə türklüyün uzaq tarixindən bəhs elədi. Mən sizə sizin də yaşadığınız, bərabər içində bulunduğumuz və kəndimiz yaratdığımız tarixdən söhbət edəcəyəm. Bu da bir türk tarixidir. Türk tarixinin bir parçasıdır"* (Rəsulzadə, 2014c: 11). Türklüyün siyasi nöqteyi nəzərdən ayrı və onların yaratdığı Azərbaycanın ümumi türk tarixinin bir parçası olmaqla bərabər siyasi baxımdan fərqli bir qolu olduğunu ifadə edir. Belə olan halda Azərbaycançılıq yeni qurulan dövlətin ideologiya olaraq ortaya çıxır.

Milli hərəkatın C mərhələsi və siyasi tələb Rəsulzadənin "Milli dirilik" (1914) başlıqlı məqalələr toplusunda formalaşmışdır. Balayev "Milli dirilik" məqalələrinin azərbaycançılığın nəzəri təməllərini irəli sürmüşdür (Balayev, 2014: 87). Bu məqalələrin əsas sualı "Necə etməliyik?" olmuşdur. Bu çərçivədə problemi belə təsbit etmişdir: "*Bizdə işlərimizin mənavi cəhətində böyük bir boşluq var. Bu boşluq əməl (ideal, məfkurə) boşluğudur. Bu problemi həll etməsi gözlənilən mətbuat da daha çox idealsızdır. Bu səbəblə ilk olaraq işə mətbuatdan başlamaq lazımdır"* (Rəsulzadə, 2014b: 474).

Rəsulzadə milli hərəkatın C mərhələsində əsas mətbuat orqanı olan "Açıq söz" (1915-1918) qəzetinin ilk sayında milli ideal probleminə təkrar qayıtmışdır. Bu mənada müharibənin (Birinci Dünya müharibəsi)

təyin etdiyi milliyyət əsrində, ancaq milli idealını[92] (məfkurəsini) təyin etmiş olanların gələcəklərini müəyyən edə biləcəklərini yazmışdır. "Açıq söz"ün tutacağı yolun milli idealı (məfkurə) önəmli qəbul edən milliyyət fikri əsasında olacağını (Rəsulzadə, 2012a: 171) bildirmişdir. Belə ki, "Birinci Dünya müharibəsində millətçilik qazanan tərəf olmuşdur" (Tamir, 2019: 13). Rəsulzadənin mətnlərində siyasi, milli hədəfin formalaşmasında Balkan müharibəsindən sonra baş verən müharibələr təyinedici olmuşdur. Çünki müharibələr son nəticə olaraq "dirilik" üçün edilməkdə və yaratdığı yeni şərtlərdə "milli ehtiyacların" (Rəsulzadə, 2014b: 420, 460) önəmi ortaya çıxmaqdadır. Bu səbəblə milli hərəkatın C mərhələsində milli ideologiyanın azərbaycançılıq çərçivəsində formalaşdığını demək mümkündür. Bu səbəblə Hüseynzadə və Rəsulzadənin mətnlərində istifadə olunan "türk" anlayışında fərqlilik var (Balayev, 2014: 86, 87). Milli hərəkatın siyasi/milli hədəf mənimsəməsi B mərhələsində meydana gəlsə də, siyasi hədəf C mərhələsində Rəsulzadə və "Açıq söz" (1915) qəzeti kontekstində formalaşmış və milli hərəkat "istiqamət dəyişdirmişdir". (Atabaki, 2010: 97). Rəsulzadə "Tutacağımız yol" (1915) adlı məqaləsində C mərhələsində milli hərəkatın siyasi, ideoloji istiqamətini də göstərmişdir.

## 4.3. C mərhələsində millət anlayışı

Millətin adının müəyyən edilməsi on doqquzuncu əsrin sonlarından etibarən mətbuat vasitəsilə müzakirə edilməyə başlanmışdır. Milli hərəkatın programında siyasi tələblər öz təsirini artırtıqda bu müzakirə artaraq davam etmişdir. Beləliklə dil və kimliklə bağlı kəskin müzakirələr müxtəlif məcralarda davam etmişdir. Burada "Azəriçilər" və "Türkçülər" arasında müzakirələr gedirdi. Bu müzakirələrdə hər iki qrupdan

---

[92] Türk düşüncəsində məfkurə konsepsiyası Ziya Göyalpın əsərlərində meydana çıxmışdır. Göyalp bu anlayışı Durkhaymın kollektiv vicdan anlayışı əsasında törətmişdir. Rəsulzadə də Göyalpdan təsirlənərək bu anlayışı ictimai həmrəyliyin təmin edilə bilməsi üçün istifadə etmişdir. Ətraflı məlumat üçün baxın: Doç. Dr. Ceylan Tokluoğlu, Ziya Gökalp ve Türkçülük, Ankara Üniversitesi, SBF Dergisi, Cilt 68, No. 3, 2013, s. 113-139; Ziya Göyalpın Durkhaymın anlayışlarından istifadə etməsi haqqında: Uriel Heyd, (2002). Türk Ulusçuluğunun Temelleri. Tərc. Kadir Günay. Ankara: Hilmi Usta Matbaacılık. Rəsulzadə milli ideal anlayışını Göyalpın məfkurə anlayışını qarşılayacaq şəkildə istifadə etmişdir. Ətraflı məlumat üçün baxın: Mehmet Emin Resulzade, (1978). Milli Tesanüd. Haz. Ankara: Kardeş Matbaası; Məhəmməf Əmin Rəsulzadə, (2014b). Əsərləri. Haz. Şirməmməd Hüseynov. Bakı: Təhsil. s. 469-471.

istifadə edən ancaq daha rasional və proqramitik bir yol seçən Rəsulzadə əvvəlcə dövrün xarakterinə uyğun olaraq "ümmət" və "millət" anlayışlarının fərqinə dair bir yanaşma ortaya qoydu.

Rəsulzadə yaşadığı əsrin təyinedici ünsürünün millətlər olacağı fikrində olmuş və bu uğurda çalışmışdır. Çünki iyirmi əsrdə baş verən mədəniyyətin son mərhələdə millətlərdən ibarət olduğunu düşünmüşdür (Rəsulzadə, 2014b: 461; 2012a: 171). Milləti "Azərbaycan türkü" və ya "Azəri türkləri (Rəsulzadə, 2014d: 250) olaraq izah etmişdir. Belə ki, 1905-ci il inqilabı vaxtında ziyalılar milləti müsəlmanlıqla bərabər olaraq qəbul etsələr də, Rəsulzadə "Milli dirilik" məqalələrində millətin ümmətdən fərqli bir şey olduğunu əsaslandırmışdır (Məmmədzadə, 2002: 48, 49). Buradan yola çıxaraq milli hərəkat prosesində C mərhələsində klassik camaat olan ümmət və müasir camaat olan millətin fərqliliyinin ortaya qoyulduğunu görürük (Swietochowski, 1996: 220).

Millət anlayışını izah edərkən klassik camaat (ümmət) formasının yaranmasını təmin edən dinin artıq ortaq bir camaat (millət) yarada bilməyəcəyini irəli sürmüşdür. Bu mənada Rəsulzadə müasirləri olan millətçi ziyalılar arasında da mübahisə mövzusu olan ümmət, qövmiyyət, milliyyət və millət anlayışlarını belə ifadə etmişdir: "Qövmiyyət yalnız soy və dil birliyi; milliyyət dil və mədəniyyət birliyi; millət isə mədəniyyət və milli diriliyin dərk edilməsiylə hasil olur" (Rəsulzadə, 2014b: 467). [93] Rəsulzadə klassik camaatların artıq bir hökmünün qalmadığını deyərkən eyni vaxtda bir din tənqidi də etmişdir. Yenə "Dirilik nədir?"[94] (1914) başlıqlı məqaləsində dinin/İslamın təqdim etdiyi ölümə əsaslanan "dirilik" anlayışını tənqid etmiş və qurtuluşun "dünyapərəstlikdə" olduğunu irəli sürmüşdür (Rəsulzadə, 2014b: 460, 461). Bu səbəbdən sekulyarlaşma da müasir mənada millət ola bilmək üçün həlledici bir mərhələ olmuşdur.

Rəsulzadə millətin, milli diriliyin nə olduğunu anlamaq üçün ilk öncə müsəlmanların klassik camaatı olan ümmət anlayışına diqqət ayırmışdır. Rəsulzadə ümmət anlayışının tarixin müəyyən bir dövründə müsəlman din birliyi altında birləşdirdiyindən "milləti-İslam"ı forma-

---

[93] Ətraflı məlumat üçün baxın: Məhəmməd Əmin Rəsulzadə, (2014b). Əsərləri II. Haz. Şirməmməd Hüseynov. Bakı: Təhsil. s. 466-467

[94] "Dirilik elmi, ruhən və cismən qüvvətli olmaqdan və diriliyi sevməkdən ibarətdir. Dirilik dünyanı sevməkdən ibarətdir. Mənası isə dünyapərəstlikdir. Diriliklərin ən qiymətlisi milli dirilikdir" (Rəsulzadə, 2014b: 461).

laşdırdığını bildirmişdir. Ancaq müasir millət anlayışı isə, əsasən, dil birliyindən ibarət olduğundan artıq azərbaycanlı müsəlmanların özlərini tanıdarkən ümmət/müsəlman terminlərindən istifadə etməməli olduqları fikrindən çıxış etmişdir (Rəsulzadə, 2014b: 466). Ancaq Rəsulzadə milliyyət və millət terminlərinin də fərqli olacağını "Milli təsanüd" (1978) adlı əsərində belə izah etmişdir: "*Dilimizdə millət terminini ifadə etmək üçün iki söz mövcuddur: milliyyət və millət. Milliyyət, ümumilikdə, dil, din, irq, qövm, tarix, coğrafiya, iqtisadiyyat və siyasi elementlərlə ortaya çıxan etnik bir qrup mənasına gəlir. Millət isə daha çox formalaşmasında iradəyə ehtiyac duyur. Bu mənada etnik əsaslı bir milliyyətdən millətin yaranması üçün ümumi şüur və kollektiv iradənin hasil olması lazımdır*" (Rəsulzadə, 1978: 17).

Rəsulzadənin milliyyət və millət ayrımında istifadə etdiyi "iradə" siyasi hədəfi və coğrafi sərhədləri müəyyən bir milli kimliyə aidiyyəti qəbul etməkdir. Sözgəlişi, milləti bir iradə olaraq izah edən Ernest Renan (1823-1892) "Millət nədir?" (1882) adlı məqaləsində millətin açılışını iradənin təsirini mərkəzə qoyaraq belə etmişdir: "*Bir növ ortaq bir duyğudan, hissiyatdan ibarət olan milləti keçmiş və indi yaratmaqdadır. Birincisi xalqın keçmişdə ortaq xatirəsinə vurğu edir. İkincisi isə bu günü vurğulayaraq milləti formalaşdırmağa xidmət edir. Bu mənada millətin formalaşmasında iradə təyinedici rol oynayır*" (Renan, 1882, Tərc. 2016: 50). Rəsulzadənin millət (dövlət) ola bilmək üçün şərt qoyduğu iradi bir "hədəf" tərəfindən təyin edilən hərəkəti zəruri görür. Çünki bir hərəkətin "iradi bir hərəkət" formasını almağı demək bitirilməsi, çatılması istənilən son hədəf olduğu mənasına gəlir (Duguit, 2013: 382).

Digər tərəfdən, Rəsulzadə təsanüd (həmrəylik) terminini istifadə edərək millət anlayışını belə izah etmişdir: "*Həmrəylikçi sistemlərdə əsas şərt ictimai olanın mənfəəti və dövlətin, millətin salamətidir. Belə ki, azadlıq da, mülk də mütləq deyildir. Həmrəylikçi sistemdə fərdin, zümrələrin, siniflərin cəmiyyətin mənfəəti və azadlığını pozmayacaq şəkildə formalaşdırılmışdır*" (Rəsulzadə, 1978: 15).

Bu səbəbdən Rəsulzadənin milləti izah edərkən istifadə etdiyi iradə fərdiyyətçi bir mənadan daha çox, həmrəylik[95] ilə fərdi cəmiyyətə

[95]Rəsulzadə Göyalp və Durkhaymdan ilhamlandığı həmrəylik anlayışına önəm vermişdir. "Sinifləri əsas olaraq qəbul edən kommunizm kimi fərdləri nəzəri mənada diqqətdə saxlayan liberalizm belə kosmopolit və internasionaldır. Solidarizm isə millidir. Çünki sadə şəxslərin və sinifləri maddi mənfəətə bağlı xüsusiyyətlərinə deyil, siniflər və fərdləri bir cəmiyyət halına gətirən ənənəvi qüvvətlərə böyük qiymət verir. Bu mənəvi qüvvətlər isə

bağlayan bir anlayış olmuşdur. Həm də Rəsulzadənin "vətən əxlaqı" yaratmağa çalışdığı deyilə bilər. Onun ümmət, qövm, milliyyət, millət anlayışları arasında məna fərqliliklərinə yanaşmasındakı əsas səbəb təkcə bir iradə nəticəsində ortaya çıxacaq millətin dövlətin eynimənalısı olmağından qaynaqlanmışdır. Çünki Rəsulzadə yaşadığı əsrin millətlər əsli olduğu şüurunda olmuşdur. O, "Dirilik nədir?" (1914) başlıqlı məqaləsində müasir mədəniyyətin millətlərin əməklərindən doğacağını yazmışdır. Bu səbəblə hər millət öz istiqlalı, yəni dirilişi sayəsində var ola biləcəkdir. Dirilik isə dünyəvi keyfiyyətə sahibdir (Rəsulzadə, 2014b: 461). Bu səbəbdən Rəsulzadənin millət anlayışındakı inadkarlığının səbəbi dövlət anlayışını düşünmüş olması ilə əlaqələndirmək olar.[96]

Bu səbəbdən Rəsulzadənin millətləşmə prosesinin siyasiləşməsindəki töhfəsi millətin formalaşması üçün iradə termininin istifadə etməsidir. Bu terminin istifadə olunması isə suverenlik problemini gündəmə gətirmişdir. Çünki suverenliyin özü bir iradənin təcəssümüdür (Duguit, 2013: 381). Bu mənada istiqlal anlayışı Rəsulzadənin düşüncəsində təyinedici yer tutmuş və C mərhələsində siyasi hədəfi təşkil etmişdir. "Dirilik nədir?" (1914) məqaləsində biz Qafqazlılar tərəqqi baxımından (Çarlıq nəticəsində əldə edilmiş dünyəvi təhsil, mədəniyyət və s.) İran və Osmanlıdan öndə olmağımıza baxmayaraq, istiqlalın əskikliyindən ötrü ismimiz, cismimiz bilinmir (Rəsulzadə, 2014b: 465). Bu səbəbdən C mərhələsində siyasi hədəfin yaranması Rəsulzadənin istiqlal, millət və s. terminləri haqqında yazdığı məqalələrdən yola çıxaraq formalaşmışdır. Beləliklə, Rəsulzadənin inkişaf etdirdiyi millətçilik və millət anlayışı "suveren", "sadiq" və "həmrəy"çi[97] (Greenfeld, 2006: 70) olması lazım bir xalq əsasında formalaşmışdır. Digər tərəfdən, Rəsulzadənin "Dirilik" jurnalında qələmə aldığı "Milli dirilik" məqalələri milli hərəkat prosesi boyunca müasir mənada millət anlayışının ilk dəyərləndirilməsi olmuşdur.

---

millət və dövlətlərin reallaşmasında birləşdirici amil olaraq təsir edən dil, din, tarix, ümumiyyətlə, mədəniyyət və ortaq ideal kimi mənəvi və ruhi qüvvələrdir" (Rəsulzadə, 1978: 16). Ətraflı məlumat üçün baxın: Mehmet Emin Resulzade, (1978). Milli Tesanüd. Ankara: Kardeş Matbaası. s. 13-16.

[96] Ətraflı məlumat üçün baxın: Məhəmməd Əmin Rəsulzadə, (2014b). Əsərləri II. Haz. Şirməmməd Hüseynov. Bakı: Təhsil. s. 462-465

[97] Ətrafı məlumat üçün baxın: Liah Greenfield, (2006). Nationalism and The Mind: Essays on Modern Culture. Oxford: One World Publications. s. 69-72.

## 4.4. C mərhələsində tarix problemi

İnsanlıq tarixinə baxanda hər dövrdə bir düşüncənin hakim olduğu anlaşılır. Bu mənada müasir dövrün hakim düşüncəsinin tarix şüuru olduğunu demək mümkündür (Ülken, 2016a: 204). Müasir "siyasi gövdə"nin inşa edilməsi, əsasən, "tarix yüzilliyi" olaraq da bilinən on doqquzuncu əsr və iyirminci əsrin başında tamamlanmışdır. Bu səbəbdəndir ki, fəlsəfənin belə tarixləşdiyini demək olar. Tarixi qavrayışın nəticəsi olan qənaət (Tr. kanı; İng. Opinion) və ya əsaslandırılmış doğru inam olduğu qəbulundan yola çıxaraq ifadə edilən dövrlərin tarixi qavrayışı çərçivəsində dəyərləndirilməli olduğu deyilə bilər. Tarixin ortaya qoyduğu bilginin baxış və gerçəkləndirilmiş doğru inanc olduğunu qəbul edərək ifadə edilən dövrlərin tarix əsri olaraq qəbul edilməsi tarix çərçivəsində dəyərləndirilməli olan bilgi/yanaşma olduğunu ifadə etmək olar. Qısası tarix qavrayışının nəticəsi olan qənaətin kontekstə bağlı olduğu deyilə bilər.[98] Bu səbəbdəndir ki, kontekstə bağlı olan millətçi qavrayış da var olmaq üçün tarixin qavrayışına ehtiyac duyur. Misal üçün, Atatürkün Cümhuriyyətin elanından sonra Türk Tarix Cəmiyyətini təsis etməyindəki səbəb qurduğu dövləti ayaqda saxlayacaq qənaətin (tarixi) istehsalını təmin etmək olmuşdur. Bu mənada milli hərəkat prosesində, əsasən, B mərhələsində romantik çərçivədə formalaşdırılan tarix C mərhələsində sərhədləri müəyyən olan Azərbaycan millətçiliyi üçün dizayn edilmişdir. Araşdırma kontekstində yanaşdığımız Rəsulzadə C mərhələsində milli tarixin ön şərtlərini hazırlamışdır. Misal üçün, tarixi türk tarixindən qoparmamış, buna əlavə olaraq Azərbaycanın öz kontekstuallığı ilə ayaqlaşmasını təmin etməyə çalışmışdır. Xülasə, Rəsulzadə inşa etməyi planlaşdırdığı millət üçün tarixi qənəati formalaşdırmağa çalışıb. Bu səbəblə də Azərbaycanın, Qafqazın kontekstini nəzərə alıb.

Rəsulzadə romantik üsulda istifadə ilə keçmişə bağlı orijinal bir tarix anlayışı real görməmişdir. O, Azərbaycanı müasir türk tarixinin bir hissəsi kimi təxəyyül etmişdir. Digər tərəfdən "Azərbaycan Cümhuriyyəti" (1919) adlı məqaləsində Azərbaycan coğrafiyasının sərhədlərini ehtiva edən bir tarix yazısı ərsəyə gətirmişdir. (Rəsulzadə, 2014c: 11; Rəsulzadə, 2014d: 250). Beləliklə, Rəsulzadənin dizayn etdiyi milli tarixin Azərbaycan ölkəsi və insanı üçün bir məna təşkil etməsi lazım olmuşdur.

---

[98] Tarixin necə bir bilgiyə mənbə olması ilə bağlı müstəqil araşdırma üçün baxın: Nebi Mehdiyev, (2019). Bir Bilme Teorisi. İstanbul: Dergah Yayınları.

Ernst Kassirer (1874-1945) "Dövlət əfsanəsi" (1944-1946) adlı əsərində tarix şüurunun sivilizasiyanın son məhsulu olaraq, ancaq on səkkizinci əsrdə ortaya çıxdığını yazmışdır (Cassirer, 2005: 162). Bu səbəbdən tarix müasir millətlərin formalaşmasında əsas dayanaqlardan biri olmuşdur. Çünki tarix müasir millətlərin "siyasi gövdə"nin formalaşmasında "əsaslandırılmış doğru inam" və ya ictimai şüuru (baxışı) formalaşdırma missiyasını yerinə yetirmişdir. Bu mənada milli hərəkatın hər mərhələsində ziyalıların diqqətində olan tarix hər mərhələdə (A mərhələsində aydınlanma (irəliləmə) təsiri, B mərhələsində romantik/turançı (etno-mədəni millətçilik) təsiri, C mərhələsində isə (milli/dövlət tarix anlayışı)) fərqli şəkildə şərh edilmişdir. Rəsulzadə millətin, milli şüurun formalaşması (ictimai əxlaq) üçün tarixi Azərbaycan milli dövləti və ya azərbaycançılıq kontekstində şərh etmişdir. "Milli dirilik" (1914) məqalələr toplusunda tarixə ayırdığı bölmədə millət ola bilmək üçün tarixin vacibliyi belə izah edilmişdir: "*Böyük millətlərin milli və mədəni həyatlarının necə tərbiyə olunduğuna diqqət edilərsə, tarixin önəmi başa düşüləcəkdir. Mədəni millətlərdə tarix həm də vətən və milliyyət tarixi ən mühüm dərslərdən birini təşkil etdir. Vətənin şanlı keçmişi övladlarının yaddaşına nəqş edilir. Bu mənada mənsub olduğu millətin keçmişdə hansı böyük işlər gördüyünü öyrənən gənclik gələcəyə qarşı ümidlə yaşayır*" (Rəsulzadə, 2014b: 483). Rəsulzadə tarixi dizayn edərkən türkçülüyü önə çıxarmaq əvəzinə, Azərbaycan türk tarixinin bir parçası kimi yanaşmışdır və B mərhələsindəki romantik, orijinal tarix anlayışından fərqləndirmişdir. Çünki cümhuriyyətin elanının birinci ilində yazdığı "Azərbaycan Cümhuriyyəti" (1919) adlı məqaləsində Azərbaycan tarixini belə dəyərləndirmişdir: "*Müştərək bir dil, yazı, ədəbiyyat, adət, ənənə və tarixə malik olmaq bir millətin amalını təşkil etsə, heç şübhəsiz ki, Araz çayının iki tərəfində sakin; güneydə Təbriz, quzeydə Bakı məntəqəsində yığılan xalqın əksəriyyəti bir millət-i-vahidənin namizədidir*" (Rəsulzadə, 2014d: 250).

Digər tərəfdən Rəsulzadə eyni məqalədə ümumi türk tarixindən verdiyi mənbələri son misalda Azərbaycanla[99] əlaqələndirmişdir. Əgər Hüseynzadə "Türklər kimdir, kimlərdən ibarətdir?" adlı məqaləsində tarixi bütün türkləri birləşdirəcək şəkildə dizayn etsə də, Rəsulzadə böyük türk ailəsində türk mənşəli bir Azərbaycan türkü anlayışını ön pla-

[99] Bu kontekstdə Rəsulzadə Azərbaycanın etnik olaraq türklərdən ibarət olduğunu tarixə əsaslanaraq izah edir. Ətraflı məlumat üçün baxın: Məhəmməd Əmin Rəsulzadə, (2014d). Əsərləri V. Haz. Şirməmməd Hüseynov. Bakı: Təhsil. s. 250-270.

na çıxarmışdır. Yəni Rəsulzadə türklük şüuruna yad qalmamaqla birlikdə, Azərbaycanı türklüyün ayrı bir şöbəsi, öz müqəddəratını təyin edə biləcək müstəqil bir ölkə olaraq təxəyyül etmişdir.

Rəsulzadə milliyyət əsrində tarixini dizayn etməyən xalqların millət ola bilməyəcəyi fikrini yazılarında ardıcıl olaraq əsaslandırlmışdır (Rəsulzadə, 2014b: 483). Çünki millətçilik və ya millət müasir mədəniyyət olaraq ictimai bir şüur, əxlaq yükləmişdir. Bu səbəblə millətin, (xüsusilə də, kiçik millətlər üçün) keçmişlə bağlı kollektiv yaddaşın, şüurun formalaşması millətləşməsinin uğuruna təsir etmişdir. Bu durum isə milli tarixin dizayn edilməsini vacib etmişdir.

Beləliklə, millətin formalaşmasında dil qədər milli bir tarix şüurunun formalaşmasının da vacib olduğunu demək olar. Bu səbəbdən Rəsulzadə, xüsusilə də İstanbuldan qayıtdıqdan (1913) sonrakı mətnlərində milli tarix anlayışına yer vermişdir. Ancaq Rəsulzadə dizayn etməyə çalışdığı milli tarixin əsasını və ya milli tarix (Azərbaycan) yazıçılığının on doqquzuncu əsrin başlarında başladığını bildirmişdir (Rəsulzadə, 1991: 89). Bu səbəbdən milli hərəkat prosesində B və C mərhələlərində ziyalılar əvvəlki dönəmdəki irəliləmələri bir bütünlük daxilində dəyərləndiriblər. Rəsulzadənin tarix anlayışı Azərbaycan milli dövlətinin formalaşmasına xidmət etmişdir.

Rəsulzadənin milli tarix formalaşdırmaq üçün yazdığı yazılar ümumilikdə Türkiyədən qayıdışından dərhal sonra başlamışdır. Çünki Balkan müharibəsindən təsirlənmiş və millətçilik müharibədən sonra "siyasi gövdə"nin formalaşmasında əsas rol oynayacağını dərk etmişdir.

"İqbal" qəzetində qələmə aldığı "Nadir Şah" (1914) adlı məqaləsində eyniadlı dramının "Nadir Şaf Əfşar" adıyla teatrda göstərilməsini tənqid etmişdir. Əfşarlar bir tayfa olan vaxt Nadir Şahın "aləmşümul" bir şəxsiyyət olduğunu bildirmiş və "Nadir Şah Əfşar" tərkibinin fars olduğunu tənqid etmişdir (Rəsulzadə, 2014b: 497).[100] Oxşar bir meyili türk milliyyətçiliyinin və millətçiliyinin inşasına mətnləriylə töhfə verən Ziya Göyalpda görürük. Söz gəlişi, Göyalp "Təpəgöz, Dəli Domrul, Uyğur Dastanı yerinə Battal Qazi, Kərəm və Şah İsmayıldan bəhs etməklə" (Ülken, 2016a: 203) milli bir tarix üzərində işləmişdir. Bu səbəbdən Rə-

[100] Nəsib Nəsibli "Azərbaycan tarixi" (2019) adlı əsərində dramların mövzularının, ümumilikdə, tarix olduğunu bildirmişdir (Nəsibli, 2019: 278).

sulzadənin Hüseynzadənin romantik tarix anlayışından fərqli bir yol izləyərək tarixi Azərbaycan coğrafiyasının siyasiləşməsi düşüncəsinə xidmət edəcək formada dizayn/şərh etdiyi görünür. Beləliklə, mühacirət dövründə Çağdaş Azərbaycan tarixi anlayışını formalaşdırmaq üçün səy göstərəcəkdir.

## 4.5. C mərhələsində milli dil problemi

Modernizm insanı varlığın mərkəzi subyekti olaraq təyin etmişdir. Modern insan isə öz imtiyazını əlçatan müstəqillik və bərabərlik çərçivəsində izah etmişdir. Müasir toplumun bir hissəsi olacaq modern insan üçün lazımlı vasitələrdən ən vacibi dil olmuşdur. Milli hərəkat prosesində dil A mərhələsində irəliləməyə yarayacaq biliyin əldə edilməsinin vasitəsi olaraq təxəyyül edilmiş və yerli xalq dili önə çıxmışdır. B mərhələsinin romantik təxəyyülü isə orijinal bir millət təsəvvür etdiyi üçün yerli dil gözardı edilmişdir. C mərhələsində isə Rəsulzadə ideoloq olmaqdan əlavə, fəalliyətə də önəm verdiyi üçün xalqın başa düşəcəyi dildə yazmalı olduğu düşüncəsində olmuşdur. Bu səbəbdən Rəsulzadənin dil məsələsinə də azərbaycançılıq siyasi kontekstində yanaşdığı görülür.

Müasir millətlər üçün dil milli kimliyin əsas elementlərdən biri kimi dəyərləndirilə bilər. Ona görə də Rəsulzadə üçün dil müasir millətlərin formalaşmasında ən əsas elementlərdən biri kimi dəyərləndirilməlidir (Rəsulzadə, 2014b: 231). Dil məsələsi Çar Rusiyası Azərbaycanının millətləşmə prosesində Axundzadədən başlayaraq fərqli məqsədlərdə özünü göstərmişdir. Axundzadənin düşüncəsində dilə müasirləşmə/aydınlanma üçün ehtiyac olan bir şey olaraq meydana çıxmışdır. Yəni Axundzadə dinin təsirindən azad edilən xalq dilinə aydınlanmanın universal inkişaf hədəfinə çatmaq üçün ehtiyac duymuşdur. Bu səbəbdən hər hansı bir siyasi və ya ictimai ortaqlıq/sistem qurmaq kimi bir hədəfi olmamışdır.

B mərhələsində Hüseynzadə Osmanlı türkcəsini mərkəzə alaraq türklük üçün bir dil təklif etmişdir. Osmanlı türkcəsini yazı dili olaraq istifadə etmiş və "mən kiməm?" sualına bütün türkləri bir bötüv kimi (təbii/etno-mədəni yanaşma) dizayn edərək cavab vermişdir. Belə ki, dil hər iki mərhələdə bir milli dövləti təxəyyül edəcək formada istifadə edilmişdir. Bu səbəbdən Osmanlı türkcəsinin yazı dili olaraq istifadə

edilmə düşüncəsi müstəqil bir Azərbaycan Cümhuriyyətinə istinad etməmişdir. Rəsulzadə Osmanlı türkcəsini müdafiə edənlərin pis bir təqlid içərisində olduqlarını və xalqdan, xalqçılıqdan uzaq düşdüklərini əsaslandırmışdır. Çünki millətlərin xəyal edilməsindəki təməl maddi mənbələrdən biri olan qəzetlərin Osmanlı türkcəsiylə nəşr edilməsinin uğursuzluğa düçar olduğunu irəli sürmüşdür. Rəsulzadə dilin əsas məqsədinin əhaliyə dil öyrətmək yerinə, xalqı onun öz diliylə dirilik mübarizəsinə çəkmək olduğu fikrini müdafiə etmişdir (Rəsulzadə, 2014b: 220, 221, 224). Yəni Andersonçu perspektivdən dəyərləndirdiyimizdə romantiklərin millətin xəyal edilməsinə əngəl törətdiklərini demək mümkündür.

Digər tərəfdən, Rəsulzadənin Osmanlı türkcəsinə tənqidi xarici sözlər alınmaqla türk dilinin öz qrammatika strukturunun qorunmadığına görə olmuşdur. Bu məqsədlə Rəsulzadə "Yeni lisan"çıların həm dili xarici sözlərdən arındırmaq istədiklərini, həm də dilə daxil olacaq xarici sözlərin türkcənin dil tərkibinə görə istifadə edilməsini hədəflədiklərini yazmışdır. Misal üçün, bivəfa yerinə, vəfasız deyilməlidir (Rəsulzadə, 2014b: 221-223). Rəsulzadə osmanlıca sayəsində millətin əsası olan xalqın unudulduğunu irəli sürmüş və Balkan müharibəsindəki məğlubiyyəti də bununla əlaqələndirmişdir. Digər tərəfdən, "Yeni lisan"çılar və ya türkçülər isə xalqın və dilinin qiymətini dərk etmiş və bu minvalda mübarizə aparmışdılar (Rəsulzadə, 2014b: 225- 227). Rəsulzadə Azərbaycan mətbuatında Osmanlı türkcəsinin istifadə edilməsinin xalq yeni bir dil öyrətmək mənasına gələcəyi üçün millətləşməyə maneə olduğunu düşünmüşdü.

Rəsulzadə dili bir millət/dövlət üçün təxəyyül etmiş, dilin milli kimliyi üçün bir növ açar[101] olduğunu anlamışdır. Bu mənada Rəsulzadənin dil dizaynı Osmanlıcanı mərkəzə qoyaraq bütün türklər üçün ortaq bir türkcə fikrini müdafiə edən Hüseynzadədən fərqli olaraq dil dizaynını Azərbaycanla məhdudlaşdırmışdır. Çünki Rəsulzadə siyasi və ictimai problemləri həll etmək üçün xalqa ehtiyac duyduğu düşüncəsində idi. O, "xalqın başa düşəcəyi sadə bir dildə" (Heyd, 2002: 116) yazmağın əhəmiyyətini idrak etmişdir. Çünki millətin, milli şüurun forma-

---

[101] "Bir çox millətçilik nəzəriyyəçisi ortaq bir dil mövcud olmasını bir millət, kimlik duyğusunun açarı saymışlar. Bir milli dil tək bir izləyici kütləsinin formalaşmasına və təcrübələrin bu izləyici yoluyla yayılmasına və paylaşılmasına imkan verir" (Poole, 1993: 136, 137).

laşması üçün kütlələri keçmişin möhtəşəmliyinə dəvət etmək lazım idi və bu dəvətnamənin xalqın başa düşəcəyi bir dildə olması zərurəti yaranmışdı (Anderson, 2017: 96).

Rəsulzadə dilin modern millətlərin ən əsas keyfiyyətlərindən biri olduğunu öyrənmiş və Osmanlıcanı mərkəzi bir dil olaraq qəbul etməmişdir (Rəsulzadə, 2014b: 475, 477). Rəsulzadə dili milləti formalaşdıran əsas səbəb olaraq qəbul etmişdir. Bu mənada dinlə müqayisə ediləndə, dil daha təyinedici olmuşdur. Dil məktəb, ədəbiyyat, mətbuat deməkdir. Yəni xalq dilindən mütəşəkkil bir yazı dilinin formalaşması mənasına gəlir (Rəsulzadə, 2014b: 231-233). Rəsulzadə milli dili formalaşdırmaq istəməkdədir. Ancaq dil ilə istiqlalın, millətin təsis və təmin edilə biləcəyi fikrində olmuşdur. Misal üçün, rus dilində təhsil almış olanlardan fərqli olaraq türkcə danışanlar milli şüura sahib olduqları üçün öz xalqının/millətinin problemlərinə qarşı diqqətsiz deyildilər (Rəsulzadə 2014b: 464). Bu səbəbdən Rəsulzadənin siyasi bir toplumu (millət) xəyal etmək üçün xalq dilinin siyasiləşməli olduğunu düşünmüşdü.

Müasir millətlər modern insanın bir yerdə yaşamaq üçün qurmuş olduğu şərikliyin siyasi nəticəsi olaraq ifadə edilə bilər. Bu səbəblə milli dillər mərkəzi bir önəmə sahibdir. Misal üçün, milli bir dilə sahib ola bilmək eyni zamanda bir tarix inşa etmə imkanı deməkdir. (Rəsulzadə 2014b: 464). Rəsulzadənin dil haqqındakı fikirləri milli məfkurənin formalaşdırılmasını qarşısına məqsəd qoymuşdur. Çünki B mərhələsində Hüseynzadənin Osmanlı türkcəsi kontekstində formalaşdırmağı hədəflədiyi romantik yanaşmadan uzaqlaşmış və dili azərbaycançılıq/siyasi ideal üçün dizayn etmişdir. Rəsulzadə siyasi şüura sahib bir aydın üçün və siyasi strukturçu olaraq millətin xəyal edilməsinin imkanlarını/simvolik mənbələrini formalaşdırmışdır. Bu səbəblə milli hərəkatın C mərhələsində Rəsulzadə Azərbaycan türklərinin milli şüur qazanması üçün yerli xalq dilini mətbuat dilinə çevirmək tərəfdarı olmuşdur.

## 4.6. Milli hərəkatın siyasi hədəfinin formalaşması

Milli hərəkatların proqramlarında siyasi hədəflər, ümumi olaraq, C mərhələsində meydana gəlmişdir. Beləliklə milli hərəkatlar "gizli millətçi" fəaliyyətlərini daha açıq şəkildə nümayiş etdirə bilmişlərdir. Çar-

lıq Azərbaycanının milli hərəkatı prosesində milli şüur, milli oyanış B mərhələsində ortaya çıxmışdır. Ancaq inqilabın "müsbət" təsirinin qısa müddət çəkməsi və "xarici təsirlər"in formalaşmamasına görə siyasi tələblər milli hərəkatın proqramına daxil ola bilməmişdir. Bu kontekstdə Balkan müharibəsi, Birinci Dünya müharibəsi və 1917-ci il İnqilabının baş verməsi Rusiyada qeyri-dominant etnik qruplar üçün öz müqəddəratlarını təyinetmə fürsəti yaratmışdır. Bu səbəbdən siyasi tələb C mərhələsində ortaya çıxmışdır. Bu alt başlıqda cümhuriyyətə gedən proseskıf muxtariyyət, Zaqafqaziya Federasiyası və öz müqəddəratını təyin etmə prinsipi çərçivəsində tədqiq ediləcəkdir.

Kiçik millətlərin millətləşmə prosesində B mərhələsi təyinedici olmuşdur. Bu mənada Çar hakimiyyəti altında Azərbaycan Milli Hərəkatının B mərhələsində 1905-1907-ci il rus inqilabının yaratmış olduğu "müsbət" hava Azərbaycan ziyalılarında millət anlayışının formalaşmasını təmin etmişdir. Belə ki, 1905-ci il inqilabının yaratmış olduğu nisbi azadlıq nəticəsində milli hərəkatın "milli diriliş", "milli inkişaf" dövrünə girdiyi deyilə bilər (Nəsibli, 2001: 142; Rəsulzadə, 1990: 17). Bu səbəbdən İnqilabdan sonra incəsənət, ədəbiyyat, mətbuat və s. İnqilabın yaratmış olduğu müsbət atmosferin təsiri altında özü (milləti) üçün tələblərini müəyyənləşdirməyə və o tələblərə çatmağa çalışmışdır. Bu ifadə irrasional təəssürat oyatmaqla yanaşı, "Milli hərəkat"ın siyasi ləyaqəti ilə siyasi bir hədəfə doğru təkamülünü təsvir etmək üçün də istifadə edilə bilər.[102]

Rəsulzadə isə 1905-ci il İnqilabının və ya "milli hakimiyyət mübarizəsi"nin Azərbaycan üçün qazancını "milli məktəb", "milli mətbuat", "milli cəmiyyətlər" kimi izah etmişdir (Rəsulzadə, 2014d: 255). Digər tərəfdən, Qafqazda etnik zəmində baş verən toqquşmalardan sonra ilk dəfə ruslara qarşı muxtariyyət ifadəsi və ya tələbi dilə gətirilmişdir (Nəsibli, 2019: 305). Bu səbəbdən milli hərəkatın B mərhələsi siyasi tələbin "mayalanma" mərhələsi olaraq ortaya çıxmışdır. B mərhələsində milli hərəkatın liderləri təmsil tələbini daha kəskin bir şəkildə dilə gətirmişlər. Ancaq muxtariyyətin, millətin axtarışı isə milli hərəkatın C mərhələsində mümkün olmuşdur. Əvvəlki rejimi devirmək üçün suveren mil-

[102] Bütün Qafqazda (Azərbaycan, Ermənistan və Gürcüstan) müstəqillik üçün verilən mübarizələr üçün ayrıca baxın: Firuz Kazımzadə, (2016). Transkafkasya İçin Mücadele 1917-1921. Tərc. Cengiz. İ. Çay. İstanbul: T&K Yayınları

lətin içərisindən çıxan "müxalifət"lə "məhkum millətlər"in hədəfləri toqquşmuşdur. Ağırlıq olmayan etnik qrupların konstitusion hüquqları hakim millətin müasir/liberal/ millətçilik ziyalıları tərəfindən əngəllənmişdir (Hroch, 1995: 291). Bu səbəbdən milli hərəkatların siyasi tələbləri suveren millətlərin içindən çıxmış millətçilik təzyiqlə (bolşeviklər) mübarizə aparmaq məcburiyyətində qalmışdır.

1917-ci il İnqilabı rus millətçiliyini hazırlayan Romanovlar sülaləsini tarixə qovuşdursa da, millətçiliyin təsiriylə qeyri-dominant etnik qruplar üçün öz müqəddəratlarını təyin imkanı yaratmış oldu. Anlayışları siyasi çərçivədə istifadə etməyə başlayan Rusiya müsəlmanları öz müqəddəratlarını müzakirə edərək federal anlayışı müdafiə etdiklərini elan etdilər. Bu səbəblə muxtariyyət tezisinin ortaq tələb olaraq mənimsənilməsi milli hərəkatların müstəqillik istiqamətində təkamül etməsinə xidmət etmişdir. Çünki bu yığıncaqlarda ilk dəfə Rusiya müsəlmanlarının dini və milli çərçivədə tanınma problemi ortaya çıxdı. Bu səbəbdən "coğrafi muxtariyyət" tələbi Rusiya müsəlmanları arasında gedən uzun mübahisələr nəticəsində çoxluqla qəbul edilmişdir. Bu mübahisənin təməli Rusiya müsəlmanları arasında millət anlayışını tərifini də müəyyənləşdirmişdir. Rusiya müsəlmanları coğrafi muxtariyyət tələbini qəbul etmiş və Rusiyanın federal strukturda bir cümhuriyyət olması zərurətini bəyan etmişdir. Bu kontekstdə milli hərəkat boyunca cümhuriyyət ifadəsi ilk dəfə siyasi olaraq istifadə edilmişdir. Yığıncaq nəticəsində milli hərəkatın proqramında siyasi tələb müəyyənləşdirici hal almışdır. Siyasi hədəflərin müəyyən olunmasında Müsavat[103] partiyası təsirli olmuşdur. Bu səbəbdən qurultayda ilk dəfə "Rusiya üçün federasiya", Azərbaycan üçün isə muxtariyyət tələbi gündəmə gəlmişdir (Swietochowski, 1988: 128-131; 132; Rəsulzadə, 2014c: 12; Özdoğan, 1993: 72).

Buna görə də Hrox Birinci Dünya müharibəsinin başlamasına qədər Avstriya-Macarıstan və Rusiyada meydana gələn milli hərəkatlarda muxtariyyət (siyasi) tələbinin olmadığını iddia etmişdir (Hroch, 1995: 290). Belə ki, muxtariyyət tələbinin irəli sürülməsi və ya müzakirə edilməsi milli hərəkatın açıq şəkildə siyasi tələbə doğru yönəlməsi mənasına gəlmişdir. Çünki muxtariyyət tələbi milli hərəkatın romantik türkçü-

---

[103] Müsavatın milli hərəkat prosesindəki rolu üçün baxın: Mirzə Bala Məmmədzadə (1991). Milli Azerbaycan Hareketi. Haz. Ahmet Karaca. Ankara: Azerbaycan Kültür Derneği Yayın-ları. s. 42-61; 89-102.

lükdən/turançılıqdan ayrılaraq sərhədləri müəyyən bir millət düşüncəsinə doğru təkamül etməsini təmin etmişdir.

Riçard Payps Sovetlərin qurulması haqqında yazdığı "Sovet İttifaqının qurulması" (*"The Formation of the Soviet Union")* (1964) adlı əsərində Azərbaycanda milli şüurun /tələbin formalaşmasına belə yanaşmışdır: "*Azərbaycanda 1905-ci il inqilabı boyunca bolşeviklərə yaxın və ya maraqlı olan bir qrup ziyalı 1911-12-ci illərdə Müsavat Partiyasını qurdular. Müsavatın elan olunan proqramı milli bir xarakter daşımamış və müsəlmanların şanlı keçmişini xatırladaraq birliyə işarə etmişdir. Proqramın özəl olaraq Azərbaycan adında bir tələbi olmamışdır. Çünki ayrı bir Azərbaycan milləti anlayışı 1917-ci ilə qədər reallıq qazanmamışdır*" (Pipes, 1964: 15).

Bu səbəbdən siyasi tələb kontekstində muxtariyyət və millətin ortaya çıxması 1917-ci ildə İnqilabından əvvəl və ərəfəsində baş vermişdir. Hrox siyasi mənada milli şüurun, tələbin ortaya çıxmasını belə izah etmişdir: "*Qeyri-dominant etnik qrupların erkən dövrdə təzyiqə məruz qalmaları reallıqdır. Ancaq təzyiqə məruz qalan xalqın ziyalılarının bu təzyiqi milli və siyasi terminlərlə şərh etdikləri/anladıqları zamana qədər təzyiq milli hərəkatlara səbəb ola bilmədi* (Hroch, 1995: 293, 294).

Beləliklə, muxtariyyət tələbinin 1905-ci il inqilabından sonrakı dövrə uyğun gəldiyi anlaşılır. 1905-ci il İnqilabı Çarlıq dövrü Azərbaycanı milli hərəkat liderlərinə kim olduqlarını müəyyən etmək fürsəti vermişdir. Oktyabr inqilabı isə Rusiyada qeyri-dominant etnik qruplara dövlətin və ya dövlətçiliyin qapısını açmışdır (Hroch, 1995: 292). Həmçinin İnqilabdan sonra Azərbaycanda milli hərəkatın hansı istiqamətdə irəliləməsi baxımından fikri, ideoloji ayrılıq meydana gəlmişdir.[104] (Swietochowski, 1988: 123-128). Bu mənada millətləşmə prosesində milli hərəkatda bir növ fikir birliyinin təmin edilməsinin rahat olmadığını demək mümkündür.

Muxtariyyət tələbi qeyri-dominant etnik qrupların "tarixi Orta Əsrlər dövlətlərinin sərhədləri içərisində olmuşdur" (Hroch, 1995: 290). Belə ki, Azərbaycan milli hərəkatının Rusiya müsəlmanlarının muxtariyyət tələbi tarixi torpaqlar çərçivəsində formalaşmışdır. Beləliklə, muxtariyyət tələbi "Avstriya-Macarıstanda və Rusiyada Birinci Dünya

[104] Fərqli fikirləri mənimsəmiş ideoloji qruplar haqqında ətraflı məlumat üçün baxın: Tadeusz Swietochowski, (1988). Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı 1905-1920. Tərc. Nuray Mert. Ankara: Baağlam Yayınevi. s. 123-128

müharibəsinə qədər milli hərəkatların proqramında əsas olaraq təşkil etmişdir" (Hroch, 1995: 290). Ancaq Çarlıq dövrü Azərbaycanında muxtariyyət tələbi yalnız 1917-ci il İnqilabından sonra toplaşan müsəlman konqreslərində mümkün hala gələ bilmişdir. İnqilabla mümkün hala gələn muxtariyyət tələbi Azərbaycan kontekstində patriotizmin cücərməsini təmin etmişdir. Bu kontekstdə Rəsulzadə İnqilab sayəsində Azərbaycan milli hərəkatının Rus inqilabından milli müstəqilliyin tanınmasını istədiyini irəli sürmüşdür (Rəsulzadə, 2014d: 259).[105] İnqilab nəticəsində Rusiya müsəlmanları adına istənilən "coğrafiya" əsaslı muxtariyyət tələbi Azərbaycan kontekstində millət axtarışı olmuşdur.

## 4.7. Zaqafqaziya Federasiyası: müstəqilliyə yaxud öz müqəddəratını təyin haqqına doğru ilk addım

İnqilabdan sonra bolşeviklərin məclisi ləğv etməsinə görə Qafqaz millətləri (türk, gürcü, erməni və rus)[106] anarxiyaya son vermək üçün idarə formalaşdırmış və qanunverici orqan kimi Seym[107] təsis etmişdilər. Bu minvalda Seymdə iştirak edən Müsavat[108] Azərbaycanın muxtariyyətini müdafiə etmişdir (Rəsulzadə, 2014c: 14-15). Seym də "Müstəqil Qafqaz Cümhuriyyətləri"nə gedən keçid yolu olan Zaqafqaziya Federasiyasını elan etmişdir (Swietochowski, 1988: 168, 172). Seym elan edilərkən Qafqaz millətlərinin hüquqlarını millət prinsiplərinə görə qorumağı hədəfləmişdir (Rəsulzadə, 2014d: 272). Zaqafqaziya Federasiyası millət prinsipinə görə siyasi mövcudluğun ilk mərhələsi olmuşdur.

---

105 Moskva Qurultayından sonra Müsavat coğrafi muxtariyyət əsaslı 12 maddəlik tələbini irəli sürmüşdür. Ətraflı məlumat üçün baxın: Məhəmməd Əmin Rəsulzadə, (2014d). Əsərləri V. Haz. Şirməmməd Hüseynov. Bakü: Tahsil. s. 255-259.

106 Rəsulzadə başqa bir məqaləsində "üç millət"dən (gürcü, erməni və türk) bəhs etmişdir. (Rəsulzadə, 2014d: 270).

107 Seymlə bağlı ətraflı araşdırma üçün baxın: Firuz Kazımzadeh, (2016). Transkafkasya İçin Mücadele 1917-1921. Tərc. Cengiz. İ. Çay. İstanbul: T&K Yayınları.

108 Gürcülər və ermənilər Seymdə birgə partiyayla (Sosial Demokratlar və Daşnaklar) təmsil olunmalarına baxmayaraq, müsəlmanlar və ya türklər dörd partiyayla – Türk Ədəmi Mərkəziyyət, Müsavat, İttihad və Hümmət ilə təmsil olunmuşdur (Rəsulzadə, 2014d: 270-271). Ətraflı məlumat üçün baxın: Məhəmməd Əmin Rəsulzadə, (2014d). Əsərləri. Haz. Şirməmməd Hüseynov. Bakı: Təhsil. s. 270-298.

Oktyabr inqilabından sonra Rusiyada Çar rejimi süquta uğramış və bu vəziyyət siyasi olaraq "iqtidar boşluğu" yaratmışdır. Boşluq səbəbindən "Tiflisdə Qafqaz Komissarlığı qurulur və Qafqaz millətlərinin öz müqəddəratlarını təyin hüququ tanınırdı" (Atabaki, 2010: 98). Yaranacaq Zaqafqaziya Federasiyası müstəqilliyə gedən ilk addım kimi dəyərləndirilə bilər. Zaqafqaziyanın Federasiyası adına (Seym) keçirilən ilk seçkidə nəticələr müsəlman xalqın Müsavatın "coğrafi muxtariyyət" tələbini dəstəklədiyini göstərmişdir (Swietochowski, 1988: 150). Zaqafqaziya Federasiyası ilk dəfə Rusiyanın parçalanmasını təxmin etmişdir. Belə ki, Məmmədzadə 1917-ci ildə Bakıda təşkil edilən Qafqaz İslam Qurultayında ilk dəfə Rusiyanın milli dövlətlərə parçalanması fikrinin müzakirə və qəbul edildiyini söyləmişdir (Məmmədzadə, 1991: 3). Ancaq həm mövcud vəziyyət, həm də Seymdə təmsil olunan millətlərin razılığa gələ bilməməsi federasiyanın gələcəyini problemli hala gətirmişdir.

Zaqafqaziya Cümhuriyyəti "qısa ömrü"ndə həlledici hər hansı bir yenilik əldə edə bilməmişdir. Ancaq Qafqazın üç millətin, xüsusilə də gürcü və azərbaycanlı ziyalılarda siyasi şüurun möhkəmlənməsində mühüm rol oynamışdır. Çünki "müstəqil" bir struktur kimi Osmanlı ilə əlaqələr yaradılmışdır. Zaqafqaziya Federasiyası sayəsində ilk dəfə müasir mənada "suverenlik" təsis edilmişdir. Oktyabr inqilabından sonra, xüsusilə "gürcü federalistlər" və "müsavatçılar"ın bolşeviklərin idarəsindəki Rusiyaya inamı qalmamışdı. Bu mənada Qafqazın qafqazlılar tərəfindən idarəedilmə tələbi yerli orqan olan "Seym"in yaranmasını təmin etmişdir. Yerli orqan kimi Seymin qurulması "Zaqafqaziyanın Rusiyaya qarşı mövqeyini necə ifadə edəcəkdi?" (Swietochowski, 1988: 152) sualını gündəmə gətirmiş və ilk dəfə öz müqəddəratını təyin prinsipinin vacibliyi bildirilmişdir. Ancaq Qafqazın üç milləti tərəfindən qurulan "Seym" üç millətin (erməni, gürcü və müsəlman) razılığa gələ bilməməsi nəticəsində Gürcüstanın müstəqilliyini (26 may 1918-ci il) elan etməsiylə buraxılmışdır (Əsgər, 2015b: 539).

Ancaq qısa ömürlü Zaqafqaziya Seymdə təmsil olunan millətlərin müstəqilliklərini elan etməsiylə tarixə qarışmışdır. Rəsulzadə Seymin dağılmasında əsas səbəblərdən birisi kimi bolşeviklərə qarşı müsəlmanların dəstəklənməməsini göstərmişdir. (Rəsulzadə, 2014d: 262). Həmçinin Seymin özünü ləğv etməsi Qafqazın "məhkum millətlər"inə öz müqəddəratlarını təyin imkanı vermişdir.

Birinci Dünya müharibəsinin bitməsiylə millətçilik qalib gəlmiş və istər Vudro Vilsonun 14 maddəlik prinsipləri, istərsə də Leninin öz müqəddəratını təyinetmə barədə "dəstəyi" milli siyasəti yeni sistemin rəhbər prinsipinə çevirmişdir. Bu yöndə öz müqəddəratını təyinin ilk mərhələsində iyirmidən çox yeni dövlət meydana gəlmişdir. (Tamir, 2019: 13). Tamir "Liberal millətçilik" ("Liberal Nationalism") (1993) adlı əsərində milli prinsiplər çərçivəsində meydana gələn öz müqəddəratını təyin prinsipinin iyirminci əsrdə üç dəfə: Birinci Dünya müharibəsindən sonra, İkinci Dünya müharibəsindən sonra və 1980-ci illərdə ortaya çıxdığını iddia etmişdir. Bununla bərabər, öz müqəddəratını təyin etmə prinsipinin "siyasi suverenliyi" hədəflədiyini bildirmişdir (Tamir, 1993: 57, 69). Beləliklə, Birinci Dünya müharibəsindən sonra yaranmış öz müqəddəratın təyin prinsipi qeyri-dominant etnik qrupların üzünə siyasi mövcudiyyətin qapısını açmışdır. Həmçinin qeyri-dominant etnik qruplar üçün 1905-ci ildən başlayan milli yüksəliş 1917-ci il İnqilabı ilə milli ümidlərin cücərməsinə səbəb olmuşdur. Həmçinin əzilən millətlər milli ehtiyaclarının qarşılanması üçün açıq mübarizəyə girmişdilər. Ancaq müvəqqəti hökumətin Rusiyanın bütövlüyünün tərəfdarı olmasından ötrü mədəni hüquqlar üzərində dayanmışdır. Bu səbəbdən hakim millət kimi (ruslar) sağçıların Rusiyanın bütövlüyündən, solçuların öz müqəddəratını təyinetmə tələbinin təxirə salınmağını istədikləri deyilə bilər (Nəsibli, 2019: 310, 311, 313). Ancaq vəziyyət milli hərəkatların siyasi tələbi tərk etmələrinə səbəb olmadığını, əksinə milli tələblərin artmasına səbəb olduğunu söyləmək mümkündür.

Milli hərəkatların öz müqəddəratın təyin prinsipini mənimsəmələri artıq ayrılma (secession) mərhələsinin gəldiyini və siyasi hədəfin həlledici olmağa başladığını göstərir. Bu mənada "öz müqəddəratını təyinetmə hüququ" buradakı legitim "öz"ün nə olduğunun da izahının verilməsini də zəruri edir ki, bu da tamamilə kənardan veriləcək bir hökmlə reallaşa bilməz (Kalhaun, 2009: 110). Digər tərəfdən Hrox öz müqəddəratın təyin prinsipinin Lenin və ya Vilsonun ixtirası olmaqdan daha çox, Avropada yaranmış milli hərəkatların son mərhələsi olaraq izah etmişdir. Bu kontekstdə öz müqəddəratını təyin prinsipi problemlərin həll edilməsi üçün tək variant kimi ortaya çıxmışdır (Hroch, 1995: 198). Birinci Dünya müharibəsinin nəticəsini yaranan millətçi dünya öz müqəddəratını təyin prinsipini qaçınılmaz etmiş və 26 yeni dövlət yaranmışdır (Tamir, 2019: 13).

Çar Rusiyası daxilində qeyri-dominant etnik qruplar iyirmi əsrin başlarında meydana gələn inqilablarla (1905 və 1917) bu prinsipi qəbul etmiş və xüsusilə də, Oktyabr inqilabından sonra Rusiya tərkibində qalmaq yerinə, ayrılmağı düşünmüşdülər. Rəsulzadənin siyasi tələbinin bir hissəsi kimi öz müqəddəratını təyin tələbinin kəskinləşməsini İnqilabdan sonra bolşeviklərin verdikləri sözləri tutması ilə əlaqələndirmişdir.[109] İnqilabdan dərhal sonra iqtidara gələn bolşeviklər müsəlmanların Zaqafqaziya Seyminə qoşulmağının intiqamını almışdılar (Rəsulzadə, 2014d: 259- 260).

Bu kontekstdə Vladimir İlyiç Lenin (1870-1924) Çar Rusiyasındakı milli hərəkatların Rusiya tərkibində qalmaq yox, bir "ayrılıq" tələblərinin olmasının səbəbini xarici irqlərin say çoxluğu, sərhəd bölgələrində məskunlaşmaqları, məruz qaldıqları təzyiq və zülm, kapitalizmin inkişaf etməsi kimi səbəblərlə əlaqələndirərək bu problemi həll etmək üçün öz müqəddəratını təyin hüququna nəzər yetirmələrinin vacibliyinə diqqət çəkmişdir (Lenin, 2004: 53-54). Bununla belə, qeyri-dominant etnik qrupların öz müqəddəratını təyin tələbini və millət olma prosesini "xarici idarəçilikdən xilas olma" (Heyvud, 2014: 170) kimi ifadə etmək mümkündür. Bu səbəblə, İnqilabdan sonra iqtidara gələn bolşeviklər 3 dekabr xitabında bütün millətlərə öz müqəddəratını təyin etmə vədini bildirmişdir (Nəsibli, 2019: 313).

Bu mənada Rusiyadakı "xarici irqlərin" şüur qazanması ciddi problem yaratmışdır. Problemin həlli üçün qeyri-dominant etnik qruplara öz müqəddəratını təyinetmək vədi verilmişdir (Rəsulzadə, 2014d: 259). Belə vəziyyət isə Rusiya daxilində "mədəni muxtariyyət" və "coğrafi muxtariyyət" müzakirələrinə səbəb olmuşdur. Digər tərəfdən problemi dərk etmiş olan Lenin öz müqəddəratını təyin prinsipinin Rusiyadakı yansımanın 1905-ci il inqilabı ilə təhlil etmişdir. Bu problemin başa düşülməsi üçün "*Millətlərin öz müqəddəratını təyin etmək hüququ*" (2004) adlı əsərində 1905-ci il inqilabının təsirini Qərbi Avropa ilə müqayisəli şəkildə belə izah etmişdir: "*Qərbi Avropa qitəsində burjuaziya inqilabları, ümumilikdə, müəyyən tarixlər aralığında reallaşmışdır: 1789-1871-ci illərdə. Bu inqilablar dövrü Avropada müasir milli hərəkatların və milli dövlətlərin yarandığı dövr olmuşdur. İnqilablar dövrünün sonunda Qərbi Avropa burjuaziya*

[109] Bunun nəticəsində "Qanlı Mart" hadisələrində türklərin qətl edildiyini irəli sürmüşdür (Rəsulzadə, 2014d: 260-261).

*dövlətlərinə çevrilmişdir. Bu səbəblə bu günün Qərbi Avropasında sosialistlərin siyasi proqramlarında millətlərin öz müqəddəratını təyin etmə tələbini axtarmaq marksizm ilə əlaqəli məlumatsızlığın dələləti deməkdir"* (Lenin, 2004: 55).

Lenin digər tərəfdə Şərqi Avropa və Asiyadakı burjuaziya inqilablarını da belə izah etmişdir: *"Avropanın şərqində və Asiyada inqilablar daha gec bir tarix olan 1905-ci ildə başlamışdır. Şərqdə inqilablar Çin, İran, Rusiya və Türkiyədə baş vermişdir. Eyni vaxtda milli hərəkatlara səbəb olan Balkan müharibələri. Bu mənada bu hadisələrin şərqdə millətlərin müstəqil dövlət qurmaq istiqamətindəki istəklərinin görülməməsi mümkün deyil. Həmin milli hərəkatlar, xüsusilə də Rusiyada və qonşu ölkələrdə özünü göstərir. Bu səbəblə proqramımıza millətlərin öz müqəddəratını təyinetmə hüququ ilə bağlı maddə əlavə etdik" (Lenin, 2004: 55).*

Leninə görə, Qərbi Avropa və Şərqdəki burjuaziya inqilabları və bu səbəbdən meydana gələn milli hərəkatlar arasındakı bu fərq problemin "özəyidir" və bu özəyi görə bilməmək tarixi prosesi düzgün başa düşməməyə səbəb ola bilər. Digər tərəfdən "bəzi yeniliklərin" Lenini bir özünütəyin nəzəriyyəsi qurmağa məcbur etdiyini düşünən Fahir Armaoğlu (1924-1988) *"Bolşevik inqilabı və öz müqəddəratını təyin etmə prinsipi"* (1963) adlı məqaləsində bu prinsipin inqilabdan əvvəl, sonra və inqilabın ilk illərindəki tətbiqində fərqliliklər göstərdiyini bildirir (Armaoğlu,1963: 211). Yəni Lenin, xüsusilə Çarlıq tərkibindəki azlıqlar və ya qeyri-dominant etnik qrupları öz müqəddəratını təyin etmə vədiylə aldatmışdır.

Rusiya daxilindəki Çar rejiminə qarşı "bərabərlik", "azadlıq" və s. prinsiplərinə əsaslanaraq "hakim millət"in içindən də milli hərəkatın çıxması qeyri-dominant etnik qrupların əlverişsiz vəziyyətə düşməsinə və siyasi tələblərini daha "kəskin" şəkildə mənimsəmələrinə səbəb olur. Çünki İnqilabdan sonra çağırılan Dumada müsəlmanlar ya kifayət qədər "təmsil" oluna bilməmiş, ya da "bərabərlik" hüquqları əllərindən alınmışdır. Bu baxımdan 1905-ci il İnqilabının millətləşmə üzərindəki təsirini qəbul edən, hətta "başlanğıc"[110] olaraq qəbul edən Rəsulzadə

[110] "Rusiya işğalına məruz qalan türk elləri üçün çox mühüm bir başlanğıc təşkil edən 1905-ci il İnqilabı Qafqaz türklüyündəki milli qüvvələrin inkişafı içində təqdirəlayiq bir dirçəliş təşkil etmişdir. Bu tarixdən etibarən nisbətən geniş nəfəs almak imkanı tapan Qafqaz türkləri şeir və ədəbiyyat, teatr və musiqi, mətbuat və maarif sahəsində olduğu kimi ictimai və siyasi məfkurə və təşəkküllər baxınmından da böyük addımlar

milli hərəkatın "siyasi məfkurə" yoluna girməsində Balkan müharibəsinin vacibliyini bildirmişdir: *"Balkan müharibəsi Qafqaz türklüyündə milli bir reaksiyaya səbəb oldu. Artıq milliyyətin din ilə deyil, dil ilə izahı üzərində durulmağa başlanıldı"* (Rəsulzadə, 1993: 39).

Bu səbəbdən inqilabla yanaşı, Balkan müharibələri də azərbaycanlılar (xüsusilə ziyalılar) arasında milli şüurun formalaşmasında təsirli olmuşdur. Beləliklə, öz müqəddəratını təyin etmə prinsipinin millətləşmə prosesinin uğurla nəticələnməsində həlledici olduğu görünür. Çünki öz müqəddəratını təyin etmək milliyyət vəziyyətindən millət mərhələsinə keçmək mənasına gəlir. Bu səbəbdən milli hərəkatın siyasi hədəfi formalaşa bilməkdədir. Rəsulzadə "Qafqaz türkləri" (1993) adlı əsərində bu mövzunu belə təhlil etmişdir: *"Qafqazda istiqlal hədəfi dünya müharibəsindən əvvəl (Birinci Dünya müharibəsi) ziyalılar arasında zaman-zaman zikr edilmişdir. Ancaq müharibədən sonra istiqlal tələbi əsas məqsəd halına gəlmiş və Qafqazda siyasi proqramın mərkəzi hədəfi olmuşdur"* (Rəsulzadə, 1993: 42).

Bu mənada öz müqəddəratın təyin etmək hüququ milli qruplara öz kimliklərini qoruma tələblərini bildirmək üçün əsas hüququ verməkdədir. Ancaq öz müqəddəratını təyin etmək tələbi qeyri-dominant etnik qrupların hamısı üçün çatılmış bir hədəf halına gəlməmişdir. Hrox qeyri-dominant etnik qrupların millətləşmə proseslərindəki uğurun və uğursuzluğun səbəblərini belə izah etmişdir: *"İlk qrupda qeyri-dominant etnik qrup zəifləmiş, təzyiq altında olsa da, köhnə, müstəqil Orta Əsrlər dövlətiylə yaşamış və yaddaşını müəyyən səviyyədə qorumuşdur; ikinci qrup isə Orta Əsrlər dövlətinə sahib olmuşdur, lakin müasir dövrün astanasında süqut etdiyi üçün keçmiş sadəcə yaddaşda mövcud olmuşdur; üçüncü qrup, qeyri-dominant etnik qrupun isə tarixin heç bir dövründə dövlətçilik ənənəsi və yazılı bir dili olmamışdır"* (Hroch, 1995: 287).

Çarlıq dövrü Azərbaycanında öz müqəddəratını təyin tələbinin milli hərəkatın gündəliyinə girə bilməsində keçmişlə bağlı yaddaşın tamamilə itməməsi həlledici olmuşdur. Bu səbəbdən bu prinsipin milli hərəkatın proqramına daxil olması artıq Azərbaycan ziyalıları tərəfindən "tanınma"nın siyasi olaraq "problem" halına gəldiyini göstərir və "kəsintiyə məruz qalan dövlət" ənənəsini əldə etmək istiqamətində "ira-

---

atmışdılar". Ətraflı məlumat üçün baxın: Mehmet Emin Resulzade, (1993). Kafkasya Türkleri. Haz. Yavuz Akpınar vd. İs-tanbul: Türk Dünyası Araştırmaları Vakfı. S. 33-38.

də" bəyanı olaraq ortaya çıxır. Ancaq qeyri-dominant etnik qrupların öz müqəddəratın təyin tələbində bir davamlılıq olmadığını demək mümkündür. Çünki Lenin və s. ziyalıların rəhbərlik etdiyi rus ziyalılar (bolşeviklər) rus dövlət strukturunda, kimlik anlayışında və s. bir transformasiyanı, "Rusiyanın süqutunun qarşısını almağı" (Armaoğlu, 1963: 235) hədəfləyərkən, qeyri-dominant etnik qruplar "istiqlal"larını hədəfləyir.

Bu kontekstdə öz müqəddəratını təyin tələbi bir növ "daxili" və "xarici" faktorların "icazəsi" ilə reallaşmaqdadır. Bu mənada Hrox milli hərəkatların öz müqəddəratın təyin etmək prinsipini "davamlı, yekcins" olmayan "tələblər" formasında belə təhlil etmişdir: *"Birinci Dünya müharibəsinə qədər Avstriya-Macarıstan və Rusiyada muxtariyyət tələbi (müstəqilliyi əhatə edirdi) milli hərəkatların öz müqəddəratını təyin etmək prinsipinin mərkəzi prinsipi olaraq qaldı"* (Hroch, 1995: 290).

Bu səbəbdən öz müqəddəratını təyin etmək tələbi qeyri-dominant etnik qruplar üçün qaçınılmaz olmuşdur. Lenin bu problemi belə izah etmişdir: *"Milli dövlətlər müasir dövrə uyğun strukturlardır. Milli dövlətlərin yaranmasında kapitalist sistem rol oynamışdır. Bu səbəblə milli dövlət insanlıq üçün qaçınılmaz bir siyasi forma kimi meydana gəlmişdir. Bu səbəblə millətlərin öz müqəddəratını təyin etmək prinsipinin, nəticə olaraq, bütövdən ayrılaraq öz dövlətlərini qurmaları mənasını verdiyi qənaətinə gələ bilərik* (Lenin, 2004: 47).

Ancaq Leninin həlli qeyri-dominant etnik qruplara müstəqil bir milli dövlət düşünməkdən daha çox, "Yeni Rusiya" (Sovet) tərkibində bir birlik düşünməkdir. Fahir Armaoğlu Leninin öz müqəddəratını təyin etmək prinsipi ilə bağlı dəyərləndirməsini tənqid etmiş ve belə şərh etmişdir: *"Leninin millətlər və öz müqəddəratını təyin etmə problemiylə maraqlanmasında üç əsas mərhələ (səbəb) var: İlk olaraq, problem haqqındakı yanaşmasını ortaya qoymuşdur (1897-1913); ikinci mərhələdə Çar tərkibindəki azlıq millətlərdən faydalanmaq üçün plan cızmışdır (1913-1917); sonuncu mərhələdə isə Çar Rusiyasından sonra Rusiyaya hakim olmaq üçün praktik həll yolları hazırlamışdır* (1917-1923) (Armaoğlu, 1963: 222). Leninin bu fikirləri haqqında oxşar bir şərhi Volker Konnor da vermişdir (Connor, 1984: 31). Öz müqəddəratını təyin etmək tələbinin milli hərəkatların proqramlarına daxil edilməsi hərəkatın siyasiləşdiyi mənasına da gəlir. Bu siyasiləşmə Çarlıq dövrü Azərbaycanı kontekstində dəyərləndiriləndə Oktyabr inqilabı və Osmanlıdan gələn türkçülük təsiri nəzərə alınır. Bu

kontekstdə siyasi bir hədəf olaraq meydana gələn öz müqəddəratını təyin etmək prinsipinin milli hərəkatlar tərəfindən mənimsənilə bilməsi eyni zamanda "müasir Avropa düşüncəsi olan bir ölkənin sərhədlərini çəkmək" (Kedourie, 1971: 112) mənasına gəlir.

Bu mənada öz müqəddəratını təyin etmək prinsipi bir fərdin, xalqın "iradəsinin ifadə edilməsi" (Kedourie, 1971: 74) mənasını daşıyır və Fixtenin "Alman millətinə nitqlər"ində olduğu kimi millətə xitab mənasına gəlir. Bununla yanaşı yaddan çıxmamalıdır ki, öz müqəddəratını təyin etmə tələbinin milli hərəkatların proqramlarına daxil olması altında olduqları "suveren millətlərin"in yaşamış olduğu inqilablar, məğlubiyyətlər və s. nəticəsində mümkün ola bilir. Bu çərçivədə həm milli mədəniyyət, həm də dövlətdən məhrum olan kiçik millətlər əzilmişlikdən xilas olmaq istəyirlər. Beləliklə, öz müqəddəratını təyin etmə prinsipinin siyasi fəaliyyətlərin özündə əsaslı dəyişikliklərə səbəb olduğu görünür (Kedourie, 1971: 24).

Bu səbəbdən Çar dövrü Azərbaycanında milli hərəkatın siyasi hədəfi mənimsəməsi Müsavat firqəsinin (1911) təsisiylə mümkün olmuşdur. Məmmədzadə Müsavatın təsis edilməsini "siyasi türkçülüyü ilk dəfə proqram halına gətirən və əsir türklərin hürriyyət və istiqlallarını tələb edən ilk türk firqəsi" (Məmmədzadə, 1991: 3) kimi dəyərləndirilmişdir. 19-cu əsrin başlanğıcında "millətlər əsri" anlayışı yaranmış, vacibliyini qorumuş və xüsusilə də Birinci Dünya müharibəsində dövlətlərarası problemlərin həll olunması nöqtəsində millət və milliyyət terminləri daha geniş şəkildə istifadə edilməyə başlanmışdır. Bu mənada öz müqəddəratını təyin fikri də millətçilik doktrinası nəticəsində meydana gəlmişdir. Keduriyə (1971: 23) görə "millətçilik öz müqəddəratını təyin doktrinasıdır, canlılığının mənbəyini burada tapmışdır". Belə ki, müasir bir düşüncə kimi dünya siyasətinin millətlərdən ibarət olması və hər millətin də öz müqəddəratını təyin etmək hüququnun olduğuna inanılmışdır.

Fransız İnqilabından sonra "insanların mütləq təbii hüquqlara sahib olması" (Kedourie, 1971: 12) fikri müdafiə edilmiş və millətlərin öz müqəddəratını təyin etmək hüququnun yaranmasını təmin etmişdir. Çar dövrü Azərbaycanında öz müqəddəratını təyin etmək fikri millətləşmə prosesinin son mərhələsində özünü göstərir. Öz müqəddəratının təyin prinsipi kiçik millətlər üçün istiqlal anlayışını da yaratmışdır. Belə

ki, milli hərəkatın C mərhələsində siyasi hədəf ilk öncə Müsəlman Qurultayında "coğrafi/territorial muxtariyyət" tezisiylə başlamışdır. Dərhal sonra isə Çarlığın tarixə qovuşması nəticəsində yaranan boşluq Zaqafqaziya Federasiyasını yaratmışdır. Ancaq Seym müsəlmanların hüquqlarını müdafiə etmə baxımından uğurlu olmamış və hər millət öz müqəddəratını özü təyin etmişdir. Bu mənada müsəlmanların müstəqillik idealının reallaşmasında Osmanlı hərbi varlığı və dəstəyi həlledici olmuşdur. Çünki Çarlığın müsəlmanları hərbi təcrübədən məhrum etdiyindən milli hərəkat Azərbaycanı müdafiə edəcək sistemli bir orduya malik deyildi. Bu səbəbdən milli hərəkatın C mərhələsində meydana gələn siyasi tələb milli hakimiyyətin nəticəsi olan Azərbaycan Cümhuriyyətini meydana gətirmişdir (Rəsulzadə, 2014d: 262- 264, 267).

## 4.8. Cümhuriyyət: milləti olmayan modern dövlət111

Tarix boyu dövlət formu (şəhər dövləti, imperiyalar, modern dövlət və nəhayət milli-dövlətlər) dövrün ehtiyacına görə formalaşmışdır. Bu çərçivədə dövləti başı və sonu olan bir form olaraq ifadə etmək mümkündür. Milli dövlətlər də Qərbdə uzun bir fəlsəfi, siyasi transformasiyanın nəticəsində ortaya çıxmışdır.

Azərbaycan cümhuriyyəti də modern bir dövlətin prinsiplərini rəhbər tutaraq yaranmışdır. Tiflisdə elan edilən İstiqlal Bəyənnaməsinin maddələri bu fikri dəstəkləyir. Lakin cümhuriyyət de-yuri bir dövlətə çevrilə bilmədən tamamlanmamış olaraq tarixə qovuşmuşdur. Əvvəla, müasir Azərbaycan dövlətini yaradan milli hərəkatın müvəffəq olduğunu qeyd edək. Milli hərəkat dövlət ənənəsini kəsintiyə məruz qoyan Çar hakimiyyətindən ayrı müasir bir dövlət qurmuşdur. Ancaq millət quruculuq prosesi dövlətin təsis edilməsindən əvvəl başlasa da, siyasi və hü-

[111] Bu başlıq aşağıdakı iki mənbənin tərcümə və genişləndirilməsi əsasında yazılmışdır:
1. O. Valiyev. (2022). "Sekülerleşme ve Milliyetçilik Teorileri Bağlamında Birinci ve İkinci Azerbaycan Cumhuriyetlerinin Karşılaştırmalı Tahlili", içində Alptekin, M.Y.və Çevik, Z.
2. O. Valiyev & Alptekin, M.Y. "The First Republic of Azerbaijan: A State without a Nation", *Khazar Journal of Humanities and Social Sciences*, Vol. 26, issue 2, 2023, pp. 7-24. https://ejournal.khazar.org/index.php/kjhss/article/view/77

quqi olaraq tamamlanana bilməmişdir. Misal üçün, Türkiyəli sosioloq Şərif Mardin (1927-2017) cümhuriyyətin (Türkiyə) vətəndaşlıq kontekstində yaratdığı türklüyü 1918-1939-cu illərdə türklərin yaşadığı status dəyişikliyi kimi ifadə etmişdir (Mardin, 2013: 109). Bu səbəbdən dövlətin elan edilməsi millət quruculuq prosesinin tamamlanmasından daha çox başlanğıcı kimi şərh edilə bilər. Bu məqsədlə dövlətin yaradıldığını elan edərkən istifadə edilən İstiqlal Bəyənnaməsi[112] dövlət və millət quruculuğunun başlanğıcı və nəzərdə tutulan konstitusiya üçün baza rolunu oynamışdır.

Müasir dövlətlər tərəfindən cümhuriyyətin qəbul edilməsi modernlərin idarəçiliklərinin fərqliliklərini və ya nisbi olaraq daha az azadlıqçı və bərabərlikçi olduğunu ortaya qoymağı hədəfləmişdir. Cümhuriyyətin bu mənada müasir siyasət fəlsəfəsinin əsas məsələlərindən biri kimi aktuallığını və əhəmiyyətini qoruduğunu demək mümkündür. Cümhuriyyət anlayışı və idarə forması etimoloji və tarixi olaraq modernlikdən əvvəlki dövrdə də kökləri olan bir idarə formasıdır. Ancaq modernlərin cümhuriyyət anlayışının əsasında azadlıq anlayışına/ehtiyacına yüklədikləri fərd əsaslı yanaşma dayanır. Yəni modern insanın azadlıq anlayışı fərdi azadlıq və icmadan (*community*) ayrılığın əldə edilməsi olmuşdur (Maynor, 2003: 14). On səkkizinci əsrin sonlarına doğru Avropanın əsas cümhuriyyət idarəçiliyinə sahib dövləti olan Fransa; cümhuriyyət kimi dayanıqlılığını sübut etmək üçün üç inqilab, iki monarxiya, iki imperiya və 1870-ci il məğlubiyyətinin öhdəsindən gəlməli olmuşdur. Cümhuriyyətçilər üçün cümhuriyyət müasir insanın mənəvi (*spiritual*) və institusional qələbəsinin bir icmalı (*epitomize*) kimi ifadə edilə bilər (Pilbim, 1995: 1). Bu səbəbdən cümhuriyyət idarəçilik modelinin müasir siyasət fəlsəfəsinin mərkəzi mövzularından birisi ki-

---

[112] 1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyətə sahib olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqi, müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin idarəetmə forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə qarşılıqlı münasibət qurmaq əzmindədir.

4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq sərhədləri daxilində yaşayan bütün vətəndaşların siyasi və vətəndaşlıq hüququnu təmin edir.

5. Azərbaycan Xalq Cümhuriyyəti sərhədləri içərisində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.

6. Məclis yığılana qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan müvəqqəti hökumət durur (Rəsulzadə, 2014d: 11)

mi "siyasi gövdə"nin formalaşmasına da təsir (ən azından bir hissəsinə) etdiyi deyilə bilər.

Azərbaycan kontekstində cümhuriyyət, yəni öz müqəddəratını təyin etmək prinsipi çərçivəsində və ya "siyasi gövdə"nin formalaşması son mərhələdə mümkün olmuşdur. Milli hərəkatların son mərhələsində artıq "istiqlal"ın əldə edilməsi istiqamətində bir mübarizə meydana gəlməkdədir. Bu kontekstdə milli hərəkatın liderləri müasir siyasət fəlsəfəsinin və ya Con Lokun ifadəsi ilə bəşəriyyəti bəri başdan məşğul edən idarəetmənin kimə aid olacağı (Lok, 2016: 111) sualına cavab olaraq Cümhuriyyət qərarını vermişdilər. Cümhuriyyət idarəetmə forması elitaların/ziyalıların xalqda bir şüur formalaşmadan (İstiqlal Bəyannaməsi Tiflisdə dövləti quran heyət tərəfindən hazırlanılmışdır) qərarları-/-seçimləri/razılaşmaları nəticəsində yaranmışdır. Yəni Azərbaycanda millət quruculuğu başlanğıcından etibarən dövlət mərkəzli (staatsnation) formalaşmışdır.

Cəlil Məmmədquluzadə (1866-1932) "Cümhuriyyət" (1917) adlı məqaləsinin girişini belə başlayır: "Vətəndaşlar! Padşahlıq taxtından yıxılan Nikolayın zalım və xain idarəsi dağılandan sonra Rusiya məmləkətində yaşayan millətləri və o cümlədən də biz müsəlmanları məşğul edən tək bircə məsələdir: həmin məsələ cümhuriyyət məsələsidir" (Məmmədquluzadə, 2014d: 190). Məmmədquluzadə cümhuriyyət idarəetmə sisteminin əhəmiyyətini idarəçiliyin xalqa aid olması ilə əlaqələndirmişdir. (Məmmədquluzadə, 2004d: 192). Bu mənada milli hərəkatın proqramında siyasi tələbin aydınlaşmasıyla hərəkatın liderləri arasında cümhuriyyət rejimi ilə bağlı müzakirələrin yarandığı başa düşülür.

Yuxarıda deyildiyi kimi müvəffəq bir milli mübarizə/hərəkat nəticəsində yaranan Azərbaycan Cümhuriyyəti öz millətini, vətəndaşını yarada bilməmişdir. Beləliklə, "millət nədir?" sualının cavabı "ortaq bir qanun altında yaşayan, eyni qanunvericilik orqanıyla təmsil edilən və s. müştərək insan icması" (Siyes, 2005: 13, 17) kimi ifadə edilə bilər. Misal üçün, Osmanlıda insanın təbəədən vətəndaşa transformasiyası konstitusiyalar və qanunlarla mümkün olmuşdur (Üstel, 2008: 25). Bu kontekstdə cümhuriyyətin milliyyətlərinin xarakteristikasını açıq şəkildə ifadə edən hüquqi əlaqəliliyi (konstitusiya) təmin edə bilmədiyini deyə bilərik. Azərbaycan Xalq Cümhuriyyətinin milli hərəkatın müstəqilliyini əldə edərək dövlət elan etsə də, millət quruculuğu üçün hüquqi zəmini

(konstitusiya) yaratmadığını (İstiqlal Bəyannaməsi dövlətin müstəqilliyini elan etmək üçün yetərli sənəd olsa da, millətin qurulması üçün zəruri hüquqi açıqlığa malik deyildi) demək mümkündür. Bu səbəbdən bəyannamə dövlətin mövcudluğunu, müstəqilliyini beynəlxalq ictimaiyyətə elan etmək üçün zəruri olmuş, konstitusiya isə milliyyətlərin xarakteristikasının (vətəndaşlıq, millət) təyin edildiyi bir mətn kimi adlandırıla bilər.

Çarlıq dövrü Azərbaycanının milli hərəkatı "uğurlu bir hekayə" (Hroch, 2004: 95) kimi dəyərləndirilə bilər. Çünki 28 may 1918-ci ildə elan edilən cümhuriyyət "Azərbaycan xalqı" adından müstəqil, azad bir dövlət qurma təşəbbüsü olmuşdur. Bu kontekstdə cümhuriyyətin elanının hüquqi təməli olan "İstiqlal Bəyannaməsi" konstitusiyanın hüquqi zəmini/əsası olaraq dəyərləndirilə bilər. Bəyannamə qurucularının əksəriyyəti hüquq təhsili almış liderlər tərəfindən Tiflisdə tələm-tələsik hazırlanmış və dünyadakı öyrəşilmiş yanaşmayla ayaqlaşacaq müasir bir mətn (6 maddə) ərsəyə gətirilmişdir.

Bəyannamənin təhlil edilə bilməsi üçün Kantın fəlsəfəsindən istifadə etmək olar. Lakin Bəyannamə bir konstitusiyaya çevrilə bilmədiyi üçün cümhuriyyətin "Cümhuriyyətçi konstitusiya"ya sahib olmadığı görünür. Digər tərəfdən, bəyannamə bir suverenlik elanı kimi də şərh edilə bilər. Çünki bir millətə aid olan suverenlik "tək", "bölünməz" "ötürülə bilməz"dir (Duguit, 2013: 385). Bu mənada bəyannamənin ilk maddəsi "Bu gündən sonra Azərbaycan xalqının hakimiyyətə sahib olduğu kimi Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqi müstəqil bir dövlətdir" (Rəsulzadə, 2014d: 11) maddəsiylə başlayır. "Azərbaycan xalqı" ifadəsi birinci cümhuriyyətin xalq ilə bağlı ilk və tək hüquqi ifadəsi olaraq qalmışdır. Bu ifadə dövlətin elanı üçün razılaşdırılmış bir tərif kimi qəbul edilə bilər. Əgər konstitusiya təsis və təmin prosesi reallaşa bilsəydi, bu dəfə suverenliyin sahibi olan millətin kimliyinin müəyyənləşdirilməsi və razılığa gəlinməsi vacib olacaqdı. Bəyannamədəki birinci maddə elan edilən dövlətin öz suverenliyinin mənbəyini haradan alacağı ilə bağlı yanaşma kimi dəyərləndirilə bilər. Bəyannamədə istifadə olunan "Azərbaycan xalqı" elan edilən dövlətin modern və sekulyar tərəfini göstərmək üçün istifadə edilmişdir.

Ancaq suverenliyi ortaya qoymaqla yanaşı, suverenliklə bağlı əsas suallardan, problemlərdən birisi olan suverenliyin sahibi (millət) (bə-

yannamənin ilk maddəsindəki "Azərbaycan xalqı" vurğusu yaradılacaq konstitusiyaya əsas təşkil edən bir yanaşma kimi dəyərləndirilə bilər. Ancaq millətin özünün tərifinin verilməsi üçün konstitusional tərifin şərt olduğunu demək mümkündür) müəyyən edilə bilməmişdir. Bu mənada suverenliyin "bir millətin bütün qanunlarına əsas" (Kant, 1795, tərc. 2015: 334) olmamasının səbəbini cümhuriyyətin öz konstitusiyasını hazırlaya bilməməsi ilə əlaqələndirmək olar. Bu məntiqlə Azərbaycan Xalq Cümhuriyyətinin suverenliyin mənbəyi olacaq millət qura bilmədiyini deyə bilərik. Bəyannamədə hakimiyyətin "Azərbaycan xalqına" aid olduğu irəli sürülmüşdür. Ancaq bəyannamə konstitusiyaya çevrilmədiyi üçün millətin aydın tərifi verilməmişdir. Misal üçün, bu gün bir türk tarixçisi cümhuriyyət barədə bir tədqiqat apararkən millətin adının konstitusional olaraq "konkretlik" qazanmasına görə "türk milləti" ifadəsindən istifadə edəcəyi şübhəsizdir.

Mirzə Bala Məmmədzadə İstiqlal Bəyannaməsinin təhlilini apararkən əsərində millətin tərifi üçün müəyyən bir ifadə istifadə etməkdən daha çox "azəri", "türklər", "Azərbaycan türkləri" kimi fərqli ifadələr istifadə etmişdir (Məmmədzadə, 2002). Cümhuriyyətin ilk və tək hüquqi mətni olan bəyannamə dövlətin müstəqilliyini və ya yaradılmasını elan üçün vacib olan İstiqlal Bəyannaməsi Məmmədzadənin şərh etdiyi formada millətin andı kimi qalmışdır (Məmmədzadə, 2002: 32). Bəyannamə cümhuriyyətin konstitusional çərçivədə genişlədilərək təmin və təsis ediləcək (misal üçün, suverenliyin Azərbaycan xalqına aid olması kimi) müstəqilliyi və xüsusiyyətləri daxil olmaqla müstəqiliyini elan etmək üçün üzərində razılaşdırılmış bir hüquqi mətn kimi ifadə edilə bilər.

Cümhuriyyət millətə "öhdəlik" dəyəri ilə fərdləri yükləyə bilməmişdir. Bu səbəbdən cümhuriyyəti mövcud edən ilkin və əsas mətn olan bəyannamə izdihamdan bir millət formalaşdırmaq üçün ortaya çıxan toplumun iradəsinin istifadəsidir (Kant, 1795, tərc. 2015: 336). Digər tərəfdən, İstiqlal Bəyannaməsi Cümhuriyyətin "hüquq idealının mənbəyindən" (Kant, 1795, tərc. 2015: 335) gəldiyini, yəni müasir dövlət kimi varlığının hüquqa bağlı olduğunu və ya olacağını da göstərmişdir. Ancaq bəyannamə bir ictimai müqavilə çərçivəsində (xalq səsverməsi və s.) formalaşmamışdır. Bu çərçivədə bəyannamənin millətləşmə prosesindəki yerini təyin baxımından Məhəmməd Əmin Rəsulzadə "Türk Yurdu" jurnalının "Türk illiyi" (1928) xüsusi nömrəsində qələmə aldığı "Qafqaz türkləri" adlı məqaləsində İstiqlal Bəyannaməsinin yaranma prosesini

belə izah etmişdir: "*28 may 1918-ci ildə Milli Şura tərəfindən yayımlanan İstiqlal Bəyannaməsi milli hərəkatın ədəbi canlanmayla başlayan, 1905-ci il İnqilabıyla kütlələrə yayılan, Dünya Müharibəsi dövründə diqqət çəkən bir fikir halına gələn Azərbaycan türklüyünün azadlıq və istiqlalını elan edirdi. Bu bəyannamə sərhədləri müəyyən Azərbaycan milli dövlətinin təşəkkülündə azadlıq, bərabərlik və milliyyət kimi prinsipləri, məqsədləri ehtiva etməkdədir. Bəyannaməyə görə, Azərbaycan demokratik bir cümhuriyyətdir. Suverenliyin mənbəyi millətə* (ancaq millətin adı müəyyən edilmədiyi kimi, yekcinslik (milli kimlik) də konstitusional olaraq təmin edilə bilməmişdir – müəllifin qeydi) *aiddir; bütün vətəndaşlar qanunlar qarşısında bərabərdirlər (Rəsulzadə, 1993: 54, 55).*

Bəyannamə yayımlamağın keçmişi Maqna Kartaya (1215) qədər uzadılsa da, legitimliyin mənbəyi olaraq bir milləti mərkəzə almaq baxımından modern bir hadisə kimi qarşımıza çıxmışdır. Bu mənada İngilis İnsan Hüquqları Bəyannaməsi (1689) və Fransızların İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi[113] (1789) sənədləri əvvəllər mövcud olan bir idarəetmənin transformasiyası nəticəsində əldə etdiyi/edəcəyi hüquqları müəyyən edir. Çünki fransız inqilabçıları bəyannamədə suverenlik anlayışını "millət"lə bağlı istifadə edir və 1793-cü il Konstitusiyasında da yenə oxşar diskursu mənimsəyərək bölünməz hakimiyyətin mənbəyi xalqa aid edir (Alatlı, 2010c: 939; Kalhaun, 2009: 108). Çünki Fransız İnqilabı, əsasən, "*qədim rejim*"ə qarşı bir mübarizə olmuş və iqtidarın – müqəddəsin/suverenliyin kilsədən krallara və fransız millətinə dəyişməsi nəticəsində müasir Fransız dövləti yaranmışdır. Digər tərəfdən, ABŞ İstiqlal Bəyannaməsi (1776) də bir müstəqillik sənədi xüsusiyyəti daşıyır.

Azərbaycanın milli hərəkatı təkrara düşmək bahasına dövləti yaratmaqda müvəffəq olsa da, "milli bütövləşməni" tamamlamadığını deyə bilərik. Kalhauna (2009: 111-112) görə "bütövləşmiş bir milli dövlət yaratmaq, misal üçün Provans, Lanqedok və Burqon kəndlilərini fransızlaşdırmaq demək idi". Hyu Seton-Vatson "Millətlər və dövlətlər"

---

113 "1789-cu ilin yayında Qurucu Məclis tərəfindən qəbul edilən İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi bir tərəfdən fərdin qələbəsinə işarə edir. Daha əvvəllər, ABŞ-ın bir çox ştatında oxşar mətnlər elan edilsə də, böyük bir millətin konstitusiyasına əsas kimi daxil olan, gücünü itirmiş bir hökmdara xalq hərəkatı tərəfindən tətbiq edilən və həm Avropaya, həm də dünyaya nümunə olaraq təqdim edilən ilk mətn 1789-cu il Bəyannaməsidir" (Dumont, 2013: 166).

(*"Nations and States")* (1977) adlı əsərində dövlət və millət anlayışlarının fərqliliklərini təhlil etmişdir. Ona görə, dövlətin mövcudluğu mütləq millətin formalaşdığı mənasına gəlmir. Çünki dövlətlər millətsiz də mövcud ola bilirlər. Dövlətlər siyasi bir reallıq kimi vətəndaşlarından özünə sədaqət tələb edə bilərlər. Digər tərəfdən, millət formalaşdıran "həmrəylik", "milli mədəniyyət" və "milli şüur"dur. (Seton-Watson, 1977: 1). Bir tərəfdən də, Ernest Gelner "Millətlər və millətçilik" (*"Nations and Nationalism")* (1983) adlı əsərində dövlətlərin millətlər olmadan meydana gəldiyini irəli sürmüşdür. (Gellner, 1983: 6).

İstiqlal bəyannaməsinin bu mənada millətdən daha çox Azərbaycan ölkəsində məskən tutan xalqı suverenliyi altına daxil etmə təşəbbüsü oluğunu demək mümkündür. Misal üçün, parlamentin açılışı (7 dekabr 1918-cu il) ərəfəsində qurulan yeni koalisiya hökumətində ölkədəki "üç əsas millətin (türk/ müsəlman, erməni, rus) təmsilçisinə yer verilmişdi" (Nəsibli, 2019: 334). Ancaq millətin qurulması bütün etnik, dini və s. qrupların milli vətəndaşlığın lehinə assimilyasiya (fransız modeli) edilməsini zəruri edirdi. Bu səbəbdən milli kimliyin tamamlana bilmədiyi görünür.

Cümhuriyyətin elan edilməsinin əsas məqsədi legitimliyi və hüquqi əsası bir millətə əsaslanan milli dövlət qurmaq olmasına baxmayaraq, tamamlanmamışdır. Misal üçün, İstiqlal Bəyannaməsinin 4-cü maddəsində yeni qurulan Cümhuriyyət fərq (milliyyət, din, sinif və s.) qoymadan hər kəsə (vətəndaşlara) bərabərlik vəd etmişdir. Millət quruculuq prosesinin bu versiyası millətçilik ədəbiyyatında fransız modeli kimi bilinir. Ancaq Fransız modeli[114] milləti qura bilmək üçün bütün fərqliliklərin (etnik, dini, mədəni) millət lehinə assimilyasiyasını (Türkiyə Cümhuriyyətinin qurulmasında olduğu kimi)[115] tələb edir. Ancaq Cümhuriyyətin bu yekcinsliyi (milləti) təmin edə bilmədiyini demək mümkündür.

Milli dövlətlər keçmişin və indinin milliləşdirildiyi "yekcinslik" prinsipinə əsaslanır. Bu mənada Cümhuriyyət dövründə hakimiyyət müasir milli dövlətin tələbinə uyğun olaraq mərkəzi bir hakimiyyət ya-

---

[114] Fransız modeli haqqında baxın: Günsoy Kaya, F. (2012). Ulus, Devlet ve Yurttaşlık: Fransa Modeli. U. Ü. Fen Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, 13(23), 297-317

[115] Türkiyə Cümhuriyyətində millət quruculuq prosesi haqqında baxın: ilişkin bkz., Aktürk , Ş. (2013). Türkiye'nin Kimlikleri. İstanbul: Etkileşim.

rada bilməmiş və öz millətini qura bilməmişdir. Ozan Erözden "Milli dövlət" (1997) adlı əsərində "yekcinsləşdirmə"dən belə bəhs etmişdir: *"Yekcinsləşdirmə səyi kimi millətləşdirmə üç əsas vasitə tətbiq edilərək real-laşdırılır. Millətləşdirmədə istifadə olunan bu vasitələr məktəb (təhsil), ordu (məcburi hərbi xidmət) və seçki qutusudur (siyasi iştirak)"* (Erözden, 1997: 123). Cümhuriyyət bunun üçün öz müəllim heyətini yaratmaq, milli ordusunu formalaşdırmaq üçün imkan tapmamışdır. Misal üçün, Bakı Dövlət Universiteti Azərbaycan dilində və ya türkcəsində təhsil verəcək kadrları yetişdirə bilmədən Cümhuriyyət Sovetlər tərəfindən işğal edilmişdir. Çarlıq dövründə müsəlmanlar orduya qəbul edilmədiyindən və ya seyrək qəbul edildiyindən hərbi bacarıqları itdiyi üçün orduya görə ruslardan, gürcülərdən və Rusiyanın müsəlman/tatar birliklərindən dəstək alınmışdır. (Nəsibli, 2019: 343-345).[116] Bu səbəbdən millət quruculuq prosesindəki əsas əskiklərin başında milləti hüquqi olaraq formalaşdıracaq konstitusiyanın qəbul edilə bilməməsi olmuşdur. Çünki müasir milli dövlətlər müasirliyin insan/fərd üçün vəd etdiyi azadlıq və bərabərliyin təmin edilməsini insanı vətəndaş insana çevirərək edə bilir.

Əlifba mövzusundakı qeyri-müəyyənlik də qalmaqda idi. Çünki latın əflibasının[117] qəbul edilməsi istiqamətində işlər getsə də, baş verən siyasi proseslər bu qətnamənin qanuniləşməsinə imkan verməmişdir.[118] Yəni milli hərəkatın müvəffəqiyyətə çatmasında effektiv olan "xarici" (Birinci Dünya müharibəsi və Oktyabr inqilabı) səbəblər cümhuriyyətin özünü bir milli dövlət olaraq qurmasına imkan verməmişdir.

Cümhuriyyətin öz millətini yarada bilməsi üçün dil, vətəndaşlıq və s. anlayışlarının izahının verilməsi, konstitusiya çərçivəsində təriflərinin verilməsi lazım idi. Misal üçün, Türkiyə Cümhuriyyəti quruluşunun hələ ilk mərhələsində qəbul etdiyi 1924-cü il Konstitusiyasında[119] türk millətinin qurulmasını yekunlaşdıra bilməmişdir. Digər tərəfdən, Atatürk inqilablarıyla türk milləti və ya türk milli kimliyi (Vətəndaşlıq qanunu – 1928-ci il; Hərf inqilabı – 1928-ci il; Türk universitetləri inqila-

[116] Ətraflı məlumat üçün baxın: Nesib Nesibli, (2019). Azerbaycan Tarihi. Ankara: Altınordu Yayınları. s. 275-359

[117] Bürokratlara rəsmi dil öyrənmə şərti gətirilmiş və "rəsmi dili öyrənmələri üçün iki ilk vaxt verilmişdi". U.S. Archives, RG 256'de, ( Swietochowski, 1988: 198).

[118] Ətraflı məlumat üçün baxın: Azerbaycan Gazetesi, 18 Mayıs 1919; 11 Eylül 1919.

[119] 1924-cü il Konstitusiyasının 2-ci maddəsi İslamı Türkiyə Dövlətinin rəsmi dini olaraq göstərmişdir. Ətraflı məlumat üçün baxın: https://www.anayasa.gov.tr/tr/mevzuat/onceki-anayasalar/1924-anayasasi/

bı – 1933-cü il) konstitusional səviyyədə qurulmuşdur. Bu səbəbdən türk kimliyinin uzun bir transformasiya nəticəsində hüquqi olaraq adlandırılıb konkretlik qazandığı deyilə bilər. Digər tərəfdən, gənc Azərbaycan Cümhuriyyəti öz milli kimliyini tamamlamaq üçün vaxt və imkan tapmamışdır.

Müstəqil Azərbaycan Cümhuriyyətinin öz millətini qura bilmədən siyasi ömrünü yekunlaşdırdığını demək prosesin düzgün anlaşılması üçün vacibdir. Müasir kimliklərin ictimai məkanda vətəndaş kimliyi sayəsində mövcud olmağın hüquqi arxa planını (konstitusiya) formalaşdırmadığı görünür.[120] Bu mənada millət quruculuğunu tamamlaya bilməyən Azərbaycan Cümhuriyyətinin rəsmi millətçiliyi – türkçülük, yoxsa azərbaycançılıq idi? Bu fərq Rəsulzadənin 1914-1918-ci il tarixlərində yazdığı mətnlərdə formalaşmaqla yanaşı, dövlətin rəsmi millətçiliyi kimi rəsmiləşdirilmədiyi deyilə bilər.[121] Bu səbəbdən Azərbaycan Cümhuriyyəti milli dövlətin və milli kimliklərin əsas simvolları: tarixi, xalqı, dili, mədəniyyəti və s. milliləşdirmədən, tamamlanmamış bir müasir dövlət olaraq ömrünü yekunlaşdırmışdır.

Ancaq cümhuriyyət elitalarının millət (yekcinslik) qurma təşəbbüsündə olmadıqları da deyilə bilməz. Çünki Nazirlər Kabinetinin 27 iyun 1918-ci il tarixli qərarına əsasən, türk dili dövlət dili elan edilmiş; 24 avqust 1918-ci ildə təhsil dili türkcə olaraq müəyyən edilmiş; dil, tarix, coğrafiya və ədəbiyyat dərslərinin proqramları millət quruculuq prinsipləri çərçivəsində dəyişdirilmiş; 1919-cu ildə parlamentin qərarıyla universitetin qurulması (Bakı Dövlət Universiteti) (Süleymanlı, 2006: 133, 134) və s. kimi təşəbbüslər olmuşdur. Lakin cümhuriyyət təxminən yüzillik rus "müstəmləkəsindən"[122] sonra elan edilmiş və dövlətin öz millətini qurmaq üçün iki il kifayət etməmiş, dil, tarix və s. məsələləri ilə bağlı son hüquqi müqavilə (konstitusiya) təsis və təmin edilə bilməmişdir. Digər tərəfdən cümhuriyyət Paris Sülh Konfransında qaliblər tərəfindən tanınmamışdır. Yəni dil haqqında qəbul edilən qərarlar par-

---

[120] Müasir kimliklər, vətəndaş, ictimai yer ifadələrinin izahı üçün baxın: Süleyman Seyfi Öğün, (2000). Türk Politik Kültürü. İstanbul: Alfa. s. 91-109

[121] Rəsmi millətçilik örnəyi üçün baxın: Ayşe Kadıoğlu, Milletini Arayan Devlet: Türk Milliyetçiliğinin Açmazları. Türkiye Günlüğü, Sayı 75, 2003, s. 137-152.

[122] Çar Rusiyasının Azərbaycandakı müstəmləkə dövrü üçün baxın: Mehemmed Emin Resulzade, (1993). Kafkasya Türkleri. Haz. Yavuz Akpınar vd. İstanbul: Türk Dünyası Araştır-malar Vakfı. S. 19-47.

lamentdə belə qəbul edilməmişdir. Beləliklə parlamentdə müzakirələrin tək bir milli dillə aparılması mümkün olmamışdır.[123] Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan ərazisində Azərbaycan dövlətini qurmuş, ancaq azərbaycanlıları və ya milləti yarada bilmədən ömrünü sonlandırmışdır.

[123] Parlamentdə hər millət öz dilində danışmışdır. Ətraflı məlumat üçün baxın: Nesib Nesibli, (2019). Azerbaycan Tarihi. Ankara: Altınordu Yayınları. s. 275-359.

# BEŞİNCİ FƏSİL

## Azərbaycan millətşünaslığının əsas anlayışları

## Türkçülük

On səkkizinci əsrin sonu və on doqquzuncu əsr qlobal olaraq modern siyasi düzənin qurulma mərhələsi kimi qəbul edilir. Modern siyasi düzənin qurulmasında millətlər və millətçilik həlledici rol oynamışdır. Belə ki, modern siyasi iqtidar sekulyar prinsiplərə söykəndiyi kimi millətlərdən legitimləşdirici güc kimi istifadə etməyə başlamışdır. Yəni modern siyasi nizam milli prinsiplər çərçivəsində inşa edilmişdir.

Türkçülük də ümum türklərin ilk modern milli təşəbbüslərini açıqlamaq üçün əsas anlayış olaraq ortaya çıxmışdır. Milli fikrin formalaşması üçün siyasi və iqtisadi sistemdə modernizasiyanın gerçəkləşməsi zəruri olmuşdur. Bu mənada Osmanlı sultanı 3-cü Səlim türk və müsəlman dünyasında ilk modernizasiya təşəbbüsünə başlamasına baxmayaraq Osmanlının çoxmillətli, köhnəlmiş və böhran içərisində olan sistemi Sultan 3-cü Səlimin planlarına mane olmuşdur. Bununla bərabər türkçülük fikri ilkin olaraq Çar Rusiyasının müstəmləkəsi altında olan türk intellektualların mətnlərində ortaya çıxmışdır. Ancaq müstəmləkə dövrü, yəni dövlətsizlik mərhələsi olduğundan bu fikirlər institusional olmaqdan çox uzaq idi. Bununla bərabər türkçülük xüsusilə Azərbaycan və Türkiyədə modern milli siyasi fikrin formalaşmasında həlledici rol oynamışdır. Daha doğrusu türklər türkçülük vasitəsilə modern siyasi sistem içində özlərinə yer axtarmışdırlar. Məlum Balkanlardan Qafqaza qədər müsəlman türklərin qurduğu düzən Karlovça (1699), Kiçik Qaynarca (1774), Kürəkçay (1805) və Türkmənçay (1828) müqavilələri ilə dağıdılmış və müsəlman türklərin on illərlə davam edən deportasiya prosesi başlamışdır.

Azərbaycanda türkçülük məsələsi on doqquzuncu əsrin sonlarında başlamışdır. Lakin cümhuriyyətin işğalından sonra Sovet dövründə fərqli bir siyasət formalaşdığından bayrağın rəngində öz əksini tapan türklük nəzərdən qaçırılmışdır. Bununla bərabər Soyuq müharibənin

sonu və Qarbaçovun yenilikçi siyasəti SSRİ tərkibindəki xalqlar üçün öz müqəddaratını təyin imkanını təkrar yaratmışdır.

Türkçülük Azərbaycan və Türkiyədə (1918/1991) və (1923) milli kimlik üçün çıxış/baza olmuşdur. Belə demək mümkündürsə Türkçülük Azərbaycanda Azərbaycan millətçiliyinə, Anadoluda isə türk millətçiliyinə qaynaqlıq etmişdir. Ziya Göyalp, Yusuf Axçura və.s kimi mütəfəkkirlər türkçülüyün Osmanlı dövlətinin xilası üçün tək çarə olduğunu əsaslandırmışlar. Hətta başlanğıcdan türkçülüyün prioritet olmamağını tənqid etmişlər.[124] Azərbaycan intellektuallarının zehnində türkçülüyün ilkin rüşeymi Çarlıq Rusiyada ortaya çıxan Pan-Slavizm olmuşdur. Ancaq Rusiya türkləri arasında türkçülüyün alternativ bir kimlik olaraq doğulmasında İstanbulun rolu danılmazdır.

Sosial/siyasi quruluşun və ya hakimiyyətin mənbəyinin dəyişdiyi 18-ci əsrdə xanlıqlara parçalanmış; 19-cu əsrdə isə müstəmləkə altında olmuş cəmiyyətlərdə millətçiliyi doğuracaq sosial/siyasi quruluşun davamlılığı kəsilmişdir. Bu səbəblə millətçilik yerinə dövlət və millət yaratmaq üçün mübarizə aparan milli hərəkat ortaya çıxmışdır. Milli hərəkatın hər mərhələsində də fərqli hədəflər olmuşdur.

Unutmamaq lazımdır ki, Türkçülük siyasi yetkinliyə Anadoluda çatmışdır. Bu səbəblə Türkçülüyün Anadolu xaricindəki Türk dilli cəmiyyətlərdə eyni formada təzahürünü gözləməmək lazımdır. Türkçülük Anadoluda türkün üstünlüyünün qəbul edildiyi bir sosial/siyasi quruluşu ehtiva edir. Buna müqabil Azərbaycanda türkçülük Azərbaycanda millətçiliyin, kimlik probleminin ortaya çıxmasında hərəkətverici ideologiya olmaqla bərabər siyasi icmaya bağlılığı təmin edən ideologiyaya çevrilə bilmədi.

Ziya Göyalp *Türkçülüğün Əsasları* kitabında *türkçülük nədir?* Sualına "türkçülük türk millətini ucaltmaq deməkdir" cavabı ilə başlayır. Ancaq türkçülüyün ilk əsas mətni Azərbaycanlı Əli Bəy Hüseynzadə tərəfindən yazılmışdır. Hüseynzadənin məqaləsi *Türklər kimdir kimlərdən ibarətdir?* (1905) məqaləsi Yusif Ağçuranın "Üç Tərzi Siyasət" (1904) məqaləsi ilə türkçülüyün ilk yazılı mətnləri hesab edilirlər. Bu mətnlər türkçülüyün siyasi yönünün ortaya çıxmasında da həlledici olmuşdur.

---

[124] Ziya Gökalp. *Türkleşmek, İslamlaşmak, Muasırlaşmak*. Haz. M. Özsarı. Ötüken Yayınları. 2016a; Ziya Gökalp. *Türkçülüğün Esasları*. Haz. S. Çonoğlu. Ötüken Yayınları. 2016b; Yusuf Akçura. *Üç Tarz-ı Siyaset*. Ötüken Yayınları. 2015. s. 75-100.

# Azərbaycançılıq

Millətlər, milli kimliklər müəyyən özünəməxsusluq prinsipinə söykənir. Bu mənada Azərbaycanda inşa ediləcək milli kimlik, millət anlayışı geniş mənada türk dünyasının parçası olmaqla bərabər özünəməxsusluğu da ehtiva etməli idi. Azərbaycançılıq milli kimliyin özünəməxsusluğunu təmin edir və Azərbaycan dövlətçiliyinin baza ideologiyası rolunu oynayır. Türkçülük on doqquzuncu əsrin sonlarından etibarən Rusiya və Osmanlı türk intellektuallarının kimlik axtarışının açar ideologiyası olaraq ortaya çıxmışdır. Bununla belə türkçülük Türk dövlətinin baza ideologiyası olmuş və Atatürk tərəfindən Türk millətçiliyi adı altında məhdudlaşdırılmışdır. Azərbaycançılıq isə Azərbaycan dövlət inşasının baza ideologiyası olaraq ancaq 1995-ci il konstitusiyası ilə bərabər istifadə edilməyə başlanmışdır. Ancaq torpaqların işğal altında olması Azərbaycanda millət inşasını tamamlanmamış saxlamışdır.

Milli-dövlət, kapitalizm və demokratiya triosu öz-özünü idarə edəcək suveren bir xalq anlayışı yaratdı. Bu xüsusiyyət modern dövlətin fərqliliyini, yeniliyini əks etdirirdi. Bu düşüncə kökündə kilisədən *azadlıq* əldə edən insanın varlığın əsas subyektinə çevirlməsi ilə mümkün olmuşdu. Kant bu insanı *sapare aude* olaraq konsepsiyalaşdıraraq fəlsəfi qavrayışını təqdim etdi. İnsanın hüquq qarşısında azad və bərabər olması isə 18-ci və 19-cu əsrlərdə mümkün olmuşdur. Gəlin modern dövlətin bu "üstün" xüsusiyyətinin Azərbaycan dövlətçiliyi konteksində sorağına çıxaq. Ümumiyyətlə Azərbaycan dövləti necə yarandı?, bu dövlətçilik öz-özünü idarə etmək iqtidar, iradə və qabiliyyətində olan bir millətin legitimləşdirici gücü ilə mümkün ola bildimi?

Azərbaycanda bütün fəaliyyətlər (siyasi, iqtisadi, mədəni və.s) Azərbaycançılıqd çərçivəsində cərəyan etmişdir. Azərbaycanın çağdaş dünyada müsbət imicinin formalaşmasında mühüm bir hissəni təşkil edən multikulturalizm siyasətinin məqsədi Azərbaycançılıq çərçivəsində aşağıdakı kimi müəyyən edilib:

2.1. Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtə- lifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və möv-

cud multikultural modelləri tədqiq və təşviq etmək Mərkəzin əsas məqsədidir.[125]

Multikulturalizm mərkəzinin məqsəd və vəzifəsinin birbaşa Azərbaycançılığa (dövlətə) xidmət olduğu aydın olur. Azərbaycançılıq dolaylı olaraq dövlətin cəmiyyət üzərindəki hakimiyyəti deməkdir. Daha doğrusu Azərbaycançılıq dövlətin cəmiyyətin üzərində olduğuna dair bir işarədir. Azərbaycançılıq Azərbaycanın sadəcə dövlətdən ibarət olduğu deməkdir. Bu məsələ cəmiyyətdə müxtəlif yanaşmalara səbəb olmuşdur. Lakin nə üçün? sualına dair bir cavablandırma təşəbbüsünə təsadüf edilməmişdir. Azərbaycançılığın (dövlətçilik) gündəlik həyatın, siyasətin və.s əsas məsələsi olması tarixin və coğrafiyanın mirasıdır.

Son təhlildə Azərbaycançılıq ideologiyası xüsusilə birinci Qarabağ müharibəsindən sonra yaranan xaotik vəziyyətdən çıxış yolu olaraq milli-dövlət və vətəndaşlığı dövlətə üzıvlük/bağlılıq konteksində cərəyan etmişdir. Buna görə dövlət cəmiyyətdə birlik, kimlik inşa prosesində aparıcı rol oynayır. Yəni dövlət mərkəzi (staatsnation) bir milli kimlik inşa prosesi Azərbaycançılıq çərçivəsində icra edilmişdir.

## Azərbaycan millətçiliyi[126]

Millətçilik modern dünyanın siyasi inşasında və formalaş-dırılmasında aparıcı rol oynamışdır. 1789 Fransız inqilabı, Balkan müharibəsi, Birinci və İkinci Dünya Müharibələri, Soyuq Müharibənin başa çatması kimi dünya siyasi xəritəsində dəyişikliklərə səbəb olacaq tarixi dövrlərdə millətçiliyin siyasətə təsiri daha kəskin formada özünü göstərmişdir. Hətta 2008 iqtisadi böhranından sonrakı siyasi proseslər izləndikdə dövlətlərin milli siyasətə daha çox müraciət etdiyini görmək mümkündür. Millətçiliyin əsas siyasi funksiyası qurmaq və qorumaqdır.

[125] Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi, http://multikulturalizm.gov.az/az/post/755/baki-beynelxalq-multikulturalizm-merkezinin-nizamnamesi.html

[126] Bu başlıq milliyet.info saytı üçün yazılmış "Nə üçün Azərbaycan millətçiliyi?" mövzusunda essenin dəyişdirilməsi və genişləndirilməsi əsasında hazırlanmışdır. https://milliyyet.info/mill%C9%99tcilik/n%C9%99-ucun-az%C9%99rbaycan-mill%C9%99tciliyi/

Müqayisə üçün bu günün dünyasında milli-dövlətlərin qarşısında qlobal bir problemə/təhdidə çevrilən köç dövlətləri millətçi siyasətə sövq etməkdədir. Bir digər tərəfdən millətçilik mərkəzi hökumətlər üçün konturları doğru müəyyən edilmədikdə təhlükəyə də çevrilə bilər. Müqayisə üçün Ermənistan millətçiliyini revanşist, irredentist prinsiplər çərçivəsində istifadə etdiyindən tarixi bir məğlubiyyət və qeyri-müəyyənliklə üzləşmişdir. Halbuki Azərbaycan milli siyasətini beynəlxalq hüquqa bağlı qalaraq formalaşdırmış və milli suverenliyin əsas simvolu olan Azərbaycan bayrağını Xankəndi şəhərində dalğalandırmışdır.

Belə ki, radikal sağ partiyalar son illərdə xüsusən Avropa ölkələrində siyasətə dominantlıq etməyə başlayıblar. Belə olan halda mərkəzi hökumətlərin millətçi və ya milli siyasəti uzun perspektivdə radikal sağın təsirində qala və təhlükəyə çevrilə bilər. Bununla bərabər milli siyasət müstəqilliyin, istiqaqlın qorunması üçün olduqca zəruridir. Milli siyasət də ancaq müstəqilliklərini zəfərlə tamamlamış dövlətlər, hökumətlər üçün mümkün olur. Xülasə tam müstəqil ola bilməyən bir dövlətin milli bir siyasət müəyyən etməsi müşküldür.

Azərbaycanın modern siyasi hekəyəsi xanlıqların parçalanması ilə başlamışdır. Bu prosesi daha açıq ifadə etmək üçün Kürəkçay (1805), Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrini qeyd etmək lazımdır. Müstəmləkə orta əsrdə mövcud olmuş dövlətçilik ənənələrində fasilə yaratmaqla yanaşı modern dövlət inşasına da maneə olmuşdur. Zəfər Azərbaycançılığın (dövlətin) müəyyən etdiyi prinsiplər çərçivəsində milli siyasəti, yəni Azərbaycan millətçiliyini zəruri etmişdir. Azərbaycan milli-dövlətinin müstəqil kimliyini mühafizə və davam etdirməyi üçün həm millətçilikdən qopmamaq həm də daxildə etnik və dini zəmində münaqişələrə səbəb verməmək üçün Azərbaycan millətçiliyi prioritet olmalıdır.

Azərbaycan Məhəmməd Əmin Rəsulzadə, Heydər Əliyev və İlham Əliyev kimi dövlət adamları tərəfindən ifadə edildiyi kimi bir türk dövlətidir. Lakin milli kimliyin siyasi və hüquqi müstəvidə müəyyən edilməsi daxili şərtləri və Azərbaycanın subyektiv konteksini nəzərə almağı tələb edir. Belə olan halda milli kimlik konstitusiyada ifadə edildi üzrə coğrafi əsasda olacaqdır. Belə olduğu təqdirdə millətçilik də "Azərbaycan millətçiliyi" kimi təzahür edəcəkdir. Yəni Azərbaycan türk ailəsinə (türk dünyası) mənsub olmaqla yanaşı suveren bir dövlət olaraq

özünəməxsusluğunu qorumaq üçün özünə aid bir milli kimlik (Azərbaycanlı) və milli siyasət (Azərbaycançılıq+Azərbaycan millətçiliyi) strategiyasını mənimsəmişdir.

Məsələni Azərbaycan kontekstində qavramaq və şərh etmək üçün modern Qərb fəlsəfəsində baş vermiş, millətləri və millətçiliyi şərtləndirən transformasiyaya qısa nəzər yetirmək lazımdır. Kantdan və digər filosoflardan bildiyimiz kimi modern fəlsəfi qavrayış ağıl sahibi olan fərd əsasında inşa edilmişdir. Bu qavrayışın əsasında azadlıq anlayışı olduğu filosoflar tərəfindən əsaslandırılmışdır.[127] Bu mənada insanın modern ontologiyanın əsas subyekti kimi xəyal edildiyini ifadə etmək mümkündür. İnsanın bu çərçivədə həm fəlsəfi qavrayışın, həm də modern siyasi sistemin mərkəzi subyetki kimi ortaya çıxması ənənəvi/iyerarxik cəmiyyətin transformasiyası nəticəsində mümkün olmuşdur. Belə olduğu təqdirdə "mən kiməm?" sualının modern insana xas olduğunu əsas-landırmaq mümkündür.[128] Nəticə etibarilə modern kimlik bəzi tədqiqatçılara görə azadlıq və bərabərlik haqqı hüquq çərçivəsində təmin edilən insan/fərd əsasında formalaşdırılmışdır.[129] Çünki modern siyasi sistemin çarxının dönməsi üçün insan/millət legitimlik mənbəyi kimi xəyal edilmişdir. Yəni modern siyasi sistem bərabərliyin Afina və Orta əsrdən fərqli olaraq "etibar" anlayışı çərçivəsində vətəndaş olan hər kəsə hüququn rəhbərliyində şamil edilməsiylə varlığını təmin etmişdir. Renessansda Dante, Luter və digərlərinin "səssizcə" Latın dilinə baxmayaraq lokal dillərə müraciəti, Dekartın insanı şübhə edən (əslində bilən) subyekt kimi qavraması, Fransız inqilabı və digər inqilabların isə insanın (millətlər) legitimlik qaynağı olan modern siyasi sistemi yaratması millətçiliyi zəruri bir ideologiya olaraq ortaya çıxarmışdır. İstər Con Lokkda olduğu kimi fərdin seçimi əsasında olsun, istərsə də Russoda olduğu kimi "ümumi iradə" fərdin azadlığını təmin etsin, millətçilik ümumi bir qavrayışı ehtiva etməkdədir. Belə olduğu təqdirdə insanın bilmə prosesini ehtiva edən iki disiplindən biri olan tarix ortaya çıxır. Çünki millətçiliyin əsasında tarix dayanır. Bununla belə, millətçiliyin ehtiyac duydu-

---

[127] Ətraflı baxın: Immanuel Kant, "Aydınlanma Nədir?". Tərc. Zülfiyyə Əbdürrəhimova. https://bakuresearchinstitute.org/en/immanuel-kant-aydinlanma-n%C9%99dir/

[128] Ətraflı baxın: Charles Taylor, "Tanınma Politikası". Içində. *Çokkültürcülük*. haz. Amy Gutmann. tər. Y. Salman. YKY, 2014, s. 46-94.

[129] Modern kimliyə dair ətraflı baxın: Charles Taylor, *Modern Benliğin Kaynaları*, Tərc. G. Küre Yayınları, 2012; Liah Greenfeld, *Milliyetçilik*, tərc. A. Yılmaz, Alfa Yayınları, 2021, s. 7-21.

ğu tarixi qavrayışı bilik mənbəyi kimi qəbul etməyən Dekartı[130] millətçiliklə əlaqələndirmək mümkün deyil. Modernizmin "başlanğıc"[131] filosofu Dekartın "şübhəsi"[132] (bilik) ancaq millətlərin tarixinin yazıldığı on doqquzuncu əsrdə tarixin qənaəti (opinion) ilə əvəz edilmişdir.[133] Xülasə, millətçilik Qərb siyasi və fəlsəfi düşüncəsindəki uzun transformasiyanın nəticəsi olaraq mümkün olmuş və modern milli-dövlətləri ayaqda saxlayan bir ideologiya kimi əhəmiyyətini qorumuşdur. Siyasi, iqtisadi və s. aspektlərdən yeni bir dünyanın konturlarının hazırlandığı hazırkı dövrdə millətçiliyin bu qədər rəvacda olmağı da anlaşılandır. Axı millətçilik qurulma prosesində daha çox ehtiyac duyulan bir ideologiyadır.

Tarixçilərin qənaətinə əsasən Azərbaycanın coğrafi olaraq qədimliyini əsaslandırmaq mümkün olsa da, coğrafiyanın siyasiləşməsini (Azərbaycan dövləti) ancaq ondoqquzuncu əsrdə "kolonialist modernizasiya"[134] çərçivəsində başlayan və cümhuriyyətlə yekunlaşan milli hərəkatda axtarmaq daha doğru olacaqdır.[135] Ancaq, həm milllətquruculuğunun müstəmləkə altında başlamasından, həm də ilk modern dövlət olan cümhuriyyətin tamamlanmadan tarixə qovuşması Azərbaycanda millətçliyin, milli kimliyin sifətinin siyasət, hüquq və akademik səviyyədə müəyyən edilməsini gecikdirmişdir.

Millətçiliyin bu mənada subyekti olduğumuz çağda millətlərin ictimai müqavilə əsasında siyasi varlıqlarını inşa və davam etdirməkləri üçün əldəki əsas instrument/ideologiya olaraq qalmağa davam etdiyi aydın olur. Belə olduğu təqdirdə Avrasiyanın kiçik bölgəsində (Cənubi Qafqaz) "böyük" təhdidlərlə yaşamalı olan Azərbaycan millətinin öz millətçiliyini formalaşdırmaq zərurəti ortaya çıxır. Müsqətilliyin bərpası dövləti geri qazandırmaqla bərabər "işğal" təcrübəsindən ötrü millətin xəyal edilməsini ləngitmişdir. Daha doğrusu işğal reallığı konteksində Azərbaycna xalqı Azərbaycançılıq ideologiyası ilə Azərbaycan fikri ətrafında birləşdirilmişdir. Azərbaycanda milli kimlik inşası və ya millətin

---

[130] R. G. Collingwood, *Tarih Tasarımı*, tər. K. Dinçer, Doğu Batı. 2019, s. 91-96.

[131] Edmund Husserl, "Başlangıç", *Cogito*, № 10, 1997, s. 131-135.

[132] Rene Descartes, *Felsefenin İlkeleri*, tər. M. Akın, Say Yayınları, 2020, s. 65-115.

[133] Yalın Alpay, "Fuat Köprülü'nün Muhafazakâr Ulusal Tarih Tezi Kurgusu", *Muhafazakar Düşünce Dergisi*, s. 10(38), 2013, s. 83-116.

[134] Orkhan Valiyev, "Milletini ve Devletini Arayan Bir Etnik Grup: 1850-1920". *Uluslararası Politik Araştırmalar Dergisi*. 6(1). 2020b, s. 1-15.

[135] Orkhan Valiyev, *Azerbaycan Milliyetçiliği*. (ikinci nəşr). Nobel Akademik Yayıncılık, 2023.

xəyal edilməsi əsasən Sovet dövründə başlamışdır. Müstəqilliyin bərpasından sonra, dövlətin inşasından əvvəl millət və milli kimlik "türklük" konteksində inşa edilməyə çalışıldı. Lakin, türklük müstəqilliyin bərpasında (türklərin titul/dominant etnik qrup olmasına görə) aparıcı bir cərəyan olmaqla bərabər dövlətin və milli kimliyin inşasında birbaşa aparıcı ideologiya ola bilmədi. Yəni türklük birbaşa milli kimliyin sifəti ola bilmədi. Müqayisə üçün deyək ki, Atatürk də yaratdığı Respublika üçün milləti xəyal edərkən milli mübarizəyə əsas təşkil edən pantürkizmdən imtina etmiş və Türkiyə ilə məhdudlaşan bir türk milli kimliyindən çıxış etmişdir. Eyni şəkildə Azərbaycanda dövlətin və millətin/kimliyin inşası da milli hərəkata əsas təşkil edən ideologiyanın məhdudlaşdırılması və rasionallaşdırılması çərçivəsində ola bilər. Dövlətin və dövlətçiliyin (statehood) inşası üçün "Azərbaycançılıq" fikri/ideologiyası müəyyən edildi. Bununla belə, suverenliyin hüquqi mənbəyi olan millətin, milli kimliyin inşası tamamlana bilmədi.

Millətçilik və ya millətlərin formalaşmasında zəfər hekayəsinin (İngilis: Kralın kilisə üzərində; Fransız: yeninin köhnə [ancient regime] üzərində; Türkiyə: düşmən üzərində qələbəsi) rolu nəzərə alındıqda Azərbaycanın hekayəsinin tamamlanmadan (1918; 1991) yarımçıq qaldığı ifadə edilə bilər. Qarabağda əldə edilən zəfər bu mənada Azərbaycan xalqına tam təşəkküllü suveren bir millət olmaq yolunda tarixi imkan yaratmışdır. 1828-ci ildə Qarabağ Xanlığının bir parçası olaraq işğal edilən Şuşada ilk dəfə Azərbaycan dövləti suverenliyini təmin etmişdir. Bu Azərbaycana modern dövlətin əsas xüsusiyyətlərindən olan məkana (ölkə) olan hakimiyyətini (suverenliyini) bərpa etmək imkanı vermişdir. 2020-ci ildə əldə edilən hərbi-siyasi zəfər bu mənada millətin xəyal edilməsi üçün imkan/fürsət yaratmışdır.

İnşa prosesi Ernest Renanın ifadə etdiyi üzrə müəyyən bir iradə göstərməyi tələb edir. İradə isə keçmişi unutmağı və indiki zaman kontekstində gələcək inşa etməyi nəzərdə tutur.136 Müqayisə üçün Vətən müharibəsində düşmən olaraq məğlub edilən erməni tərəfi ilə post müharibə dövründə diplomatik danışıqlar aparılmağa başlanmışdır. Yaşadığımız çağda insanın siyasi icmaya olan bağlılıq və aidiyyatını formalaşdıran aparıcı ideologiya olması etibarilə millətçilikdən də imtina etməmək lazımdır. Multikulturalizm belə son təhlildə milliləşdirilmiş-

[136] Ernest Renan, *Ulus Nedir?*, tər. G. Yavaş, Pinhan Yayınları, 2016.

dir.137 Azərbaycan kontekstində aparılan multikultural siyasətin də Azərbaycançılığa (dövlətçiliyə) xidməti nəzərdə tutulmuşdur.138 Yəni dövlətin müdaxil olmasını istisna etmir.

Son olaraq 19-cu əsrin sonlarında Kəşkül qəzetinin sütunlarında kimliklə bağlı ortaya çıxan Sokratik dialoqu aşağıdakı kimi revizasiya etmək mümkündür:

- Mən kiməm?
- Etnik mənsubiyyət: türk (sizdə fərqli ola bilər)
- Din: müsəlman (sizdə fərqli ola bilər)
- Reqion: Qafqaz
- Dil: ana dil türk (sizdə fərqli ola bilər); rəsmi/milli (dövlət) dil Azərbaycan
- Vətəndaşlıq: Azərbaycan
- Milli kimlik: Azərbaycan
- Yekun: Mən Azərbaycanlıyam

---

[137] Bu müzakirə üçün ətrafı baxın: T. Modood, "A Multicultural Nationalism?", *Brown Journal of World Affairs*, 25(2), 2019, 233-46; Clayton Chin, "Multiculturalism and nationalism: Models of belonging to diverse political community", *Nations and Nationalism*, 27(1). 2020, 112-129.

[138] Bakı Multikulturalizm Mərkəzinin Nizamnaməsi, maddə, 2.1. http://multikulturalizm.gov.az/az/post/755/baki-beynelxalq-multikulturalizm-merkezinin-nizamnamesi.html

# İstifadə Olunan Ədəbiyyat

### *Kitablar:*


Abramson, J. (2012). Minevra'nın Baykuşu. (İ. Yıldız, Tərc.) Ankara, Dipnot Yayınları.

Agamben, G. (2013). Kutsal İnsan. (İ. Türkmen, Tərc.) İstanbul: Ayrıntı Yayınları.

Ağaoğlu, A. (2013). Üç Medeniyet. İstanbul: Doğu Kitabevi.

Ağaoğulları, M. A. (2010). Ulus - Devlet. Ankara: İmge Kitabevi.

Axundzadə, M. F. (2005a). Əsərləri I. (N. Məmmədov, Haz.) Bakı: Şərq Qərb.

Axundzadə, M. F. (2005b). Əsərləri II. (A. Mirəhmədov, Haz.) Bakı: Şərq Qərb.

Axundzadə, M. F. (2005c). Əsərləri III. (H. Məmmədzadə, Haz.) Bakı: Şərq Qərb.

Axundzadə, M. F. (2014). Seçilmiş Əsərləri. Bakı: Kitab Klubu.

Akçura, Y. (2007). Türkçülük. (B. Bozkurt, Haz.) İstanbul: İlgi Kültür Sanat.

Akpınar, Yavuz; Türkyılmaz, Selçuk; Özkaya, Yılmaz; (2017). Mehmet Emin Resulzade. Ankara: Türk Tarih Kurumu.

Aksakal, H. (2015). Türk Politik Kültüründe Romantizm. İstanbul: İletişim.

Aktürk, Ş. (2013). Türkiye'nin Kimlikleri. İstanbul: Etkileşim.

Anderson, B. (2017). Hayali Cemaatler. (İ. Savaşır, Tərc.). İstanbul: Metis.

Arai, M. (2003). Jön Türk Dönemi Türk Milliyetçiliği. (T. Demirel, Tərc.) İstanbul: İletişim Yayınları.

Arendt, H. (1998). Azınlıkların Ulusu ve Devletsiz Halklar. J. Leca içinde, Uluslar ve Milliyetçilikler (s. 127-129). İstanbul: Metis.

Arendt, H. (2011). İnsanlık Durumu. (B. S. Şener, Tərc.) İstanbul: İletişim Yayınları.

Arendt, H. (2014). Formasyon, Sürgün, Totalitarizm. (İ. Yıldız, Tərc.) Ankara: Dipnot.

Aristoteles. (1996). Politika. (M. Tuncay, Tərc.) İstanbul: Remzi Kitabevi

Arslan, H. (2015). Epistemik Cemaat. İstanbul: Paradigma Yayınları.

Atabaki, T. (2010). Başkasını Redderek Kendini Yenilemek: Pan-Türkçülük ve İran Milliyetçiliği. W. v. Schendel, & J. E. Zürher içinde, Orta Asya ve İslam Dünyasında Kimlik Politikaları (s. 89-113). İstanbul: İletişim Yayınları.

Balayev, A. (2014). 20. Yüzyılın Başlarında Azerbaycan Türklerinde Ulusal Kimlik ve İdeolojinin Oluşumu. A. S. Özkan, ve V. İmanbeyli içinde, Azerbaycan'da Din ve Kimlik (s. 73-97). İstanbul: Kürü Yayınları.

Balibar, E. (2013). Ulus Biçimi: Tarih ve İdeoloji. E. Balibar, & İ. Wallerstein içinde, Irk Ulus Sınıf (N. Ökten, Tərc., s. 107-131). İstanbul: Metis.

Bayat, A. H. (1998). Hüseyinzade Ali Bey. Ankara: Atatürk Kültür Merkezi Başkanlığı.

Baykara, H. (1966). Azerbaycan'da Yenileşme Hareketleri. Ankara: Türk Kültürü Araştırma Enstitüsü.

Baykara, H. (1975). Azerbaycan İstiklak Mücadelesi Tarihi. İstanbul: Azerbaycan Halk Yayın.

Bayramlı, O. (2006). Türk Dilinin Vəzifeyi Mədəniyəsi. (B. Nəbiyev, & T. Kərimli, Haz) Bakı: Çaşıoğlu. Belge, M. (1993). Türkiye Dünyanın Neresinde. İstanbul: Birikim Yayınları.

Beiser, F. C. (1987). The Fate of Reason. Harvard University Press: Cambridge, Massachusetts, and London, England.

Beiser, C. F. (2018). Aydınlanma, Devrim ve Romantizm. (A. Önal, Tərc.) İstanbul: Ayrıntı.

Bennigsen, Alexandre; Lemercier-Quelquejay, C;. (1981). Step'te Ezan Sesleri. (N. Uzel, Tərc.) İstanbul: Kent Basımevi.

Berlin, I. (2004). Romantikliğin Kökleri. (H. Hardy, Haz., & M. Tunay, Tərc.) İstanbul: Yapı Kredi Yayınları.

Berman, M. (2013). Katı Olan Her Şey Buharlaşıyor. (B. Peker, & Ü. Altuğ, Tərc.) İstanbul: İletişim Yayınları.

Bölükbaşı, S. (2010). Azerbaycan'da Ulusun İnşası: Sovyet Mirası ve Karabağ Sorunu'nun Etkileri. W. Schendel, & J. E. Zürcher içinde, Orta Asya ve İslam Dünyasında Kimlik Politikaları (s. 49-89). İstanbul: İletişim Yayınları.

Brancourt, J.-P. (2013). Estat'ardan devlete. Bir sözcüğün evrimi. C. B. Akal içinde, Devlet Kuramı (B. Haleva, & P. Güzelyürek, Tərc., s. 177-190). Ankara: Dost.

Braud, P. (2013). Devlet: Hukuki Öğretinin İkilemleri. C. B. Akal içinde, Devlet Kuramı (s. 359-379). Ankara: Dost.

Breuily, J. (1993). Nationalism and the State. Manchester: Manchester University Press.

Bumin, T. (2016). Tartışılan Modernlik: Descartes ve Spinoza. İstanbul: Yapı Kredi Yayınları.

Çağla, C. (2002). Azerbaycan'da Milliyetçilik ve Politika. Ankara: Bağlam Yayıncılık.

Calhoun, C. (2009). Milliyetçilik. (B. Sütçüoğlu, Tərc.) İstanbul: Bilgi Üniversitesi Yayınları.
Cassirer, E. (2005). Devlet Efsanesi. (N. Arat, Tərc.) İstanbul: Say Yayınları.
Cəfərov, M. (1963). Azərbaycan Ədəbiyyatında Romantizm. Bakı: Azərbaycan SSRİ Elmlər Akademiyası Nəşrləri.
Cevizci, A. (2001). Onyedinci Yüzyıl Felsefesi Tarihi. Bursa: ASA.
Cevizci, A. (2002). Aydınlanma Felsefesi. Bursa: Ezgi Kitabevi.
Chatterjee, P. (1996). Milliyetçi Düşünce ce Sömürge Dünyası. (S. Oğuz, Tərc.) İstanbul: İletişim Yayınları.
Connor, W. (1984). The National Question in Marxist-Leninist Theory. Princeton, New Jersey: Princeton University Press.
Cornell, S. (2011). Azerbaijan Since Independence. London: M.E Sharpe.
Çiğdem, A. (2012). Bir İmkan Olarak Modernite. İstanbul: İletişim Yayınları.
Dellaloğlu, B. F. (2010). Romantik Muamma. İstanbul: Ayrıntı Yayınları.
Descartes, R. (1998). Felsefenin İlkeleri. (M. Akın, Tərc.) İstanbul: Say Yayınları.
Devlet, N. (1998). Rusya Türklerinin Milli Mücadele Tarihi (1905-1917). Ankara: Türk Tarih Kurumu.
D'Holbach, B. (2010c). Doğa Sistemi. A. Alatlı (Haz.) içinde, Batı'ya Yön Veren Metinler (s. 1013-1020). Kapadokya: Kadokya MYO.
Diderot, D. (2010c). İlk Mukaddime. A. Alatlı (Haz.) içinde, Batı'ya Yön Veren Metinler (s. 986-991). Nevşehir: Kapadokya MYO.
Duguit, L. (2013). Egemenlik ve Özgürlük. C. B. Akal içinde, Devlet Kuramı (s. 379-3403). Ankara: Dost.
Dumont, L. (2013). Bireycilik üzerine denemeler: Doğuş, XIII. Yüzyıldan başlayarak siyaset kategorisi ve devlet. C. B. Akal (Haz.) içinde, Devlet Kuramı (H. Tufan, Tərc., s. 141-177). Ankara: Dost.
Dupre, L. (2004). The Enlightenment and the Intellectual Foundations of Modern Culture. New Haven and London: Yale University Press.
Dupre, L. (1993). Passage to Modernity. New Haven and London: Yale University Press.
Eco, U. (2009). Avrupa Kültüründe Kusursuz Dil Arayışı. (K. Atakay, Tərc.) İstanbul: Literatür.
Erözden, O. (1997). Ulus-Devlet. Ankara: Dost Kitabevi.
Fichte, J. G. (2006). Alman Ulusuna Söylev. E. A. Kılıçaslan, & G. Ateşoğlu (Haz.) içinde, Fichte (K. H. Ökten, Tərc., s. 321-330). Ankara: Doğu Batı.
Figes, O. (2009). Nataşa'nın Dansı. (F. Dereli, Tərc.) İstanbul: İnkilap.
Foucault, M. (2015). Kelimeler ve Şeyler. (M. A. Kılıçbay, Tərc.) İs-tanbul: İmge kitabevi.

Gellner, E. (1969). Thought and Change. London: Weidenfld and Nicolson.
Gellner, E. (1983). Nations and Nationalism. Oxford: Blackwell Publishers.
Gellner, E. (1998). Milliyetçiliğe Bakmak. (S. Coşar, S. Öztürk, ve N. Soyarık, Tərc.) İstanbul: İletişim Yayınları.
Gellner, E. (2013). Dil ve Yalnızlık. (G. A. Oğuz, Tərc.) İstanbul: Kabalcı Yayınevi.
Genceli, M. (2011). Azerbaycanlı Şair Mehemmed Hadi. İstanbul: Ötüken.
Giddens, A. (2008). Ulus Devlet ve Şiddet. (C. Atay, Tərc.) İstanbul: Kalkedon Yayınları.
Gökalp, Z. (1976). Türkleşmek, İslamlaşmak, Muasırlaşmak. (İ. Kutluk, Haz.) Ankara: Devlet Kitaplığı.
Gökalp, Z. (1986). Türkçülüğün Esasları. (M. Kaplan, Haz.) Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları.
Gökalp, Z. (1996). Türkleşmek, İslamlaşmak, Muasırlaşmak. İstanbul: Kamer Yayınları.
Gökberk, M. (2010). Felsefe Tarihi. İstanbul: Remzi Kitabevi.
Greenfeld, L. (2001). The Spirit of Capitalism. Cambridge: Harvard University Press.
Greenfeld, L. (2006). Nationalism and the Mind: Essays on Modern Culture. Oxford: One World.
Greenfeld, L. (2017). Milliyetçilik. (A. Yılmaz, Tərc.) İstanbul: Alfa.
Greenfeld, L. (2019). Nationalism. Washington: Brooking Institution Press.
Habermas, J. (2014). Kamusallığın Yapısal Dönüşümü. (T. Bora, & M. Sancar, Tərc.) İstanbul: İletişim Yayınları.
Hadi, M. (2005). Seçilmiş Əsərləri. (A. Hüseynov, A. Mirəhmədov, ve A. Hüseyni, Haz) Bakı: Şərq Qərb.
Halilov, S. (2008). Doğu'dan Batı'ya Felsefe Köprüsü. (A. Üregen, ve E. Süleymanov, Tərc.) İstanbul: Ötüken.
Heyd, U. (2002). Türk Ulusçuluğunun Temelleri. (K. Günay, Tərc.) Ankara: Hilmi Usta Matbaacılığı.
Heywood, A. (2014). Siyasi İdeolojiler. (A. K. Bayram, T. Tüfekçi, H. İnanç, Ş. Akın, & B. Kalkan, Tərc.) İstanbul: Liberte.
Hobsbawm, E. (2010). Milletler ve Milliyetçilik. (Tərc.). İstanbul: Ayrıntı Yayınları.
Höffe, O. (2008). Felsefenin Kısa Tarihi. (N. O. Aytolu, Tərc.) İstanbul: İnkilap.
Hroch, Miroslav (2011). Avrupa'da Milli Uyanış. Tərc. A. Özdemir. İstanbul: İletişim Yayınları.
Hüseynzadə, B. Ə. (2007). Seçilmiş Əsərləri. (O. Bayramlı, & A. Turan, Haz) Bakı: Şərq Qərb.

Hüseynov, H. (2007). Azərbaycanda XIX. Əsr İctimai ve Fəlsəfi Fikir Tarixindən. Bakı: Şərq Qərb.
Israel, J. I. (2001). Radical Enlightenment. Oxford: Oxford University Press.
Kant, İ. (2015). İmmanuel Kant. (N. Bozkurt, Haz., & N. Bozkurt, Tərc.) İstanbul: Sentez.
Karpat, K. (2009). İslam›ın Siyasallaşması. (Ş. Yalçın, Tərc.) İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları.
Karpat, K. H. (2011). Kimlik ve İdeoloji. (Güneş Ayas, Haz., & G. Ayas, Tərc.) İstanbul: Timaş.
Kedourie, E. (1971). Avrupa'da Milliyetçilik. (M. H. Timurtaş, Tərc.) Ankara: Milli Eğitim Basımevi.
Kemal, N. (1988). Vatan Yahut Silistre. (K. Akyüz, Haz.) Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları.
Koyre, A. (1994). 19. Yüzyıl Başlarında Rusya'da Batıcılık, Ulusçuluk ve Felsefe. (Tərc.). İstanbul: Belge Yayınları.
Köçərli, F. B. (2005). Azərbaycan Ədəbiyyat Tarixi I ve II. Bakı: Avrasya Pres.
Lenin, V. İ. (2004). Ulusların Kendi Kaderini Tayin Hakkı. İstanbul: Eriş Yayınları.
Locke, J. (2016). Hükumet Üzerine Birinci İnceleme. (F. Bakırcı, Tərc.) Ankara: İmaj Yayınevi.
MacIntyre, A. (2001). Ethik'in Kısa Tarihi. (H. Hünler, & S. Z. Hünler, Tərc.) İstanbul: Paradigma.
Maksudyan, N. (2007). Türklüğü Ölçmek. İstanbul: Metis.
Mardin, Ş. (2013). Türkiye, İslam ve Sekülerizm. (E. Gen, & M. Bozluolcay, Tərc.) İstanbul: İletişim Yayınları.
Maynor, W. J. (2003). Republicanism In The Modern World. Cambridge: Blackwell Publishing.
Mehmetov, İ. (2009). Türk Kafkası'nda Siyasi ve Etnik Yapı. (E. N. Necef, ve Ş. Necefov, Tərc.) İstanbul: Ötüken.
Mehdiyev, N. (2019). Bir Bilme Teorisi. İstanbul: Dergah Yayınları.
Məmmədquluzadə, C. (2004d). Əsərləri. Bakı: Öndər Nəşriyyatı.
Mehmetzade, M. B. (1991). Milli Azerbaycan Hareketi. (A. Karaca, Haz.) Ankara: Azerbaycan Kültür Derneği Yayınları.
Mehmetzade, M. B. (2002). Azerbaycan Misak-ı Millisi. (A. Aleskerli, ve E. Mahmudov, Haz) Ankara: Azerbaycan Kültür Derneği Yayınları.
Nesibli, N. L. (2019). Azerbaycan Tarihi. Ankara: Altınordu Yayınları.
Nietzsche, F. (2015). İyinin ve Kötünün Ötesinde. (A. İnam, Tərc.) İstanbul: Say Yayınları.
Öğün, S. S. (2000). Türk Politik Kültürü. İstanbul: Alfa.

Öğün, S. S. (1992). Cemaatçi Milliyetçilik ve Nurettin Topçu. İstanbul: Dergah Yayınları.
Ökten, K. H. (2006). Siyasal Tarih İle Felsefenin Kesişim Noktası: Fichte’nin Alman Ulusuna Söylevler’i. E. A. Kılıçaslan, & G. Ateşoğlu (Haz) içinde, Alman İdealizmi I (s. 400-428). Ankara: Doğu Batı.
Osmanlı, V. (2010). Azərbaycan Romantizmi Cilt. 1. Bakı: Elm Nəşriyyatı.
Özkırımlı, U. (2008). Milliyetçilik Kuramları. İstanbul: Doğu Batı.
Özkırımlı, U. (2010). Milliyetçilik Üzerine Güncel Tartışmalar. (Y. Başkavak, Tərc.) İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları.
Özlem, D. (2001). Tarih Felsefesi. İstanbul: İnkilap.
Özlem, D. (2016). Tarih Felsefesi. İstanbul: Notus Kitap Yayınevi.
Pierson, C. (2014). Mondern Devlet. (N. Burcu Erdoğan, Tərc. N. Kutluğ ve B. Erdoğan.) İstanbul: Chiviyazıları Yayınevi.
Poggi, G. (2002). Modern Devletin Gelişimi. (Ş. Kut, & B. Toprak, Tərc.) İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları.
Pilbeam, P. M. (1995). Republicanism in Nineteenth-Century France, 1814-1871. London: Macmillan.
Poole, R. (1993). Ahlak ve Modernlik. (M. Küçük, Tərc.) İstanbul: Ayrıntı Yayınları.
Pipes, R. (1964). The Formation of the Soviet Union. Cambridge, Massachusetts: Harvar University Press.
Renan, E. (2016). Ulus Nedir? (G. Yavaş, Tərc.). İstnanbul: Pinhan Yayın.
Resulzade, M. Ə. (1978). Milli Tesanüd. Ankara: Kardeş Matbaası.
Resulzade, M. E. (1990). Azerbaycan Cumhuriyeti. (Y. Akpınar, İ. M. Yıldırım, & S. Çağın, Haz) İstanbul: Azerbaycan Türkleri Kültür ve Dayanışma Derneği Yayınları.
Rəsulzadə, Ə. M. (1991). Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan Ədəbiyyatı, Çağdaş Azərbaycan Tarixi. (A. Acalov, Tərc.) Bakı: Gənclik.
Resulzade, M. E. (1993). Kafkasya Türkleri. İstanbul: Türk Dünyası Araştırmalar Vakfı.
Rəsulzadə, M. Ə. (1998). Azərbaycan Davası. (N. Yaqublu, Ed., ve N. Yaqublu, Tərc.) Bakı: Ay Ulduz.
Rəsulzadə, M. Ə. (2012a). Əsərləri III. Bakı: Təhsil.
Rəsulzadə, M. Ə. (2012b). Panturanizm. (Y. Türkəl, Tərc.) Bakı: Təknur.
Rəsulzadə, M. Ə. (2014a). Əsərləri I. (Ş. Hüseynov., Haz.). Bakı: Təhsil.
Rəsulzadə, M. Ə. (2014b). Əsərləri II. (Ş. Hüseynov., Haz.). Bakı: Təhsil.
Rəsulzadə, M. Ə. (2014c). Əsərləri IV. (Ş. Hüseynov., Haz.). Bakı: Təhsil.
Rəsulzadə, M. Ə. (2014d). Əsərləri V. (Ş. Hüseynov., Haz.). Bakı: Təhsil.

Russ, J. (2016). 18. Yüzyılda Fransız Düşüncesi. A. Baudart, B. Bourgeois, F. dagognet, F. Farago, S. Goyard-Fabre, J. D'hondt, vb., J. Russ (Haz.) içinde, Aklın Zaferi (İ. Yerguz, Tərc., s. 15-63). İstanbul: İletişim.
Rüstemov, R. (2014). 1918'lere Doğru Azerbaycan'da Milli Kimlik Oluşumu Sürecinin Üç Bileşeni. S. A. Özcan, & V. İmambeyli içinde, Azerbaycan'da Din ve Kimlik (s. 31-53). İstanbul: Küre Yayınları.
Safranski, R. (2013). Romantik. (A. Nalbant, Tərc.) İstanbul: Kabalcı Yayıcılık.
Schmitt, C. (2013). Somut ve çağa bağlı bir kavram olarak devlet. C. B. Akal içinde, Devlet Kuramı (s. 245-257). Ankara: Dost.
Seton-Watson, H. (1977). Nations and States. London: Methuen & Co. Ltd.
Seyidzadə, D. (1998). Azərbaycan XX əsrin əvvələrində: müstəqilliyə aparan yollar. Bakı: Azərbaycan Respublikası Kitab Cəmiyyəti.
Shayegan, D. (1993). Yaralı Bilinç. (H. Bayrı, Tərc.) İstanbul: Metis.
Shissler, A. H. (2005). İki İmparatorluk Arasında. (T. U. Belge, Tərc.) İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları.
Sieyès, E.-J. (2005). Üçüncü Sınıf Nedir? (İ. Birkan, Tərc.) Ankara: İmge Kitabevi.
Smith, A. D. (1994). Milli Kimlik. (B. S. Şener, Tərc.) İstanbul: İletişim Yayınları.
Smith, A. D. (1999). Myth and Memories of the Nation. Oxford: Oxford University Press.
Smith, A. D. (2010). Nationalism. Cambridge: Polity Press.
Strauss, L. (2000). Politik Felsefe Nedir? (S. Z. Hünler, Tərc.) İstanbul: Paradigma.
Süleymanlı, E. (2006). Milletleşme Sürecinde Azerbaycan Türkleri. İstanbul: Ötüken.
Swietochowski, T. (1988). Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı 1905-1920. (N. Mert, Tərc.) İstanbul: Bağlam Yayınları.
Swietochowski, T. (1996). National Consciousness and Political Orientations. G. R. Suny içinde, Transcaucasia, Nationalism, and Social Change (s. 211-241). Ann Arbor: The University of Michigan Press.
Tamir, Y. (1993). Liberal Nationalism. Princeton: Princeton University Press.
Tamir, Y. (2019). Why Nationalism. Princeton: Princeton University Press.
Taylor, C. (1999). Nationalism and Modernity. In R. Beiner, Theorizing Nationalism (pp. 219-247). New York: State University of New York Press.
Taylor, C. (2006). Modern Toplumsal Tahayyüller. (H. Koyukan, Tərc.) İstanbul: Metis.

Taylor, C. (2012). Benliğin Kaynakları. (B. B. Selma Aygül Baş, Tərc.) İstanbul: Küre Yayınları.
Taylor, C. (2014a). Çokkültürcülük. (A. Gutmann, Ed., ve Y. Salman, Tərc.) İstanbul: Yapı Kredi Yayınları.
Taylor, C. (2014b). Seküler Çağ. (D. Körpe, Tərc.). İstanbul: Türkiye İş Bankası Kültür Yayınları.
Trusted, J. (1995). Fizik ve Metafizik. (S. Yılmaz, Tərc.) İstanbul: İnsan yayınları.
Turnaoğlu, B. (2017). The Formation of Turkish Republicanism. Princeton: Princeton University Press.
Ülken, H. Z. (1998). İnsani Vatanseverlik. İstanbul: Ülken Yayınları.
Ülken, H. Z. (2013). Türkiye'de Çağdaş Düşünce Tarihi. İstanbul: İş Bankası Kültür Yayınları.
Ülken, H. Z. (2016a). Millet ve Tarih Şuuru. (L. E. Sakar, Haz.) İstanbul: Türkiye İş Bankası Kültür Yayınları.
Ülken, H. Z. (2016b). Uyanış Devrinde Tercümenin Rolü. (R. Kızıler, Haz.) İstanbul: Türkiye İş Bankası Kültür Yayınları.
Üstel, F. (2008). Makbul Vatandaş'ın Peşinde. İstanbul: İletişim Yayınları.
Voltaire. (2002). Candide. (N. S. Örik, Tərc.) İstanbul: Sosyal Yayınlar.
Voltaire. (2011). Felsefe Sözlüğü. (L. Ay, Tərc.) İstanbul: İnkilap Yayınları.
West, D. (1998). Kıta Avrupası Felsefesine Giriş. (A. Cevizci, Tərc.) İstanbul: Paradigma.
Yıldız, A. (2001). "Ne Mutlu Türküm Diyebilene". İstanbul: İletişim Yayınları.
Yılmaz, L. (2010). Modern Zamanların Tarihi. (M. E. Özcan, Tərc.) İstanbul: Metis.
Yüksel, İ. (1988). Azerbaycan'da Fikir Hayatı ve Basın. İstanbul: Acar Yayınları.
Zenkovsky, S. A. (1983). Rusya`da Pan-Türkizm ve Müslümanlık. (İ. Kandemir, Tərc.) İstanbul: Üçdal Neşriyat.

### *Dövri nəşrlər:*

Adeeb, K. (2006). What Jadidism Was, and What it Wasn't: The Historiographical Adventures of a Term. Central Eurasian Studies Review, 5(2), 3-7.
Timuçin, A. (2007). Aydınlanma Düşüncesi. Toplum Bilim. Sayı 11. s. 51-57.
Aktürk, Ş. (2006). Etnik Kategori ve Milliyetçilik. Doğu Batı, 9(38), s. 23-57.
Aktürk, Ş. (2007). Incompatible Visions of Supra-Nationalism: National Identity in Turkey and the European Union. European Journal of Sociology, 48(02), 348-372.

Altstadt, A. L. (1986). Azerbaijani Turks' Response to Russian Conquest. Studies in Comparative Communism, 19(3/4), 267-286.
Armaoğlu, F. (1963). Bolşevik İhtilali ve Self Determinasyon Prensibi. Siyasal Bilgiler Fakültesi Dergisi, XVII (2), 211-250.
Arslan, H. (2003). Aydınlanmış Devlet Himayesinde Bilim:1933 Türk Üniversite Devrimi ve Alman Sürgün Bilim Adamları. Türklük Araştırmaları Dergisi, 127-148.
Asker, A. (2015a). Azerbaycan'da Milli Kimlik İnşasında Sosyo-Ekonomik Etkenler ve Millet Olgusunun Fikri Temelleri (19. Yüzyılın Sonu - 20. Yüzyılın Başı). Yeni Türkiye, 53, 516-535.
Asker, A. (2015b). Azerbaycan'da ulus inşasının onay aşaması (1918-1920) ve önemi üzerine. Yeni Türkiye, 75, 536-546.
Aydoğan, H. (2015). Toplumsal Yapıların Oluşumuna Dair Etik Bir Anlatı: İkinci Doğa. Politik Araştırmalar Dergisi, 1(2), 25-32.
Balayev, A. (2015). Mamed Emin Rasulzadeh and the establishment of the Azerbaijani state and nation in the early twentieth Century. Caucasus Survey, 3(2), 136-149.
Bezci, B. (2005). Kant ve Hegel'in Felsefesinde Etik Anlayışı. Sosyal ve Ekonomik Araştırmalar, 5, 49-61.
Foucault, M. (2007). Aydınlanma Nedir? Tərc. Eda Özgül ve Özlem Oğuzhan. Toplum Bilim, Sayı 11. 69-77.
Greenfeld, L. (2005). Nationalism and the mind. Nations and Nationalism, 325- 341.
Greenfeld, L. (2011). The Globalization of Nationalism and the Future of the Nation-State. International Journal of Politics, Culture, and Society, 24(1-2).
Haşlak, İ. (2000). Milliyetçilik ve Modernleşme: XIX. yüzyıl Osmanlı İmparatorluğu Örneği. Bilgi, 3(2), 49-61.
Hroch, M. (1995). National Self-Determination from a Historical Perspective. Canadian Slavonic Papers, 37(3/4), 283-299.
Hroch, M. (1996). From National Movement to the Fully-formed Nation: The Nation-building Process in Europe. G. Balakrishnan içinde, Mapping the Nation (s. 78-98). London: Verso.
Hroch, M. (2004). From Ethnic Group toward the modern nation: the Czech case. Nations and Nationalism, 10 (1/2), 95-107.
Hroch, M. (2013). Writing National History for Small Nations. Studies on National Movements, 1, 7-16.
Hroch, M. (2020). The nation as the cradle of nationalism and patriotism. Nations and Nationalism, 26 (1), 5-21.

Kadıoğlu, A. (1993). Devletini Arayan Millet: Almanya Örneği. Toplum ve Bilim, 95-112.
Kaufmann, E. (2016). Compexity and nationalism. Nations and Nationalism, 1-20
Kia, M. (1995). Mirza Fath Ali Akhundzade and the Call for Modernization of the Islamic Worl. Middle Eastern Studies, 31(3), 422-448.
Kohn, H. (1950, october 4). Romanticism and the Rise of German Nationalism. The Review of Politics, 12(4), 443-472.
Lazzerini, E. T. (1975). Gadidism at the Turn of the Twentieth Century: A View from Within. Cahiers du Monde russe et soviétique, 16(2), 245-277.
Maxwell, A. (2010, November). Twenty-five years of A-B-C: Miroslav Hroch's impact on nationalism studies. Nationalities Papers, 38(6), 773-776.
Mehdiyev, N, (2016). Bilme Kipleri Olarak Tarih ve Felsefe. Fəlsəfə və Sosial Elmlər, 1(38). 72-85.
Nesibli, N. (2001). Azerbaycan'ın Milli Kimlik Sorunu. Avrasya Dosyası, 132- 160.
Özdoğan, G. G. (1993). Türk ulusçuluğu ve Türki Cumhuriyetler: Kuramsal ve tarihsel bir yaklaşım. Toplum ve Bilim, 62, 57-78.
Üskül Engin, Z. (2014). Birey Kavramının Gelişimi ve İnsan Hakları. İÜHFM, LXXI (1), 201-218.
Poole, R. (2008). Memory, history and the claims of the past. Memory Studies, 149-167.
Rüstemli, N. (2016). M. F. Ahundzade'nin Arap Alfabesinin Islahıyla İlgili Yeni Alfabe Layıhası. Dinbilimleri Akademik Araştırma Dergisi, 16(3), 161-187.
Sümer, B. A. (2012). Erken Alman Romantiklerinin Aydınlanmaya'ya İlişkin Tutumları Üzerine. Dil ve Tarih - Coğrafya Fakültesi Dergisi, Cilt 52 (1), 133- 145.
Timuçin, A. (2007). Aydınlanma Düşüncesi. Toplum Bilim, Sayı 11. 51-57.
Todorova, M. (2005). The Trap of Backwardness: Modernity, Temporality, and the Study of Eastern European Nationalism. Slavic Review, 64(1), 140-164.
Valiyev, O. (2020). Milletini ve Devletini Arayan Bir Etnik Grup: Azerbaycan Örneği (1850-1920). Uluslararası Politik Araştırmalar Dergisi, 6(1), 1-15.

Kitab Xəzər Universiteti Nəşriyyatında nəşr edilmişdir.